# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ON ÜÇÜNCÜ KİTAB

## SENTYABR 2005 - OKTYABR 2005

AZƏRNƏŞR
BAKI - 2013

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI – 2013

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2013, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin oxuculara təqdim olunan çoxcildliyinin bu cildində sürətlə inkişaf edən ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının bir çox sahələrinə, eyni zamanda, Kürdəmir, Sabirabad, Qazax rayonlarına, Gəncə şəhərinə səfərləri zamanı sakinlərlə görüşlərinə dair materiallar, zona müşavirələrindəki çıxış və nitqləri, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Bolqarıstana rəsmi səfərinin sənədləri, bu ölkənin dövlət və hökumət başçıları, siyasi xadimləri ilə danışıqları, nüfuzlu informasiya agentliyinə və televiziya kanallarına verdiyi müsahibələri, həmçinin Bakıya gəlmiş Finlandiya, Latviya prezidentləri ilə görüşlərinə aid materiallar dərc olunmuşdur.

Bu cilddə, həmçinin İlham Əliyevin Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Gürcüstan hissəsinin başa çatması münasibətilə Qardabanidə keçirilən mərasimdə nitqi, Gürcüstan və Türkiyə prezidentləri ilə görüşlərinin materialları, Azərbaycan gənclərinin IV forumunun yekun toplantısında çıxışı, dünyanın görkəmli dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatlara, məşhur şəxsiyyətlərə məktubları da verilmişdir.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2013}}$ **ББК - 32**

© Azərnəşr, 2013

## «İSLAM ÜMMƏTİNİN HƏMRƏYLİYİ» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Azərbaycanın paytaxtı Bakı şəhərində İslamın aktual problemlərinə həsr olunmuş elmi konfransın bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır, sizə bu nəcib fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, dinlərarası və sivilizasiyalararası dialoqun aktuallaşdığı bir dövrdə keçirilən bu konfrans dünyada gedən mürəkkəb proseslərə öz layiqli töhfəsini verəcəkdir.

Azərbaycan xalqı tarixinin bütün mərhələlərində islam dininə sədaqətini nümayiş etdirərək islam sivilizasiyasının zənginləşdirilməsi üçün böyük səylər göstərmişdir. Əsrlər boyu regionda islamın forpostu olan ölkəmizdə formalaşan yüksək tolerantlıq mühiti dünya ictimaiyyəti tərəfindən olduqca yüksək qiymətləndirilir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin «İslam sivilizasiyası Qafqazda» adlı beynəlxalq simpoziumda etdiyi çıxış bu sahədə mövcud nailiyyətləri və gələcək perspektivləri əks etdirən qlobal bir proqram mahiyyəti daşıyan sənəddir. Ümidvaram ki, həmin proqramın mərhələ-mərhələ gerçəkləşdirilməsi müasir dövrdə bu sahədə qarşılaşdığımız problemlərin həllinə xidmət edəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 sentyabr 2005-ci il*

# «İSLAM ÜMMƏTİNİN HƏMRƏYLİYİ» MÖVZUSUNDA BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2005-ci il*

**İ l h a m   Ə l i y e v:** Əziz dostlar!

Hörmətli qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Bu günlərdə Bakıda beynəlxalq konfrans keçirilir. Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri bu konfransa gəlmişlər. Ümid edirəm ki, görüşlər çox səmərəli keçəcək və bizim aramızda olan dostluq, qardaşlıq hissləri daha da möhkəmlənəcəkdir.

Azərbaycanda dini və milli zəmində tolerantlıq hökm sürür, bütün xalqlar bir ailə kimi yaşayır. Əminəm ki, bu, ölkəmizin gələcəyi üçün çox önəmli amildir. «İslam ümmətinin həmrəyliyi» mövzusunda konfrans isə əminəm ki, yeni imkanlar açacaq, bizim aramızda olan əlaqələr təhlil olunacaq və gələcək perspektivlər müəyyən ediləcəkdir.

Bu gün Qafqazda sülh təkcə bizi, bu regionda yaşayanları deyil, bu regiondan uzaqlarda yaşayan insanları da narahat edən mövzudur. Təəssüflər olsun, belə kiçik coğrafi ərazidə bir çox onilliklər ərzində münaqişələr baş verir, günahsız insanların qanı tökülür və biz hamımız sülhün bərqərar ediləcəyi günü gözləyirik. Bu işdə region xalqlarının həmrəyliyindən, qarşılıqlı dəstəyindən, səmimi qardaşlıq hisslərindən, habelə ağsaqqalların, mənəvi liderlərin Qafqazda həmişə qiymətləndirilmiş müdrik sözündən çox şey asılıdır.

Ölkəmizdə buna böyük əhəmiyyət verilir, bugünkü Azərbaycanı dini dözümlülük, tolerantlıq mühiti səciyyələndirir. Ölkə-

mizdə müxtəlif dinlərə etiqad edən bir çox xalqların nümayəndələri yaşayırlar və biz bir ailə kimi yaşayırıq.

Əmin olduğumu bildirirəm ki, Azərbaycana münasibətdə ədalətsizlik – torpaqlarımızın erməni təcavüzkarları tərəfindən davam edən işğalında özünü göstərən ədalətsizlik aradan qaldırılacaq, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunacaq, sülh yaranacaqdır.

Qafqazın dini liderlərinin səfərini və indiki konfransı Azərbaycanın ictimai həyatında mühüm hadisələr kimi qiymətləndirirəm. Bu hadisələrin birgə fəaliyyətimiz üçün də, regionda vəziyyət üçün də, sülhün və təhlükəsizliyin bərqərar edilməsi üçün də çox böyük əhəmiyyəti olacaqdır.

Biz qarşılıqlı surətdə çox sıx bağlıyıq – Şimali və Cənubi Qafqazı heç bir sərhədlə, heç bir digər amillərlə ayırmaq mümkün deyildir, çünki əsrlər boyu region qarşılıqlı nüfuz, qarşılıqlı təsir və qarşılıqlı dəstək şəraitində yaşamışdır. Şimali Qafqazda vəziyyətin inkişafı bizim üçün çox vacibdir, eləcə də Azərbaycanda vəziyyət Şimali Qafqaz üçün mühümdür. Bu bizim birgə tariximizdir, biz onunla fəxr edirik, əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşamışıq.

**Hacı Allahşükür Paşazadə:** Cənab Prezident, vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bu görüş Sizin mənəviyyatımıza, dinə verdiyiniz böyük qiymətdir. Bütün Qafqazın dini liderləri burada iştirak edirlər. Əsas məqsədimiz azərbaycanlıların dünyada qarşıdurmanın əleyhinə olduğunu göstərməkdir. Həmrəylik bizə çox vacibdir, buna ehtiyac vardır. Konfransın Bakıda keçirilməsi barədə qərar biz İordaniyada olarkən, dünyanın tanınmış 180 aliminin iştirakı ilə qəbul olunmuşdur. Azərbaycanı ona görə seçdilər ki, Sizin rəhbərliyinizlə ölkəmizdə tolerantlıq, başqa dinlərə xoş münasibət hökm sürür. Ümummilli liderimiz Heydər Əliyevə Allah rəhmət eləsin, xalqımıza xas olan tolerantlığın daha da möhkəmlənməsi üçün çox iş görmüşdür. Bu indi də davam etdirilir.

Azərbaycan və İran prezidentlərinin konfrans iştirakçılarına göndərdikləri məktuba görə təşəkkür edirəm. Gələcəkdə də belə

tədbirlər, dialoqlar keçiriləcəkdir. Qafqaz Xalqları Ali Dini Şurasının Bakıda keçirdiyi konfransda Qafqazda baş verən hadisələrə münasibət bildirildi, Dağlıq Qarabağ məsələsinin həllinə kömək göstərilməsi, Şimali Qafqazda bəzi terrorçu qüvvələrə, vəhhabilərə qarşı birlikdə mübarizənin aparılması məsələləri müzakirə edildi.

Cənab Prezident, Azərbaycan Sizin rəhbərliyinizlə həm iqtisadi, həm də mənəvi cəhətdən inkişaf edir. Şərq ölkələri, Avropa dövlətləri ölkəmizlə əlaqələr qurmağa çox böyük maraq göstərirlər. Vatikan nümayəndəsinin – kardinalın, Moskvanın və bütün Rusiyanın patriarxının Azərbaycana səfərləri, bu gün isə bütün Qafqaz müftilərinin burada olması bir daha göstərir ki, ölkəmiz mənəvi cəhətdən inkişaf edir, bizə ehtiyacları vardır. Biz də Sizin köməyiniz və rəhbərliyinizlə bu ehtiyacları ödəyəcəyik.

Qafqaz Müsəlmanları İdarəsinin sədri kimi, mən məmnuniyyətlə bildirirəm ki, din xadimləri Azərbaycan prezidentinin apardığı siyasəti dəstəkləyirlər. Qarşıdakı parlament seçkilərinin demokratik keçəcəyinə və Azərbaycanın gələcəkdə böyük nailiyyətlər əldə edəcəyinə əmindirlər.

* * *

*Beynəlxalq İslam Missiyasının icraçı direktoru* ***Şafiq Pşixaçov*** *Qafqaz Xalqları Ali Dini Şurasının Azərbaycan prezidentinə müraciətini oxudu və dövlətimizin başçısına təqdim etdi.*

**Ayətullah Təsxiri** (*İranın «Məzhəblər Birliyi» Təşkilatının sədri*): Cənab Prezident, Sizinlə görüşməyimdən böyük şərəf duyduğumu bildirirəm. Konfransın yüksək səviyyədə keçirilməsinə yaradılan şəraitə görə İran prezidenti Mahmud Əhmədinejadın və İran xalqının adından Azərbaycan rəhbərinə minnətdarlıq edirəm.

Sünni və şiə məzhəblərinin bütün qollarını əhatə edən onlarca alimin adından tədbirin təşkilatçılarına təşəkkürümü bildirərək demək istəyirəm. Azərbaycan bu tədbirin keçirilməsi üçün ona görə seçilmişdir ki, ölkənin zəngin sivilizasiyası, tarixi, mə-

dəniyyəti vardır. Burada məzhəblərin yaxınlaşması üçün gözəl şərait mövcuddur.

İslam dünyasının üzləşdiyi problemlərin aradan qaldırılmasında, vahid yolla addımlamaq üçün həmrəyliyə olan ehtiyac prezident İlham Əliyevin konfrans iştirakçılarına göndərdiyi məktubda böyük əhəmiyyət daşıdığını vurğulayıram. Bildirim ki, sivilizasiyalararası və dinlərarası dialoq paralel şəkildə irəli aparılmalıdır.

Cənab Prezident, Sizin bizimlə ünsiyyətiniz, bizə qarşı münasibətiniz mərhum atanız Heydər Əliyevi xatırlatdı. Onun bizə xüsusi qayğısını «Qafqaz və islam sivilizasiyası» adlı konfransda görmüşdük, şahidi olmuşduq ki, o nə qədər geniş dünyagörüşünə sahibdir.

**İsmayıl Berdiyev** (*Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri*): Azərbaycanda dini dözümlülük sahəsində toplanmış təcrübə dini liderləri sevindirir və bu nümunə regionun bütün xalqlarının rifahı naminə Qafqazın digər rəhbərləri üçün faydalı olardı. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müdrik siyasətinə Qafqazda həmişə böyük hörmətlə yanaşmışlar. Cənab Prezident, biz Tanrıya dua edəcəyik ki, Sizin müdrik siyasətiniz sayəsində Dağlıq Qarabağ münaqişəsi həll olunsun. Siz regionda sabitliyin möhkəmlənməsinə yönəlmiş siyasət aparırsınız.

**Mühəmmədi Eraqi** (*İranın Mədəni Əlaqələr Təşkilatının sədri*): Mən də səmimi qəbula görə təşəkkür edirəm və İranın ali dini rəhbərinin salamlarını, cənab Prezident, Sizə çatdırıram. Mən ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Tehrana səfərlərini, keçirilmiş görüşləri xatırlayıram, bunların unudulmadığını və belə görüşlərin yenə də baş verəcəyinə ümidvar olduğumu vurğulayıram.

Mən Azərbaycanın Mədəniyyət nazirinin dəvəti ilə Bakıya gəlmişəm, ölkələrimiz arasında mədəni əlaqələrin səviyyəsinin artırılması barədə danışıqlar aparmışam. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin İrana səfərini xatırlayaraq deyim ki, həmin səfər zamanı biz anlaşma sənədini parafladıq.

Cənab Prezident, Sizdən xahişim ondan ibarətdir ki, bu barədə müsbət rəyinizi bildirəsiniz və biz də sənədin icrasını təmin edək.

*Mühəmmədi Eraqi prezident İlham Əliyevə İran sənətkarlarının əl işini hədiyyə etdi.*

**İ l h a m Ə l i y e v**: Bu gözəl hədiyyəyə görə sağ olun. Mən öz təşəkkürümü bildirirəm və sizdən xahiş edirəm ki, mənim səmimi salamlarımı İran İslam Respublikasının Ali dini rəhbəri Ayətullah Xameneiyə və prezident cənab Mahmud Əhmədinejada çatdırasınız. Mən İrana səfərimi xatırlayıram. Bu ilin əvvəlində səfər etmişdim və bu, çox uğurlu səfər idi. Çox səmimi görüşlərimiz oldu. Xüsusilə ali dini rəhbərlə, digər dostlarımızla çox səmimi görüşlər oldu. Biz ölkələrimiz arasında olan əlaqələrə çox böyük əhəmiyyət veririk. Çox şadıq ki, bu əlaqələr bütün sahələrdə inkişaf edir və bizim aramızda dostluq, qardaşlıq münasibətləri güclənir. Sizin də Bakıya səfərinizə böyük əhəmiyyət verirəm. Ümid edirəm ki, belə səfərlər nə qədər çox olsa, biz bir o qədər yaxşı əməkdaşlıq edəcəyik.

Azərbaycan haqqında, xatirəsi bütün azərbaycanlılar üçün əziz olan ümummilli lider Heydər Əliyev haqqında xoş sözlərə görə bütün görüş iştirakçılarına təşəkkür edirəm. Bugünkü Azərbaycan onun əsəridir. 1993-cü ildə, O, prezident seçilən dövrdə ölkədə aclıq, yoxsulluq, qarmaqarışıqlıq, anarxiya, tam hakimiyyətsizlik hökm sürürdü. Heç kimə tabe olmayan quldur dəstələri şəhəri gəzib-dolaşır və qanunsuzluq törədirdilər. Heydər Əliyev öz nüfuzunun, siyasi iradəsinin gücü sayəsində və xalqın etimadına arxalanaraq qısa müddətdə vəziyyəti sabitləşdirməyə müvəffəq oldu. 1996-cı ildən sabitlik və ictimai asayiş bərpa edildi, iqtisadi yüksəliş başlandı.

Dünyada heç bir ölkə qeyri-sabitlik şəraitində inkişaf edə bilməz. Ötən illər Azərbaycan iqtisadiyyatının illik artımı orta hesabla 10 faiz olmuşdur. Cari ildə isə hələlik 20 faiz təşkil edir, əməkhaqqı, pensiyalar qaldırılır. İki ildə büdcə 2 dəfədən çox artmışdır, tikinti işləri geniş vüsət almışdır, sərmayələrin həcmi artır. Əgər o vaxt Azərbaycana Heydər Əliyev rəhbərlik

etməsəydi və qayda-qanun yaratmasaydı, ölkənin inkişaf perspektivlərini müəyyənləşdirməsəydi, bütün bunlar mümkün olmazdı. İndi ölkə bu təcrübə, bu baza əsasında inkişaf edir. Qonşularımızla – Rusiya ilə də, İranla da, Türkiyə ilə də, Gürcüstanla da möhkəm təmələ əsaslanan yaxşı münasibətlərimiz var, biz bu münasibətlərin qədrini bilirik. Gərək evdə sülh olsun, ətrafda sülh olsun. Regionun bir çox ölkələrində münaqişələr var və belə əhatədə əmin-amanlığı, qayda-qanunu, sabitliyi qoruyub saxlamaq səylər tələb edir. İctimaiyyətin bu mühüm işdə iştirakı vacibdir. Milli həmrəylik, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri arasında sülh inkişafımızın başlıca şərtidir.

Mən dini liderlərin səfərini regionun dövlətləri arasında ikitərəfli münasibətlər üçün böyük əhəmiyyəti olan, etimadın möhkəmlənməsinə, ilk növbədə, insanlar arasında münasibətlərə əsaslanan dövlətlərarası əlaqələrin inkişafına kömək edəcək hadisə kimi qiymətləndirirəm.

Müraciətə görə hamınıza təşəkkürümü bildirirəm və mənim ən xoş arzularımı öz dövlətlərinizin rəhbərlərinə yetirməyi xahiş edirəm.

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

Hörmətli cənab Federal Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Biz Azərbaycan ilə Almaniya arasındakı əlaqələrin hərtərəfli genişlənməsinə xüsusi əhəmiyyət veririk.

Əmin olduğumu bildirirəm ki, dostluq və əməkdaşlıq münasibətlərimizin ardıcıl inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 sentyabr 2005-ci il*

# ABŞ-ın ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev qonaqların Bakıda bir sıra görüşlər keçirəcəkləri barədə məlumatı olduğunu bildirərək dedi ki, əlaqələrimizin genişləndirilməsi baxımından Azərbaycana səfəriniz çox önəmlidir. Alman Marşall Fondu ilə əlaqələrimiz uzun müddətdir davam edir. Onun nümayəndələri ilə Bakıda və ölkədən kənarda bir neçə dəfə görüşlər keçirmişəm. Bu görüşlər zamanı ölkəmizdə, regionda vəziyyətlə, beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparmışıq.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, indiki nümayəndə heyətinə daxil olan mətbuat təmsilçilərinin də Azərbaycanda gedən inkişafı görmək imkanı olacaqdır. Dövlətimizin başçısı dedi ki, çünki öz gözünlə görmək daim eşitməkdən daha yaxşıdır. Öz təəssüratlarınıza malik olsanız, ölkədə gedən proseslər, islahatların sürəti, regional inkişaf, ümumi vəziyyət baxımından burada baş verən hadisələrin əhəmiyyəti barədə mühakimə yürüdə biləcəksiniz. Hesab edirəm ki, səfəriniz fikir mübadiləsi aparılması üçün gözəl imkan yaradır.*

*Fondun Ankara ofisinin direktoru Suat Kiniklioğlu nümayəndə heyətinin adından çıxış edərək dedi ki, bir müddətdir Alman Marşall Fondu Qara Dəniz və Qafqaz regionu ilə əməkdaşlıq edir. Parlament seçkiləri yaxınlaşdığına görə, fikirləşdik ki, Amerika və Avropa jurnalistlərinin bir qrupunu nümayəndə heyətinin tərkibində Azərbaycana gətirək, onlar ölkənizdə gedən prosesləri daha dərindən dərk etsinlər, Azərbaycanı Qərb dünyasına daha yaxşı tanıtsınlar.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNƏ ÜZV OLAN ÖLKƏLƏRİN V BEYNƏLXALQ İDMAN OYUNLARININ İŞTİRAKÇILARINA

Hörmətli yarış iştirakçıları!

Sizi – Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının iştirakçılarını səmimi-qəlbdən salamlayır və hər birinizə xoşbəxtlik, cansağlığı və uğurlar arzulayıram.

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına böyük diqqət yetirilir. Siz ölkəmizdə olarkən ən yüksək tələblərə cavab verən yeni idman kompleksləri ilə tanışlıq üçün gözəl imkan əldə edəcək və əmin olacaqsınız ki, bizdə uşaq və gənclər idmanının inkişafına hər cür şərait yaradılmışdır. Son illər idman obyektlərimizin bazasında çoxlu beynəlxalq yarışlar keçirilir. Şübhə yoxdur ki, Birlik Oyunlarının burada təşkili də böyük idman bayramına çevriləcəkdir.

Ölkələrimizin müştərək idman tarixi vardır. Uzun illər ərzində biz vahid bir komanda daxilində müxtəlif səviyyəli yarışlarda iştirak etmiş və yüksək idman nailiyyətləri qazanmışıq. Fərəhli haldır ki, postsovet dövründə də biz faydalı əməkdaşlığı qoruyub saxlamağı və möhkəmləndirməyi, eləcə də mütəxəssis və elmi-metodik informasiya mübadiləsini inkişaf etdirməyi bacarmışıq. Təbiidir ki, bütün bu amillər qarşılıqlı inam və anlaşma ab-havası yaratmağa kömək edir və ölkələrimizdə idmanın tərəqqisinə müsbət təsir göstərir.

Faşizm üzərində qələbənin 60 illiyinə həsr olunan yarışların öz nefti ilə bu qələbəni təmin etmiş Bakı şəhərində keçirilməsi rəmzi xarakter daşıyır. Veteranlar nəslinin hərbi və əmək şücaəti qarşısında baş əyərək ümid edirəm ki, milyonların həyatı bahasına qazanılmış sülhü bundan sonra heç bir qüvvə poza bil-

məyəcək, postsovet məkanında mövcud olan konfliktlər isə beynəlxalq hüququn tələbləri çərçivəsində həllini tapacaqdır.

Ümidvaram ki, bu yarışlar idmançılara öz ustalıqlarını bütövlükdə nümayiş etdirmək imkanı verəcək, MDB-yə üzv olan ölkələrin hər birində idmanın inkişafına böyük xeyir gətirəcək, xalqlarımız arasında əməkdaşlıq və inteqrasiya proseslərinin dərinləşməsinə təkan verəcəkdir.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 sentyabr 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*23 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Bolqarıstan Respublikasına ikigünlük rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya beynəlxalq hava limanında prezident İlham Əliyevi Bolqarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.*

*Dövlətimizin başçısına və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Sentyabrın 23-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Dövlətimizin başçısı müqəddəs Aleksandr Nevski meydanına gəldi. Bolqarıstanın və Azərbaycanın dövlət bayraqlarının asıldığı meydanda prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımını Bolqarıstan prezidenti Georgi Pirvanov və xanımı qarşıladılar.*

*Prezident İlham Əliyevə müqəddəs Aleksandr Nevski meydanı barədə məlumat verildi.*

*Azərbaycanın və Bolqarıstanın dövlət himnləri səsləndi. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev əsgərləri bolqar dilində salamladı.*

*Bolqarıstanın rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti prezident Georgi Pirvanova təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev müqəddəs Aleksandr Nevski meydanında «Naməlum əsgər» abidəsinin önünə əklil qoydu.*

* * *

*Sentyabrın 23-də Sofiyada Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan prezidenti Georgi Pirvanovun təkbətək görüşü olmuşdur.*

*Prezident Georgi Pirvanov onun dəvətini qəbul edib Bolqarıstana gəldiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Bu səfərin ölkələrimiz arasında tarixi və iqtisadi əlaqələrin daha da genişləndirilməsində mühüm rol oynayacağına əminliyini vurğulayan cənab Pirvanov xalqımızın ümummilli lideri Heydər Əliyevin 1995-ci ilin yayında Bolqarıstana səfərini də xatırlatdı. O bildirdi ki, Bolqarıstan regionda iqtisadi inkişaf baxımından güclü ölkəyə çevrilən Azərbaycanla bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığı daha da inkişaf etdirməyə xüsusi maraq göstərir. Ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün iqtisadi, mədəni, humanitar və digər sahələrdə böyük imkanlar var və bunlardan hərtərəfli istifadə olunmalıdır. Qonaqpərvərliyə görə təşəkkür edən prezident İlham Əliyev regional və beynəlxalq çərçivədə Bolqarıstanla əməkdaşlığın, o cümlədən iqtisadi əlaqələrin yüksək səviyyəyə çatdırılması üçün potensial imkanların olduğunu bildirdi, yeni yaradılan nəqliyyat və kommunikasiya xətlərindən maksimum istifadə edilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda hazırkı ictimai-siyasi vəziyyətdən, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində görülən işlərdən və qarşıdan gələn parlament seçkilərindən danışdı.*

*Prezident İlham Əliyev bu səfərinin Bolqarıstanla qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanmasına təkan verəcəyini söylədi.*

*Görüşdə qarşılıqlı əməkdaşlığın bir sıra konkret sahələri üzrə təkliflər də səsləndi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezidentlər bu problemin sülh yolu ilə həll ediləcəyinə ümidvar olduqlarını bildirdilər, Azərbaycanın ədalətli mövqeyini Bolqarıstanın bundan sonra da dəstəkləyəcəyi vurğulandı. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzündən bəhs edərək, ölkəmizin haqq işinin beynəlxalq təşkilatlarda dəstəklənməsində Bolqarıstan dövlətinin mövqeyinə görə təşəkkürünü bildirdi.*

*Hər iki ölkədə səfirliklərin açılmasının ikitərəfli münasibətlərin inkişafına təkan verəcəyini bildirən dövlət başçıları bank işi, energetika, nəqliyyat və mədəniyyət sahələrində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Sofiya*

*23 sentyabr 2005-ci il*

Azərbaycan və Bolqarıstan prezidentlərinin geniş tərkibdə görüşü olmuşdur.

Bolqarıstan dövlətinin başçısı Georgi Pirvanov prezident İlham Əliyevi və Azərbaycan nümayəndə heyəti üzvlərini salamlayaraq, bu səfərə çox böyük önəm verdiklərini söylədi. O dedi ki, Azərbaycan prezidentinin bu rəsmi səfərindən sonra ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək, iqtisadi, siyasi, mədəni, humanitar əlaqələr genişlənəcəkdir. Danışıqlardan sonra imzalanacaq ikitərəfli sənədlər Azərbaycan–Bolqarıstan münasibətlərinin inkişafına yeni təkan verəcəkdir.

Azərbaycanda gedən proseslərin Bolqarıstanda diqqətlə izlənildiyini deyən cənab Pirvanov ölkəsinin respublikamızla iqtisadi əməkdaşlığa böyük maraq göstərdiyini vurğuladı.

Prezident Georgi Pirvanov Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində son vaxtlar göstərilən səyləri yüksək qiymətləndirərək bildirdi ki, Bolqarıstan bundan sonra da Azərbaycanın haqq işini dəstəkləyəcək, bütün sahələrdə əməkdaşlığımız daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Prezident İlham Əliyev səfərə dəvətə, səmimi qəbula və qonaqpərvərliyə görə Bolqarıstan dövlətinin başçısına minnətdarlığını və təşəkkürünü bildirdi. Dövlətimizin başçısı dedi ki, indiki siyasi əlaqələr baxımından münasibətlərimiz daha da güclü

potensiala malikdir. Əlaqələrin daha da genişləndirilməsi, o cümlədən iqtisadi əlaqələrin inkişafı üçün mühüm imkanlar vardır. Bundan istifadə etmək üçün bütün vasitələr işə salınmalıdır.

Prezident İlham Əliyev bildirdi ki, beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət də ürəkaçandır və Bolqarıstan NATO-nun üzvüdür, eləcə də 2007-ci ildə Avropa Birliyinin üzvü olacaqdır. Bütün məsələlərdə Azərbaycanla Bolqarıstanın əməkdaşlığı hər iki ölkənin mənafeyinə xidmət edir.

Azərbaycan prezidenti müstəqillik illərində ölkəmizdə gedən proseslər, aparılan islahatlar, həyata keçirilən layihələr, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası sahəsində görülən ardıcıl tədbirlər barədə də məlumat verdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Bolqarıstanın mövqeyinə görə təşəkkürünü bildirən prezident İlham Əliyev eyni zamanda ümidvar olduğunu söylədi ki, ATƏT-in sədri kimi, Bolqarıstan bu istiqamətdə göstərdiyi səyləri bundan sonra da davam etdirəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.

## AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*Sofiya*

*23 sentyabr 2005-ci il*

Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan prezidenti Georgi Pirvanovun geniş tərkibdə görüşü başa çatdıqdan sonra dövlət başçılarının iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.

Əvvəlcə Azərbaycan prezidenti İlham Əliyev və Bolqarıstan prezidenti Georgi Pirvanov birgə bəyannaməni imzaladılar.

Sonra Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avratlantik inteqrasiyası sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında saziş, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının «Tamojnı» agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının təkmilləşdirilməsi sahəsində qarşılıqlı anlaşma protokolu, Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları arasında gələcək əməkdaşlıq haqqında protokol imzalandı.

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında saziş, Bolqarıstan–Azərbaycan Dostluq Cəmiyyəti və Azərbaycan–Bolqarıstan Dostluq Cəmiyyəti arasında birgə fəaliyyət və əməkdaşlıq haqqında müqavilə də imzalandı.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI

*23 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri çərçivəsində Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanmasından sonra prezident İlham Əliyevin və prezident Georgi Pirvanovun birgə mətbuat konfransı olmuşdur. Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Bolqarıstan prezidenti Georgi Pirvanovun bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bir qədər əvvəl bir sıra vacib sənədlər imzalanmışdır. Prezident Əliyevlə bundan əvvəlki danışıqlarımızın birbaşa davamı olan danışıqlar aparılmışdır. Mən danışıqlar zamanı deyilənləri ümumiləşdirmək istərdim – bu, iqtisadi sahədə qarşılıqlı münasibətlərimizin davam etdirilməsi ideyasıdır. Bizim yaxşı müqavilə-hüquqi bazamız var, biz onu dolğunlaşdırdıq və bu prosesi başa çatdırdıq. Hər iki ölkədə səfirliklərin açılması da müsbət haldır ki, bu, ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir. Viza rejiminin sadələşdirilməsi də qarşılıqlı münasibətlərin inkişafı üçün əlavə stimul olacaqdır.

Biz bu münasibətlərin inkişafını, ilk növbədə, energetika, kənd təsərrüfatı, infrastruktur, emal sənayesi, əczaçılıq sahələrində və digər sahələrdə görürük. Həm də hesab edirik ki, Bolqarıstanın Balkan yarımadasının mərkəzində yerləşməsi, habelə Azərbaycanın qaz nəqli sahəsindəki imkanları baxımından yaxşı

perspektivlər var. Biz hər iki ölkənin ticarət-sənaye palatalarının fəaliyyətinə əlavə stimul verməyə çalışacağıq. Biznes forumların keçirilməsi təcrübəsi də inkişaf etdiriləcək və bu, qarşılıqlı münasibətlərin inkişafına əlavə stimul verəcəkdir. İnfrastruktur sahəsi də inkişaf etdiriləcəkdir. Yeni layihələr baxımından Bolqarıstan bunun üçün əlavə zəmin yaradır. «Yeni qonşuluq siyasəti» layihəsi çərçivəsində əməkdaşlıq da vacibdir. Bolqarıstan bu sahədə Azərbaycana mənəvi dəstəklə yanaşı, həm də ekspert yardımı göstərəcəkdir.

Biz əminik ki, mədəni-mənəvi sahədə də qarşılıqlı əlaqələr inkişaf edəcəkdir. Demək istəyirəm ki, artıq bizim aramızda digər təsisatların nümayəndələrini də həvəsləndirən şəxsi dostluq münasibətləri var.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

İcazə verin, ilk növbədə, bizi Bolqarıstana rəsmi səfərə dəvət etdiyinizə görə öz təşəkkürümü bildirim.

Mən bu səfərə çox böyük əhəmiyyət verirəm və əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha da möhkəmlənəcək, Bolqarıstanla Azərbaycan arasında olan əməkdaşlıq daha da genişlənəcəkdir.

Hörmətli cənab Prezident, Sizin keçən il Azərbaycana etdiyiniz rəsmi səfəriniz iki ölkə arasında əlaqələrin inkişafında çox mühüm rol oynadı. Əminəm ki, həmin səfər çərçivəsində imzalanmış sənədlər və bu gün imzalanmış sənədlər əməkdaşlığın gələcək inkişaf perspektivlərini müəyyən edir. Siyasi, iqtisadi və bütün başqa sahələrdə bizim əlaqələrimiz güclənir.

Avratlantik inteqrasiyaya dair bu gün imzalanmış sənəd çox böyük əhəmiyyət kəsb edir. İki ölkə bu istiqamətdə daha da inamla irəliyə gedəcəkdir. Bu siyasət, Avratlantik məkanına inteqrasiya siyasəti bizi sıx birləşdirir. Eyni zamanda, Bolqarıstan və Azərbaycan dünyanın müxtəlif yerlərində sülhün, təhlükəsiz-

liyin təmin olunmasında da mühüm rol oynayır. Yəni siyasi müstəvidə bizim mövqelərimiz üst-üstə düşür və bu, bütün başqa sahələrdə əlaqələrin inkişafı üçün çox mühümdür.

Bu gün müxtəlif məsələlər müzakirə olundu və ümid edirəm ki, energetika sahəsində, nəqliyyat sahəsində, iqtisadiyyatın digər sahələrində əldə edilmiş razılaşmalar icra olunacaq və bizim iqtisadi əlaqələrimiz qısa müddət ərzində yeni, yüksək pilləyə qalxacaqdır. İki ölkə arasında ticarət əlaqələri sürətlə inkişaf edir, mal dövriyyəsi ildən-ilə artır. Ancaq bu, ölkələrimizin iqtisadi potensialını əks etdirmir. Hesab edirəm ki, gələcəkdə bu potensialın daha geniş şəkildə işə salınması prosesi çox sürətlə getməlidir.

Siz qeyd etdiniz ki, bizim aramızda çox səmimi dostluq münasibətləri yaranmışdır. Bu da ölkələrimiz arasında gedən dialoqa müsbət təsir göstərir. Ümid edirəm ki, nümayəndə heyətləri arasında da, onların üzvləri arasında da dostluq münasibətləri yaranacaq, möhkəmlənəcək və Bolqarıstanla Azərbaycan arasında bütün sahələrdə sürətlə inkişaf edən əməkdaşlıq daha da genişlənəcəkdir.

Mənə və nümayəndə heyətinin üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

* * *

**S u a l: Cənab Pirvanov, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün regionun iqtisadi inkişafına böyük zərbə vurduğu nəzərə alınmaqla, bu münaqişənin həlli məsələsində Sizin ölkənizin konkret mövqeyi necədir?**

**G e o r g i P i r v a n o v:** Biz bu münaqişənin ağırlığını və ciddiliyini başa düşürük. Demək istəyirəm ki, Bolqarıstan bu məsələyə çox ciddi yanaşır. Bolqarıstan fəal siyasi dialoqun axtarışına, ATƏT çərçivəsində sülh danışıqlarına tərəfdardır.

**S u a l: Cənab Əliyev, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin Burqas–Aleksandrupolis marşrutu ilə davam etdirilməsi mümkündürmü?**

**İkinci sualım Bolqarıstan prezidentinədir. Siz hər iki ölkə arasında əmtəə dövriyyəsinin səviyyəsini «böhranlı vəziyyət» kimi qiymətləndirdiniz. Bunun səbəbləri nədir?**

**İlham Əliyev:** Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi uğurla davam edir və bu ilin sonuna qədər kəmər istismara veriləcəkdir. Bu kəmərin nəqletmə gücü ildə 50 milyon tona bərabərdir. Nəzərə alsaq ki, Azərbaycanda və Xəzər dənizinin şərqində yerləşən yataqlardan daha böyük həcmdə neft hasilatı gözlənilir, əlbəttə, başqa ixrac marşrutları da nəzərdən keçirilir. Burqas–Aleksandrupolis marşrutu da təhlil olunmuşdur və bu barədə bizim biliklərimiz vardır. Burada iqtisadi amil əsas olacaqdır və bütün tərəflər çalışmalıdır ki, bu marşrut iqtisadi cəhətdən əlverişli olsun.

**Georgi Pirvanov:** Hörmətli xanımlar və cənablar! Qarşılıqlı münasibətlərimizin inkişafında, ilk növbədə, əmtəə dövriyyəsi sahəsində ciddi dinamika var. Azərbaycan tərəfinin statistikasına görə, bu yalnız bir neçə milyon dollar təşkil etmişdir, hazırda isə artıq 100 milyon dollara yaxınlaşırıq. Bizim metodika bir qədər fərqlənir və məlumat daha azdır. Lakin dinamika ayrı, həcm isə başqa məsələdir. Ona görə də həm keçmişdəki, həm də builki məlumatlar bizi razı sala bilməz.

Hər iki ölkənin potensialı gördüyümüz işdən xeyli çoxdur. Mən bu məsələnin həllini bir neçə istiqamətdə görürəm. Əvvəla, işgüzar insanlar səviyyəsində informasiya mübadiləsini qaydaya salmaq lazımdır. İkincisi, indiyədək buna əngəl törədən nəqliyyat məsələlərinin həllidir. Mən ölkələrimizin təsisatlarını qınaya bilmərəm, çünki gördüyünüz kimi, çoxlu sənəd imzalanmış, viza rejimi sadələşdirilmiş, səfirliklər açılmışdır. Əməkdaşlığı inkişaf etdirmək üçün biznesə heç nə mane olmur. Prezidentlər bacardıqları qədər kömək etməyə çalışırlar. Sabah cənab Əliyev Bolqarıstanın iri biznesmenləri ilə görüşəcəkdir. Zənnimcə, bunun özü ikitərəfli iqtisadi əməkdaşlıq üçün stimul olacaqdır.

## SOFİYADA BAKI KÜÇƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*23 sentyabr 2005-ci il*

*Bolqarıstanın paytaxtı Sofiyanın Tələbə rayonunda Bakı küçəsinin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını Tələbə Rayon İcra Hakimiyyətinin başçısı Ventislav Dudolenski səmimiyyətlə qarşıladı.*

**Ventislav Dudolenski:** Hörmətli cənab Prezident!

Sizi Tələbə rayonunda qarşılamaqdan və Bakı küçəsinin açılışı münasibətilə təbrik etməkdən böyük şərəf və məmnunluq duyuram. Bu küçə xalqlarımız arasında dostluğun rəmzi olacaq və zənnimcə, bu dostluq gələcəkdə də davam edəcəkdir.

**İlham Əliyev:** Şəhərin küçələrindən birini Bakı küçəsi adlandırmaq barədə qərarına görə şəhərin meriyasına dərin təşəkkürümü bildirirəm. Bakı Azərbaycanın paytaxtıdır, böyük tarixi ənənələri olan qədim şəhərdir və bu küçəyə onun adının verilməsi bizim üçün, Azərbaycanın bütün vətəndaşları üçün çox xoşdur. Münasibətlərimiz çox yüksək səviyyəyə qalxır. Bolqarıstanla Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq çox fəaldır və ölkənizə səfərim, aparılmış danışıqlar, imzalanmış sənədlər bir tərəfdən, ikitərəfli münasibətlərin inkişafına sübutdur, digər tərəfdən isə, ölkələrimizin imkanları, iqtisadi potensialı, habelə siyasi inteqrasiya prosesləri nəzərə alınmaqla, ikitərəfli səviyyədə, beynəlxalq təşkilatlar çərçivəsində, regional istiqamətdə sıx qarşılıqlı fəaliyyət göstərmək üçün daha yaxşı imkanlar yaradır.

Şübhə etmirəm ki, çox yaxın gələcəkdə biz ikitərəfli münasibətlər sahəsində daha böyük uğurlara nail olacağıq. Düşünürəm

ki, Azərbaycan paytaxtının şərəfinə küçənin açılması faktı da bu münasibətlərin təzahürüdür. Bu onun nəticəsidir ki, ölkələrimiz arasında səmimi münasibətlər, dostluq münasibətləri mövcuddur. Bu, Azərbaycana olan böyük hörmətin əlamətidir və biz bunu çox yüksək qiymətləndiririk.

Odur ki, əvvəla, qonaqpərvərliyə görə, səmimi qəbula görə, əlbəttə ki, indi Sofiyada Azərbaycan paytaxtının adını daşıyan küçə olacağına görə bütün bolqarıstanlı dostlara, Bolqarıstan rəhbərliyinə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Hamınıza təşəkkür edirəm.

* * *

*Sonra dövlətimizin başçısı üzərində bolqar və ingilis dillərində «Bakı küçəsi» sözləri yazılmış lövhənin üstündən ağ örtüyü götürdü və burada mərasim iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

## BOLQARISTANIN KEÇMİŞ PREZİDENTİ JELYU JELEVLƏ GÖRÜŞ

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Bolqarıstanın keçmiş prezidenti Jelyu Jelevlə görüşmüşdür.*

*Dövlətimizin başçısı İlham Əliyev ilə görüşünü yüksək qiymətləndirən cənab Jelyu Jelev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə şəxsi dostluq əlaqələrindən danışdı. O dedi ki, ölkələrimiz arasında əlaqələrin təməli 1995-ci ildə Heydər Əliyevin Bolqarıstana səfəri zamanı qoyulmuşdur.*

*Cənab Jelev hazırda ikitərəfli əlaqələrin köhnə təməllər əsasında uğurla davam etdirildiyini və əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin Bolqarıstana səfərini xatırladaraq dedi ki, Azərbaycanda onun siyasəti bu gün də uğurla davam etdirilir. Bolqarıstanla Azərbaycan arasında iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdirilməsi və ümumiyyətlə, əlaqələrin genişləndirilməsi üçün gözəl imkanlar var və bunlardan səmərəli şəkildə istifadə olunacaqdır.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*23 sentyabr 2005-ci il*

## Bolqarıstanın Baş naziri adından Azərbaycan prezidentinin şərəfinə işgüzar nahar

*Bolqarıstanın Baş naziri Sergey Stanişevin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə işgüzar nahar təşkil olunmuşdur. Süfrə arxasında səmimi söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi sahəsində hökumətlər qarşısında duran vəzifələrdən danışıldı, hər iki tərəf üçün maraq doğuran məsələlər barəsində fikir mübadiləsi aparıldı.*

* * *

## Bolqarıstan parlamentində görüş

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Bolqarıstan parlamentinin – Xalq Məclisinin sədri Georgi Pirinski ilə görüşmüşdür.*

*Parlamentin sədri Azərbaycan prezidentini binanın önündə böyük hörmətlə qarşıladı.*

*Görüşdə parlamentlərarası əlaqələr, Azərbaycanda qarşıdan gələn parlament seçkilərinə hazırlıq, Bolqarıstanda sonuncu parlament seçkilərinin nəticələri, Avratlantik strukturlarına inteqrasiya sahəsində əməkdaşlıq, dostluq qruplarının və parlamentlərarası işçi qruplarının fəaliyyəti, ölkələrimizin*

*siyasi, iqtisadi əlaqələrinin daha da möhkəmlənməsində qanunvericilik orqanlarının rolu barədə geniş fikir mübadiləsi aparıldı.*

*Azərbaycan prezidenti İlham Əliyev ilə görüşünü böyük şərəf hesab etdiyini söyləyən cənab Georgi Pirinski dövlətimizin başçısının Bolqarıstana rəsmi səfərini ölkələrimizin parlamentləri arasında əlaqələrin inkişafına müsbət təsiri baxımından çox mühüm hadisə kimi səciyyələndirdi.*

*Xalq Məclisinin sədri ölkəmizdə parlament seçkiləri ilə bağlı prezident İlham Əliyevin imzaladığı sərəncamdan xəbərdar olunduğunu bildirərək, bunu yüksək qiymətləndirdi, seçkilər zamanı «exitpoll»un keçirilməsini də yaxşı hal kimi vurğuladı. Georgi Pirinski yeni seçilmiş Bolqarıstan parlamentində Bolqarıstan–Azərbaycan işçi qrupu yaradılacağı barədə məlumat verdi, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi aparmağı təklif etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev bu təklifi məmnunluqla qarşıladı və bunun vacib olduğunu söylədi. Dövlətimizin başçısı Bolqarıstanda parlament seçkilərinin uğurla keçməsi və Xalq Məclisinin sədri seçilməsi münasibətilə cənab Georgi Pirinskini təbrik etdi. Prezident İlham Əliyev Azərbaycan Milli Məclisi barədə məlumat verdi, qarşıdakı parlament seçkilərinə hazırlıqdan danışdı. Azərbaycan prezidenti yeni formalaşdırılacaq parlamentlərarası işçi qruplarının fəaliyyətinin gücləndirilməsi üçün qarşılıqlı əlaqələrin, səfərlərin əhəmiyyətini vurğuladı.*

*Görüşdən sonra prezident İlham Əliyev Bolqarıstan Xalq Məclisinin iclas salonu ilə tanış oldu, parlamentin xatirə kitabına ürək sözlərini yazdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BOLQARISTAN MİLLİ VƏ DÜNYA TƏSƏRRÜFATI UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMƏSİ MƏRASİMİ

*23 sentyabr 2005-ci il*

*Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adı verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı universitetin binası önündə rektor Borislav Borisov ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri təqdim edildi.*

*Mərasimdən əvvəl prezident İlham Əliyev ilə universitetin rektoru Borislav Borisov arasında söhbət oldu. Rektor dövlətimizin başçısına məlumat verərək dedi ki, 1920-ci ildən fəaliyyət göstərən və Bolqarıstanın ən nüfuzlu ali təhsil ocaqlarından olan bu universitetdə 25 min tələbə təhsil alır və 8 min nəfərlik professor-müəllim heyəti çalışır. Bir sıra ölkələrin prezidentləri universitetin fəxri professoru adına layiq görülmüşlər.*

*Borislav Borisov bildirdi ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsi sahəsində xidmətlərinə görə, Elmi Şuranın qərarı ilə Azərbaycan prezidenti universitetin fəxri professoru adına layiq görülmüşdür.*

*Rektor prezident İlham Əliyevə professor mantiyasını təqdim etdi.*

*Sonra universitetin Elmi Şura üzvlərinin, professor-müəllim heyətinin iştirakı ilə mərasim keçirildi. Mərasimi rektor Borislav Borisov açdı.*

**Universitetin rektoru Borislav Borisovun çıxışı**

Hörmətli cənab Prezident!

Sizi elmi ictimaiyyət adından salamlamaqdan və Sizə «Təkcə Bolqarıstanda deyil, həm də bütün Cənub–Şərqi Avropada ən böyük iqtisadi təhsil müəssisəsinə xoş gəlmisiniz!» deməkdən son dərəcə böyük şərəf və məmnunluq duyuram.

Bolqarıstanın bir neçə Baş naziri, nazirləri, deputatlar, ictimai və dövlət xadimləri bu təhsil ocağının yetirmələridir. Artıq 85 ildir ki, minlərlə müəllim və tələbə universitetimiz üçün yaxşı imic yaradırlar, varislik, həqiqət axtarışı bu imicin tərkib hissələridir.

Siz ölkəniz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasının ikinci prezidentisiniz ki, Bolqarıstana səfər edirsiniz. Atanız 1995-ci ildə Bolqarıstanda olarkən parlamentdə çıxışında vurğulamışdı ki, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün çox böyük potensial var. Əminəm ki, Bolqarıstan və Azərbaycan universitetləri arasında əməkdaşlıq inkişaf edəcək və universitetimizə Sizin gəlişiniz bu istiqamətdə yaxşı başlanğıc olacaqdır.

* * *

*Rektor fəxri professor diplomunu və medalını dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab rektor!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlamaq və belə yüksək ada görə təşəkkür etmək istəyirəm. Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adına layiq görülmək böyük şərəf və böyük məsuliyyətdir. Bilirəm ki, universitet bu regionun – Balkan yarımadasının və Avropanın aparıcı ali təhsil müəssisəsidir. Onilliklər ərzində universitet kadrlar hazırlanması, iqtisadi islahatlar üçün şərait yaradılması, habelə Bolqarıstan cəmiyyəti elitasının hazırlanması işinə böyük töhfə vermişdir. Ona görə də bu mənim üçün çox xoş hadisədir. Həyatımın bir hissəsi ali təhsil müəssisəsində işlə bağlı olmuşdur. Mən bir neçə il ərzində ali təhsil müəssisəsində dərs demişəm və ona görə də bu mənə çox yaxın və əziz işdir. Sizə söz verirəm ki, bu adı şərəflə daşıyacaq və bu yüksək etimadı doğrultmağa çalışacağam.

Mən bu gün səhərdən sizin gözəl ölkənizdə rəsmi səfərdəyəm. Səfər çox uğurlu keçir və prezidentlə, parlamentin sədri, Baş nazirlə keçirilmiş görüşlər bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər yüksəlişdədir. Bizim aramızda çox fəal siyasi dialoq var, beynəlxalq məsələlərdə məqsədlərimiz uyğun gəlir. Regional vəziyyətin, ikitərəfli münasibətlərimizin, dünyada baş verən hadisələrin qiymətləndirilməsində ölkələrimizin siyasəti üst-üstə düşür. Əlbəttə ki, siyasi fəallıq və qarşılıqlı anlaşma belə yüksək səviyyədə olduqda, hərtərəfli iqtisadi münasibətlərin inkişafı üçün çox yaxşı zəmin yaranır.

Bolqarıstan prezidenti cənab Pırvanov keçən il Azərbaycana səfər etdi. Bu il mən Bolqarıstana səfər edirəm. Bu müddət ərzində Bolqarıstanın Azərbaycanda və Azərbaycanın Bolqarıstanda səfirlikləri yaradılmışdır və onlar artıq işləyir. Bütün bunlar qarşılıqlı marağı göstərir, onu sübut edir ki, ölkələrimiz arasında münasibətlər tərəfdaşlığın çox fəal müstəvisinə keçir. Avrointeqrasiya, iqtisadi və siyasi islahatlar aparılması prosesləri çərçivəsində biz fəaliyyətimizi çox sıx şəkildə əlaqələndirəcək və təcrübə mübadiləsi aparacağıq. Ümidvaram ki, bu çox yaxşı nəticələr verəcəkdir.

Universitetinizin çox geniş profili var və burada müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Lakin əlbəttə ki, əsas diq-

qət iqtisadi bloka yönəldilir. Buna görə də mən Azərbaycanda apardığımız iqtisadi siyasətin əsas istiqamətlərindən çox qısaca danışmaq istərdim.

1980-ci illərin axırları – 90-cı illərin əvvəllərində ölkəmiz çox böyük iqtisadi çətinliklərlə qarşılaşdı. İqtisadi tənəzzülün, habelə cəmiyyətimizin məruz qaldığı böhranın sənaye, infrastruktur və bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün çox mənfi nəticələri oldu. Azərbaycan iqtisadi potensial baxımından 1990-cı ilin səviyyəsinə yalnız bu il çata bildi. 1990-cı illərin əvvəllərində ölkəmizə vurulmuş iqtisadi zərər o dərəcədə güclü idi ki, 1990-cı ilin səviyyəsinə gəlib çıxmaq üçün 15 il vaxt lazım oldu.

İndi siyasi islahatlar sayəsində, Azərbaycanda sabitliyin, ictimai və milli həmrəyliyin olması sayəsində çox səmərəli iqtisadi siyasət aparmaq mümkündür. Ölkəmizin iqtisadiyyatı çox yüksək sürətlə inkişaf edir. 1996-cı ildən 2004-cü ilədək ümumi daxili məhsulun həcmi ildə orta hesabla 10 faiz artmışdır. Bu il bizdə iqtisadi sıçrayış müşahidə olunur. 2005-ci ilin 8 ayı ərzində iqtisadiyyat 20 faiz artmışdır, sənayenin artım sürəti 26 faiz təşkil edir. Həmin dövrdə əhalinin pul gəlirləri 25 faiz, əhalinin banklarda əmanətlərinin həcmi 50 faiz artmışdır. Qarşımızda duran çox mühüm sosial problemlər həll edilir, Azərbaycanda energetika, nəqliyyat sahəsində transmilli layihələr, neft və qaz sahəsində regional əməkdaşlıq uğurla həyata keçirilir.

Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan regionda ilk yerlərdən birini tutur, son 10 ildə ölkəmizə yönəldilən sərmayələrin həcmi 25 milyard dollar olmuşdur. Bu onu göstərir ki, əcnəbi sərmayəçilər Azərbaycanın gələcəyinə inanırlar, iqtisadi inkişafa inanırlar və belə böyük məbləğdə vəsaitlə risk etməkdən çəkinmirlər. Bu da özünü doğruldur. Ölkəmizə yönəldilən hər bir sərmayə yeni iş yerləri yaradır, biznes üçün, özəl sektorun inkişafı üçün yeni imkanlar açır.

Ötən ilin fevralından biz Azərbaycanın regionlarının inkişafı proqramını həyata keçirməyə başlamışıq, diqqəti ilk növbədə yeni iş yerləri açılması üzərində cəmləşdirmişik. İftixarla deyə

biləcəm ki, iki ildən də az bir vaxtda Azərbaycanda 300 min yeni iş yeri yaradılmışdır. Əhalisinin 8 milyon nəfərdən bir qədər artıq olmasını nəzərə alsaq, ölkədə yeni iş yerləri açılmasında belə böyük artımın olması çox yüksək göstəricidir.

Bizim qarşımızda yoxsulluğun, işsizliyin ləğv olunması və Azərbaycanın hər bir vətəndaşı üçün normal həyat şəraitinin təmin edilməsi vəzifəsi durur. İqtisadi islahatların səmərəliliyini, avrointeqrasiya məsələlərində fəal tədbirlərimizi, nəqliyyat imkanlarımızı, coğrafi mövqeyimizi, ölkəmizin coğrafi-siyasi əhəmiyyətini nəzərə alaraq şübhə etmirəm ki, biz bütün planlarımızı həyata keçirməyə müvəffəq olacağıq.

İqtisadi göstəricilər, iqtisadi baza hər bir ölkə üçün cəmiyyətin inkişafında başlıca amillərdir. Güclü iqtisadiyyat, güclü sosial siyasət olmadan islahatlar yolu ilə fəal irəliləmək mümkün deyildir. Hər şey bu amilə bağlıdır və ona görə də bütün səylərimiz Azərbaycanın iqtisadi potensialının artırılmasına yönəldilmişdir. Gələn il büdcəmizdə çox böyük, 50 faizdən yuxarı artımın olacağı nəzərdə tutulur. Sonrakı illərdə – 2007-ci, 2008-ci illərdə də iqtisadi artım güclənəcəkdir. Bütün bu amilləri, habelə formalaşmaqda olan çox açıq və səmimi ab-havanı – münasibətlərimizdə hökm sürən ab-havanı nəzərə alaraq, inamla deyə bilərəm ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün çox yaxşı potensial mövcuddur və biz ondan istifadə etməliyik.

Doğrudur ki, Bolqarıstanla Azərbaycan arasında əmtəə dövriyyəsi  xeyli dərəcədə artmışdır. Lakin buna baxmayaraq, o, ölkələrimizin real potensialını əks etdirmir. Mənim nümayəndə heyətimə nazirlər, hökumət rəhbərləri, deputatlar, ictimai xadimlər daxildirlər. Nümayəndə heyətinin belə geniş tərkibi ikitərəfli əlaqələrimizə necə böyük əhəmiyyət verdiyimizə daha bir sübutdur. Əminəm ki, bu səfərin nəticələrinin çox tezliklə yaxşı səmərə verməsi üçün nümayəndə heyətimizin üzvlərinin bu gün və sabah bolqarıstanlı həmkarları ilə görüşmək imkanı olacaqdır.

Bizim artıq yaxşı müqavilə-hüquq bazamız var, çoxlu sənəd imzalanmışdır, o cümlədən də bu gün. Daha çox ünsiyyət olma-

sı üçün ölkələrimiz arasında müntəzəm aviareyslər açmağı planlaşdırırıq. Bununla da şübhəm yoxdur ki, münasibətlərimizin uğurlu inkişafı mümkün olacaq və regional əməkdaşlığın mühüm amilinə çevriləcəkdir.

Regional əməkdaşlıq baxımından Azərbaycan böyük uğurlara nail olmuşdur. Ölkəmizdə və regionda bizim iştirakımızla dünyada çox böyük energetika layihələri, habelə nəqliyyat-kommunikasiya layihələri – Azərbaycanla region, Mərkəzi Asiya ölkələri, Türkiyə, Avropa arasında dəmir yol tikintisi layihəsi həyata keçirilir. Əlbəttə, əməkdaşlıq üçün bu müstəvidə yeni perspektivlər açılır. Həmçinin ümidvaram ki, özəl sektor da arxamızca gedəcək və bütün istiqamətlərdə tərəqqi görməyimiz üçün əməkdaşlıq yaradılması işində fəal işləyəcəkdir.

Bir daha əlavə etmək istəyirəm ki, şəxsən mən ölkənizə səfərdən çox dərin məmnunluq duyuram. Səhər tezdən mənə, nümayəndə heyətimizin üzvlərinə çox səmimi, doğma münasibət görürəm. Mən bunu çox yüksək qiymətləndirirəm, çünki ölkələrimiz arasındakı münasibətlər həm də insanlar arasında münasibətlərdir. Bolqarıstan prezidenti ilə yaranmış şəxsi dostluq da, zənnimcə, ikitərəfli münasibətlərin inkişafı üçün mühüm amildir.

Belə mehribancasına qəbula görə və fəaliyyətimə verilən belə yüksək qiymətə görə bir daha səmimi-qəlbdən təşəkkürümü bildirmək və sizi əmin etmək istəyirəm ki, bu yüksək adı şərəflə daşıyacağam və ikitərəfli əlaqələrimizin möhkəmlənməsinə yönəldilmiş öz fəaliyyətimlə onu doğrultmağa çalışacağam.

Təşəkkür edirəm.

* * *

*Azərbaycan dövlətinin başçısı universitetin professor-müəllim heyəti ilə səmimiyyətlə sağollaşdı, habelə Sofiyanın Amerika Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüşdü, onların təhsil şəraiti ilə maraqlandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMININ ŞƏRƏFİNƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN VƏ XANIMININ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*23 sentyabr 2005-ci il*

### Bolqarıstan Respublikasının prezidenti Georgi Pırvanovun nitqi

Zati-aliləri!
Hörmətli xanım Əliyeva!
Əziz qonaqlar!
Xanımlar və cənablar!

Bakıda görüşümüzdən bir il keçməmiş sizi dost Bolqarıstanda böyük məmnuniyyətlə ürəkdən salamlamağıma və «Xoş gəlmisiniz!» deməyimə şadam. Cənab Prezident, Sizin ölkəmizə səfəriniz mənə Azərbaycan torpağında gördüyüm səmimi qonaqpərvərliyin yalnız bir hissəsinin əvəzini qaytarmağa imkan verir.

Bu səfər ikitərəfli əlaqələrin gücləndirilməsi məqsədi ilə birgə işimizin nəticələrini qiymətləndirmək imkanıdır. Biz ənənəvi şəkildə yaxşı olan, lakin xüsusilə intensiv və konkret əlaqələrin dinamik transformasiyasını, fəal münasibətləri və tərəfdaşlıq münasibətlərini başlıca nailiyyət sayırıq.

Siyasi dialoqun səviyyəsinin yüksəlməsini və fəallaşmasını, xüsusən iqtisadi sahədə və ticarət sahəsində müqavilə-hüquq bazasının zənginləşməsini, paytaxtlarımızdakı diplomatik nümayəndəliklərimizin səviyyəsinin bərabərləşməsini məmnunluqla qeyd etmək lazımdır. Bolqarıstan–Azərbaycan əlaqələrinin ictimai əsası da genişlənmişdir – şəhərlər, yerli özünüidarə

orqanları arasında və ölkələrimizdə yaradılmış dostluq cəmiyyətləri arasında əməkdaşlığın bünövrəsi qoyulmuşdur.

Əminəm ki, prezident İlham Əliyevin Sofiyaya ilk rəsmi səfəri gələcək əməkdaşlığımıza mühüm təkan verəcəkdir. Ticarət, kənd təsərrüfatı və energetika, nəqliyyat və turizm sahələrində əlaqələrin inkişafı üçün son dərəcə böyük imkanlar mövcuddur. Zənnimcə, mədəniyyət, təhsil və elm sahəsində əlaqələrin gücləndirilməsi, iki dost xalqın fəal ünsiyyəti hər iki dövlətin xeyrinə olacaqdır.

Bolqarıstan Respublikası Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına inteqrasiya üçün göstərdiyi səyləri alqışlayır. Bizim fikrimizcə, Azərbaycanın inteqrasiya proseslərində iştirakı mövcud münaqişələrin sülh yolu ilə həllinə öz töhfəsini verəcək və Cənubi Qafqaz regionunda daha çox sabitliyə, təhlükəsizliyə və tərəqqiyə gətirib çıxaracaqdır. Avropa və Avratlantik inteqrasiyası sahəsində əməkdaşlıq haqqında bu gün imzalanmış Memorandum ikitərəfli münasibətlərə ümumi məqsədlərimiz naminə planauyğun qarşılıqlı fəaliyyət kimi yeni keyfiyyət gətirir. Beləliklə, ölkələrimiz beynəlxalq terrorizmlə, digər qlobal təhlükələr və qarşıya çıxa biləcək problemlərlə mübarizədə daha uğurla əməkdaşlıq edəcək, regional təhlükəsizlik və sabitliyin inkişafına öz töhfələrini verəcəkdir.

Hörmətli cənab Prezident!

Bizim bugünkü söhbətlərimiz xarici siyasətlərimizin başlıca istiqamətlərinin üst-üstə düşdüyünü təsdiq etdi və ölkələrimizin ikitərəfli dialoqu inkişaf etdirmək və intensivləşdirmək üçün siyasi iradəsinin olmasını sübuta yetirdi. Bu, Bolqarıstan–Azərbaycan münasibətlərinin perspektivi ilə bağlı məndə nikbinlik yaradır.

İcazə verin, badələri Bolqarıstan–Azərbaycan münasibətlərinin yaxşı perspektivləri, Avropa və Avratlantik strukturlarında əməkdaşlığımızın şərəfinə,

Dost Azərbaycan xalqının tərəqqisi və firavanlığı şərəfinə!

Zati-aliləri, Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev və çox hörmətli xanım Əliyevanın şərəfinə,

Burada iştirak edənlərin hamısının sağlığına,
Sizin sağlığınıza badə qaldırım!

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Bolqarıstan Respublikasının prezidenti zati-aliləri cənab Georgi Pirvanov!

Hörmətli xanım Pirvanova!

Xanımlar və cənablar!

Əziz dostlar!

Məni Bolqarıstan Respublikasına rəsmi səfərə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Bolqarıstan torpağında mənə və bütün nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bolqarıstana səfərdən olduqca məmnunam. Bolqarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Ölkələrimiz arasında keçmişdə kifayət qədər sıx əlaqələr mövcud olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə Bolqarıstana rəsmi səfərindən sonra iki ölkə arasında münasibətlər daha da inkişaf etmişdir. 2004-cü ilin oktyabr ayında Sizin Azərbaycana səfəriniz bu münasibətlərə yeni təkan vermişdir.

Bolqarıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, regional və beynəlxalq məsələlərə dair prezident Pirvanovla apardığımız fikir mübadiləsi, keçirilən görüşlər, imzalanmış sənədlər xüsusi əhəmiyyət daşıyır və ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmlənməsinə imkan verəcəkdir.

Mən Bolqarıstanla Azərbaycan arasında əməkdaşlığın bütün sahələrdə genişlənməsi və dərinləşməsinin tərəfdarıyam. Bu istiqamətdə yaxşı perspektivlər vardır. Biz bu münasibətləri daha da inkişaf etdirmək, yeni sahələri əhatə etmək məqsədi ilə Bolqarıstanda səfirlik açmışıq. Əminəm ki, biz siyasi, iqtisadi, nəqliyyat-kommunikasiya, humanitar və turizm sahələrində uğurlu və faydalı əməkdaşlıq edə bilərik.

Eyni zamanda, biz Bolqarıstanla həm də regional təşkilatlar çərçivəsində, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında əməkdaşlığımıza xüsusi önəm veririk. Bu əməkdaşlıq Qara dəniz – Xəzər dənizi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən dövlətlərdən biridir. Həyata keçirilən islahatlar ölkənin iqtisadi inkişafında köklü irəliləyişə nail olmağa imkan vermişdir. Qeyd etmək kifayətdir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun real artımının 20 faiz, 2006-cı ildə isə 30 faiz olacağı gözlənilir.

Azərbaycanda çox yaxşı sərmayə mühiti yaradılmışdır. Son 10 ildə Azərbaycan iqtisadiyyatına 24 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Bu, adambaşına götürdükdə, regionda ən yüksək göstəricilərdən biridir və iqtisadiyyatın daha yüksək templə inkişafına, əhalinin rifahının yaxşılaşdırılmasına, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına möhkəm zəmin yaradır. Biz eyni zamanda, Avropa və Avratlantik strukturları ilə sıx əməkdaşlıq edirik.

Azərbaycanda siyasi islahatlar, demokratikləşmə prosesi də sürətlə gedir. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə böyük nailiyyətlər qazanılmışdır.

Azərbaycan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün regionun bütün dövlətləri ilə sıx əməkdaşlıq edir. Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan bölgədə sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilat-

ların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə Bolqarıstanın da dəstəyinə ümid bəsləyirik.

Bolqarıstanla Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir, birgə səylərimizlə yeni imkanlar yaranır. Bu imkanlardan istifadə üçün müvafiq qurumlar və səfirliklərimiz sıx əməkdaşlıq etməlidir.

Hörmətli cənab Prezident!

Bolqarıstana rəsmi səfərə dəvətinizə görə bir daha Sizə minnətdarlığımı ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Bolqarıstan və Azərbaycan arasında möhkəmlənən dostluq əlaqələrinin, Bolqarıstan Respublikası xalqının, prezident Georgi Pirvanovun və xanımı Zorka Pirvanovanın şərəfinə badə qaldırmaq istəyirəm.

Sağ olun.

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA SOFİYANIN TARİXİ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*23 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Bolqarıstan prezidentinin xanımı Zorka Pirvanovanın müşayiəti ilə Sofiyanın bir çox tarixi abidələri ilə tanış olmuşdur.*

Həmin abidələr arasında müqəddəs «Aleksandr Nevski patriarx məbədi» öz əzəməti ilə daha çox diqqəti cəlb edir. Burada hörmətli qonağa məlumat verildi ki, bu nəhəng kompleks 1877–1878-ci illərdə Bolqarıstanın azadlığı uğrunda döyüşlərdə həlak olmuş qəhrəmanların şərəfinə ucaldılmışdır. Deyilənə görə, məbədin tikintisində bütün bolqar xalqı iştirak etmişdir. Dünyanın hər yerindən buraya ibadətə gəlirlər. Pravoslav müqəddəslərinin ikona və şəkilləri ilə bəzədilmiş məbəd həm də tarixi abidə kimi mühafizə olunur. Məbədlə tanışlıq zamanı Mehriban xanım Əliyevaya məlumat verildi ki, sosializm dövründə Bolqarıstanda dinə qoyulmuş qadağalarla əlaqədar məbəd bir qədər diqqətdən kənarda qalmışdı. Son vaxtlar məbədin təmiri və bərpası üçün dövlət tərəfindən tədbirlər görülməkdədir.

Məbədin dini rəhbəri Azərbaycan xalqına, onun prezidentinə və Mehriban xanım Əliyevaya firavanlıq, xoşbəxtlik, əmin-amanlıq arzuları ilə dua etdi.

* * *

*Bolqarıstanın ən qədim sənət əsərlərinin əsas hissəsinin nümayiş etdirildiyi Milli Rəssamlıq Qalereyasının bolqar incəsənəti filialı ilə tanışlıq da xoş təəssürat doğurdu. Mehriban xanım Əliyevaya burada toplanmış eksponatlar barədə ətraflı məlumat verildi. Bildirildi ki, ikonalar, freskalar, müxtəlif sənət inciləri bu ölkənin qədim tarixindən xəbər verir. X əsrdən başlayaraq, tarixin müxtəlif dövrlərində, hələ sənətin nəzəriyyəsi və sistemi mövcud olmadığı zamanlarda yaranmış həmin sənət əsərlərinin əksəriyyəti öz qeyri-adiliyi ilə diqqəti cəlb edir. Əsasən apostolların, çarların və hökmdarların təsvir edildiyi şəkillərin bəzilərində qədim Şərq üslubunun cizgiləri də açıq-aydın hiss olunur. Pavilyonlarda nümayiş etdirilən əsərlərin böyük bir hissəsi XII əsr pravoslav incəsənətinə aiddir.*

*Bizans–Tırnovo incəsənət məktəblərinin nümunələri ilə tanışlıq da böyük maraq doğurdu. Mehriban Əliyeva eksponatlara tamaşa etdi, onların yaranma tarixi ilə maraqlandı.*

* * *

*Daha sonra Mehriban xanım Əliyeva Bolqarıstanın məşhur orta əsr memarlıq və rəngkarlıq sənətini özündə geniş təcəssüm etdirən Boyana kilsəsinə gəldi. Əsrlər boyu bu bina həm tarixi abidə, həm də yerli əhalinin ibadət yeri olmuşdur. Ölkəmizin birinci xanımına məlumat verildi ki, divarlardakı rəsmlərin bir hissəsi XI əsrdə, digər hissəsi isə XIII əsrdə çəkilmişdir. XIV–XV əsrlərdə isə kilsənin divarları yeni-yeni rəsmlərlə zənginləşdirilmişdir. Maraqlıdır ki, bir neçə yüzilliklər keçməsinə baxmayaraq, həmin rəsmlər əsasən öz orijinallığını qoruyub saxlamışdır. Müharibələr zamanı dağıdılmış daş kitabələrin qalıqları da burada mühafizə olunur.*

*Mehriban xanım Əliyevaya bildirildi ki, bu tarixi memarlıq abidəsi 1979-cu ildə YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. Azərbaycan prezidentinin xanımı kilsədə aparılan*

*təmir-bərpa işləri ilə də maraqlandı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

* * *

*Həmin gün Bolqarıstan prezidentinin xanımı Zorka Pirvanova Azərbaycan prezidentinin xanımı Mehriban Əliyevanın şərəfinə nahar təşkil etdi. Söhbət zamanı Mehriban Əliyeva bu ölkədə onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*Azərbaycan prezidentinin xanımı ölkəmizdə qadın siyasətinin uğurlu nəticələrindən söhbət açdı, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Azərbaycanda həyata keçirdiyi layihələr, habelə mədəni irsin qorunmasına dövlət qayğısı ilə bağlı görülən işlər barədə məlumat verdi.*

*Bolqarıstan prezidentinin xanımı dövlətimizin başçısı İlham Əliyevin rəsmi səfərinin bütün sahələrdə olduğu kimi, iki ölkənin qadın təşkilatları, elm, mədəniyyət, təhsil qurumları arasında əlaqələrin genişlənməsinə də təkan verəcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*24 sentyabr 2005-ci il*

*Bolqarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 24-də səhər Varna şəhərinə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi və xanımını Varna şəhərinin meri Kiril Yordanov və xanımı böyük hörmətlə qarşıladılar.*

*Azərbaycan prezidentinin xanımına gül dəstəsi təqdim olundu.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Varna hava limanından maşın karvanının müşayiəti ilə birbaşa Qara dənizin sahilində yerləşən Balçik şəhərinə gəlmişdir.*

*Kompleksin müdiri Trifan Dimitrov prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladı.*

*2500 ildən çox tarixi olan Balçik kurortu Varnanın 40 kilometrliyində, mənzərəli ərazidə yerləşir. Şəhər dəniz iqlimi, termal suları və qızıl gülü ilə məşhurdur. Lakin Balçikin ən görməli yeri şəhərin mərkəzindən 1,5 kilometr aralıda yerləşən, Şərq və Avropa memarlığı üslubunda tikilmiş saraydır. 1931–38-ci illərdə Rumıniya kraliçası Mariyanın iqamətgahı olmuş üçmərtəbəli sarayın üstündə minarə ucaldılmışdır. Sarayda hər iki memarlıq*

üslubunun olması xristian və islam dinlərini yaxınlaşdırmağa çalışan kraliçanın dini baxışlarını əks etdirir.

Vaxtilə Rusiya imperiyasına, sonra isə Rumıniyaya məxsus olan bu ərazini Rumıniya SSRİ-nin təzyiqi ilə 1940-cı ildə Bolqarıstana vermişdir.

Cənab Dimitrov dövlətimizin başçısına məlumat verərək dedi ki, Botanika bağının salınmasına 1926-cı ildə Rumıniya kraliçası Mariyanın təşəbbüsü ilə başlanmış və bu iş 10 il davam etmişdir. Sarayın ətrafındakı 300 hektarlıq ərazi hündürlüyünə görə ikisəviyyəlidir.

196 hektarlıq sahədə məşhur Botanika bağı yerləşir. Burada dünyanın hər yerindən gətirilmiş 600-dən çox nadir bitki var. Qalan ərazi üzüm, meyvə bağları və istirahət zonasından ibarətdir.

Prezident İlham Əliyev və xanımı Botanika bağı ilə tanış oldular. Burada istirahət edən turistlər dövlətimizin başçısına yaxınlaşıb onunla səmimi salamlaşırdılar.

Prezident İlham Əliyev sarayla da tanış oldu, ayrı-ayrı otaqlara, kraliça Mariyanın fotoşəkillərinə, istifadə etdiyi məişət əşyalarına baxdı. Bildirildi ki, bura vaxtilə məscid, sonra kilsə kimi fəaliyyət göstərmişdir. İnsanlar istək və arzularına çatmaq üçün burada dua etmişlər.

Azərbaycan prezidentinə xatirə olaraq fotoalbom hədiyyə edildi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bağdakı şəlalənin qarşısında xatirə şəkli çəkdirdilər.

Sonra prezident İlham Əliyev həmin şəhərdə Qara dənizin sahilində yerləşən Qızılqum istirahət zonasına gəldi. Buraya dünyanın müxtəlif ölkələrindən turistlər gəlirlər və bu da təsadüfi deyildir. Çünki bura təmiz havası olan və gözəl, səliqə-sahmanlı istirahət zonalarından biridir.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva avtomobillə bütün istirahət zonasını gəzdilər.

## BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ

*24 sentyabr 2005-ci il*

*Bolqarıstanın Varna şəhərində yerləşən «Riviera Biç» hotel-kompleksində «Bolqarıstan yeni açıq ölkədir» devizi altında turizm layihəsinin təqdimatı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün buraya gəldi. Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hotel-kompleksin önündə Bolqarıstanın Mədəniyyət nazirinin müavini Dimitr Hacinikolov böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan və Bolqarıstan nümayəndə heyətləri üzvlərinin iştirak etdiyi mərasimi Dimitr Hacinikolov açaraq, ali qonağı və onu müşayiət edən şəxsləri salamladı, prezident İlham Əliyevin mərasimdə iştirakını yüksək qiymətləndirdi, belə görüşün yaddaqalan olduğunu söylədi. O, slaydlar vasitəsilə öz ölkəsinin turizm sektorunun tarixi, potensialı, qazanılmış nailiyyətlər, turizm obyektlərinin fəaliyyəti və sair barədə məlumat verdi. Bildirildi ki, son bir ildə Bolqarıstana gələn turistlərin sayı 10 faiz artaraq, 4 milyonu keçmişdir və artım meyli davam edir. Qara dəniz sahilində – Varnada və digər şəhərlərdə yerləşən istirahət yerləri, tarixi muzeylər, mədəniyyət abidələri, habelə qış turizminin inkişafı istirahətə gələnlərin sayını artırmışdır. İl ərzində ölkə turizm sektorundan 2,5 milyard dollar gəlir əldə etmiş, 170 min iş yeri açılmışdır.*

*D.Hacinikolov Azərbaycan prezidenti İlham Əliyevə Bolqarıstanın turizm yerlərinin fotoşəkillərindən ibarət albom, buklet bağışladı. O, dövlətimizin başçısının turizm sektorunun inkişafına böyük maraq göstərməsindən məmnunluğunu söyləyərək, Bolqarıstanın Azərbaycanla bu sahədə əməkdaş*

*lığa hazır olduğunu, bunun üçün ilk addımın atıldığını – sazişin imzalandığını bildirdi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Belə maraqlı təqdimata görə sağ olun. Bu, potensialınızı da, inkişafı da, imkanları da çox əyani şəkildə göstərdi. Bu dinamika ondan xəbər verir ki, turizm infrastrukturunun inkişafı istiqamətində işlər çox səmərəli gedir. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Mənim səfərim çərçivəsində çox mühüm sənədlər imzalandı və biz ümidvarıq ki, yaxın vaxtlarda ölkələrimiz arasında hava yolu açılacaq və adamlarımız arasında ünsiyyət daha canlı olacaqdır. Çünki turizm infrastrukturunu inkişaf etdirmək üçün ilk növbədə informasiya gərəkdir. İnformasiya əlyetən, geniş əhatəli olmalı və potensial turistləri başqa bir ölkəni deyil, məhz bu ölkəni seçməyə sövq etməlidir. Ona görə ki, indi dünyanın müxtəlif ölkələrində, o cümlədən də bizdə turizmin infrastrukturunun inkişafına böyük əhəmiyyət verilir. Bizdə bu hələlik başlanğıc mərhələsindədir, hərçənd potensial böyükdür – həm dəniz sahili, həm dağ turizmi, həm də tarixi yerlər vardır. Bir sözlə, biz bu sahədə sizin təcrübənizi – son beş ildə turizmin inkişafında böyük inkişafa necə nail olduğunuzu öyrənmək istiqamətində çox fəal işləyə bilərik. Eləcə də əməli baxımdan. Yəni vətəndaşlarımız sizin ölkənizə, sizin vətəndaşlarınız isə bizim ölkəmizə istirahətə gəlsinlər. Düşünürəm ki, bu baxımdan potensial çox yaxşıdır. Mənimlə birlikdə böyük bir nümayəndə heyəti, o cümlədən Turizm naziri gəlmişdir, siz onunla artıq tanışsınız. Bu sahəni inkişaf etdirməyə çalışacağıq.

Ölkənizin potensialı artır, insanların həyatı yaxşılaşır. Xaricə istirahətə gedən Azərbaycan vətəndaşlarının sayı ildən-ilə artır. Ölkəmizə gələnlərin sayı da çoxalır. Lakin müasir infrastruktur yaratmaq gərəkdir, çünki bizdə olan turizm infrastrukturu əsasən, sovet dövründən qalmadır. O, fiziki cəhətdən də, mənəvi cəhətdən də köhnəlib, xaricdən daha çox turist qrupları cəlb et-

məyə imkan vermir. İndi dəniz sahilində də, dağlıq yerlərdə də çoxlu turizm kompleksi tikilir. Mən Azərbaycanın müxtəlif guşələrində olarkən bununla maraqlanıram. Çünki bu, gəlir, məşğulluq üçün daimi mənbədir. Yeri gəlmişkən, siz bunu hər cəhətdən – sosial-iqtisadi cəhətdən də, infrastruktur cəhətdən də çox səriştəli şəkildə təqdim edə bilirsiniz. Bu, işsizlik problemini həll edir.

Ölkələrimizin əhalisinin sayı təxminən eynidir. Sizdə turizm sahəsində 170 min adam işləyir. Bunlar ancaq bilavasitə bu sahədə çalışanlardır, ancaq dolayısı ilə həmin sahə ilə bağlı olanlar da var. Bu isə çox böyük rəqəmdir. Zənnimcə, bu çox perspektivli istiqamətdir və biz səmərəli əməkdaşlıq edəcəyimizə çox ümid bəsləyirik. Ölkənizdə Azərbaycanın səfirliyi artıq fəaliyyət göstərir. Bu da münasibətlərin inkişafı üçün mühüm amildlr. Müvafiq nazirliklər, idarələr səviyyəsində birbaşa əlaqələr də var. Hökumətlərarası komissiya da mövcuddur. Bir sözlə, əməkdaşlığı inkişaf etdirəcəyik.

* * *

*Azərbaycanın Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev ölkəmizdə turizmin inkişafı ilə bağlı görüləcək tədbirlərdən danışdı, bu sahənin yüksək səviyyəyə çatdırılması üçün Azərbaycan prezidentinin tapşırıqlarına əsasən layihələr hazırlandığını, ötən il prezident Georgi Pirvanovun Bakıya rəsmi səfəri zamanı turizm sahəsində imzalanmış sənədin mühüm əhəmiyyəti olduğunu və icra edildiyini bildirdi.*

*Nazir dedi ki, son illər turizm sahəsində beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, respublikanın turizm imkanlarının təbliği sahəsində müəyyən işlər görülmüşdür. Hazırda Azərbaycan 14 ölkə ilə turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalamışdır.*

*Bildirildi ki, xarici ölkələrlə turist mübadiləsinin genişləndirilməsi, ölkəmizdə turizm şirkətlərinin və mehmanxanaların sayının artması, turizm sektorunun dünya standartları səviyyəsinə çatdırılması Azərbaycanın dünya turizm bazarına inteqrasiyası*

*istiqamətində aparılan ardıcıl işlərdir. Hazırda Azərbaycanda 245 mehmanxana və ona bərabər tutulan yerləşdirmə obyektləri vardır. Turistlərin sayı ildən-ilə artır və 2005-ci ilin birinci yarısında 678 minə çatmışdır. Dünya turizm təşkilatının məlumatına görə, xarici turist axını baxımından Azərbaycan MDB ölkələri arasında 4-cü yerdədir. Bolqarıstandan respublikamıza turistlərin sayı da artır.*

*Əbülfəs Qarayev Azərbaycanın turizmi haqqında məlumat kitablarını cənab Hacinikolova təqdim etdi.*

* * *

*«Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov çıxışında dedi ki, sırf turizm səfərləri ilə yanaşı, ticarət xarakterli gəliş-gedişləri də inkişaf etdirmək lazımdır. Bolqarıstan turistlərini Çinin Urumçi şəhərinə Azərbaycandan tranzitlə daşımaq barədə təklif almışıq. Bu, Çindən Bolqarıstana istehlak malları gətirməyə imkan verəcəkdir. Konsernin Baş direktoru mülki aviasiyanın və Turizm Nazirliyinin bütün tədbirlərdə birgə işləməsinin yaxşı nəticələr verəcəyinə əminliyini söylədi.*

* * *

*Prezident İlham Əliyev bu məsələlərin əhəmiyyətli və faydalı olduğunu, əməkdaşlığın genişləndirilməsi üçün bütün mövcud imkanlardan səmərəli istifadə etməyin zəruriliyini vurğuladı.*

*Dövlətimizin başçısı Bolqarıstanda sırf turizmlə bağlı ali məktəblərin olub-olmaması və kadrların hazırlanması ilə də maraqlandı.*

*Bildirildi ki, Sofiyada turizm üzrə ali təhsil ocaqları və peşə məktəbləri fəaliyyət göstərir, bu sahədə çalışanlar vaxtaşırı ixtisasartırma kurslarına göndərilirlər.*

* * *

*Sonra Bolqarıstanın turizm sektorunda çalışan biznesmenlər Azərbaycan prezidentinə təqdim olundular. Sahibkarlar Azərbaycanla əməkdaşlığın faydalı olacağını vurğuladılar, bu istiqamətdə onların üzərinə düşən vəzifələri icra etməyə hazır olduqlarını bildirdilər.*

*Dövlətimizin başçısına mərasimdən xatirə olaraq hədiyyə təqdim edildi.*

## Bolqarıstan milli radiosuna müsahibə

*Təqdimat mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev Bolqarıstan milli radiosunun müxbirinə qısa müsahibə verdi.*

– **Bu gün Bolqarıstan turizminin təqdimatı oldu. Siz ölkəmizin turizm infrastrukturunu necə qiymətləndirirsiniz?**

– Bu gün burada gözəl təqdimat oldu. Biz sizin ölkənizdə turizmin potensialı və inkişafı barədə məlumat aldıq, perspektivlərdən ətraflı danışdıq. Ölkələrimiz arasında çox yaxşı siyasi və iqtisadi münasibətlər var. Səfirliklər artıq işləyir, tezliklə hava xətti açılacaqdır. Ona görə də ölkələrimizdən gedən və ölkələrimizə gələn turistlərin sayı artacaqdır.

**– Bəs Azərbaycan turistlərini Bolqarıstanda nələr cəlb edəcəkdir?**

– Bütün turistlər üçün nələr maraqlıdırsa, onlar bizim turistlər üçün də maraqlıdır. Məlum olduğu kimi, burada yaxşı iqlim, dəniz sahili var, şərait yaxşıdır. Dil problemi yoxdur, hamı bir-birini başa düşür.

**– Varnaya uçuşlar həyata keçiriləcəkmi?**

– Bunu aviasiya şirkətləri həll etməlidir. Aviasiya şirkətləri arasında sənəd imzalandı. Yaxın vaxtlarda onlar ölkələrimiz arasında aviasiya marşrutları yaradılması üçün əməli tədbirləri müzakirə edəcəklər.

## Səfər başa çatdı

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sentyabrın 24-də Bolqarıstan Respublikasına ikigünlük rəsmi səfəri başa çatdı.

Varna beynəlxalq hava limanında prezident İlham Əliyevi Bolqarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, Varna şəhərinin meri Kiril Yordanov böyük hörmətlə yola saldılar.

Prezident İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XU SZİNTAOYA**

Hörmətli cənab sədr!

Milli bayramınız – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Çin arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Çox şadam ki, qədim tarixi ənənələri olan münasibətlərimiz bu gün sabit inkişaf yolundadır. Əminəm ki, dost ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi naminə qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 25 sentyabr 2005-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Nigeriya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 25 sentyabr 2005-ci il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB LANSANA KONTEYƏ**

Hörmətli cənab Prezident!

Qvineya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qvineya arasında təşəkkül tapmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 25 sentyabr 2005-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə yenidən təyin edilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz ölkələrimiz və xalqlarımız arasında yaranmış və gündən-günə inkişaf edən dostluq münasibətlərinə xüsusi əhəmiyyət veririk. Ümidvar olduğumu bildirirəm ki, əlaqələrimizin hərtərəfli genişləndirilməsi, qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2005-ci il*

# İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, KOSMONAVT ALEKSEY LEONOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında MDB-yə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının Baş hakimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, kosmonavt Aleksey Leonovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının Azərbaycanda keçirilməsinin əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyev ilə Aleksey Leonov arasında 1975-ci ilin oktyabrında keçirilmiş görüşdə iştirakını məmnunluqla xatırladı.*

*Aleksey Leonov Azərbaycana gəlməyindən böyük məmnunluq duyduğunu bildirdi. 1975-ci ildə ümummilli lider Heydər Əliyev ilə keçirdiyi görüşün indiyədək təsiri altında olduğunu söylədi. Çox böyük dahi şəxsiyyət olan Heydər Əliyev ilə görüşlərini həmişə məmnunluqla xatırladığını bildirən kosmonavt dedi ki, Heydər Əliyev keçmiş Sovetlər İttifaqında çox yüksək vəzifə tutmasına baxmayaraq, adi insanların həyatı ilə daim maraqlanırdı, onların irili-xırdalı bütün problemlərinin dərhal həll edilməsi barədə göstərişlər verirdi və buna şəxsən nəzarət edirdi.*

## TÜRKİYƏNİN TRT TELEKANALINA MÜSAHİBƏ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 26-da Prezident sarayında Türkiyənin TRT telekanalının «Türk–erməni məsələsi tarixi mənbələrdə» mövzusunda çəkdiyi sənədli film üçün müsahibə vermişdir. Dövlətimizin başçısı qondarma «erməni soyqırımı» məsələsi, ermənilər tərəfindən azərbaycanlılara və türklərə qarşı törədilmiş soyqırımının tarixi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə suallara cavab vermişdir.*

## «KEÇİD İQTİSADİYYATLI ÖLKƏLƏRDƏ BMT-nin MİNİLLİYİN İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASINDA RƏQABƏT SİYASƏTİNİN ROLU» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan torpağında ürəkdən salamlayır və konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Bu gün bəşəriyyət qarşısında duran qlobal problemlərdən biri də yoxsulluqdur. Bu problemin həllinin müzakirəsi məqsədi ilə 2000-ci ildə Nyu-York şəhərində Birləşmiş Millətlər Təşkilatının keçirdiyi Sammitdə Azərbaycan Respublikasının da qoşulduğu Minilliyin İnkişaf Məqsədləri təsdiq edilmişdir.

Digər keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da Minilliyin İnkişaf Məqsədlərinin reallaşması, o cümlədən insanların həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması istiqamətində zəruri tədbirlər həyata keçirilir, bütövlükdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədi ilə vacib islahatlar aparılır. Onların içərisində sahibkarlığın inkişafı, ölkədə azad rəqabət mühitinin yaradılması, bu sahədə mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, eləcə də qanunvericilik bazasının təkmilləşdirilməsi kimi məsələlər mühüm yer tutur.

Hesab edirəm ki, Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının dəstəyi ilə keçirilən bugünkü beynəlxalq konfransda rəqabətin inkişafı, inhisarçılıq fəaliyyətinin tənzimlənməsi, istehlakçıların hüquqlarının qorunması ilə bağlı mövcud problemlər ətraflı müzakirə ediləcək və onların həlli istiqamətində qiymətli təkliflər irəli sürüləcəkdir. Əminəm ki,

konfransın yekunları yoxsulluqla mübarizəyə əhəmiyyətli töhfə verəcəkdir.

Bir daha hamınızı salamlayır və konfransın işinə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 sentyabr 2005-ci il*

## BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2005-ci il*

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bakıda keçirilən «Yeni təhlükəsizlik şəraitində qadınların rolu: gender amilinin strateji əhəmiyyəti» mövzusunda beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

**İ l h a m  Ə l i y e v:** Mən sizi Azərbaycanda salamlamaq istəyirəm və çox şadam ki, bu cür vacib beynəlxalq konfrans ölkəmizdə keçirilir. Fikrimcə, həmin tədbirin Azərbaycanda keçirilməsi çox əhəmiyyətlidir. Çünki konfrans çərçivəsində çox vacib mühüm məsələlər müzakirə edilmişdir. Xüsusən də nəzərə alsaq ki, bizim regionda, Cənubi Qafqaz regionunda münaqişələr mövcuddur, problemlər hələ də qalmaqdadır. Ölkələr arasında sülh və sabitliyin bərqərar olunmasında qadınların rolunun böyük əhəmiyyəti vardır. Azərbaycan yeni müstəqil ölkədir. Ölkəmiz problemlərdən, münaqişədən və vətəndaş müharibəsindən əziyyət çəkmişdir. Biz torpaqlarımızın işğalından bu gün də əziyyət çəkməkdəyik. İşğal nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Əlbəttə ki, bu, ölkəmiz, xalqımız və xüsusən də ailələr üçün fəlakətdir.

Qadınlar uşaqların təhsil almasında, ailənin rifahında çox mühüm rol oynayırlar. Beləliklə, onlar həm də ailə məsələləri baxımından böyük əziyyət çəkirlər. Mən bilirəm ki, siz bu məsələləri müzakirə edəcəksiniz, qaçqın-köçkünlərlə görüşləriniz olacaqdır. Bu, ən böyük problemlərdən biridir. Əfsuslar olsun ki, Qafqazda hələ də sülh bərqərar olunmayıbdır.

Qadınların ölkələr və xalqlar arasında əlaqələrin qurulmasında oynadığı rol çox mühümdür. Azərbaycanda biz gender məsələsinə çox böyük diqqət yetiririk və qadınların parlamentimizdə, digər təşkilatlarda təmsil olunması səviyyəsi kifayət qədər yüksəkdir. Qadınlar eyni zamanda çox fəaldır. Bu amil ölkəmizin normal demokratik inkişafının təzahürüdür. Fikrimcə, bu tədbir məsələləri birgə müzakirə etmək, Azərbaycanla tanış olmaq, habelə daha fəal münasibətlərin qurulması üçün önəmli bir fürsətdir.

Mən bilirəm ki, sizlərdən bir çoxu Azərbaycana ilk dəfədir səfər edir. Bir sözlə, inkişaf edən ölkə kimi, Azərbaycanı görmək, problemlərimiz və uğurlarımızla tanış olmaqdan ötrü yaxşı bir imkandır.

Münaqişə faktına baxmayaraq, ölkəmizin iqtisadi və sosial inkişafı çox müsbətdir. Hazırda ölkəmizdə olduqca böyük iqtisadi artım müşahidə edilməkdədir. Beynəlxalq Valyuta Fondunun verdiyi məlumata görə, Azərbaycan 2005-ci ildə dünyada ən böyük iqtisadi artım göstəricisinə nail olacaqdır. Bu nailiyyət iqtisadi islahatlar, transmilli layihələr sayəsində mümkün olmuşdur. Azərbaycana qoyulmuş çoxmilyardlı sərmayələr ölkəmizi belə sürətlə inkişaf etdirməyə əsas yaratmışdır.

Lakin eyni zamanda, problemlər də var. İlk növbədə, işsizlik və yoxsulluq problemi mövcuddur. Biz müxtəlif beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı ilə yoxsulluğun azaldılması proqramı çərçivəsində çox fəal işləyirik. İl yarım ərzində yoxsulluq şəraitində yaşayan insanların sayı 10 faiz azalmışdır. Bundan başqa, son iki il ərzində Azərbaycanda 300 min iş yeri yaradılmışdır. Bunlar əsasən qeyri-neft sektorunda, rayonlarda açılmışdır. Mən tez-tez rayonlara səfər edir və bir daha şahidi oluram ki, bu iş yerlərinin əksər hissəsi qadınlar tərəfindən tutulmuşdur. Bu, Azərbaycanın yürütdüyü Avropaya inteqrasiya siyasəti baxımından çox vacibdir.

Səhiyyə və təhsil sahələrinə gəldikdə, deyə bilərik ki, burada çalışan işçilərin əsas hissəsini qadınlar təşkil edir. Hazırda biz bu sahələrdə böyük proqramları həyata keçirməkdəyik. Bu yaxınlarda biz yüzlərlə yeni xəstəxana və məktəb tikməyi planlaş-

dırırıq və insanların gündəlik həyatını daha da yaxşılaşdırmaq əzmindəyik. Problemlərimiz haqqında danışmaqla sizin vaxtınızı çox almaq istəməzdim. Mən çox danışa bilərəm, lakin bir daha sizi salamlayır və deyirəm ki, bu konfransın keçirilməsindən razıyam və otağımda belə çox sayda gözəl qadınları görməkdən də çox məmnunam. Zənnimcə, bu mənim həyatımda yeganə belə bir fürsətdir.

**Nilhus Qirlend** (*NATO-nun ictimai diplomatiya sektorunun rəhbəri*): Cənab Prezident, konfrans iştirakçılarını qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Konfransın Azərbaycanda keçirilməsi ilə bağlı prezident İlham Əliyevin söylədiyi fikirlərlə tam razılaşdığımı bildirirəm. Azərbaycanla NATO arasında olan münasibətlər nəinki siyasi və hərbi sahələrdə, həm də elm, ətraf mühit, gender məsələsi və ictimai diplomatiya sahəsində də inkişaf etməkdədir.

**Barbel Koffler** (*Almaniya Bundestaqının deputatı, Almaniya–Qafqaz parlament dostluq qrupunun üzvü*): Bir yerdə görüşmək və vacib məsələləri müzakirə etmək üçün onlara yaradılmış imkana görə prezident İlham Əliyevə təşəkkür edirəm. Cənab Prezident, bu gün biz sülhün və sabitliyin bərqərar olunmasında və təhlükəsizliyin möhkəmləndirilməsində qadınların oynadığı mühüm rolu nəzərdən keçirdik. Bizə yaradılmış şəraitə və göstərilmiş qonaqpərvərliyə görə Sizə minnətdarıq.

**İlham Əliyev:** Xoş sözlərə görə minnətdarlığımı bildirirəm. Mən bu konfransda müxtəlif təşkilatların təmsilçilərinin iştirak etməsindən məmnun olduğumu bir daha vurğulamaq istərdim.

Azərbaycan bir çox beynəlxalq təşkilatlarla – Avropa İttifaqı, Avropa Şurası, NATO və ölkəmizdə fəaliyyət göstərən müxtəlif qeyri-hökumət təşkilatları ilə fəal əməkdaşlıq aparır. Bir çox illər ərzində Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak etmişdir və indi «Fərdi tərəfdaşlığın fəaliyyət planı»na doğru addımlar atmağa başlamışdır. Cari ilin aprel ayında mən NATO-nun qərargahında oldum və «Fərdi tərəfdaşlığın fəaliyyət planı» ilə bağlı sənədləri NATO-ya təqdim

etdim. Bu sahədəki işlər hazırda uğurla aparılır. Bu əməkdaşlıq bizim üçün çox vacibdir. Çünki bu istiqamətdə təşkil olunan və Azərbaycan hərbçilərinin də iştirak etdikləri bir çox treninq və təlimlər infrastrukturun möhkəmlənməsinə xidmət edir.

Bildiyiniz kimi, Azərbaycan əsgərləri Kosovo, Əfqanıstan və İraqdakı müxtəlif sülhyaratma əməliyyatlarında iştirak edirlər. Beynəlxalq koalisiyanın üzvü olaraq onlar həmin bölgələrdə sülh və sabitlik yaradılmasına öz töhfələrini verirlər.

Bir sözlə, bu konfrans hər baxımdan önəmli bir tədbirdir. İlk növbədə burada bir çox ölkələrin və təşkilatların nümayəndələrini görürük. Bu, yerli həmkarlarla əlaqələrin qurulması üçün imkanlar yaradır. Tədbir hamımız üçün vacibdir.

Azərbaycan gənc, müstəqil dövlətdir. Baxmayaraq ki, Azərbaycanın çox zəngin tarixi və adət-ənənələri var, beynəlxalq birliyin üzvü kimi, ölkəmiz on ildən bir az çox müddətdir formalaşmağa başlamışdır. Bu səbəbdən Azərbaycan haqqında məlumatı olanların sayı da çox deyildir. Oxumaq və ya eşitmək bir şey, gəlib görmək başqa məsələdir. Bizim müasirləşmə planlarımız var. Azərbaycan cəmiyyəti tolerantdır, çoxmillətli ölkədir. Burada bütün millətlərin və dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycan milli və dini dözümlülük baxımından region üçün yaxşı nümunə ola bilər. Ölkəmizdə sabitlik, əmin-amanlıq və iqtisadi yüksəliş var. Sosial məsələlər həll olunmaqdadır. Son il yarım ərzində minimum əməkhaqqı üç dəfə artırılmışdır və bu proses davam edir. Ona görə də biz hər sahədə çox güclü irəliləyişə nail olmuşuq və beynəlxalq təşkilatlarla, qeyri-hökumət və hökumət təşkilatları ilə daha geniş əməkdaşlıq etmək arzusundayıq. Buna böyük ehtiyac var. Çünki biz regional layihələrdə yaxından iştirak edirik və bütün layihələrdə qadınların rolu çox vacibdir. Bəzi hallarda hətta həlledicidir. Biz həyatımızı qadınlarsız təsəvvür edə bilmərik. Bir daha sizi salamlayır, uğurlar arzulamaq istəyir, ölkəmizdə yaxşı günlər keçirməyi diləyirəm.

## FİNLANDİYANIN «YULESRADİO» DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN MÜXBİRLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Finlandiyanın «Yulesradio» Dövlət Teleradio Şirkətinin müxbirlərinə müsahibə vermişdir. AzərTAc həmin müsahibənin mətnini oxuculara təqdim edir.*

**– Cənab Prezident, Sizcə Finlandiya–Azərbaycan biznes forumu ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə necə təsir göstərəcəkdir?**

– Düşünürəm ki, bu, ölkələrimizin iqtisadi münasibətlərində mühüm hadisə olacaqdır. Təəssüf ki, bizim iqtisadi əlaqələrimiz hələlik o qədər də fəal inkişaf etmir, halbuki yaxşı imkanlar, yaxşı potensial var. Ölkəmiz iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Bu il iqtisadiyyatda artım 20 faizdən çox olacaqdır. Gələcəkdə bu sürət artacaqdır. İqtisadiyyatın yeni istiqamətləri, yeni sektorları yaranır. Son il yarımda ölkəmizdə 300 min iş yeri yaradılmışdır. Ona görə də güclü iqtisadi ölkə kimi, Azərbaycanın potensialı artacaqdır. Ölkələrimiz arasında çox möhkəm iqtisadi əlaqələrin yaranması üçün biz bu imkanlardan istifadə etmək istərdik. Finlandiya prezidentinin ölkəmizə səfəri çərçivəsində keçirəcəyimiz biznes forumu, zənnimcə, ilk belə addım olacaqdır. İqtisadi əməkdaşlığa əməli surətdə başlamaqdan ötrü dövlət strukturlarının və özəl biznesin bir-birini tanıması, imkanları və potensialı öyrənməsi üçün yaxşı fürsət olacaqdır.

**– Noyabrda sizdə parlamentə seçkilər keçiriləcəkdir. Siz seçkilərədək müxalifətdən nə kimi hərəkətlər gözləyirsiniz?**

– Seçkilər ölkənin həyatında mühüm məqamdır. Düşünürəm ki, parlament seçkiləri çox uğurlu keçəcəkdir. Artıq iki aydır kampaniya başlayıb, proses çox müsbət gedir. Namizədlərin qeydiyyatı göstərdi ki, seçkilərə çox böyük maraq var. 2 mindən

çox adam namizəd kimi qeydə alınıb, parlamentdə isə cəmi 125 yer var. Bu onu göstərir ki, insanlar seçkilərin demokratik, ədalətli və şəffaf keçəcəyinə inanırlar. Beş il əvvəl parlament seçkilərində 400 namizəd vardı, indi isə onlar iki min nəfərdən çoxdur. Qeydiyyat prosesi çox uğurla keçdi və heç bir irad doğurmadı. Seçkiqabağı kampaniya prosesi də çox müsbət gedir, bütün kütləvi informasiya vasitələrində namizədlərin hamısına bərabər vaxt verilmişdir. Siyasi baxışlarından və platformasından, ümumiyyətlə, öz şəxsi potensialından asılı olmayaraq, deputatlığa hər bir namizəd həm pulsuz efirdə, həm də ödənişli efirdə bərabər imkanlara malikdir. Bir sözlə, əminəm ki, kampaniyanın ikinci mərhələsi də çox uğurlu keçəcəkdir.

O, artıq başlanmışdır. Ölkənin rayonlarında da təşviqat aparılır, bütün rayonlarda seçicilərlə binalarda, açıq meydanlarda görüşlər keçirmək üçün yerlər müəyyən edilmişdir. Problem yoxdur.

Bu başqa məsələdir ki, Azərbaycanda bəzi qüvvələr seçkilərdən vəziyyətin sabitliyini pozmaq üçün istifadə etmək istəyirlər. Bax, bu çox həyəcan doğuran haldır və burada heç də hər şey hakim partiyadan və ya iqtidardan asılı deyildir. Biz bəzi radikal qüvvələrin bilərəkdən fitnəkarlığa, toqquşmalara getməyəcəklərinə təminat verə bilmərik. Buna qarşı qoya biləcəyimiz bir şey varsa, o da cəmiyyətin belə hallara çox mənfi münasibət göstərməsidir, habelə qanunsuz əməllərin qarşısını almaq üçün malik olduğumuz imkanlardır.

Azərbaycanda seçkiqabağı kampaniya aparmaq, öz deputatını və özünü təşviq etmək üçün hər cür şərait yaradılmışdır. Odur ki, şüurlu surətdə fitnələr törətməkdə məqsəd, əlbəttə, ölkədə ajiotaj yaratmaq və bununla da özlərinin hansısa niyyətlərinə nail olmağa çalışmaqdır. Ədalətli mübarizədə, açıq mübarizədə gərək çalışasan ki, insanlar sənə inansın və səs versinlər, bunu toqquşmalar yolu ilə etmək lazım deyildir.

**– Eşitmişik ki, burada hansısa xırda toqquşmalar, qanunsuz mitinqlər olmuşdur və burada da Ukraynadakı kimi inqilab etmək istəyən qüvvələr var. Onlar bunu geniş miq-**

**yasda etməyə hazırlaşırlar, yoxsa bu, yalnız kiçik bir qrupdur?**

– Bu, siyasi uğursuzların kiçik bir qrupudur. Onlar 1992-1993-cü illərdə Azərbaycana başçılıq etmiş, hakimiyyətdə olmuş və ölkəni dağıtmış insanlardır. Buna görə də onların hakimiyyəti cəmi bir il çəkdi. Bir ildən sonra insanlar dözmədi və onlar hakimiyyətdən uzaqlaşdırıldı. Artıq 12 ildir onlar müxalifətdədir və hakimiyyətə gəlməyə can atırlar, lakin cəhdləri uğursuzluqla nəticələnir. Onlar 1993-cü ildən 2003-cü ilədək keçirilmiş bütün parlament və prezident seçkilərini uduzmuşlar. Biz ölkədəki vəziyyəti və imkanları real surətdə qiymətləndiririk. Aparılmış ictimai rəy sorğuları, o cümlədən mötəbər beynəlxalq təşkilatların keçirdikləri sorğular göstərir ki, prezidentin və bizim hakim partiyanın dəstəklənməsinin səviyyəsi yüksəkdir. Ona görə də biz Gürcüstanda və Ukraynada baş verənlərin burada da olacağını gözləmirik. Bir də ona görə ki, ölkəmizdə sosial məsələlər uğurla həll edilir – son iki ildə bizdə əməkhaqqı bir neçə dəfə qaldırılmışdır, pensiyalar artırılır, büdcə 2004-cü ildən 2005-ci ilədək 2,5 dəfə artmışdır. Bu il əhalinin real gəlirləri 25 faiz, banklardakı əmanətləri 50 faiz artmışdır. Hər yerdə tikinti gedir, inkişaf var.

Dediyim kimi, son il yarımda 300 min iş yeri yaradılmışdır. Bu, 8 milyon əhalisi olan ölkə üçün rekord rəqəmdir. Ona görə də belə şəraitdə müxalifətin iqtidar üçün problemlər yaratmağa böyük imkanları yoxdur. Onlar nə edə bilərlər – onlar qadağan olunmuş yerlərdə qanunsuz mitinq keçirə və bununla da hüquq-mühafizə orqanlarını cavab hərəkətlərinə sövq edə bilərlər.

Azərbaycanda bütün seçkiqabağı kampaniyalarda – prezident seçkilərində də, parlament seçkilərində də – mitinqlər keçirilən bir neçə yer olmuşdur. Bunlar şəhərin iri meydanlarıdır. Mən də orada seçkiqabağı mitinqlər – həm parlament, həm prezident seçkiləri zamanı, həm də başqa vaxtlarda mitinqlər keçirmişəm. 1998-ci ildə də, 2000-ci ildə də, 2003-cü ildə də belə olmuşdur. Bu dəfə də belə olmuşdur – elə həmin meydanda biz öz mitinqimizi, müxalifət öz mitinqini keçirtdi və bu, normal, qa-

nuni idi, meriya da icazə vermişdi. İndi müxalifət görəndə ki, heç bir problem yoxdur və onların mitinqlərinə getdikcə daha çox az adam gəlir, onlar şəhərin mərkəzində meydan tələb edirlər. Halbuki bu meydan sahəsinə görə onların mitinqlər keçirdiyi meydandan beş dəfə kiçikdir. Nə üçün bunu edirlər? Onlar başa düşürlər ki, Bakı şəhərinin hakimiyyət orqanları buna icazə verməyəcək, çünki orada hərəkət intensivdir, adamların çox olduğu yerdir, orada çoxlu yaşayış evləri, mağazalar var. Orada mitinqlər keçirmək mümkün deyildir. Onlar başa düşürlər ki, hakimiyyət icazə verməyəcək, deməli, bu halda onlar mitinqi qanunsuz keçirəcəklər, hakimiyyət də bunun qarşısını alacaqdır. Bundan sonra onlar deyəcəklər ki, baxın, Azərbaycanda demokratiyanı boğurlar. Demək istəyirəm ki, bu, sırf fitnəkarlıqdır və biz ondan sığorta olunmamışıq.

Düşünürəm ki, buna çox mənfi yanaşan ölkə ictimaiyyəti, habelə Azərbaycanda artıq çox olan beynəlxalq müşahidəçilər bunu görürlər və adekvat qiymətləndirməlidirlər.

**– Necə bilirsiniz, başqa ölkədən yardım alan qruplar varmı?**

– Bu barədə danışmaq mənim üçün çətindir. Əlbəttə, bizdə müəyyən informasiya var, bu informasiya çox geniş, müxtəlif səpkilidir və müxtəlif mənbələrdəndir. Əlbəttə, belə halların olduğu barədə də siqnallar və informasiya var. Lakin mənim bununla məşğul olmaq üçün hələlik real arzum yoxdur. Heç nəyə, heç bir maliyyə yardımına baxmayaraq, müxtəlif ölkələrdə elə qüvvələr var ki, onlar Azərbaycanın normal inkişaf etməsini, iqtisadi potensialının möhkəmlənməsini, Avropa strukturlarına inteqrasiya etməsini, müasir, demokratik dövlət olmasını istəmirlər. Bu qüvvələr Azərbaycanda sabitliyi pozmaq, Azərbaycanda yenidən qarmaqarışıqlığın, anarxiya və hərki-hərkiliyin hökm sürməsi üçün hər şey etməyə hazırdırlar. Mən buna yol verə bilmərəm. Mən təhlükəsizliyin, Konstitusiyanın təminatçısıyam. Mən xalq tərəfindən seçilmiş prezidentəm. Ona görə də Azərbaycanda sabitliyin, qayda-qanunun və normal demokratik prosesin davam etməsi üçün hər şeyi edəcəyəm. Maliyyə cəhətdən

vəziyyəti sarsıtmaq üçün göstərilən bütün cəhdlər isə əbəsdir. Azərbaycanda nə isə planlaşdıranlar başa düşməlidirlər ki, buna yol verməyəcəyik, biz normal siyasi prosesin tərəfdarıyıq və həyatımıza müdaxilə olunması ilə bağlı bütün məsələləri çox dəqiq şəkildə izləyirik.

**– ATƏT Cənubi Qafqazda sabitliyin təmin olunmasında necə iştirak edə bilərdi?**

– Cənubi Qafqazda qeyri-sabitliyin başlıca ocağı Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzüdür. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi erməni işğalı altındadır, etnik təmizləmə siyasəti aparılmış və 1 milyon azərbaycanlı öz torpağında qaçqın-köçkünə çevrilmişdir. Bu fakt BMT tərəfindən tanınmışdır. BMT dörd qətnamə qəbul edərək, erməni qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bu faktı cari ilin yanvarında qətnamə qəbul etmiş Avropa Şurası tanımışdır. Qətnamədə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, etnik təmizləmə siyasəti aparmış, ərazimizi işğal etmişdir və bir milyon insan evsiz-eşiksiz qalmışdır.

Bu yaxınlarda ATƏT buraya faktaraşdırıcı qrup göndərmişdi. Bu qrup Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin kütləvi surətdə qanunsuz məskunlaşdırıldığını – minlərlə adamın qanunsuz olaraq məskunlaşdırıldığını aşkara çıxarmışdır. Bunun aşkar edilməsi müsbət faktdır. ATƏT münaqişənin həllində Ermənistanla Azərbaycan arasında vasitəçilik edən təşkilatdır. Ona görə də bu məsələdə ATƏT-in rolu həlledicidir, bu təşkilatdan çox şey asılıdır. Münaqişənin nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən də çox şey asılıdır. Ümidvarıq ki, ATƏT və digər beynəlxalq təşkilatlar Ermənistanın ərazimizi 10 ildən çoxdur işğal altında saxlamasına və bunun cəzasız qalmasına çox sərt reaksiya verəcəklər. Təcavüzkara qarşı çox sərt sanksiyalar tətbiq olunmalıdır. Biz bu gün, XXI əsrdə mağara dövrünün – bir ölkənin digər ölkəyə qarşı təcavüzünün və onu işğal etməsinin cəzasız qaldığı dövrün ideologiyası ilə yaşaya bilmərik. Biz məsələni sülh yolu ilə, da-

nışıqlar yolu ilə həll etmək istəyirik. Lakin bunun mümkün olmadığını gördükdə, bizim başqa seçimimiz qalmır. Ona görə də Azərbaycanda hərbi xərclər artır, gələn il biz müdafiə xərclərini iki dəfə artıracağıq və bu, böyük məbləğ olacaqdır. Gələcəkdə isə müdafiə xərclərimiz Ermənistanın bütün büdcəsi qədər olacaqdır. Yəni, bizi belə tədbirlərə əl atmağa məcbur etmək lazım deyildir. Biz bunu istəmirik, biz Qafqazda sülh olmasını istəyirik, ölkəni həm iqtisadi, həm də siyasi cəhətdən normal inkişaf etdirmək istəyirik. Lakin biz işğalla razılaşa bilmərik. Ona görə də bu münaqişənin həllində başlıca rol ATƏT-ə və onun həmsədrlərinə məxsusdur. Zənnimcə, onlar bu məsələyə ədalətlə yanaşmalı və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər.

**– İndi Siz Ermənistanla razılığa gəlməyə imkanlar olduğunu görürsünüzmü?**

– Əlbəttə, imkanlar var və onlardan istifadə etmək çox asandır. Sadəcə olaraq, səy göstərmək və yalnız beynəlxalq hüquqa əsaslanmaq lazımdır. Hər bir ölkənin ərazi bütövlüyü beynəlxalq hüququn ayrılmaz tərkib elementidir. Biz tələb edirik ki, beynəlxalq hüquq normalarına riayət edilsin, Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxsın, vətəndaşlarımız öz evlərinə, öz torpağına qayıtsınlar, Dağlıq Qarabağda yaşayan ermənilərə mövcud olan ən yüksək muxtariyyət verilsin. Bilirik ki, Avropada muxtariyyətin çox müsbət təcrübəsi var, müxtəlif ölkələrdə milli muxtariyyətlər, milli azlıqlar var və onlar normal surətdə yaşayırlar. Burada heç bir ixtira, kəşf yoxdur. Biz bu məsələdə dünyanın, Avropanın müsbət təcrübəsini əxz etməliyik. Amma Ermənistan deyəndə ki, Dağlıq Qarabağ erməniləri öz müqəddəratını təyin etməlidirlər, bu, dünya ictimaiyyətinin şüurlu surətdə aldadılması deməkdir. Çünki ermənilər bir millət kimi, öz müqəddəratını təyin etmişlər – onların Ermənistan dövləti var. Onlar yaşadıqları hər yerdə öz müqəddəratını təyin etsələr, təsəvvür edin ki, nələr baş verər. Ermənilər isə Fransada, Amerikada, Rusiyada, Gürcüstanda – hər yerdə yaşayırlar. Yəni, onların yaşadıqları hər bir ölkədə erməni dövləti olmalıdır?

Bu cəfəngiyatdır. Ona görə də bu məsələnin normal, sivilizasiyalı həlli üçün, dünyada sivilizasiyalı davranış üçün Ermənistan başa düşməlidir ki, bu gün XXI əsrin məsələlərini mağara dövrünün ideologiyası ilə həll etmək olmaz. Onların mövqeyinin gələcəyi yoxdur. Çünki beynəlxalq hüquq bizim tərəfimizdədir, siyasi proseslər bizim tərəfimizdədir, iqtisadi potensial da bizim tərəfimizdədir və biz öz məqsədimizə nail olacağıq. Ona görə də məsələnin həlli çox sadədir – Ermənistan rəhbərliyi özündə təpər tapmalı və işğal edilmiş ərazilərdən çıxmalı, yaşayış üçün, o cümlədən də öz xalqı üçün normal şərait yaratmalıdır. Onda kommunikasiyalar, sərhədlər də açılacaq, yüklər ölkələrimizin əraziləri ilə daşınmağa başlayacaq və normal proses gedəcəkdir. Bu çox asandır, amma hələlik qeyri-mümkün görünür. Lakin ümidvaram ki, biz bunun baş verəcəyi günü tezliklə görəcəyik.

**– Azərbaycan ilə ABŞ arasında əməkdaşlığa dair planlar varmı?**

– Bizim əməkdaşlığımız olduqca çoxşaxəlidir. Biz energetika sahəsində fəal əməkdaşlıq edirik və ABŞ hökumətinin dəstəyi ilə dünyada ən iri enerji layihəsini həyata keçiririk. İndi bu layihə Azərbaycanda gerçəkləşdirilir. Biz regionda təhlükəsizliyin təmin olunması məsələlərində, habelə, antiterror koalisiyasında fəal əməkdaşlıq edirik. Əməkdaşlığımızın daha bir istiqaməti ölkədə və regionda gedən siyasi prosesləri təkmilləşdirməkdən ibarətdir. Bütün istiqamətlərdə əməkdaşlığımız çox fəaldır və onun artıq böyük tarixi var. Azərbaycanın müstəqilliyə qovuşduğu vaxtdan, təxminən 1993–1994-cü illərdən əməkdaşlıq çox dinamik gedir. Biz bu səviyyədən çox məmnunuq.

**– Siz hərbi bazalar haqqında danışıqlar aparırsınızmı?**

– Yox, yox. Belə danışıqlar, planlar yoxdur. Mən bu mövzuda dəfələrlə danışmışam. Bunu Amerikanın rəsmi şəxsləri də demişlər. Belə planlar yoxdur. Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici baza yoxdur. Ermənistanda Rusiyanın hərbi bazası var, Ermənistanın sərhədini Rusiyanın sərhəd qoşunları qoruyurlar.

Gürcüstanda da Rusiyanın bazası var. Lakin bu baza Gürcüstandan çıxarılır, Ermənistanda isə möhkəmləndirilir. Azərbaycanda heç bir baza yoxdur və biz bunun mümkünlüyünü nəzərdən keçirmirik. Bu, danışıqlar mövzusu deyildir. Bizim bütün ölkələrlə çox yaxşı münasibətlərimiz var.

**– Deyirlər ki, korrupsiya ölkənizdə çox böyük problemdir. Siz bu təzahürlə necə mübarizə aparmaq fikrindəsiniz?**

– Korrupsiya böyük bəladır, keçmiş Sovet İttifaqının bütün respublikalarını bürümüşdür. Nəzər salsaq görərik ki, bu ölkələrin hamısında həmin problem çox aktualdır. Bunu yaşadığımız sistem – sosializm sistemi və planlı iqtisadiyyat sistemi, daim qıtlıq və bürokratiyanın olduğu sistem doğurmuşdur. Müstəqilliyin əldə edildiyi dövr Azərbaycanda böyük sarsıntılarla bağlı olmuşdur – işğal da, çox böyük sayda qaçqınlar-köçkünlər də, vətəndaş müharibəsi də, yoxsulluq da olmuşdur. Bütün bu amillər korrupsiya ilə mübarizənin daha səmərəli olmasına imkan verməmişdir. Çünki əhalinin əksər hissəsinin yoxsulluq içində yaşadığı, əməkhaqqının çox az olduğu vaxtda korrupsiya ilə mübarizə aparmaq son dərəcə çətindir. Hər şey dövlət mülkiyyətində olduğu vaxtda da çətindir.

Ona görə də atdığımız ciddi əməli addımlarla yanaşı – məsələn, Azərbaycanda korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə üzrə xüsusi idarə yaradılmış və o bir çox korrupsiyaçıları üzə çıxarmış və onlar məsuliyyətə cəlb edilmiş və artıq həbsdədirlər – iqtisadi islahatlar, özəlləşdirmə, özəl sektorun möhkəmlənməsi prosesi də əhəmiyyətlidir. O mənada ki, iqtisadiyyat məmurlardan, bürokratlardan asılı olmasın. Biz yalnız bu yolla səmərəli mübarizə apara bilərik. Çünki bir məmurun başqa bir məmurla əvəz edilməsindən heç nə çıxmaz. Bəlkə də müvəqqəti səmərə olar, lakin uzunmüddətli səmərə olmayacaqdır. Korrupsiyanın başlıca səbəbi bizim keçmişimizlə, totalitar sistemlə, əhalinin həyat səviyyəsinin aşağı olması, çox böyük sayda insanların yoxsulluq içində yaşaması ilə, habelə dövlət orqanlarının iqtisadiyyata təsiri ilə bağlıdır. Ona görə də biz müxtəlif istiqamətlərdə iş aparırıq.

Azərbaycanda özəlləşdirmə prosesi çox fəal gedir. Bizdə ümumi daxili məhsulun təxminən 75 faizi özəl sektorda istehsal edilir. Özəl sektorda korrupsiya yoxdur. Özəl müəssisədə korrupsiya yoxdur, aldatma yoxdur, oğurluq yoxdur, çünki o, şəxsi mülkiyyətdir. Biz daha tam özəlləşdirmə, dövlətsizləşdirmə və güclü orta sinif yaratmaq prosesinə nail olduqdan sonra korrupsiya, əlbəttə, kəskin surətdə azalacaqdır. Lakin digər tərəfdən, heç kim – dünyanın heç bir ölkəsi korrupsiyaya tam qalib gələ bilməmişdir. Bəzi ölkələr daha böyük, bəzi ölkələr isə daha az müvəffəqiyyətə nail olmuşlar. Lakin korrupsiya elə bir xəstəlikdir ki, o, bütün cəmiyyətlərə, hətta ən inkişaf etmiş və ən demokratik cəmiyyətlərə də yoluxur.

**– Daha bir sual. Azərbaycanı Finlandiyanın hansısa xüsusi texnologiyaları, məhsulları maraqlandırırmı?**

– Bunu demək mənim üçün çətindir, çünki bunu biznes dairələri yəqin ki, daha yaxşı bilir. Azərbaycanın dünya iqtisadiyyatının bir hissəsinə çevrildiyi, öz qapılarını sərmayələr və texnologiyalar üçün açdığı indiki vaxtda, əlbəttə ki, müxtəlif ölkələrin texnologiyaları və məhsulları üçün də açmışdır.

Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan regionda birinci yeri tutur – son 10 ildə Azərbaycana 25 milyard dollar sərmayə qoyulmuşdur. Adambaşına götürdükdə, bu ən yüksək göstəricidir. Bizdə çox yaxşı sərmayə mühiti var, xarici sərmayələr qanunla çox güclü şəkildə qorunur. Ona görə də indiki halda Finlandiyadan sərmayə, yeni texnologiyalar cəlb edilməsi qarşılıqlı surətdə faydalı olardı. İqtisadiyyatın məhz hansı istiqamətində daha çox maraqlı olduğumuzu söyləmək indi mənim üçün çətindir. Düşünürəm ki, biznes forumu çərçivəsində bu barədə daha çox məlumat əldə edəcəyik.

**– Sağ olun.**

## FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM TARYA HALONENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*29 sentyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Finlandiya Respublikasının prezidenti xanım Tarya Halonen sentyabrın 29-da ölkəmizə ikigünlük rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Finlandiya Respublikasının prezidenti Tarya Haloneni və həyat yoldaşı Pentti Arayarvini Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov, digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Finlandiya rəhbərinə və həyat yoldaşına gül-çiçək təqdim etdilər.*

*Qarşılanma mərasimindən sonra Finlandiya prezidenti Tarya Halonen ilə Azərbaycanın Baş naziri Artur Rasizadə arasında qısa protokol görüşü oldu.*

*Finlandiya prezidenti hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Sentyabrın 29-da Prezident sarayında Finlandiya Respublikasının prezidenti xanım Tarya Halonenin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Finlandiya prezidenti xanım Tarya Haloneni və həyat yoldaşı Pentti Arayarvini böyük hörmət və səmimiyyətlə qarşıladılar.*

*Fəxri qorovul dəstəsinin rəisi Finlandiya prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Finlandiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və xanım Tarya Halonen fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Finlandiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Finlandiya prezidenti xanım Tarya Halonenə, Finlandiya nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

* * *

*Sentyabrın 29-da, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Finlandiya prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev Finlandiya prezidenti Tarya Haloneni Bakıda salamlamaqdan məmnun olduğunu söylədi, ölkələrimiz arasında dostluq əlaqələrinin uğurla davam etdiyini vurğuladı.*

*Azərbaycana rəsmi səfərə dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən prezident Tarya Halonen bu səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi.*

*Görüşdə ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan–Finlandiya əməkdaşlığının, iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu. Avropa strukturlarına inteqrasiyada*

*Finlandiyanın Azərbaycanı gələcəkdə də dəstəkləyəcəyi bildirildi.*

*Tərəflər ölkələrimiz arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ VƏ SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*Prezident sarayı*

*29 sentyabr 2005-ci il*

*Azərbaycan və Finlandiyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Finlandiya prezidenti xanım Tarya Haloneni bir daha salamladı, bu səfərin ölkələrimiz və xalqlarımız arasında dostluğun, iqtisadi, siyasi, mədəni və digər sahələrdə əlaqələrin inkişafına xidmət etdiyini bildirdi.*

*Dövlətimizin başçısı dedi ki, xanım Tarya Halonenin bugünkü səfərindən çox məmnunuq və keçiriləcək görüşlər, aparılacaq müzakirələr Azərbaycan–Finlandiya münasibətlərinin daha da genişlənməsinə imkan yaradacaqdır. Bu baxımdan ikitərəfli münasibətlərə aid bir çox məsələlərin, o cümlədən iqtisadi, siyasi, mədəni sahələrə, beynəlxalq əməkdaşlığa aid olan məsələlərin müzakirəsi əhəmiyyətlidir.*

*Prezident İlham Əliyev iqtisadi məsələlərə toxunaraq vurğuladı ki, sabah Bakıda biznes forumu keçiriləcəkdir. Ümidvaram ki, bu, Azərbaycan və Finlandiyanın iş adamları arasında əlaqələrin yaranmasına, Finlandiyanın Azərbaycana sərmayə qoymasına stimul olacaqdır.*

*Azərbaycan regional, beynəlxalq miqyaslı layihələr həyata keçirməkdədir. Finlandiya da bu layihələrin icrasına öz töhfəsini verə bilər. İkitərəfli münasibətlərin daha yüksək səviyyəyə qalxması üçün böyük potensial vardır.*

*Azərbaycana rəsmi səfərə gəlməsindən, ötən on il ərzində ölkəmizdə baş verən iqtisadi dirçəlişi görməsindən məmnun olduğunu xüsusi vurğulayan Finlandiya prezidenti Tarya Halonen ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığını yüksək qiymətləndirdi. O bildirdi ki, Avropa Birliyi ilə Azərbaycan arasında münasibətlərin daha da genişləndirilməsinə Finlandiya da tərəfdardır. Finlandiya gələn ildən Avropa Birliyinə sədrlik edəcəyi dövrdə bu məsələlərə xüsusi diqqət yetirəcəkdir. Ali qonaq vurğuladı ki, Azərbaycan Avropa Birliyinin «Yeni qonşuluq siyasətinə» qoşulmuşdur. Azərbaycanın Avropa Birliyinə daha da yaxınlaşması, Avropaya daha da sıx inteqrasiya etməsi üçün Finlandiya əlindən gələn köməyi göstərəcəkdir.*

*Prezident Halonen Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi ki, Finlandiya bu problemin həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində son illər ərzində çox çalışıb və fəal işləyibdir. Əfsuslar olsun ki, problem bu günə qədər həllini tapmamışdır. Bununla yanaşı, Avropa Birliyi, o cümlədən Finlandiya hesab edir ki, problem yalnız danışıqlar yolu ilə həll olunmalı, dinc yolla aradan qaldırılmalıdır.*

*Prezident Tarya Halonen prezident İlham Əliyevi Finlandiyaya rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

* * *

*Sentyabrın 29-da geniş heyətlə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Finlandiya prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Finlandiya Respublikasının Xarici İşlər Nazirliyi arasında Anlaşma memorandumu imzalandı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN BİRGƏ MƏTBUAT KONFRANSI

*29 sentyabr 2005-ci il*

*Azərbaycan–Finlandiya sənədlərinin imzalanmasından sonra prezidentlər İlham Əliyevin və xanım Tarya Halonenin birgə mətbuat konfransı olmuşdur. Dövlət başçıları mətbuat konfransında bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, sizin hamınızı bir daha Azərbaycanda salamlamaq istəyirəm. Keçirdiyimiz görüşlər, apardığımız müzakirələrlə bağlı dərin məmnunluq hissimi vurğulamaq istərdim. Biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Biz siyasi dialoqun səviyyəsindən çox razıyıq, eyni zamanda, mən ümid edirəm ki, bizim münasibətlərimiz böyük sürətlə inkişaf edəcəkdir. Bunun üçün çox böyük imkanlar var. Zənnimcə, iqisadi əlaqələr genişləndirilməlidir. Çünki ölkələrimizin iqtisadi potensialı artmaqdadır. Ona görə də mən ümid edirəm ki, sabah keçiriləcək biznes forumun praktiki baxımdan çox böyük əhəmiyyəti vardır. Şübhəsiz ki, biz öz göstərişlərimizi, əsas istiqamətlər üzrə təlimatlarımızı verə bilərik. Lakin bunun həyata keçirilməsi üçün, ümumi əməkdaşlıq üçün əsasların tapılması məhz iş adamları tərəfindən müəyyən olunmalıdır.

Biz burada regionda mövcud olan münaqişələrin həlli yollarını da müzakirə etdik. Hesab edirəm ki, səmimi müzakirələr və açıq söhbətlər bu problemin daha yaxşı formada başa düşülməsini mümkün edəcəkdir. Cənubi Qafqaz regionunda ümumi

problemlər var və Qafqazdakı münaqişələr bizim inkişaf yolumuzda duran əsas maneələrdən biridir.

Hazırda Azərbaycanda sosial-iqtisadi islahatlar aparılmaqdadır və Avropa strukturlarına daha sıx inteqrasiya olunmaq siyasətimizi davam etdiririk. Biz Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilmişik. Bu da Avropa İttifaqı ilə daha sıx əməkdaşlığa zəmin yaradır. Avropa İttifaqı ilə münasibətlərin inkişafı bizim xarici siyasətimizin əsas prioritetlərindən biridir. Finlandiyanın bizim Avropaya inteqrasiyamıza verdiyi dəstək çox əlamətdardır. Biz bu dəstəyi indiyə qədər hiss etmişik.

Ümumiyyətlə, mən əminəm ki, xanım prezidentin səfəri ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətlidir. Ümidvaram ki, bu səfərdən sonra biz bir çox işləri birgə görəcəyik, əlaqələri daha sıx quracağıq və ölkələrimiz, xalqlarımız naminə işləyəcəyik. Mən bir daha Sizə və nümayəndə heyətinə minnətdarlığımı bildirir, uğurlar arzulayıram.

## Finlandiya prezidenti Tarya Halonenin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də öz tərəfimdən Azərbaycan prezidentinə minnətdarlığımı bildirirəm.

Mənim Azərbaycana ilk səfərim təqribən 9 il bundan əvvəl, 1996-cı ildə baş tutmuşdu. Mən ölkənizdə baş verən dəyişiklikləri görməkdə çox maraqlı idim. Görürəm ki, bu dəyişikliklər iqtisadi sahədə çox sürətlə gedir. Bir çox işlər görülür, böyük irəliləyiş əldə olunubdur. Sizə gələcəkdə bu istiqamətdə daha böyük uğurlar arzulayıram. Gələcək planları müzakirə etmək bizim üçün çox maraqlı idi.

Həyat yoldaşım da səfər zamanı məni müşayiət edir. Sizin siyasi inkişafla bağlı əldə etdiyiniz nailiyyətləri eşitməkdən çox məmnun oldum. Biz bilirik ki, noyabr ayında ölkənizdə parlament seçkiləri keçiriləcək və siz həmin seçkilərdə üzvü olduğu-

nuz Avropa Şurasının dəyərlərinin də nümayiş etdirilməsinə çalışacaqsınız.

Sabah biznes forumu keçiriləcək, ikitərəfli iqtisadi münasibətlərin inkişafı üçün mövcud olan imkanlar müzakirə ediləcəkdir.

Cənab Prezident!

Sizin burada qeyd etdiyiniz kimi, artıq iki ölkə arasında iqtisadi əməkdaşlıq üçün zəmin yaradılıbdır. Bu gün nazirlər tərəfindən imzalanan iki sənəd ümumi işlərimizdə irəliyə doğru atılmış addım olacaqdır. Ümid edirəm ki, biznes forumundan sonra daha fəal əməkdaşlıq edə biləcəyik.

O ki qaldı regional məsələlərə, Siz bilirsiniz ki, mən keçmişdə Azərbaycana səfər etmişdim. Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatım vardır. Mən bilirəm ki, Minsk qrupu fəaliyyətə başlayandan etibarən bu sahədə hələ müsbət dəyişikliklər olmamışdır. Avropa İttifaqı bu məsələnin aradan qaldırılmasında çox maraqlıdır. ATƏT, o cümlədən digər təşkilatlar bu münaqişənin həllinə maraq göstərirlər. Xatırlatmaq istəyirəm ki, Avropa İttifaqı finlandiyalı diplomat Heyki Talvitiyeni Avropa İttifaqının Cənubi Qafqazdakı xüsusi nümayəndəsi təyin etmişdir.

Mən «Yeni qonşuluq siyasəti»nə dair bir neçə söz demək istəyirəm. Siz bunun Azərbaycan üçün nə qədər vacib olduğunu artıq qeyd etdiniz. Lakin onu demək istəyirəm ki, bu həmçinin Avropa İttifaqı üçün də vacibdir. Avropa İttifaqı alınmaz böyük qala deyildir. Görürsünüz ki, Avropa İttifaqı yeni üzvlər qəbul edir. Burada Rumıniya və digər ölkələr var, daha sonra Ukraynanın məsələsi var. Mən çox ümid edirəm ki, bundan sonra digər ölkələrin namizədliklərinə də baxılacaqdır.

Lakin buna qədər ölkəniz həmin siyasət çərçivəsində lazımi addımların atılmasını həyata keçirməlidir. Hesab edirəm ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» çərçivəsində biz mümkün qədər qısa müddətdə ölkələrimizin maraqlarına uyğun olaraq bir çox irəliləyişlər əldə edə biləcəyik.

Yeri gəlmişkən, onu da deyim ki, mən Azərbaycan prezidentini Finlandiyaya rəsmi səfərə dəvət etdim. O bu dəvəti məmnunluqla qəbul etdi.

* * *

**S u a l: Cənab prezident İlham Əliyev, buradakı müxalifəti hansı xarici mənbələr maliyyələşdirir?**

**Mənim digər sualım xanım Halonenədir. Siz Azərbaycanda demokratiyanın vəziyyətini necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Mənim cavabım çox qısa olacaq. Mən sizə tövsiyə edirəm ki, belə bir sualı müxalifətə verəsiniz və ətraflı məlumat alarsınız.

**T a r y a H a l o n e n:** Mən hesab edirəm ki, Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda demokratik proses inkişaf etməkdədir. Ümumiyyətlə, demokratiya elə bir imtahan deyil ki, yaxşı qiymət alıb, o imtahandan keçəsiniz. Ona görə hansı ölkə ki, insan hüquqlarını, Avropa Şurasının digər dəyərlərini, prinsiplərini qəbul edibsə, hazırda bunların tam bərqərar olunması üçün lazımi işlər görür. Müəyyən ölkələrə bu prosesi tam başa çatdırması üçün daha çox vaxt lazım olur. Ona görə hesab edirəm və mənim həmkarım cənab prezident də deyir ki, Cənubi Qafqazda hələ görülməli müəyyən işlər var.

Azərbaycana gəldikdə isə, mən çox məmnun oldum. Azərbaycan Avropa Şurasının üzvü olduqdan sonra həmin təşkilatla münasibətlər daha sıx qurulmuşdur.

Cənab Prezident, Avropa Şurasında o vaxt Siz də fəaliyyət göstərmisiniz. Mən hesab edirəm, bir çox işlər görülübdür. Bu işlər, Azərbaycanın gördüyü işlər Avropa Şurasının sənədlərində də öz əksini tapmışdır. Bununla belə, indi bir çoxlarının diqqəti məhz parlament seçkilərinə yönəlibdir.

Ümumiyyətlə, müxalifət elə bir məfhumdur ki, o heç vaxt hökumət tərəfindən seçilmir. Müxalifət müxalifətdir. O mövcuddur, öz fəalliyyətini aparır. Lakin onu da qeyd etmək lazımdır ki, Azərbaycanda demokratiya sahəsində işlər görülür. Hesab edirəm ki, Avropa Şurasının meyarlarına uyğun işlərin gö-

rülməsində hökumətin və cənab prezidentin xüsusi mövqeyi vardır. Avropa Şurasının hüquqi sahədə verdiyi tövsiyələr var idi. Biz çox məmnunluqla qeyd edirik ki, bu tövsiyələr yerinə yetirilmişdir. Fikrimcə, gəlin noyabrı gözləyək, seçkilər keçirilsin. Mən sizə bu sahədə uğurlar arzulayıram, sizi dəstəkləyirəm. Əminəm ki, hökumət bu seçkilərin lazımi səviyyədə keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

**S u a l: Mənim sualım xanım Tarya Halonenədir. Bilirik ki, Finlandiya Avropa İttifaqına sədrlik edəcəkdir. Sədrliyiniz zamanı Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair Finlandiyanın mövqeyi necə olacaq və Siz Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə hansı dəstəyi verirsiniz?**

**T a r y a H a l o n e n:** Bilirsiniz, biz istəyirik ki, Dağlıq Qarabağ münaqişəsi mümkün qədər qısa müddətdə sülh yolu ilə həll olunsun. Biz istəmirik ki, bir ölkənin mövqeyi keçsin, digər ölkənin mövqeyi qalsın. Biz istəyirik bu, elə bir həll yolu olsun ki, hər iki tərəf onu qəbul edə bilsin və hamı bu nizamlama yolundan məmnun olsun. Beləliklə, Finlandiya ATƏT-in bu sahədə gördüyü işi dəstəkləyir. Siz bilirsiniz ki, biz xüsusi diqqət yetirərək Avropa İttifaqının da xüsusi nümayəndəsinin təyin olunmasına çox çalışdıq və bu iş yerinə yetirildi. Burada söhbət sadə bir işdən getmir. Çünki bu regionda digər ölkələr də var ki, onlar da münaqışələrlə üzləşib və onlar da eyni addımları ataraq bu münaqişələri aradan qaldırmağa çalışırlar.

Bəli, bir tərəfdən ATƏT var, digər tərəfdən Avropa İttifaqı da var. Mən hesab edirəm ki, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin möhkəmləndirilməsi həmin problemin çözülməsinə müəyyən töhfə verə bilər.

Digər məsələlər haqqında danışsaq, sizi əmin etmək istəyirik ki, Finlandiya həmin təşkilatlarda sədrlik edəcəyi dövrdə bundan sonra da daha fəal işləyərək həm Gürcüstana, həm Ermənistana, həm də Azərbaycana lazımi dəstək verilməsinə çalışacaqdır. Çünki Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» bir çox müsbət nəticələr verəcək, Avropanın ümumi irsinin, ümumi də-

yərlərinin bu ölkələrə gətirilməsində və bərqərar olunmasında möhkəm yardım və dəstək göstərəcəkdir. Lakin bu cür məsələlərin həlli məhz tərəflərin əlindədir.

**S u a l: Mənim sualım Finlandiyanın prezidenti xanım Tarya Halonenədir. Sizin fikrinizcə, Cənubi Qafqaz regionunda hansı münaqişə daha narahatedicidir?**

**T a r y a H a l o n e n:** Mən hesab edirəm ki, bu suala artıq cavab verdim. Əvvəlki səfərimdən sonra hər üç Cənubi Qafqaz ölkəsində böyük irəliləyişlər əldə edilmişdir. Gəlin ümidvar olaq ki, bu ölkələr arasında əməkdaşlıq da baş tutacaqdır. Çünki bir var, ayrı olmaq, bir də var, birlikdə işləmək, birgə əməkdaşlıq etmək. Ona görə, hesab edirəm ki, hər üç ölkə demokratik təsisatlar baxımından böyük nailiyyətlər əldə etmişdir və onların indi gördüyü işlər, atdığı addımlar təqdirəlayiqdir. Onlar öz ölkələrində daha demokratik cəmiyyətin qurulmasına çalışırlar. Hamı bilir ki, bəzi problemlər də var.

Məsələn, korrupsiya problemi bəzi ölkələrdə hələ də həllini tapmayıbdır. Ölkənin harada yerləşməsindən asılı olmayaraq, yəni istər Avropa, istər Amerika, istərsə də Asiya ölkəsi olsun, korrupsiya problemi və digər problemlər hələ qalmaqdadır. Bunlar öz həllini tapmalıdır. Mən hesab edirəm ki, bu cür mürəkkəb problemlərin həllinin yolu birgə səylərdən keçir. Düşünürəm ki, belə olsa, vətəndaşlar və müəssisələr daha hüquqi cəmiyyətdə yaşaya bilər. Gördüyü işlərdən asılı olmayaraq, onlar üçün lazımi şərait və təhlükəsizlik mühiti yaradıla bilər. Görürəm ki, bu sahədə bir çox işlər görülmüşdür. Lakin bundan sonra da işlər davam etdirilməlidir və biz də öz tərəfimizdən bu sahədə sizə yardım edəcəyik.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Siz sabah keçiriləcək Azərbaycan–Finlandiya biznes forumunun ikitərəfli iqtisadi əlaqələrə təsirini necə qiymətləndirirsiniz və Azərbaycanın iqtisadiyyatının hansı sahəsi Finlandiya sərmayələri üçün daha cəlbedicidir?**

**T a r y a H a l o n e n:** Bu sualı iş adamlarına versəniz, bəlkə də daha yaxşı olardı. Zənnimcə, siz bu gün bir çox müzakirə-

lərin şahidi oldunuz. Lakin hesab edirəm, müəyyən sahələr var ki, onlar bizim iş adamları üçün maraqlı ola bilər. Tutaq ki, maşınqayırma sahəsi. Bilirəm ki, müəyyən iş adamları var, onlar buraya sərmayə qoymağa maraqlıdırlar. Eyni zamanda, ümid edirəm ki, yüksək texnologiyalar sahəsinə maraq ola bilər. Çünki Finlandiyanın bu sahədə çox böyük təcrübəsi var. Onu da deyim ki, bu texnologiyalar təkcə mobil telefonlarla məhdudlaşmır.

Demək istəyirəm ki, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində yaxşı işbirliyi qurmaq mümkündür. Eyni zamanda, bəlkə də bu çox təəccübləndirici deyil, lakin hesab edirəm ki, turizm sahəsi də inkişaf edə bilər. Bu da əsas prioritetlərdən biridir. Çünki mən bilirəm, Cənubi Qafqazda bu sahənin inkişafı üçün yaxşı imkanlar və şərait var. Bu sahədə sərmayələr qoyula bilər.

Turizmin iki tərəfi var. Turizm nəinki davamli inkişafın vacib bir amilidir, eyni zamanda, iki ölkə arasında daha çox məlumat mübadiləsinə imkan yarada bilər. Siz bu sualı bizim Ticarət və Sənaye nazirinə versəydiniz, daha yaxşı olardı. Çünki cənab nazir bu suala daha ətraflı cavab verə bilərdi.

**İlham Əliyev:** Mən hesab edirəm, bu tədbir biznes icmaları üçün yaxşı bir tanışlıq imkanı olacaqdır. Onlar birgə sərmayələr üçün hansı imkanların olduğunu müzakirə edəcəklər. Hesab edirəm, təqdirəlayiq bir haldır ki, bu cür tədbirlər sürətlə inkişaf edən ölkələr arasında keçirilir. Bu, bir çox ölkələrdən olan şirkətlərin ölkəmizə olan marağını artırır.

Bizim ölkənin iqtisadiyyatına son illər ərzində 25 milyard dollardan çox sərmayə yatırılmışdır və bu sahədə apardığımız siyasət çox uğurlu olmuşdur. İqtisadiyyatın bütün sahələri bundan bəhrələnə bilər. Bir çox sərmayələr əsasən neft və qaz sahəsinə yatırılmışdır. Bu da təbiidir. Çünki bizdə bu sənaye inkişaf etmişdir. Sübhəsiz ki, neft və qaz sənayesi ölkəmiz üçün böyük əhəmiyyət daşıyır. Lakin hazırda bizim diqqətimiz məhz qeyri-neft sektoruna yönəldilibdir. Biz çalışırıq ki, yeni infrastruktur yaradılsın, yeni obyektlər tikilsin. Bizim böyük planlarımız var

və ilk növbədə, elektrik stansiyalarının tikilməsi, su və qaz təchizatı sistemlərinin istismara verilməsi, səhiyyə və təhsil sahələrində yeni işlərin görülməsi vacibdir. Bütün bunlar həm hökumətdən, həm yerli şirkətlərdən, həm də xarici şirkətlərdən sərmayələrin yatırılmasını gözləyir.

Şübhəsiz ki, əgər hər hansı bir xarici şirkət bizim ölkəyə sərmayə qoymaq istəyirsə, ilk növbədə, maraqlanır ki, burada biznes fəaliyyəti üçün hansı mühit var, hansı hüquqi əsaslar var. Mən əminəm ki, onlar buradakı vəziyyəti öyrəndikdən sonra görəcəklər ki, Azərbaycan sərmayələrin qoyulması üçün yaxşı potensialı olan ölkədir və bundan sonra finlandiyalı dostlarımız, Finlandiya şirkətləri Azərbaycana maraqlarını artıracaqlar.

# FİNLANDİYANIN TELİASONERA ŞİRKƏTİNİN PREZİDENTİ ANDERS İGEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 sentyabr 2005-ci il*

*Prezident İlham Əliyev Finlandiya prezidentini Azərbaycana rəsmi səfərdə müşayiət edən nümayəndə heyətinin tərkibində bu şirkətin də təmsilçilərinin olduğunu qeyd edərək, prezident Tarya Halonen ilə bu gün keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev sentyabrın 30-da Bakıda iki ölkənin iş adamları arasında keçiriləcək biznes forumu çox əlamətdar hadisə adlandırdı.*

*Bu şirkətin regionda çox fəal işlədiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Finlandiya arasında iqtisadi əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

*Rəhbərlik etdiyi şirkətin Skandinaviyada və regionda ən aparıcı operator olduğunu bildirən cənab Anders İgel dedi ki, Teliasonera bir sıra ölkələrdə öncül yer tutur. Ölkəmizdə gördüyü iqtisadi inkişafı möcüzə adlandıran qonaq ümumi daxili məhsulun artımına görə Azərbaycanın dünyada ən öndə getdiyini bildirdi. Cənab Anders İgel bildirdi ki, «Azercell» şirkəti ilə birgə fəaliyyətində Azərbaycanda ümumi daxii məhsulun belə sürətlə artmasının daha yaxından şahidi olmuşdur. Azərbaycanda «Azercell» abunəçilərinin sayı artaraq 1,6 milyona çatmışdır. Şirkət indiyədək Azərbaycana 335 milyon ABŞ dolları məbləğində sərmayə qoymuşdur və bunun 400 milyon ABŞ dollarına çatdırılması planlaşdırılır.*

# LİTVANIN ƏDLİYYƏ NAZİRİ GİNTAUTAS BUJİNSKAS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 sentyabr 2005-ci il*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Litva prezidenti Valdas Adamkus ilə müxtəlif beynəlxalq təşkilatlar çərçivəsindəki tədbirlərdə keçirdiyi görüşlərini məmnunluqla xatırlatdı.*

*Azərbaycan–Litva əlaqələrinin inkişaf səviyyəsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, cənab Gintautas Bujinskasın Bakıya səfəri ölkələrimizin ədliyyə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edəcəkdir.*

*Litvanın ədliyyə orqanlarında görülən işlər barədə prezident İlham Əliyevə məlumat verən Gintautas Bujinskas ölkələrimizin ədliyyə orqanlarının çox uğurlu əməkdaşlıq etdiyini bildirdi. Qonaq əmin olduğunu söylədi ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.*

## FİNLANDİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Bakı, Yaxt-klub*

*29 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Finlandiya prezidenti xanım Tarya Halonenin və onun həyat yoldaşı Pentti Arayarvinin şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.*

*Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev və prezident Tarya Halonen qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanım Prezident!

Hörmətli cənab Pentti Arayarvi!

Xanımlar və cənablar!

Hörmətli xanım Prezident, ilk növbədə mən Sizin rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha məmnuniyyətlə salamlayır və «Xoş gəlmisiniz!» deyirəm.

Siz bu gün Azərbaycana rəsmi səfərə başlamısınız. Bu, ikitərəfli münasibətlərimizdə çox mühüm hadisədir. Mən Sizin bu səfərinizi yüksək qiymətləndirirəm.

Azərbaycanla Finlandiya arasında keçmişdə də yaxşı əlaqələr olmuşdur. Finlandiyanın rəhbərləri müxtəlif vaxtlarda Azərbaycana səfər etmişlər. Mən Azərbaycanla Finlandiya arasında əməkdaşlığın bütün sahələrdə genişlənməsi və dərinləşməsinin tərəfdarıyam.

Bizim bugünkü söhbətlərimiz xarici siyasətimizin başlıca istiqamətlərinin üst-üstə düşdüyünü təsdiq edir, ölkələrimizin ikitərəfli dialoqu inkişaf etdirmək üçün siyasi iradəsinin olmasını göstərir.

İnanıram ki, Sizinlə keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, imzalanmış sənədlər, eləcə də iki ölkənin iş adamlarının sabah keçirəcəyi biznes forumu əməkdaşlığımızın müxtəlif sahələrində inkişafına və genişlənməsinə güclü təkan verəcəkdir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən dövlətdir. Həyata keçirilən islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. Qeyd etmək kifayətdir ki, Azərbaycanda ümumi daxili məhsulun real artımının 2005-ci ildə 20 faiz, 2006-cı ildə isə 30 faiz olacağı gözlənilir.

Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə ölkə iqtisadiyyatına 25 milyard dollar sərmayə qoyulmuşdur. Adambaşına götürdükdə, bu, regionda ən yüksək göstəricilərdən biridir.

Biz ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasət xəttini davam etdirir və Avropa İttifaqı, NATO və Avropa təhlükəsizlik sisteminin digər strukturları ilə sıx əməkdaşlıq edirik. Avropa İttifaqının Azərbaycanı «Yeni qonşuluq siyasəti»nə daxil etməsinə xüsusi əhəmiyyət verərək, ölkəmizin Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası yaratmışıq. Mən bu təsisatlarla əməkdaşlıqda Finlandiyanın Azərbaycana verəcəyi dəstəyə görə əvvəlcədən təşəkkürümü bildirirəm.

Biz Azərbaycanda siyasi, iqtisadi, sosial, hüquqi islahatlar həyata keçiririk. Avropa dəyərlərinin bərqərar edilməsində, insan hüquqları və azadlıqlarının təmin olunmasında, demokratik təsisatların yaradılmasında və bazar iqtisadiyyatına keçiddə mühüm nailiyyətlər qazanmışıq.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq əhəmiyyətli layihələr həyata keçirir. Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri Azərbaycan neftini cari ilin

sonuna qədər dünya bazarlarına çıxaracaqdır. Bununla yanaşı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, TRASEKA proqramı, Bakı–Tbilisi–Qars dəmir yolu layihələrinin həyata keçirilməsi həm Azərbaycanın, həm də regionun digər dövlətlərinin inkişafında və Avropaya inteqrasiyasında mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu ölkənin hərbi təcavüzü və etnik təmizlənmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları, ərazi bütövlüyü prinsipi çərçivəsində ədalətli şəkildə həll olunmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə 1996-cı ildə ATƏT-in Minsk qrupunun həmsədri olmuş Finlandiyanın da dəstəyinə ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Xanım Prezident, icazə verin, bu badəni Sizin sağlığınıza, cənab Pentti Arayarvinin sağlığına, Azərbaycan ilə Finlandiya arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

## Finlandiya prezidenti xanım Tarya Halonenin nitqi

Hörmətli cənab Prezident və xanım Əliyeva!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə səmimi qəbulunuza görə, Finlandiya haqqında dediyiniz fikirlərə və mənim ünvanıma

söylədiyiniz xoş sözlərə görə minnətdarlığımı bildirmək istərdim.

Sonuncu dəfə bu ilin may ayında Avropa Şurasının Varşavada keçirilmiş sammitində Sizinlə görüşmək mənə qismət oldu. Bu gün isə mən müstəqil Azərbaycana rəsmi səfər edən ilk Finlandiya prezidenti olmağımdan böyük şərəf hissi duyuram.

Bu gün təyyarə hava limanında yerə enərkən mən 130 il bundan əvvəl Bakıda məskən salmış soydaşlarım haqqında fikirləşirdim. Onların əksəriyyəti Sankt-Peretburqda Nobel şirkəti üçün çalışırdılar və burada geniş inkişaf edən neft sənayesini gördükdən sonra Balaxanıdakı neft yataqlarına gələrək, orada öz bəxtlərini sınaqdan keçirmək arzusuna düşmüşdülər.

Helsinki və Bakı eyni imperiyanın tərkibində olan şəhərlər idi və finlandiyalılar evlərinə yazdıqları məktublarda Bakını «Şərq və ya Qərb dünyası kimi yox, bir çox yolların kəsişməsində olan məkan» və «müxtəlif xalqların və dinlərin bir-biri ilə görüşdükləri və qovuşduqları bir yer» kimi təsvir edirdilər.

Hazırda Azərbaycanın yataqları Xəzər dənizinin neft paytaxtına xarici sərmayədarları yenidən cəlb edir. «Əsrin müqaviləsi» reallığa çevrilmiş və Bakı–Tbilisi–Ceyhan boru kəməri ölkənizi Aralıq dənizi ilə birləşdirmişdir. Finlandiyanın iş adamları yenidən Abşeron yarımadasına öz nəzərlərini salmağa başlayırlar. Yüksək səviyyəli Finlandiya–Azərbaycan biznes forumunun ölkənizə səfərimlə üst-üstə düşməsi bunun bariz nümunəsidir.

1996-cı ilin noyabr ayında gözəl paytaxtınıza Xarici İşlər naziri kimi etdiyim ilk səfər xatirimdədir. O vaxt Finlandiya ATƏT-in Minsk prosesinə həmsədrlik edirdi. Dağlıq Qarabağ münaqişəsi hətta bu gün də qəm-qüssə ilə öz həllini gözləyirsə, mən görürəm ki, 9 il ərzində ölkəniz və paytaxtınız gözəçarpan iqtisadi tərəqqiyə nail olmuşdur. İnanıram ki, yeni iqtisadi inkişaf həm də bizim ümumi dəyərlərimizin, demokratiya, insan hüquqları və qanunun aliliyinin bərqərar olunmasına öz töhfəsini verəcəkdir.

Bu il biz ATƏT-in 30 illiyini qeyd edirik. 1975-ci ildə Helsinkidə keçirilmiş ATƏM-in zirvə toplantısı Avropanın siyasi xəritəsində müvafiq dəyişikliklərə yol açdı. 1992-ci ildə Azərbaycan ATƏT-in Helsinkidə keçirilən sammitində iştirak edərək, artıq müstəqil dövlət kimi, beynəlxalq səhnəyə yenidən qayıtdı. Minsk prosesi də 1992-ci ildə məhz Helsinkidə başlandı.

Bu gün biz hələ də otuz il bundan əvvəl üzləşdiyimiz çətinliklər qarşısındayıq. Mən təəssüflə qeyd edirəm ki, Minsk prosesi hələ də Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu axtarmaqdadır. Çox ümid edirəm ki, yaxın vaxtlarda biz danışıqlarda irəliləyişin şahidi olacağıq. Münaqişənin həlli regionda inkişaf üçün yeni və olduqca böyük imkanlar açacaqdır. Buna görə də Minsk prosesi çərçivəsində münaqişənin aradan qaldırılması üçün bütün vasitələrdən istifadə olunmalıdır.

Nəhəng enerji resurslarının istifadə olunması bir çox xalqların rifahını yüksəldəcəkdir. Qloballaşma ölkələri bir-birinə yaxınlaşdırır, lakin eyni zamanda çətinliklər də gətirir. Gəlirlər səviyyəsində get-gedə artan fərqlər hətta inkişaf etmiş demokratik ölkələrdə də qaçılmaz amilə çevrilmişdir. Beləliklə, dövlətin gəlirləri əhali arasında nə qədər bərabər paylanarsa, cəmiyyət bir o qədər sabit olar. Bu baxımdan, mən Azərbaycanda yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət proqramını alqışlayır, onun həyata keçirilməsində Sizə böyük müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan və ümumən Cənubi Qafqaz Avropa İttifaqı üçün get-gedə əhəmiyyəti artan tərəfdaşlara çevrilmişdir. Avropa İttifaqı tərəfindən 2003-cü ildə Cənubi Qafqaz üzrə xüsusi nümayəndənin təyin olunması bu meylin sübutudur. Finlandiya bu sahədə fəal rol oynayır və təbii ki, biz ölkəmizin təcrübəli diplomatı səfir Heyki Talvitiyenin bu vəzifəyə təyin olunmasından məmnunuq və fərəh hissi keçiririk. Avropa İttifaqı Azərbaycan, Ermənistan və Gürcüstanla daha sıx münasibətlərin qurulması xəttinə sadiqdir. Avropa İttifaqının

hər üç ölkəyə Avropanın «Yeni qonşuluq siyasəti»nə qoşulmaq dəvəti regionda tərəqqi, sabitlik və rihafa xidmət edir. Finlandiya Avropa İttifaqında qarşıdan gələn sədrliyi zamanı Azərbaycanla Avropa İttifaqı arasında münasibətləri daha da inkişaf etdirmək arzusundadır.

Bir neçə həftədən sonra beynəlxalq ictimaiyyət Sizin parlament seçkilərinizi böyük diqqətlə izləyəcəkdir. Mən əminəm ki, Siz Azərbaycanın şəffaf, azad və ədalətli seçkilər keçirməyə qadir olmasını bütün dünyaya nümayiş etdirəcəksiniz və ölkəniz regionda təkamül yolu ilə dəyişikliklərin nümunəsi olacaqdır. Bu gün dünya ölkələrinin bir-birinə həmişəkindən daha çox ehtiyacı var. Biz demokratiya, iqtisadiyyat və təhlükəsizliyin bir-biri ilə sıx bağlı olduğu ümumi dünyada yaşayırıq.

Ümid edirəm ki, mənim Azərbaycana səfərim ölkələrimizin münasibətlərini möhkəmləndirəcək və Finlandiya ilə Azərbaycan arasında iqtisadi inkişafa təkan verəcəkdir.

Cənab Prezident, icazə verin, mənə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirim və bu badəni Sizin sağlığınıza və birinci xanımın sağlığına, Azərbaycan xalqının xoşbəxtliyi və rifahı, Finlandiya və Azərbaycan arasında gələcək əməkdaşlığın şərəfinə qaldırım.

## FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM TARYA HALONEN HEYDƏR ƏLİYEV FONDUNDA

*30 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Finlandiya prezidenti Tarya Haloneni və onun həyat yoldaşı Pentti Arayarvini böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident Tarya Halonenə və nümayəndə heyətinin üzvlərinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun məqsədi barədə məlumat verildi. Bildirildi ki, fondun əsas məqsədləri prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.*

*Xanım Tarya Halonen və Finlandiya nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Xanım Halonen dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri*

*ilə tanış* oldu, Avropa, Asiya *ölkələrinin liderlərinin ümummilli liderimizlə birgə çəkdirdikləri fotoşəklin qarşısında* Azərbaycan prezidenti *İlham Əliyevlə xatirə şəkli çəkdirdi.*

*Finlandiya prezidenti fondla tanış olduqdan sonra xatirə kitabına öz ürək sözlərini yazdı: «Heydər Əliyevin xatirəsini yad edən maraqlı sərginizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu sərgi sizin dövlətinizin formalaşdırılmasına həsr olunub və Avropa tarixinin çox maraqlı bir hissəsini əks etdirir».*

*Sonra çay süfrəsi arxasında söhbət davam etdirildi. Prezident İlham Əliyev xanım Tarya Halonenə ölkəmizə səfəri zamanı çəkilmiş fotoşəkillərdən ibarət fotoalbom təqdim etdi.*

*Prezident Tarya Halonen və nümayəndə heyətinin üzvləri fondun eyvanından Bakının görməli yerlərini seyr etdilər.*

*Ali qonaq fonddan xoş təəssüratla ayrıldığını bildirdi.*

## AZƏRBAYCAN –FİNLANDİYA BİZNES FORUMU

*«Hyatt Recensi–Naxçıvan» hoteli*

*30 sentyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Finlandiya prezidenti xanım Tarya Halonenin iştirakı ilə keçirilmiş Azərbaycan–Finlandiya biznes forumuna toplaşan hər iki ölkənin yüzdən çox iş adamı dövlət başçılarını alqışlarla qaşıladılar.*

*Prezident İlham Əliyev və prezident Tarya Halonen forumda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli prezident xanım Tarya Halonen!

Hörmətli iş adamları, xanımlar və cənablar!

Mən sizi Azərbaycanda salamlayıram. Sizin ölkəmizə səfəriniz dünən başlayıb və bizim geniş müzakirələrimiz olubdur. Biz ikitərəfli münasibətləri, regional məsələləri, regionda təhlükəsizlik məsələlərini müzakirə etmişik və bütün hallarda vəziyyətlə bağlı bizim eyni mövqeyimiz olubdur. Bu gün bizim üçün çox yaxşı bir fürsət açılır ki, iqtisadi münasibətlərimizə təkan verək. Mən tam əminəm ki, bunun üçün, ölkələrimiz arasında iqtisadi münasibətləri inkişaf etdirmək üçün çox yaxşı zəmin vardır. Bu həm də bizim ikitərəfli münasibətlərimizin çox vacib bir elementinə çevriləcəkdir.

Azərbaycan hazırda çox sürətlə inkişaf edir. Bildiyiniz kimi, bu il dünya ölkələri sırasında ÜDM-in ən yüksək artımı Azərbaycanda olacaq və bu rəqəm 20 faizi keçəcəkdir. Bu bizim apardığımız iqtisadi islahatlar siyasətinin çox yaxşı nümunəsinin bir sübutudur. İnkişaf planlarımıza iqtisadiyyatın

yeni sahələrinin açılması daxildir. Şübhəsiz ki, neft amili də var və ölkəmizin neft strategiyası artıq 10 ildən çoxdur ki, həyata keçirilir. Bu, biznes üçün çox yaxşı mühit yaratmışdır.

Son il ərzində ölkəmizin iqtisadiyyatına 25 milyarddan çox sərmayə qoyulmuşdur. Bu onu göstərir ki, xarici və yerli sərmayədarlar özlərini burada çox yaxşı hiss edirlər. Sərmayələr ölkəmizdə dövlət səviyyəsində qorunur və dövlətin diqqət mərkəzindədir. Şübhəsiz ki, neft sektorunun inkişafı digər sektorların inkişafına da təsir göstərir. İndi isə hökumətin əsas məqsədi iqtisadiyyatı şaxələndirmək və qeyri-neft sektorunu inkişaf etdirmək, sahibkarlığı inkişaf etdirmək və orta sinfin formalaşmasına imkan yaratmaqdır. Biz elə bir vəziyyət yaratmalıyıq ki, neftin qiymətlərindən asılı olmayaq. Çalışırıq ki, güzəştli kreditlərin ayrılması yolu ilə sahibkarlıq mühiti daha da asanlaşdırılsın. Bu il ərzində güzəştli kreditlərin səviyyəsi təqribən 80 milyon dollar səviyyəsində olacaqdır.

Biz çalışırıq ki, regionların inkişafına da diqqət yetirək. Ona görə də hazırda rayonlarda yeni infrastrukturların yaradılması hökumətimizin əsas prioritetlərindən biridir. Xatırlatmaq istəyirəm ki, Azərbaycanda son iki il ərzində 300 mindən çox iş yeri açılmışdır və bunların da əksəriyyəti məhz rayonlarda və qeyri-neft sektorlarında yaradılmışdır. Beləliklə, biz istəyirik ki, güclü qeyri-neft iqtisadi sahələrini yaradaq və işsizliyi aradan qaldıraq.

Yoxsulluğun azaldılması və işsizliyə son qoyulması istiqamətində çox uğurlu addımlar atılır. 2003-cü ildə keçirilmiş prezident seçkiləri ərəfəsində mən söz vermişdim ki, 600 min iş yeri açılacaqdır. Artıq iki il keçibdir və biz bunun yarısına nail olmuşuq. Gələn illər ərzində biz infrastrukturun təkmilləşdirilməsinə kifayət qədər maliyyə vəsaitlərinin ayrılmasını planlaşdırırıq. Elektrik stansiyalarının tikilməsi, qaz və supaylayıcı sistemlərin tikilməsi, yolların, yeni hava limanlarının, xəstəxanaların, məktəblərin tikilməsi və digər məsələlər – yəni bir sözlə, sürətli inkişaf üçün Azərbaycanda bütün işləri görmək fikrindəyik.

Eyni zamanda, bundan bir neçə il əvvəl Dövlət Neft Fondunu yaratmışıq və burada məqsəd şəffaflığın ən yüksək səviyyəsinin təmin olunmasından ibarətdir. Çünki biz neft gəlirlərini əldə edirik və istəyirik ki, bu neft gəlirləri haqqında hər bir Azərbaycan vətəndaşının məlumatı olsun, bu çox şəffaf olsun. Şübhəsiz ki, belə işlərin görülməsi bizim vəzifələrimizi daha da asanlaşdırır.

Biz hazırda nəinki xarici sərmayələr və xarici maliyyə təşkilatlarından kreditlərin alınmasında maraqlıyıq, eyni zamanda, istəyirik ki, yerli sahibkarlıq üçün əlavə imkanlar da açılsın.

Siz bilirsiniz ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri istismara verilməkdədir. Bundan sonra Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsi də planlaşdırılır. Bu layihələrin həyata keçirilməsinə Dünya Bankı və bir sıra nəhəng beynəlxalq maliyyə təsisatları lazımi vəsait ayırmışlar. Bu da onun nümunəsidir ki, biz yaxşı ümumi tərəfdaşlıq qura bilirik.

Finlandiyaya gəldikdə isə hesab edirəm ki, onların burada işləməsi üçün çox yaxşı şərait var. Şirkətlər burada tikinti sahəsində, xidmətlər sahəsində işləyə bilərlər. Artıq dediyim kimi, bizim xarici tərəfdaşlarla işimiz qarşılıqlı hörmət və etimada əsaslanır və biz biznes münasibətlərinin yaradılmAsında çox maraqlıyıq. Ümumiyyətlə, əgər hər hansı bir şirkət Azərbaycanda fəaliyyət aparmaq fikrindədirsə, biz bunu sadəcə, alqışlaya bilərik.

Bu gün keçirilən tədbirin məqsədi hüquqi sahədə, vergi, sərmayə imkanları sahəsində hansı şəraitin olması haqqında məlumatın toplanmasından ibarət olacaqdır. Zənnimcə, bu tədbir uğurlu olacaq və siz bunun praktiki nəticələrini görəcəksiniz.

Ölkələrimiz arasında siyasi münasibətlərə gəldikdə, onu deyə bilərəm ki, bizim xarici siyasətimizin əsas prioritetlərindən biri Avropaya inteqrasiya ilə bağlıdır. Ölkələrimiz arasında həm siyasi, həm regional, həm təhlükəsizlik məsələlərində, həm də iqtisadi sahədə çox yaxşı anlaşma mövcuddur. Sizin ölkəniz iqtisadi sahədə çox böyük nailiyyət əldə etmişdir. Baxmayaraq

ki, ölkənin əhalisi o qədər də çox deyil, təxminən Azərbaycanın əhalisi qədərdir, lakin ÜDM-in göstəricisi çox yüksəkdir. Finlandiyadakı həyat tərzi çox yüksək səviyyədədir və dünyada ən böyük göstəriciyə malikdir.

Hesab edirəm ki, biznesi necə aparmaq, sosial problemləri necə həll etmək və s. baxımdan biz sizin təcrübənizi öyrənmək imkanı əldə edəcəyik. Çünki biz Azərbaycanda bu məsələləri həll etməyə çalışırıq. Bizim iqtisadiyyatımız bazar prinsiplərinə əsaslanır. Biz buna çox sadiqik. Lakin eyni zamanda biz sosial məsələlərin həllinə də çox yüksək diqqət yetiririk. Çünki hökumət xalq üçün işləyir və çalışır ki, onların gündəlik həyatını yaxşılaşdırsın. Ona görə biz bir çox məsələləri sizin təcrübənizdən istifadə etməklə öyrənməliyik. Hesab edirəm ki, burada fəaliyyət göstərə bilərsiniz. Bu da sizin fikir mübadiləsi aparmağınız üçün faydalı olacaqdır.

Azərbaycan elə bir ölkədir ki, bütün regional layihələrdə iştirak edir. Heç bir regional layihə bizim iştirakımız olmadan mümkün deyildir. Coğrafi-siyasi vəziyyəti nəzərə alaraq, hazırda biz çox güclü nəqliyyat infrastrukturunun yaradılmasına başlamışıq. Siz burada daha fəal ola bilərsiniz. Avropa–Asiya arasında daha fəal nəqliyyat yollarının açılmasında, enerji-nəqliyyat dəhlizlərinin yaradılmasında siz də iştirak edə bilərsiniz. Hətta bu regional layihələrdə öncül yerlərdə ola bilərsiniz. Bakı–Tbilisi–Ceyhan regional əməkdaşlığın çox bariz bir nümunəsidir. Qaz boru kəməri təbii qazın Azərbaycandan Türkiyəyə, daha sonra Avropaya çatdırılmasına imkan yaradacaqdır. Bu da çox yaxşı nümunədir. Hazırda biz dəmir yolu layihəsi üzərində işləyirik. Bu da Türkiyədən Gürcüstana, oradan da Azərbaycana, sonra isə Mərkəzi Asiyaya gedəcəkdir. Bu nəqliyyat gələcəkdə mal daşımalarının Avropadan Asiyaya çatdırılması üçün əlavə yeni imkanlar yaradacaqdır.

Ümumiyyətlə, demək istəyirəm ki, layihələr çoxdur. Ancaq biz milli məsələlərə də fikir veririk. Bu da ondan ibarətdir ki, iqtisadiyyatımızı müxtəlifləşdirməliyik, yüksək makroiqtisadi

göstəricilərə nail olmalıyıq. Biz bu yolla getsək, ölkə əhalisinin həyatının daha da sürətlə yaxşılaşdırılmasına nail ola bilərik. Dediyim kimi, ÜDM bu il 20 faiz olacaqdır. Lakin bu ilin 8 ayı ərzində əhalinin gəlirləri 25-26 faiz artmışdır. Əhalinin banklarda olan kapitalı da get-gedə sürətlə artacaqdır. Lakin digər problemlər də var, biz onların həllinə çalışırıq. İqtisadi, sosial problemlər – bunlar sözsüz ki, keçid dövrünə xas olan problemlərdir. Lakin əminəm ki, biz iqtisadi siyasətimiz əsasında uğurlara nail ola biləcəyik.

Sizi bir daha salamlamaq istəyirəm. Hesab edirəm ki, sizin bu görüşünüz lazımi səviyyədə keçəcəkdir. Siz bir neçə gündür ki, buradasınız. Artıq yerli şəraitlə tanış olmusunuz. Biz də çalışmışıq, elə bir şərait yaradaq ki, özünüzü evinizdəki kimi hiss edəsiniz. Bilmirəm, biz buna nə dərəcədə müvəffəq olduq. Sizi bir daha salamlayır, uğurlar arzulayıram. Sağ olun.

## Finlandiya prezidenti Tarya Halonenin nitqi

Möhtərəm cənab Prezident!

Hörmətli forum iştirakçıları!

Azərbaycan prezidenti cənab İlham Əliyev ilə Bakıda Azərbaycan – Finlandiya biznes forumunu açıq elan etməkdən olduqca məmnunam. Dünən Bakıya səfərimi başlayarkən burada gördüyüm inkişaf məni məftun etdi. Azərbaycana təqribən on il bundan əvvəl etdiyim ilk səfərdən sonra Bakı köklü şəkildə dəyişmişdir.

Bu forum ölkələrimiz arasında inkişaf edən yeni əməkdaşlığın rəmzidir. Bu o demək deyil ki, bizim keçmişdə heç bir əlaqəmiz olmayıbdır. Əksinə, mən məmnunluqla deyə bilərəm ki, Finlandiyanın keyfiyyətli malları burada çoxdan tanınır. Təbii ki, şirkətlər özlərinin biznesinə görə məsuliyyət daşıyır, lakin bir prezident kimi, mən sizə Finlandiya haqqında daha çox danışa bilərəm. Əminəm ki, sizin tərəfdaşlarınız «eyni ailənin» üzvləridir. Mən həmçinin inanıram ki, xalqlarımız arasındakı əlaqələr şirkətlərin fəaliyyətini təşviq edəcəkdir.

Finlandiya artıq on ildir ki, Avropa İttifaqının üzvüdür. Avropa İttifaqının genişləndirilməsi Azərbaycanı bizə daha yaxın etdi. Gələn ilin ikinci yarısında Finlandiya Avropa İttifaqında sədrlik edəcək və həmin müddət ərzində Azərbaycanın və bütün regionun vacibliyi diqqət mərkəzində olacaqdır.

İkitərəfli münasibətlərə gəldikdə isə, görüləsi işlər hələ çoxdur. Əlverişli biznes mühiti iqtisadi əməkdaşlıq üçün vacibdir və həmin əməkdaşlıq sərmayələrin qorunması barədə sazişimizlə və dünən imzaladığımız vergilər barədə sazişlə təşviq olunur. Biz həmçinin hava nəqliyyatı və yerüstü nəqliyyat sahələrində sazişlərin yaxın vaxtlarda hazır olacağına ümid edirik.

Qlobal dünyada hər kəsə tərəfdaş lazımdır. Sürətlə inkişaf edən Azərbaycanın Finlandiyaya olan marağı get-gedə artır və bu forum da həmin marağı sübut edir. Burada ölkələrimizin sənaye nümayəndələri bir-biri ilə tanış ola bilərlər. İnanıram ki, burada təmsil olunmuş Finlandiya şirkətləri Azərbaycanda biznesin aparılmasında maraqlı olan yeganə tərəfdaşlar deyildir.

Xarici ticarət Finlandiya üçün vacibdir. Bəxtimiz gətirib ki, Finlandiya beynəlxalq rəqabətdə yaxşı nəticələr əldə edə bilmişdir. Finlandiya Avropa İttifaqının əsas ölkələri arasında iqtisadi sahədə ən inkişaf etmiş ölkələrdən biridir və rəqabətlə bağlı beynəlxalq hesabatlara görə dünyada öncül yerlərdən birini tutur.

Məndən tez-tez soruşurlar ki, Finlandiyanın bu cür uğurunun səbəbi nədədir? Ümumdünya İqtisadi Forumu son beş il ərzində qlobal rəqabətlə bağlı hazırladığı hesabatlarda Finlandiyanı üç dəfə birinci yerdə göstərmişdir. Ümumdünya İqtisadi Forumu Finlandiyanın təhsil sistemini, texnologiya sahəsindəki imkanlarını və sərmayələrini, səmərəli ictimai idarəçiliyi və hüquqi əsaslarını o cümlədən cinayətkarlıq və korrupsiyanın aşağı səviyyədə olduğunu qeyd etmişdir. Demokratiya, insan hüquqları və qanunun aliliyi bərqərar olunmalı və korrupsiyaya qarşı ciddi mübarizə aparılmalıdır.

Mən Finlandiyanın və digər Şimal ölkələrinin timsalında deyə bilərəm ki, hərtərəfli təhsil xidmətləri göstərən və güclü sosial müdafiəsi olan ölkələr rəqabət haqqında hesabatlarda ön sırada göstərilmişdir. Cəmiyyətin vətəndaşlara verdiyi iqtisadi dəstək mövcud olmuşdur və fikrimcə, eyni sözləri Azərbaycana da şamil etmək olar. Əminəm ki, Finlandiyanın və onun şirkətlərinin indiyədək əldə etdiyi uğurlar təhsil sahəsindəki milli resurslardan səmərəli istifadəyə əsaslanır. Universitetlərin və tədqiqat institutlarının özəl sektorla əməkdaşlığı olduqca vacibdir. Ən əsası isə uşaqlara və gənclərə yaxşı təhsil verilməsinin təmin edilməsidir. Mən fəxr edirəm ki, Finlandiya İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının ümumi təhsil haqqında hazırladığı hesabatda birinci yeri tutmuşdur.

Hörmətli xanımlar və cənablar!

Nazir Pekkarinen Finlandiyanın iqtisadiyyatı və sənayesi haqqında daha ətraflı danışacaqdır. Lakin mən onu demək istəyirəm ki, keçirdiyimiz görüşlər və apardığımız müzakirələr əsasında Azərbaycan ilə Finlandiya arasında əməkdaşlıq imkanları da genişlənir. Ümid edirəm ki, bu forum daha konkret nəticələr verəcəkdir.

## VII ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ–QƏRB» BAKI KİNOFESTİVALINA

Hörmətli kinofestival iştirakçıları!

Sizi – VII Ənənəvi Beynəlxalq «Şərq–Qərb» Bakı kinofestivalının iştirakçılarını səmimi-qəlbdən salamlayır və festivalın işinə uğurlar arzulayıram.

Sizin festivalınız Azərbaycan üçün əlamətdar bir dövrə təsadüf edir. Yaxın zamanlarda biz hamımız regionumuzun iqtisadi inkişafına böyük təsir göstərən mühüm bir hadisənin, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsinin şahidi olacağıq. Əminəm ki, bu layihənin reallaşması həyatımızın bütün sahələrinin inkişafına güclü təkan verəcəkdir.

Azərbaycan iqtisadiyyatının əldə etdiyi nailiyyətlər, respublikamızda gedən quruculuq işləri, hər yerdə özünü büruzə verən müsbət dəyişikliklər həqiqətən ölkəmizin Şərqlə Qərb arasında mötəbər iqtisadi körpü olduğunu sübut edir. Sevindirici haldır ki, bu iqtisadi əlaqələrlə yanaşı, kino xadimlərinin də Şərqlə Qərb arasında əməkdaşlığı müvəffəqiyyətlə həyata keçirilir. Ümidvaram ki, bu festival həm kino həvəskarlarına, həm də müxtəlif ölkələrdən paytaxtımıza qonaq gəlmiş kino xadimlərinə xoş təəssürat bəxş edəcəkdir.

Sizin hamınıza cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 oktyabr 2005-ci il*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi yəhudilərin ən qədim mərasimlərindən olan Roş-Ha-Şana – Yeni il bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hamınıza xoşbəxtlik, cansağlığı arzularımı yetirirəm.

Tarixən müxtəlif xalqların mehriban ailə kimi yaşadıqları Azərbaycan bu gün milli müstəqillik yolu ilə inamla addımlamaqdadır. Ölkəmizdə milli azlıqların dil və mədəniyyətinin, milli-dini adət-ənənələrinin qorunub saxlanılması, insan haqları və azadlıqlarının təmin edilməsi üçün zəruri demokratik hüquqi baza yaradılmışdır. Respublikamızın bütün xalqları kimi, yəhudi əhalisi də ölkədə gedən tarixi proseslərin fəal iştirakçısıdır.

Əminəm ki, müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində bundan sonra da yaxından iştirak edəcək, vətənə övladlıq borcunuzu layiqincə yerinə yetirəcəksiniz.

Mənəvi paklıq, tövbə günü və həyatın başlanğıcı kimi bayram etdiyiniz Roş-Ha-Şana qoy hər birinizin həyatında əmin-amanlıq, xoş müjdələr ili olsun.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 oktyabr 2005-ci il*

**BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-ci DÜNYA ÇEMPİONATININ İŞTİRAKÇILARINA**

Əziz idmançılar!

Sizi – bədii gimnastika üzrə dünya çempionatının iştirakçılarını səmimi- qəlbdən salamlayıram.

Azərbaycanımız indi hərtərəfli inkişaf dövrünü yaşayır. Bu tərəqqi respublikada idman və Olimpiya hərəkatı sahəsində də özünü açıq-aşkar göstərir. Sevinirəm ki, birgə səylərimiz Azərbaycanı dünyanın öncül idman ölkələrindən birinə çevirmişdir. İdman təşkilatlarımızın, milli idman federasiyalarımızın beynəlxalq əlaqələri xeyli genişlənmişdir. Bədii gimnastika üzrə dünya çempionatı kimi mötəbər yarışın Bakıda keçirilməsi bu faktı bir daha təsdiq edir. Belə bir ənənəni daim qorumaq və inkişaf etdirmək lazımdır.

Dünya çempionatının yüksək səviyyədə keçiriləcəyinə, iştirakçıların və qonaqların ölkəmizdən xoş təəssüratlarla ayrılacağına əminəm. Yarış iştirakçılarına uğurlar, qələbə sevinci, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 oktyabr 2005-ci il*

# LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dəvəti ilə Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqa Bakıya üçgünlük rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqanı və həyat yoldaşı İmants Freyberqsi Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Latviya rəhbərinə və həyat yoldaşına gül dəstələri təqdim etdilər.*

*Qarşılanma mərasimindən sonra Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqa ilə Azərbaycanın Baş naziri Artur Rasizadə arasında qısa protokol görüşü oldu.*

*Latviya prezidenti hava limanından fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

*Həmin gün axşam Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Latviya prezidenti Vayra Vike-Freyberqa və həyat yoldaşı İmants Freyberqs birgə qeyri-rəsmi nahar etdilər.*

* * *

*Oktyabrın 3-də Prezident sarayında Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın həyətindəki rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Latviya prezidenti xanım Vayra Vike-Freyberqanı və həyat yoldaşı İmants Freyberqsi səmimiyyətlə qaşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Latviya prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Vayra Vike-Freyberqa fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Latviya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Latviya prezidenti xanım Vayra Vike-Freyberqaya, Latviya nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim olundu.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*3 oktyabr 2005-ci il*

*Prezident İlham Əliyev Latviya prezidenti Vayra Vike-Freyberqanı Bakıda salamlamaqdan məmnunluğunu bildirdi. Bu səfərin Azərbaycan ilə Latviya arasında bütün sahələrdə münasibətlərin daha da möhkəmləndirilməsinə yeni imkanlar açacağını söylədi, ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.*

*Azərbaycana rəsmi səfərə dəvətə görə, dövlətimizin başçısına minnətdarlıq edən prezident Vayra Vike-Freyberqa bu səfəri tarixi hadisə adlandırdı, iki ölkə arasında münasibətlərdə yeni səhifə açdığını, əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi. Ali qonaq dedi ki, Avropa strukturlarına inteqrasiyada Latviya Azərbaycanı gələcəkdə də dəstəkləyəcəkdir.*

*Görüşdə siyasi əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan–Latviya əməkdaşlığı məmnunluqla xatırlandı, iqtisadi, siyasi və digər sahələrdə əlaqələrin genişlənməsinin vacibliyi vurğulandı.*

*Latviyanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğu bildirildi.*

*Tərəflər beynəlxalq təhlükəsizlik, bölgədə mövcud olan münaqişələrin aradan qaldırılması məsələləri, ölkələrimiz arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi apardılar.*

* * *

*Oktyabrın 3-də Prezident sarayında Azərbaycan və Latviyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Latviya prezidenti xanım Vayra Vike-Freyberqanı bir daha salamlayaraq dedi ki, bu səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə yeni imkanlar açacaqdır. Hazırda iki ölkə arasındakı siyasi münasibətlər çox yüksək səviyyədədir. Ümidvaram ki, bundan sonra iqtisadi münasibətlərimiz də yaxşı səviyyədə inkişaf edəcəkdir.*

*Bu səfərin çox önəmli bir hadisə olduğunu və qarşılıqlı münasibətlərdə yeni səhifə açacağını vurğulayan dövlətimizin başçısı Latviyanın NATO-ya və Avropa İttifaqına tamhüquqlu üzv qəbul olunması ilə əlaqədar xanım Freyberqanı təbrik etdi və bildirdi ki, Azərbaycan da Avropaya inteqrasiya siyasəti yeridir. Bu baxımdan Latviyanın bizə verdiyi dəstəyin gələcəkdə davam etdirilməsi ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Regional məsələlərə, təhlükəsizlik məsələlərinə, bölgədə mövcud olan müxtəlif münaqişələrə münasibətdə bizim mövqeyimiz, fikirlərimiz, baxışlarımız Latviya ilə üst-üstə düşür və bundan məmnunuq. Azərbaycan ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə bundan sonra da öz töhfəsini verəcəkdir.*

*Azərbaycana ilk dəfə rəsmi səfərə gəlməsindən məmnun qalldığını bildirən Latviya prezidenti Vayra Vike-Freyberqa səfərini tarixi hadisə kimi qiymətləndirdi və dedi ki, hesab edirəm, bu səfər uğurlu olacaqdır. Ölkələrimiz arasında hazırda siyasi əməkdaşlıq uğurla inkişaf edir, lakin iqtisadi sahədə də görəcəyimiz işlər çoxdur. Xanım Vayra Vike-Freyberqa Latviyanın iş adamlarından ibarət nümayəndə heyətinin də Azərbaycana gəldiyini xatırladaraq vurğuladı ki, Bakıda keçiriləcək biznes forumu iki ölkənin iqtisadi münasibətlərinin inkişafını gələcəkdə daha da sürətləndirəcəkdir.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident Vayra Vike-Freyberqa dedi ki, biz bu məsə-*

lənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarıyıq və bunu dəstəkləyirik. Latviya Azərbaycanın Avropaya inteqrasiyası yolunda dəstəyini bundan sonra da davam etdirəcəkdir.

Ali qonaq Birinci dünya müharibəsindən sonra Azərbaycan və Latviyanın müstəqillik qazandığını da xatırlatdı, indi, hər iki ölkə müstəqilliyini bərpa etdikdən sonra əməkdaşlıq üçün yeni imkanlar açıldığını diqqətə çatdırdı.

* * *

Geniş heyətdə görüş başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan və Latviya prezidentlərinin iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası prezidenti İlham Əliyev və Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqa Birgə bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Latviya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində saziş, Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı qorunması və təsviri haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası hökuməti arasında terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotik və psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin aparılmasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası hökuməti arasında ikiqat vergitutmanın aradan qaldırılması və vergidənyayınma hallarının qarşısının alınması haqqında saziş və Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq sahəsində saziş imzalandı.

## AZƏRBAYCAN–LATVİYA SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ XANIM VAYRA VİKE-FREYBERQANIN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI

*3 oktyabr 2005-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm və dəvətimizi qəbul edib bizim ölkəmizə səfər etdiyinizə görə sizə minnətdarlığımı bildirirəm.

Ölkələrimiz arasında çox fəal siyasi münasibətlər mövcuddur. Biz bu münasibətlərin inkişaf səviyyəsindən çox məmnunuq. Bu əlaqələrin digər sahələrdə də inkişaf etdirilməsi üçün bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik. Azərbaycan bu yaxınlarda Latviyada səfirliyini açmışdır. Artıq səfirlik fəaliyyətə başlamışdır. Bu da bizim ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyətin mühüm bir əlamətidir.

Bizim bir çox ümumi cəhətlərimiz vardır. Keçmişdə ümumi oxşarlıqlarımız çox olubdur. Ölkələrimiz müstəqillik qazandıqdan sonra yaranmış vəziyyətdən bəhrələnərək, iqtisadiyyatın bütün sektorlarında, habelə siyasi sahədə münasibətlərin qurulması üçün çox çalışmalıyıq. Mən ümid edirəm ki, Latviya Respublikası Prezidentinin səfəri və özəl sektorun nümayəndələrinin ölkəmizə gəlişi, keçiriləcək biznes forumu iqtisadi münasibətlərin daha da genişləndirilməsinə imkanlar yaradacaqdır. Bu işlərin görülməsi üçün çox yaxşı əsas var.

Azərbaycan iqtisadi baxımdan çox sürətlə inkişaf edən ölkədir və gələcək üçün bizim çox yaxşı perspektivlərimiz

mövcuddur. Əminəm ki, Latviyanın iş adamları ölkəmizdə həyata keçirilən müxtəlif layihələrdə iştirak edə bilərlər.

Apardığımız danışıqların aspektlərindən biri Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrə aid idi. Müstəqillik qazandıqdan sonra Azərbaycan Avropaya inteqrasiya siyasətini qətiyyətlə həyata keçirir. Ölkəmizin Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilməsi bu qurumun Azərbaycana və bütün regiona olan marağından xəbər verir. Hesab edirəm ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin Cənubi Qafqaz regionunda həyata keçirilməsi bizim üçün yeni imkanlar açacaqdır. Bu həm də region ölkələrin siyasi və demokratik inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, həmin siyasət münaqişələrin də aradan qaldırılmasına müəyyən töhfə verəcək və təbii ki, iqtisadi baxımdan Azərbaycan Avropa İttifaqına daha sıx inteqrasiya edəcəkdir.

Buna görə də münasibətlərimizdə ikitərəfli, regional məsələlər, təhlükəsizlik məsələləri, Avropa İttifaqı ilə Azərbaycan arasında olan münasibətlər bizim üçün çox böyük əhəmiyyət daşıyır. Bütün bu istiqamətlər üzrə bizim tam anlaşmamız var, eyni yanaşmamız mövcuddur. Ümid edirəm ki, bu səfərdən sonra ölkələrimiz arasında münasibətlər, habelə Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoyacaqdır.

Avropa İttifaqının digər üzvlərindən fərqli olaraq, Latviya bizim problemlərimizi daha yaxşı başa düşür. Çünki biz eyni ölkədə yaşamışıq. Müstəqillik əldə etdikdən sonra qarşımızda yeni imkanlar açılıb və beləliklə, hər iki ölkə maksimum dərəcədə bütün imkanlardan istifadə edərək müstəqilliyini, təhlükəsizliyini möhkəmləndirməyə və yaxşı qonşuluq ruhunda inkişaf etməyə çalışır.

Mən xanım prezidentlə keçirdiyim görüşlərdən və apardığımız müzakirələrdən də çox məmnunam. Müzakirə etdiyimiz məsələlərdən biri regional məsələlərə və Qafqazdakı münaqişələrə aid idi. Bildiyiniz kimi, dünyanın bu guşəsində biz uzun illər torpaqlarımızın işğalından və ərazi bütövlüyümüzün pozulmasından əziyyət çəkirik. Problemin həllinə bizim yanaşmamız

yalnız və yalnız beynəlxalq hüquq normalarına, yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və 1 milyondan çox qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarına qayıtması prinsipinə əsaslanır.

Biz ümidvarıq ki, Dağlıq Qarabağ probleminin aradan qaldırılmasında vasitəçilik funksiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu bu istiqamətdə öz işini fəal surətdə davam etdirəcəkdir. Eyni zamanda, digər təşkilatlar, xüsusən də Avropa təşkilatları bundan sonra da həmin məsələni diqqət mərkəzində saxlayacaqdır. Biz cari ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamədən çox məmnunuq. Həmin sənəddə aydın şəkildə bildirilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, etnik təmizləmə siyasəti aparmışdır və bunun nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz ümid edirik ki, bu qətnaməyə əməl olunacaq və Avropa İttifaqının da bu qətnaməyə davamlı diqqəti bizə və beynəlxalq ictimaiyyətə münaqişənin dinc yolla nizamlanmasına öz töhfəsini verəcəkdir.

Biz eyni zamanda, beynəlxalq əhəmiyyət daşıyan məsələləri də müzakirə etdik və bu sahədə mövqelərimiz üst-üstə düşür.

Xanım Prezident, bizim dəvətimizi qəbul etdiyinizə və ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Bu, Latviya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Mən eyni zamanda, bütün nümayəndə heyətinə də öz təşəkkürümü bildirir və ümid edirəm ki, bu gün və sabah keçirdiyiniz görüşlər ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır. Siz bizim ölkəmizdə öz tərəfdaşlarınızı taparaq, istənilən sahədə ölkələrimiz arasında əməkdaşlığı daha da genişləndirəcəksiniz. Çox sağ olun.

## Latviya prezidenti Vayra Vike-Freyberqanın bəyanatı

Cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

İcazənizlə, çıxışıma mənə göndərdiyi xoş dəvətə görə Azərbaycan prezidentinə minnətdarlıqla başlayım. Ölkənizə səfər etməkdən şərəf hissi duyuram və olduqca məmnunam. Biz böyük nümayəndə heyəti ilə birlikdə səfəri davam etdirmək niyyətindəyik. Nümayəndə heyətinin bütün üzvləri ölkənizin son illər ərzində əldə etdiyi nailiyyətlərlə tanış olmaqda çox maraqlıdırlar. Prezident Əliyevin dediyi kimi, mövqelərimizin və məqsədlərimizin üst-üstə düşməsini mən də məmnunluqla bildirirəm. Bir çox onilliklər ərzində bizim oxşar taleyimiz olubdur. Totalitar rejimdə yaşadıqdan sonra biz öz müstəqilliyimizi bərpa etmişik. Hazırda azad bazar iqtisadiyyatı qurmaqdayıq. Baxmayaraq, bəzi hallarda əhalinin müəyyən təbəqələri üçün bu proses ağrılı keçir, lakin biz anlayırıq ki, bu, gələcək naminə qoyulan sərmayədir və ölkədə həyat tərzinin yaxşılaşdırılması üçün ən faydalı üsuldur.

Təbii ki, biz üç Baltikyanı ölkədə – Latviya, Litva və Estoniyada olduğu kimi, Azərbaycanda da demokratik təsisatların daha da inkişaf etməsində çox maraqlıyıq. Demokratik sistem qurulduqda səhvlər də olur, bəzən şikayətlər və tənqid də eşidilir. Lakin o da aydındır ki, bu, mövcud olan münasib sistemlərdən biridir.

Beləliklə, uzun illər boyu mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan və mərkəzdən idarə edilən ideoloji sistemdən yeni sistemə keçirik. Bu yeni sistemdə bütün vətəndaşlar idarəçilik prosesində fəal iştirak edirlər. Onlar maraqlarını təmsil edən təsisatların işini və fəaliyyətini öyrənməlidirlər. Vətəndaşlar namizədlərə səs verərək, öz maraqlarının təmin olunmasına çalışır və görülən işlərin nəticələri ilə razı olmayanda öz fikirlərini dəyişir və yeni seçkiləri gözləyirlər. Bu amil açıq və

sarsılmaz əsaslar üzərində qurulan cəmiyyət üçün olduqca vacibdir.

Biz Azərbaycanın əldə etdiyi nailiyyətləri görməkdən məmnunuq və prezidentin müxtəlif beynəlxalq qurumlarla, Beynəlxalq Valyuta Fondu, Avropa İttifaqı, NATO kimi təşkilatlarla əməkdaşlıq etmək arzusunu və mövqeyini yüksək qiymətləndiririk.

Bildiyimiz kimi, Latviya bir çox mühüm təşkilatların üzvüdür və onların hər birində Azərbaycan bizim dəstəyimizə arxalana bilər. Latviya Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələsini bütün Avropa qitəsi üçün vacib amil kimi dəyərləndirir. Sabit, tərəqqi edən və demokratik ölkənin qurulması sizin marağınızdadır. Lakin bu, Avropa İttifaqı üçün də vacibdir. Biz ölkəniz ilə Avropa Komissiyası və NATO arasında daha sıx əməkdaşlığın qurulmasında sizə yardımçı olmağa və təcrübəmizi bölüşməyə hazırıq.

Bizim ölkəmiz bəzən çox mürəkkəb islahatlar prosesindən keçmək məcburiyyətində olmuşdur. Lakin bu o demək deyil ki, biz istənilən sahədə model kimi sayıla bilərik. Bizim də görəcəyimiz işlər çoxdur. Biz islahatlarımızı davam etdiririk, demokratik və iqtisadi təsisatları inkişaf etdiririk. Hər bir vətəndaşın yaşayış tərzini yaxşılaşdırmağa çalışırıq. Zənnimcə, qarşımızda tarixi imkanlar açılır və biz əvvəlki əsrdə gördüyümüzdən daha yaxşı cəmiyyət və ölkələr qurmağa nail olacağıq. Bu, asan yol deyildir. Bununla belə, qarşımıza qoyduğumuz məqsədlər bizə aydındır və həmin məqsədlərə çatmağın ən münasib yolu müttəfiqlərimiz və dostlarımızla birgə işin aparılmasıdır.

Sözlərimi yekunlaşdıraraq deyirəm ki, biz bir ölkə kimi, Azərbaycana böyük müvəffəqiyyətlər arzulayırıq. Sizinlə, yeni tərəfdaşlarımızla daha sıx əməkdaşlıq qurmaq fikrindəyik. Bütün vacib sahələrdə bu gün imzaladığımız sazişlər irəliyə doğru atılan mühüm addımdır və gələcək əməkdaşlığımız üçün hüquqi çərçivə yaradır. Biz bu münasibətləri dərinləşdirmək və

genişləndirmək arzusundayıq. Gələcəkdə sizin müttəfiqiniz və dostunuz olmaq fikrindəyik.

* * *

**S u a l: Cənab prezident İlham Əliyev, Azərbaycanda keçirilmiş son prezident seçkiləri bir sıra beynəlxalq təşkilatlar tərəfindən tənqid edilmişdi. İndi isə söhbətlər gəzir ki, qarşıdan gələn parlament seçkilərində qanun pozuntuları olacaqdır. Bir sıra hallarda Amerika və Avropa siyasətçiləri tərəfindən bu məsələlərə dair səsləndirilən tənqid həqiqətə uyğundurmu?**

**İ l h a m Ə l i y e v:** 2003-cü ildə keçirilmiş prezident seçkiləri ilə bağlı biz o qədər də böyük tənqidlə üzləşməmişik. Avropa İttifaqının bu məsələ ilə bağlı mövqeyi həmin qurumun bəyanatında aydın şəkildə açıqlanmışdır və həmin mövqe müsbət olmuşdur. O bəyanatda verilən təsvir ölkədəki seçkilərin nəticələrini və ümumi vəziyyəti tam əks etdirmişdir. Eyni zamanda, təbii ki, seçki prosesi tamamilə müasirləşdirilməli və beynəlxalq standartlara cavab verməlidir. Biz bununla lazımınca məşğul oluruq. Gələn ay keçiriləcək parlament seçkiləri üçün bütün lazımi işlər yerinə yetirilməkdədir. Burada yeganə məqsəd var: parlament seçkiləri düzgün və ədalətli olmalıdır. Hazırda proses rəvan və çox müsbət istiqamətdə gedir. Qeydiyyat prosesi heç bir çətinlik və şikayət olmadan başa çatmışdır. İndi isə seçki kampaniyası başlayıbdır. 125 yer uğrunda mübarizə aparan 2 mindən çox namizəd artıq seçki kampaniyasına qoşulubdur. Onların hamısına bərabər şərait yaradılır, onlar azad yığıncaqlar keçirə bilir, ictimai televiziyada, digər özəl televiziya və radio kanallarında çıxış edirlər. Ona görə də burada problemin olmasını göstərən heç bir əlamət yoxdur.

O ki qaldı ATƏT-in müşahidəçi missiyasına, artıq onlar Azərbaycanda işləyirlər. Onlar seçki prosesi və kampaniyası haqqında ilkin hesabat hazırlamışlar. Əgər bir sıra cüzi texniki məsələləri istisna etsək, ümumiyyətlə, o hesabat da müsbətdir.

Əminəm ki, noyabrda parlament seçkiləri azad, ədalətli şəkildə keçiriləcək və Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

**S u a l: Mənim sualım Latviya prezidentinədir. Cənubi Qafqaz regionunda, xüsusən də Dağlıq Qarabağda separatçı rejimlər davam etməkdədir. Sizin XXI əsrin əvvəlində separatçı hərəkətlərə münasibətiniz necədir?**

**V a y r a V i k e - F r e y b e r q a:** Latviyanın mövqeyi Avropa İttifaqının mövqeyinə uyğundur və hesab edirik ki, ərazi bütövlüyü hər bir suveren dövlətin fundamental hüququdur. Ərazi iddiaları əsasında mübahisə olan hallarda bu, diplomatik kanallar vasitəsilə aparılan açıq danışıqlar yolu ilə aradan qaldırılmalıdır. Münaqişənin aspektləri ilə bağlı müəyyən güzəştlər olmalıdır. Çünki bizim təcrübəmiz göstərir ki, əgər hər hansı bir tərəf mövqeyini sərtləşdirsə, onda münaqişələr onilliklər ərzində uzanır, həll olunmur və nəticədə belə addımlar hərbi əməliyyatlara aparır. Belə olan halda hər iki tərəf itkilər verir, insan tələfatı olur, iqtisadi inkişaf zəifləyir. Həmin ölkələrdə yaşayan sakinlər üçün təhlükəsizlik pozulur. Nəticədə xarici sərmayələr cəlb oluna bilmir, beynəlxalq bazarlara çıxış məhdudlaşır. Avropada bir-birilə qarşıdurmada olan, hətta qanlı müharibədən keçmiş ölkələr İkinci dünya müharibəsindən sonra bir-birilə ümumi dil tapmışlar. Məsələn, Fransa ilə Almaniyanı, Fransa ilə Britaniyanı, yaxud Britaniya ilə Hollandiyanı götürək və sair. Bu müharibələrə baxmayaraq, həmin dövlətlər bütün mənfi amilləri tarixdə saxlaya bilmişlər. Keçmişdə sərhədlər çox vaxt adi bir qərarlar əsasında çəkilmişdir və bir çox hallarda həmin ərazilərdəki etnik tərkibə nəzər yetirmədən müəyyən olunurdu. Lakin bu cür uzun çəkən silahlı münaqişələrin yaranması ehtimalını azaltmaq üçün rəhbər tutulacaq yeganə prinsip ərazi bütövlüyünün qorunmasıdır. Bu prinsip bütün dünyada qəbul olunubdur. Avropa İttifaqının bir üzvü olaraq biz həmin prinsipin gözlənilməsinin tərəfdarıyıq.

**S u a l: Mənim sualım iki hissədən ibarətdir. Birinci hissə Latviyanın xanım prezidentinədir. Dağlıq Qarabağ proble-**

**minin həlli Azərbaycanla daha geniş əməkdaşlıq aparılması üçün faydalı olacaqmı?**

**Mən cənab prezident Əliyevdən soruşmaq istərdim, bu proses hələ başa çatmamışdır. Azərbaycan bu istiqamətdə gələcək addımları necə görür və problemi necə həll etmək istəyir?**

**V a y r a V i k e - F r e y b e r q a:** Bayaq dediyim kimi, hər hansı bir münaqişədə məsələnin iki tərəfi var. İstənilən ölkədə müxtəlif etnik tərkibdə anklav mövcuddursa, ona həssas yanaşmaq lazımdır. Prezident Əliyev danışıqlarda bildirdi ki, Azərbaycan Dağlıq Qarabağın etnik tərkibini nəzərə alaraq, bütün aspektləri nəzərdən keçirməyə və oradakı etnik azlığa öz dilində danışmaq və mədəni irsini davam etdirmək imkanları yaratmağa hazırdır. Hesab edirəm ki, uzunmüddətli həll yolunun tapılması üçün vacib olan ilkin şərtlərdən biri qarşılıqlı hörmətdir.

**İ l h a m Ə l i y e v:** Azərbaycanın bu münaqişə ilə bağlı mövqeyi beynəlxalq hüquq normaları və prinsiplərinə arxalanır. Bütün dünyada ölkələr arasındakı mürəkkəb münasibətlərin həlli də beynəlxalq prinsiplərə əsaslanmalıdır. Bu kiminsə arzularına əsaslanmalı deyildir. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həllini Azərbaycan Respublikasının ərazi bütölüyünün bərpasında görürük. Azərbaycanın ərazi bütövlüyü Ermənistan tərəfindən pozulmuşdur. Hazırda bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Dağlıq Qarabağın özü və onun ətrafındakı 7 inzibati rayon işğal altındadır. Həmin rayonlarda heç vaxt ermənilər yaşamayıblar. Bu münaqişə nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Bu məsələ Avropa Şurasının qətnaməsində əks olunmuşdur. Ermənistan Azərbaycana qarşı təcavüz etmiş və etnik təmizləmə aparmışdır. Bizim məsələyə yanaşmamız çox ədalətlidir və beynəlxaq hüquqa arxalanır. Biz Dağlıq Qarabağdakı ermənilərə yüksək səviyyəli muxtariyyət statusu verə bilərik. Onlara beynəlxalq səviyyədə siyasi təhlükəsizlik

təminatı da verə bilərik. Lakin bir şərtlə ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bütün dünyada və Avropada da müsbət təcrübə vardır. Məsələn, Skandinaviya ölkələrində və digər ölkələrdə bu cür təcrübələr var. Ona görə də Dağlıq Qarabağdakı muxtariyyət dünyada və ya Avropada mövcud olan muxtariyyətdən seçilməli deyil. Bəzi hallarda müəyyən sözlər deyilir və bunlar yanlış təəssürat yaradır. Məsələn, onlar deyirlər ki, xalqların öz müqəddəratını təyin etmək hüququ var. Onu demək istəyirəm ki, ermənilər bir millət, xalq kimi öz müqəddəratını artıq təyin ediblər. Onların Ermənistan dövləti var. Ermənilər indi bir çox ölkələrdə yığcam şəkildə yaşayırlar. Siz təsəvvür edin, əgər onlar yaşadıqları bu ölkələrdə öz müstəqilliklərini tələb etsələr, nələr baş verər. Ona görə də münaqişənin həlli yolu Ermənistan qoşunlarının bizim ərazidən çıxmasıdır. Bu məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var ki, onlar da yerinə yetirilməlidir. Məcburi köçkünlər və qaçqınlar öz doğma yerlərinə qayıtmalıdırlar. Siyasi təhlükəsizlik təminatı olmalıdır və Dağlıq Qarabağa yüksək səviyyəli muxtariyyət verilməlidir. Biz bu məsələnin həllinin yeganə yolunu belə görürük.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Latviya və Azərbaycan arasında iqtisadi əməkdaşlığın hansı konkret sahələrini sadalaya bilərsiniz?**

**V a y r a V i k e - F r e y b e r q a:** Biz hesab edirik ki, perspektivlər çox böyükdür. Hər iki ölkədə gözəçarpan iqtisadi inkişaf müşahidə olunur. Hazırda iqtisadi münasibətlər genişlənməkdədir. Xüsusən son iki il ərzində buna xüsusi diqqət yetirmişik. Gələn ilin yazında Bakıda Latviyanın səfirliyini açmağı planlaşdırırıq. Eyni zamanda, iki ölkə arasında hava uçuşlarının həyata keçirilməsini planlaşdırırıq. Bilirsiniz ki, Latviya artıq güclü ölkəyə çevrilir, Avropa İttifaqının 25 üzvündən biridir. Biz bu qurumun Gömrük İttifaqına daxilik. Bu baxımdan sizin iş adamları bizim iş adamları ilə yaxşı əməkdaşlıq edə, ölkəmiz vasitəsilə Avropa məkanına,

bazarlarına çıxa bilərlər. Əminəm ki, onlar işbirliyinin qurulması üçün ümumi sahələr tapa biləcəklər.

**İ l h a m Ə l i y e v:** Latviya və Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrdir. Hər iki ölkədə gözəçarpan iqtisadi artım müşahidə olunmaqdadır. Bu göstəricilərə əsaslanaraq, biz iqtisadi vəziyyətimizi keyfiyyətcə yaxşılaşdıra bilirik. Əminəm ki, xanım prezidentin ölkəmizə səfərindən sonra iş adamları arasında əlaqələr, təmaslar daha da sıx olacaqdır.

Biz görürük ki, artıq bu əməkdaşlıq yaranır. Bizim iş adamları qarşılıqlı maraq doğuran sahələr üzrə əlaqələr qurmalıdır. Bunun üçün çox möhkəm əsaslar var, yaxşı siyasi münasibətlərimiz var. Şübhəsiz ki, Bakıda Latviya səfirliyinin açılması ölkələrimiz arasında məlumatların daha geniş şəkildə yayılmasına imkan verəcəkdir. Bəzən belə də olur ki, müstəqillik qazandıqdan sonra ölkələrin bir-biri haqqında məlumatı o qədər də çox olmur, təmaslar o qədər də yüksək səviyyədə olmur. Lakin Latviyaya gəldikdə, bizim sıx əlaqələrimiz var. İş adamlarımızdan bu ölkə haqqında məlumat var. Biz isə bu prosesin daha da asanlaşdırılması üçün mümkün olan bütün işləri görməyə hazırıq. Əminəm ki, gələn illər ərzində iqtisadi əməkdaşlıq gözəçarpan dərəcədə artacaqdır.

## ABŞ-ın VALMONT İNDUSTRİES ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU MOGENS BAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2005-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Valmont İndustries şirkətinin sədri və Baş icraçı direktoru Mogens Bayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bu şirkətin kənd təsərrüfatı sahəsindəki fəaliyyəti barədə məlumatı olduğunu bildirən dövlətimizin başçısı qonaqların Azərbaycanda yeni layihələrin həyata keçirilməsinə maraq göstərməsini yaxşı hal kimi dəyərləndirdi. Azərbaycanda kənd təsərrüfatının böyük perspektivləri olduğunu nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, biz iqtisadiyyatımızın bu sahəsinə çox böyük əhəmiyyət veririk. Neft və qaz sahələrindən sonra kənd təsərrüfatı ən əsas, prioritet hesab etdiyimiz sahələrdən biridir. Ölkəmizdə fermerlərə kreditlər ayrılır, onların kənd təsərrüfatı texnikası ilə təmin olunması istiqamətində böyük işlər görülür. Əminəm ki, Azərbaycanda yaxın gələcəkdə bu sahədə böyük inkişafa nail olacağıq. Sizin də bu prosesdə fəal iştirakınıza ümid edirəm.

Rəhbərlik etdiyi şirkətin kənd təsərrüfatı sahəsində 60 il fəaliyyət göstərdiyini və çox böyük təcrübəyə malik olduğunu bildirən Mogens Bay dedi ki, bu gün dünyanın üzləşdiyi ən böyük problemlərdən biri içməli təmiz sudur. Qarşıdakı 30–50 il ərzində dünyada ərzağa olan tələbat iki dəfə artacaq və daha

səmərəli fəaliyyət göstərmədən bunu ödəmək mümkün deyildir. Bu bizim əsas fəaliyyət sahələrimizdən biridir. Biz təmiz su ehtiyatının çoxaldılması, kənd təsərrüfatı məhsullarının artımının təmin edilməsi istiqamətində işləyirik. Şirkətimiz 100-ə yaxın ölkədə fəaliyyət göstərir.

Su ehtiyatları məsələsinin çox mühüm problem olduğunu vurğulayan prezident İlham Əliyev dedi ki, Azərbaycanda su ehtiyatlarının kənd təsərrüfatında istifadəsi, eyni zamanda əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq istiqamətində böyük planlarımız vardır. Həm içməli, həm də suvarma su ilə bağlı bu layihələr ölkəmizin şimal rayonlarında həyata keçiriləcəkdir.

Cənab Mogens Bay məlumat verdi ki, şirkət yerli şirkətlərlə birlikdə Azərbaycanda həm pambıq, həm də şəkər çuğunduru istehsalı sahəsində iki böyük layihə üzərində işləyir. İlk pilot layihəsi yaxın vaxtlarda həyata keçiriləcək ki, bu da Azərbaycanda tam fəaliyyətə başlamaq üçün yaxşı əsas yaradacaqdır.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yəhudilərin Roş-Ha-Şana – Yeni il bayramı münasibətilə ölkəmizin yəhudi icmasının nümayəndələrini qəbul etmişdir.*

*Dövlətimizin başçısı yəhudi icmasının təmsilçilərini bayram münasibətilə təbrik edərək onlara və ailələrinə, Azərbaycanın bütün yəhudi icmasına firavanlıq, cansağlığı arzuladı, ölkəmizdəki inkişafdan, iqtisadi-siyasi proseslərdən danışdı.*

**İlham Əliyev:** Azərbaycanda müxtəlif xalqların nümayəndələri, müxtəlif dinlərə məxsus insanlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Əlbəttə, Azərbaycanda yaşayan bütün xalqlar arasında sülhün olması başlıca nailiyyətdir. Çox xoşdur ki, bu dostluq, qardaşlıq münasibətləri ildən-ilə möhkəmlənir və bütün bunlar ölkəmizin rifahının xeyrinədir. Milli həmrəylik olmayan ölkələrdə problemlər də var, çətinliklər də var, anlaşılmazlıq da var. Milli həmrəylik olan ölkələrdə isə sülh, firavanlıq və həmrəylik var. Biz hamımız ölkəmiz üçün firavanlıq istəyirik. Hamımız Azərbaycan vətəndaşlarıyıq və öz Vətənimizi sevirik. Azərbaycanda olan bu doğmalıq şəraiti çox mühümdür.

Azərbaycandakı yəhudi icması çox böyük tarixi ənənələrə malikdir və özünün bənzərsiz özgürlüyünü, mədəniyyətini, milli adət-ənənələrini qoruyub saxlamışdır, cəmiyyətə çox fəal inteqrasiya etmişdir.

**Semyon İxiilov** (*Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri*): Ölkəmizdə yəhudilərə yaradılan şərait üçün min-

nətdarlığımı bildirirəm. Respublikamızda son illərdə bütün sahələrdə sürətli inkişaf var. Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsinə yönəldilmiş Prezident fərmanları və sərəncamlarının əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm.

Cənab Prezident, ölkəmiz müstəqilliyə nail olduğu vaxtdan bəri qayğını, ilk növbədə, dahi Heydər Əliyevin böyük qayğısını daim hiss edirdik. İndi isə biz bu qayğını, bəlkə də böyük qayğını Sizdən görürük. Hər zaman göstərilən diqqətdən razılığımı bildirirəm. «Holokost» və Xocalı soyqırımı da xalqlarımızı birləşdirən amillərdəndir. Biz görülən bütün işlərə görə Sizə və həyat yoldaşınıza – Azərbaycanın birinci xanımı, YUNESKO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürümüzü bildirmək istəyirik. Bir ildə 132 məktəb binasının tikilməsi barədə təşəbbüs görünməmiş və eşidilməmiş bir işdir. Hələ nə qədər də tikiləcəkdir. Özü də bu əsla son hədd deyildir.

**İ l h a m Ə l i y e v:** Xatırladım ki, ölkənin bütün regionlarında məktəblərlə yanaşı, ən müasir tibb avadanlığı ilə təchiz olunmuş xəstəxanalar da tikiləcəkdir.

**G e n n a d i Z e l m a n o v i ç** (*Azərbaycanın Avropa Yəhudiləri Dini İcmasının sədri*): Yəhudi mədəniyyətinin inkişafına göstərilən diqqətə görə Sizə, cənab Prezident, təşəkkür edirəm. Yüz ildə ilk dəfə olaraq sinaqoq tikildi. Buna Sizin də köməyiniz oldu. Yəhudi evi də inşa edildi. Hazırda məktəblərimiz da var. Moskvadan sonra ikinci məktəbimizi Bakıda tikmək üçün kifayət qədər torpaq ayırdığınıza görə Sizə təşəkkür edirik. Semyon Borisoviçlə biz xarici ölkələrdə, müxtəlif konfranslarda tez-tez oluruq. Orada antisemitizm üzrə monitorinq keçirilir. Azərbaycan bu siyahıya heç vaxt düşmür. Əksinə, orada Azərbaycan həmişə nümunə kimi göstərilir, deyirlər ki, baxın, öyrənin.

**İ l h a m Ə l i y e v:** Azərbaycan–İsrail əlaqələri, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edir. Başlıcası budur ki, biz insanların arzu və istəklərinə əsaslanan birmənalı, müstəqil xətt yeritməliyik və bu istiqamətdə işləməliyik. Siz

Heydər Əliyevin rolunu qeyd etdiniz. Doğrudan da, Azərbaycanın tarixində onun nadir rolu olmuşdur.

Müstəqilliyimizin ilk çağlarını xatırladaraq deyim ki, o vaxt hakimiyyətdə olanların ölkənin və xalqın taleyinə göstərdikləri biganəlik barədə çoxlu faktlar məlumdur. Eyni zamanda onu da bildirirəm ki, dini dözümlülüyünə görə həmişə yaxşı mənada seçilən Azərbaycan tolerantlığın inkişafı baxımından nümunəvi ölkə olmalıdır, burada bütün dinlərin nümayəndələrinə hörmət və ehtiramla yanaşılır.

**M e y e r  B r u k** (*Azərbaycanın Avropa Yəhudiləri İcmasının Baş ravvini*): Biz bu yaxınlarda yəhudilərin dünya konqresində olduq. Orada bildirildi ki, Azərbaycanda antisemitizm yoxdur, Azərbaycanda yəhudilərin təhlükəsizliyi və əmin-amanlığı təmin edilmişdir. Konqresdə Heydər Əliyevin bu işdə rolu və xidmətləri xüsusi vurğulandı. Yaxşı yadımızdadır, biz Heydər Əliyevlə görüşəndə o demişdi ki, Azərbaycanda yəhudilər arxayın ola bilərlər.

*Görüşün sonunda Azərbaycanın yəhudi icması adından prezidentə hədiyyələr təqdim edildi.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Bali adasında törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 oktyabr 2005-ci il*

## BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-ci DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ

*Bakı,*
*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*3 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqa Bədii gimnastika üzrə 27-ci Dünya çempionatının təntənəli açılış mərasimində iştirak etmişlər.*

*İdman kompleksinə toplaşmış minlərlə tamaşaçı dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Açılış mərasimi teatrlaşdırılmış bədii proqramla başlandı.*

*47 ölkəni təmsil edən gimnast qızlar dövlət bayraqları altında yarış meydanına çıxdılar.*

*Mərasimi Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva açdı.*

**M e h r i b a n  Ə l i y e v a:** Möhtərəm Azərbaycan Respublikasının Prezidenti!

Möhtərəm Latviya Respublikasının Prezidenti!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Bədii gimnastika üzrə 27-ci Dünya çempionatının açılış mərasiminə xoş gəlmisiniz! Paytaxtımıza dünyanın 47 ölkəsindən gələn qonaqları Azərbaycan torpağında salamlayıram. Mən bu sözləri böyük fərəh və sevinc hissi ilə söyləyirəm və əminəm ki, Azərbaycanın hər bir vətəndaşı həmin hissləri keçirir.

Bizim idman tariximiz olduqca zəngindir. İdmançılarımız bir sıra beynəlxalq yarışlarda Azərbaycan bayrağını yüksəklərə qaldırıb, himnimizin səslənməsinə nail olublar. Biz bununla fəxr edirik.

Bu gün Azərbaycanın idman tarixində yeni səhifə açılır – ilk dəfədir ki, Azərbaycanın paytaxtı Bakı şəhərində olimpiya idman növü üzrə Dünya çempionatı keçirilir. Bu şərəf başqa idman növlərinə də nəsib ola bilərdi.

Ölkəmizdə son illər idmanın fantastik sürətlə inkişafı bunu deməyə əsas verir və mən inanıram ki, bu, gələcəkdə belə də olacaqdır. Lakin dünya miqyaslı belə bir hadisə ilk dəfə məhz bədii gimnastikada baş verir.

Bədii gimnastika təkcə idman növü deyildir. Bədii gimnastika gözəllik, zəriflik, yüksək sənət rəmzidir. Biz bu çempionatın keçirilməsini arzulayırdıq və arzumuz həyata keçdi.

Son 10 ildə ölkəmizdə inşa olunan hər yeni idman salonu, tikilən hər yeni stadion, olimpiya idman kompleksi bizi bu şərəfli günə yaxınlaşdırırdı.

Mən bu gün çox böyük qürur hissi ilə deyirəm ki, belə bir çempionatın ölkəmizdə keçirilməsi Azərbaycan idmanına verilən yüksək qiymətdir.

Bədii gimnastika üzrə 27-ci Dünya çempionatının ölkəmizdə keçirilməsi bir çox insanın əməyinin bəhrəsidir. Bu ilk növbədə, Beynəlxalq Gimnastika Federasiyasının rəhbərliyinin qəbul etdiyi qərarın nəticəsidir. Bu, Azərbaycan Gimnastika Federasiyasının uğurlu fəaliyyətinin nəticəsidir. Çempionatın Təşkilat Komitəsi üzvlərinin zəhmətidir. Mən bütün bu insanlara təşəkkürümü bildirirəm.

Mən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm. Ölkə prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti kimi onun gördüyü işlər göz qabağındadır. Sözsüz ki, biz hamımız ona minnətdarıq. Gimnastika Federasiyasının rəhbəri və ölkə prezidentinin xanımı kimi, mən xüsusi vurğulamaq istəyirəm ki, onun qayğısı, yardımı, onun diqqəti olmasaydı, yəqin ki, belə bir

çempionatın keçirilməsi yalnız arzu olaraq qalardı. Çox sağ olun, cənab Prezident!

İdman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir. Bir daha Sizi bu möhtəşəm bayram münasibətilə təbrik edirəm, Azərbaycana gəlmiş qonaqları salamlayıram, idmançılara qələbə sevinci arzulayıram. Sağ olun.

## LATVİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Bakı, Yaxt-klub*

*3 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Latviya prezidenti xanım Vayra Vike-Freyberqanın və onun həyat yoldaşı İmants Freyberqsin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev və prezident Vayra Vike-Freyberqa qəbulda nitq söylədilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanım Prezident!

Hörmətli cənab İmants Freyberqs!

Xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə mən Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» deyirəm.

Latviya və Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Latviya prezidentinin Azərbaycana ilk səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında əlaqələri yeni səviyyəyə qaldıracaqdır. Keçirdiyimiz görüşlər və apardığımız müzakirələrlə bağlı məmnunluq hissimi vurğulamaq istəyirəm. Biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Aramızdakı siyasi dialoqun səviyyəsindən çox razıyam. Eyni zamanda ümid edirəm ki, bundan sonra bizim münasibətlərimiz bütün sahələrdə böyük sürətlə inkişaf

edəcəkdir. İmzalanmış Birgə bəyannamə və digər sənədlər, iki ölkənin iş adamlarının keçirdiyi biznes forumu əməkdaşlığımızın inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir.

Mən Latviya ilə Azərbaycan arasında əməkdaşlığın bütün sahələrdə dərinləşməsinin tərəfdarıyam. Biz bu əməkdaşlığı daha da inkişaf etdirmək üçün Latviyada səfirlik açmışıq.

Ölkələrimizin tarixində oxşar məqamlar çoxdur. Müstəqillik uğrunda mübarizə əzmi xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmışdır. Bu gün Latviyada böyük Azərbaycan icması yaşayır. Mən Latviyanın dövlət strukturlarının soydaşlarımıza göstərdiyi münasibətdən məmnunam. Buna görə Sizə təşəkkür edirəm.

Azərbaycan Latviya ilə həm də regional təşkilatlar çərçivəsində, o cümlədən Baltik Dənizi Dövlətləri Şurası çərçivəsində əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlıq Baltik–Qara dəniz–Xəzər hövzəsi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir.

Bu gün Azərbaycan sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun real artımının 20 faiz, 2006-cı ildə isə 30 faiz olacağı gözlənilir. Bu yüksək göstəricilər ölkəmizdə yoxsulluğun azaldılması və davamlı inkişaf proqramını həyata keçirmək üçün möhkəm zəmin yaradır. Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə iqtisadiyyatımıza 25 milyard dollar məbləğində sərmayə qoyulmuşdur.

Azərbaycan Avropa və Avratlantik strukturları ilə sıx əməkdaşlıq edir. Çox məmnunam ki, Azərbaycan Avropa Şurasına Latviyanın bu təşkilatda sədrliyi dövründə daxil olmuşdur.

Hörmətli xanım Prezident, bu məsələdəki mövqeyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edərək, ötən il ölkənizin Avropa İttifaqına və NATO-ya üzv qəbul edilməsi ilə əlaqədar Sizi təbrik edirəm.

Biz Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsinə xüsusi diqqət yetiririk. «Yeni qonşuluq siyasəti»nə xüsusi əhəmiyyət verərək, ölkəmizin Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası yaratmışıq. Mən bu təsisatlarla əməkdaşlıqda Latviyanın Azərbaycana verəcəyi dəstəyə görə əvvəlcədən təşəkkürümü bildirirəm.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq əhəmiyyətli layihələr həyata keçirir. Bakı–Tbilisi–Ceyhan ixrac boru kəməri Azərbaycan neftini cari ilin sonuna qədər dünya bazarlarına çıxaracaqdır. Bununla yanaşı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, TRASEKA proqramının, Bakı–Tbilisi–Qars dəmir yolu layihələrinin həyata keçirilməsi həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafında və Avropaya inteqrasiyada mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu ölkənin hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Azərbaycan münaqişənin beynəlxalq hüquq, ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə həllini, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir. Biz bu məsələdə Latviyanın da dəstəyinə böyük ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Xanım Prezident, icazə verin, bu badəni Sizin sağlığınıza, cənab İmants Freyberqsin sağlığına, Azərbaycan ilə Latviya

arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

Sağ olun.

**Latviya prezidenti xanım**
**Vayra Vike-Freyberqanın nitqi**

Hörmətli cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Latviya müstəqilliyini əldə etdiyi vaxtdan və ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasından sonra ilk dəfə olaraq, böyük sevinclə Sizin ölkənizə səfər etməkdən məmnunam. Əminəm ki, ölkələrarası sıx əlaqələrimiz qarşılıqlı etimad əsasında qurulubdur. Xalqlarımız arasında səmimi əlaqə yaranıb, parlament üzvlərinin, hökumət nümayəndələrinin və diplomatların gördüyü işlər bizim əlaqələrimizin özülünü qoyubdur. Bizim imzaladığımız Birgə bəyannamə və nümayəndələrimizin imzaladıqları sazişlər gələcək intensiv əməkdaşlığın əsasını təşkil edəcəkdir.

Bizim xalqlarımızı birləşdirən səmimi əlaqələr barədə dedim. Həmin əlaqələr ölkələr arasında da mövcuddur. XIX əsrin sonu – XX əsrin əvvəlində xalqlarımızın inkişafında bir çox eyniliklər var idi. O illər hər iki xalq üçün özünüdərketmə dövrü idi və insanlar öz dilləri və mədəniyyətlərini qorumağa və inkişaf etdirməyə çalışırdılar. Müstəqilliyə can atmaq və ədalət istəyi bizim xalqların ümumi xüsusiyyətləridir.

Ədalət uğrunda canını qurban vermiş insanlar bizim xatirimizdədir. 1990-cı ildə baş vermiş Qara yanvar faciəsinin dəhşətini və Azərbaycan xalqının həyəcanını Latviyada heç bir insan unutmamışdır. Bu hadisələr insanların yaddaşına həkk olunmuşdur.

Latviya və Azərbaycan arasında siyasi əlaqələr siyasi müstəqillikdən sonra bərpa olunmuşdur. Keçən il Latviya özünün iki məqsədinə nail olmuşdur. Bunlar Avropa İttifaqına və NATO-ya üzv olmaqdır. Həmin təşkilatlarda mövqelərimizin

möhkəmləndirilməsi məqsədi ilə fəaliyyətimizi davam etdirməliyik. Avropa İttifaqının genişlənməsi və gələcək inkişafı naminə ümumi müzakirələrdə iştirak edirik. Azərbaycanın həmin təşkilatlarla əməkdaşlığı davam etdirmək yolunu seçməsini böyük məmnuniyyətlə vurğulayıram. Azərbaycanın Avropa İttifaqına və ya NATO-ya daxil olmaq arzusu olduğu təqdirdə, biz öz tərəfimizdən sizi dəstəkləyəcəyimizə zəmanət veririk.

Bir neçə gün öncə Azərbaycanın Latviya Respublikasındakı səfiri cənab Tofiq Zülfüqarovun etimadnaməsini böyük məmnuniyyətlə qəbul etdim. Azərbaycan xalqı layiqli nümayəndələrindən birini bizə göndərmişdir. Ümid edirəm ki, buna cavab olaraq, ilin axırına kimi Bakıda Latviya Respublikasının səfirliyi fəaliyyətə başlayacaqdır. Şübhəsiz, səfirliklərin açılması ölkələrimiz arasındakı əlaqələrin həm hökumət səviyyəsində, həm də qeyri-hökumət səviyyəsində inkişafına yeni imkanlar yaradacaqdır. Sizin gözəl, qədim və sürətlə inkişaf edən şəhərinizi görməkdən çox şadam. Bu inkişaf hər addımda hiss olunur.

Sizin ölkəniz cəsarətlə regionun liderlərindən biri olur. Latviya nümayəndə heyətinin hər bir üzvü iki ölkə arasında əlaqələrin böyük potensiala malik olduğuna əmin olmuşdur.

Cənab Prezident, qonaqpərvərliyə və dostcasına qəbulunuza görə Sizə minnətdaram. Ümidvaram ki, Siz münasib bir vaxt tapıb, Latviya öz müstəqilliyini əldə etdikdən sonra baş vermiş dəyişiklikləri görmək üçün bizim ölkəmizə səfər edəcəksiniz.

Bu badəni dostluq, əməkdaşlıq və gələcək tərəqqi şərəfinə qaldırıram!

Ölkələrimiz arasında uğurlu əməkdaşlıq şərəfinə!

# LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA HEYDƏR ƏLİYEV FONDUNDA

*4 oktyabr 2005-ci il*

*Latviya Respublikasının prezidenti xanım Vayra Vike-Freyberqa Heydər Əliyev Fondunda olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Latviya prezidenti Vayra Vike-Freyberqanı və onun həyat yoldaşı İmants Freyberqsi fondun binası önündə böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident Vayra Vike-Freyberqaya və nümayəndə heyətinin üzvlərinə fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun əsas məqsədi prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən ibarətdir.*

*Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun həyatının uşaqlıq, gənclik illərini və siyasi fəaliyyətini əks etdirən eksponatlar barədə ətraflı söhbət açdı.*

*Xanım Vayra Vike-Freyberqa və Latviya nümayəndə heyətinin üzvləri fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Latviya rəhbəri dün-*

yanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, onun xarici ölkələrin liderləri ilə birgə çəkilmiş fotoşəkillərinə böyük maraqla baxdı.

Latviya prezidenti fondla tanış olduqdan sonra xatirə kitabına ürək sözlərini yazdı.

Sonra çay süfrəsi arxasında söhbət davam etdirildi. Prezident İlham Əliyev xanım Varya Vike-Freyberqaya ölkəmizə səfəri zamanı çəkilmiş fotoşəkillərdən ibarət fotoalbom təqdim etdi.

Prezident Vayra Vike-Freyberqa və nümayəndə heyətinin üzvləri fondun eyvanından Bakının görməli yerlərini seyr etdilər, burada xatirə şəkli çəkdirdilər.

Ali qonaq fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

## AZƏRBAYCAN–LATVİYA BİZNES FORUMU

*«Hyatt Recens–Naxçıvan» hoteli*

*4 oktyabr 2005-ci il*

*Azərbaycan–Latviya biznes forumu Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti xanım Vayra Vike-Freyberqanın iştirakı ilə öz işini davam etdirmişdir. Forum iştirakçıları dövlət başçılarını alqışlarla qarşıladılar.*

*Forumda prezidentlər İlham Əliyev ilə xanım Vayra Vike-Freyberqa arasında danışıqların və imzalanmış sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün əhəmiyyəti vurğulandı. Bildirildi ki, prezidentlərin biznes forumunda iştirakı iş adamlarını daha sıx əməkdaşlıq etməyə ruhlandırır.*

*Forum çərçivəsində hər iki ölkənin investisiya imkanları haqqında geniş məlumat verildiyini, iş adamlarının ikitərəfli görüşlərinin təşkil olunduğunu, Latviyada istehsal edilmiş bəzi ərzaq məhsullarının dequstasiyasının keçirildiyini, forumda Azərbaycan və Latviya tərəfindən neft, qaz, nəqliyyat, rabitə, bank-maliyyə, nəşriyyat, informasiya texnologiyaları, yeyinti məhsullarının, tikinti materiallarının istehsalı üzrə ixtisaslaşmış 200-dən artıq şirkətin təmsil olunduğu və ikitərəfli görüşlər nəticəsində imzalanmaq üçün çoxlu sənədlər hazırlandığı bildirildi.*

*Latviyanın İqtisadiyyat naziri Krişyanis Karinş çıxış edərək forumun çox əhəmiyyətli, aparılan müzakirələrdə səslənən fikirlərin oxşar olduğunu söylədi. Fəallıqlarına görə Azərbaycanın biznes nümayəndələrinə təşəkkür edən nazir dedi ki, Latviya biznesmenləri müxtəlif ölkələrin təmsilçiləri ilə görüşmüşlər, lakin ürəkdən deyirəm ki, Azərbaycanın biznesmenləri, iş adamları doğrudan da peşəkardırlar və biz bunu çox yüksək qiymətləndiririk.*

*O, dövlət başçılarının iştirakı ilə imzalanmış və iş adamları arasında imzalanacaq sazişlərin iki ölkənin gələcək əməkdaşlığı üçün çox önəmli olduğunu vurğuladı.*

*Latviyalı nazir gələn il Riqada biznes forumun keçiriləcəyini, birbaşa hava xəttinin açılması ilə ölkələrimiz arasında əlaqələrin güclənəcəyini söylədi, qarşılıqlı əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Prezidentlər İlham Əliyev və Vayra Vike-Freyberqa forumda nitq söylədilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanım Prezident!

Əziz qonaqlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən bütün qonaqlarımızı bir daha salamlamaq istərdim. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, bu səfər və onun çərçivəsində imzalanmış sənədlər, habelə biznes forumu münasibətlərimizdə yeni səhifə açacaqdır. Səfər başa çatır və biz onun nəticələrindən çox razıyıq. Çox yaxşı müzakirələrimiz oldu. Müxtəlif məsələlərə – ikitərəfli münasibətlərə, regional inkişafa, Avropa strukturlarına inteqrasiyaya dair ətraflı fikir mübadiləsi apardıq. Təbii ki, ölkələrimiz arasında əlaqələrin vacib aspektlərindən biri iqtisadi münasibətlərdir.

Bu gün birgə biznes aparılması üçün çox yaxşı imkanlar yaranıbdır. Hər iki ölkənin imkanları qiymətləndirilə və uğurlu iqtisadi əməkdaşlıq üçün lazımi əsas yaradıla bilər. Hesab edirəm ki, hazırkı biznes forumunun yekunları onu nümayiş etdirdi ki, tədbir uğurla keçmişdir. Biz artıq məlumat almışıq ki, bir sıra sənədlər imzalanmışdır. Fikrimcə, gələcəkdə, iş adamları bir-birini daha yaxşı tanıdıqdan və imkanlar, o cümlədən hüquqi baza, vergilər, sərmayələrlə bağlı şərait haqqında daha dolğun məlumat əldə etdikdən sonra bizim daha sıx təmaslarımız olacaq və yeni sazişlər imzalanacaqdır.

Azərbaycan hər sahədə, o cümlədən iqtisadi baxımdan sürətlə inkişaf edən ölkədir. Cari ilin ilk səkkiz ayı ərzində Azərbaycanda ÜDM 20 faiz, sənaye istehsalı 26 faiz, əhalinin real gəlirləri 27 faiz artmışdır. Ölkəmizə birbaşa yatırılan xarici sərmayələrin ardı kəsilmir. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan regionda və bütün keçmiş SSRİ məkanında birinci yerlərdən birini tutur. Biz sərmayələr üçün çox əlverişli şərait yarada bilmişik. Bütün sərmayələr hökumət və qanunvericilik tərəfindən lazımi səviyyədə qorunur. Son on il ərzində ölkə iqtisadiyyatına yatırılmış 25 milyard ABŞ dolları həcmində xarici sərmayələr Azərbaycana göstərilən etimadın ən bariz nümunəsidir. Bu etimad etibarlı tərəfdaşlığa, ölkənin gələcəyinə əsaslanır.

Sərmayədarlar üçün gələcək vəziyyətin proqnozlaşdırılması da böyük əhəmiyyət kəsb edir. İqtisadi inkişaf üçün başlıca amil sayılan siyasi sabitlik ölkəmizdə bərqərar olunubdur. Hazırda hökumət iqtisadiyyatı şaxələndirməyə çalışır. Əlbəttə ki, ilkin mərhələlərdə sərmayədarlar üçün ən cəlbedici sahə neft və qaz sənayesi idi. Bu istiqamətdə biz gözəçapran nailiyyətlər əldə etmişik. Bir neçə il bundan əvvəl xülya kimi görünən Bakıdan Aralıq dənizi sahilinə gedən boru kəməri hazırda reallığa çevrilməkdədir. Azərbaycan qazını Avropaya çatdıracaq boru kəməri isə hazırda tikilməkdədir və gələn ilin sonunda istismara veriləcəkdir.

Biz nəqliyyat dəhlizləri sahəsində də fəal işləyirik, çünki Azərbaycan yerləşdiyi məkana və geosiyasi vəziyyətinə görə regionda çox mühüm nəqliyyat qovşağıdır. Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayır və məşhur Böyük İpək Yolu həm də bizim ölkəmizin ərazisindən keçir. Bu vəziyyətdən bəhrələnərək biz infrastrukturumuzu təkmilləşdirməyə çalışırıq. Bir sıra hava limanları tikməyi planlaşdırırıq, yol infrastrukturunu yaxşılaşdırmaq arzusundayıq, avtomagistrallar çəkirik. Azərbaycanın gəmiçilik idarəsi öz potensialını artırır. Bir sözlə, biz bütün sahələrdə inkişaf üçün lazım olan infrastrukturu yaradırıq.

Hesab edirəm ki, Latviyanın iş adamları bu üstünlüklərdən istifadə edə bilərlər. Sərmayədar kimi və xidmət sahəsində çalışan şirkətlər kimi, sizi alqışlayırıq. Gələcək illər ərzində Azərbaycanda infrastruktur böyük sürətlə inkişaf edəcəkdir.

Biz regional inkişaf və sosial-iqtisadi inkişaf proqramları tərtib etmişik. Həmin proqramlara uyğun olaraq yeni elektrik stansiyaları, yeni supaylama sistemləri, şoselər və hava limanları, məktəb və xəstəxanalar, bütün sosial infrastruktur tikiləcək və mövcud olanlarda təmir işləri aparılacaqdır. Çünki həmin infrastrukturun böyük hissəsi sovet vaxtından qalan köhnəlmiş infrastrukturdur. İndi isə onlar yeniləşməlidir. Başqa sözlə desək, Azərbaycanda böyük işlər görüləcəkdir və mən əminəm ki, sizin ölkənizdən olan şirkətlər həmin işlərdə iştirak edəcəklər.

Bizim iqtisadi siyasətimizin əsas elementlərindən biri regional inkişafdır. Azərbaycan yalnız Bakıdan ibarət deyildir. Bakı sürətlə inkişaf edən müasir Avropa şəhəridir. Lakin bizim vəzifəmiz paytaxtla ölkənin qalan hissəsi arasındakı fərqləri azaltmaqdan ibarətdir. Bu məqsədlə biz yeni infrastruktur yaratmalı və iş yerləri açmalıyıq. Rayonlarda yaşayanlar üçün yeni imkanlar yaratmalıyıq. Mən böyük fərəh hissi ilə demək istəyirəm ki, son iki il ərzində biz Azərbaycanda 300 mindən çox yeni iş yeri açmışıq və onların əksəriyyəti rayonlardadır. Ölkənin 8 milyon əhalisi olduğunu nəzərə alsaq, görərik ki, 300 min iş yerinin açılması çox yaxşı göstəricidir. Mən iki il bundan öncə söz vermişdim ki, beş ildə biz 600 min iş yeri açacağıq. Əminəm ki, bu vədi yerinə yetirə biləcəyik.

Rəqəmlər bu halda o qədər də mühüm deyildir. Mühüm olanı odur ki, yeni iş yeri insanlar üçün yeni imkanlar açır, yeni infrastruktur və yeni qurğular yaranır. Nəhayət, açılan yeni iş yerləri, öz növbəsində, digər iş yerlərinin açılmasına da səbəb olur. Azərbaycanda yeni iş yerlərinin açılması neft sektorundan başlanmışdır. Hazırda yaxşı məvacib alan minlərlə insan xarici və yerli şirkətlərdə çalışır. Lakin neft və qaz sənayesinə yatırılan hər bir dollar infrastrukturla bağlı, ən azı, daha bir

dolların sərmayə kimi qoyulması ilə nəticələnir. Yəni, burada mehmanxanalar və xidmət sahəsi nəzərdə tutulur. Yaşayış binaları tikilir. Gələcək illər ərzində Azərbaycanda iqtisadi inkişaf çox uğurlu olacaqdır. Beynəlxalq Valyuta Fondunun bu il verdiyi proqnoza görə, cari il ərzində Azərbaycanın iqtisadiyyatı çox sürətlə inkişaf edəcək və dünyada ən yüksək göstəriciyə malik olacaqdır. Gələn il ərzində iqtisadi artım 30 faiz səviyyəsində planlaşdırılır. Biz sonrakı illər ərzində də inkişafı bu sürətlə davam etdirəcəyik.

Hesab edirəm ki, qonaqlarımız vəziyyəti qiymətləndirmək imkanları əldə etmişlər və hər şeyi öz gözləri ilə görüblər. Ən əsası məhz bundan ibarətdir. Əfsuslur olsun ki, əvvəllər biz ölkələrimiz haqqında o qədər də çox məlumata malik olmamışıq, təmaslar o qədər də çox olmayıbdır. İndi isə biz səfirlik açdıq, Latviya da eyni addımı atmağı planlaşdırır. Yaxın vaxtlarda birbaşa uçuşlara başlayacağıq. Bu cür böyük nümayəndə heyətinin ölkəmizə gəlməsi buradakı vəziyyətin qonaqlarımızın özləri tərəfindən qiymətləndirilməsinə imkan yaradır. Əminəm ki, sizin belə bir imkanınız oldu və şəhərimizlə tanış oldunuz. Ümid edirəm ki, gələcəkdə bizim daha çox təmaslarımız olacaq və çox səmərəli, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız inkişaf edəcəkdir.

Bir daha sizə Azərbaycana «Xoş gəlmisiniz!» deyir və böyük uğurlar arzulayıram.

**Latviya prezidenti Vayra Vike-Freyberqanın nitqi**

Cənab Prezident!

Hörəmtli nazirlər, səfirlər!

Xanımlar və cənablar!

Biznes forumun əldə etdiyi nəticələr haqqında məruzəni eşitdikdən sonra burada çıxış etməkdən olduqca məmnunam. Hər iki tərəfin nümayiş etdirdiyi təşəbbüskarlığın səviyyəsi bizi sevindirir. Məncə, Azərbaycan ilə konstruktiv və dostluq şəraitində inkişaf edən ikitərəfli münasibətlərimizi qeyd etsək, yerinə düşərdi. Biz Azərbaycanın demokratikləşməyə və bu cür

sürətli iqtisadi inkişafa doğru atdığı bütün addımları yüksək qiymətləndiririk.

Mənim ölkəm isə islahatların aparılması və beynəlxalq təşkilatlara inteqrasiya sahəsində əldə etdiyi təcrübəni Azərbaycanla bölüşməyə hazırdır. Əminəm ki, gələcək illər ərzində ölkələrimiz arasında daha intensiv siyasi və iqtisadi əməkdaşlığın şahidi olacağıq.

1990-cı illərdən etibarən Azərbaycanın əldə etdiyi nailiyyətləri, inkişaf templərini və xarici sərmayələrin həcmini müşahidə etməkdən çox məmnunuq. Ümid edirik ki, strateji əhəmiyyət daşıyan boru kəmərləri sistemi, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanın və onun xalqının rifahına xidmət edəcək və Azərbaycan prezidenti dediyi kimi, aşağı və yüksək gəlirləri olan təbəqələr arasında fərqlərin aradan qaldırılmasına töhfə verəcəkdir. Deməliyəm ki, tamamilə eyni məsələlər Latviyada da mövcuddur. Yüksək və aşağı gəlirləri olan dairələr arasında qeyri-tarazlığın silinməsi və güclü orta təbəqənin formalaşması, paytaxt və rayonlar arasında yaşayış standartlarında olan fərqlərin azaldılması kimi məsələlərdə ölkələrimizdə apardığımız işlər, demək olar ki, oxşar xarakter daşıyır.

Rəsmi səfər çərçivəsində imzalanmış sənədlər ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi üçün əsas yaradacaqdır. İqtisadi, texniki, elmi və mədəni əməkdaşlıq haqqında imzalanan sənədlər, qarşılıqlı yardım və gömrük xidmətləri sahəsindəki sazişlər, sərmayələrin təşviqi və qarşılıqlı şəkildə qorunması, vergilər haqqında sazişlər, terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq haqqında saziş kimi sənədlərin hamısı olduqca vacib beynəlxalq hüquqi çərçivənin yaradılmasında mühüm rol oynayır və xalqlarımız arasında davamlı və qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün zəmin yaradır.

Latviyada Azərbaycan səfirliyinin açılması faktını mən məmnunluqla bir neçə dəfə qeyd etmişəm və sizin tanınmış diplomatınız Tofiq Zülfüqarovun etimadnaməsini qəbul etdim.

Biz də tezliklə Bakıda Latviya səfirliyinin açılması üçün bütün işləri yerinə yetirəcəyik.

Cənab Şlesers Riqaya tələsik qayıtdı. Bu onun hava uçuşlarının açılması məsələsinə nə dərəcədə ciddi yanaşmasından xəbər verir. Əgər biz onun təşəbbüskarlığının, heç olmasa, yarısını nümayiş etdirsək, onda hazırkı biznes forumunun tezliklə uğurlu nəticələrini görəcəyik.

Hesab edirəm ki, bu forumun miqyası və apardığımız dialoqun intensiv xarakteri ilə izah olunan qarşılıqlı marağın hər iki tərəfdən nümayiş etdirilməsi təqdirəlayiq haldır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu yalnız başlanğıcdır. Amerikalıların oxuduğu mahnıda deyildiyi kimi, «gözəl dostluğun» başlanmasıdır. Təbii ki, təmaslar qurulacaq və əməkdaşlıq baş tutacaqdır. Zənnimcə, siz bu fürsətdən istifadə edərək işlərin davamlı olması məqsədi ilə ilk addımları atacaqsınız.

Yəqin ki, siz bu forum vasitəsilə Latviyanın iqtisadiyyatı haqqında bəzi məlumatları əldə edə bildiniz. Latviyanın bu gün inkişaf etdirdiyi ən vacib sektorlardan biri bank işi və maliyyə xidmətləridir. Beynəlxalq qlobal maliyyə jurnalı 2005-ci ildə Pareks Bankı Latviyanın ən aparıcı bankı kimi dəyərləndirmişdir. Cari il ərzində Pareks Bank beynəlxalq Xəzər Enerji mükafatına layiq görülmüşdür. Bu, artıq ilk uğurlu əməkdaşlığımızın rəmzidir. Həmin işbirliyi Baltik və Xəzər dənizləri regionlarını bir-birinə yaxın edir.

Nümayəndə heyətinə daxil olan şirkətlər arasında «LatEtoEnetor» şirkətinin adını çəkmək istəyirəm. Bu şirkət bütün Avropa məkanında informasiya texnologiyaları sahəsində xidmətlər və bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda bank və sığorta sahəsində fəaliyyət göstərir. Görürsünüz, əməkdaşlığımızın yeni misalını çəkirik. Onlar hətta bizim rəsmi səfəri gözləmədən Azərbaycanda fəaliyyətə başlamışlar. Fəaliyyətə yenicə başladılar və artıq müsbət nəticələr əldə etdilər. Bu münasibətlə mən onları burada təbrik etmək istəyirəm.

Bundan başqa, biz Latviyada fəaliyyət göstərən ali təhsil ocaqlarının xidmətlərini təklif edə bilərik. Onlar təhsilin keyfiyyəti baxımından yaxşı, rəqabətədavamlı təhsil müəssisələridir. Tibb məktəblərimizin qapıları sizin üzünüzə açıqdır. Digər Qərb ölkələri ilə müqayisədə, təhsil haqqı kifayət qədər aşağıdır. Beləliklə, Azərbaycanda ali təhsil alan tələbələr Latviyadakı təhsil ocaqlarında təhsil ala bilərlər. Onların bəzilərində mühazirələr ingilis, digərlərində isə rus dillərindədir. Bu imkanlardan gələcəkdə istifadə etmək olar.

Latviya NATO və Avropa İttifaqına üzv qəbul olunduqdan sonra ötən il yarım ərzində biz bunun iqtisadiyyatımıza kifayət qədər təsirini hiss etdik. Bildiyiniz kimi, Avropa İttifaqına üzv olan ölkələr arasında bəzilərinin artım səviyyəsi olduqca aşağıdır. Biz ildə 7,6 faiz iqtisadi artım göstəricisi ilə öncül ölkələr sırasındayıq. Ötən il bu göstərici 8,5 faiz idi. Lakin bu ilin birinci yarısında 9,5 faiz olmuşdur. Şübhəsiz ki, bu rəqəmlər sizin sürətli inkişaf templərinizlə müqayisə oluna bilməz. Təbii ki, sizin ölkənizlə müqayisədə bizim bəxtimiz o qədər də gətirməyibdir. Sizin ölkədə zəngin təbii resurslar var. Bizim ərazimizdən boru kəməri keçir, lakin hazırda o, siyasi səbəblərə görə işləmir. Ona görə də bizim iqtisadi artımımız o qədər də böyük deyildir. Lakin digər Avropa ölkələri ilə müqayisədə indiki göstəricilərimizlə fəxr edə bilərik. Bu rəqəmlər yerli sabit tələbat, şirkətlərimizin artan ixrac əməliyyatları hesabına mümkün olmuşdur. Bu bizim şirkətlərimiz üçün mürəkkəb formada olmuşdur, çünki kiçik ölkələrdə istehsal edilən malların həcmi də o qədər böyük olmur. Bununla belə, şirkətlər məhz genişmiqyaslı ixrac əməliyyatları aparmaq üçün xüsusi malların istehsalına başlamışlar və istehsal həcmi çox böyükdür.

İqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər makroiqtisadi sabitlik, çox dəqiq valyuta siyasəti, milli valyutanın – latın sabitliyi nəticəsində mümkün olmuşdur. 1993-cü ildə dövriyyəyə buraxdığımız milli valyuta 2008-ci il yanvarın 1-dən etibarən avro ilə əvəzlənəcəkdir. Ümid edirəm ki, biz bu işlərin öhdəsindən gələ

biləcəyik. Hazırda inflyasiyanın səviyyəsi istədiyimizdən bir az kənara çıxır. Bu il ərzində latın məzənnəsi qalxmış və Avropaya yaxınlaşmışdır. Ümidvaram ki, 2008-ci il yanvarın 1-dən etibarən biz Avropanın ümumi valyuta zonasına daxil ola biləcəyik. Bu addım ölkəmizdə bütün biznes fəaliyyətinə müsbət təsir göstərəcək və beləliklə, valyuta məzənnəsinin dəyişməsindən və valyuta konvertasiyasından irəli gələn bütün problemlər aradan qaldırılacaqdır.

Hazırda ixracımızın ¾ hissəsi Avropa ölkələri ilə aparılır. Bizim əsas ticarət tərəfdaşlarımız Almaniya, Litva, İsveç və Estoniyadır. Ümumi ticarət dövriyyəsinin cəmi 8 faizini Rusiya ilə aparılan əməliyyatlar təşkil edir. Latviyaya sərmayələrin 60 faizdən çoxu Avropa İttifaqı ölkələrindən gəlir. Lakin bu o demək deyil ki, biz fəaliyyətimizi hər zaman Avropa İttifaqı ailəsi ilə məhdudlaşdırmalıyıq. Əksinə, biz bu hüdudlardan kənara çıxmaq arzusundayıq və Şərqdə yerləşən ölkələrlə də əməkdaşlıq etmək istəyirik.

Çünki biz Avropa İttifaqının şərq–şimal sərhədini təşkil edirik. Məhz buna görə, bizim Azərbaycanla ticarət dövriyyəmiz 2003-cü illə müqayisədə 76 faiz artmışdır. Bu, böyük rəqəmdir. Lakin mütləq rəqəmlərlə götürsək, görərik ki, o qədər də yüksək deyildir. Bununla belə, mən hazırkı meylləri qeyd etmək istəyirəm. Onlar müsbət və birmənalıdır. Artım səviyyəsi gözəçarpan dərəcədə inkişaf edir. Göstəricilər get-gedə artır və bu bizim gələcək planlarımıza xidmət edir.

Azərbaycan kimi, Latviya da coğrafi baxımdan bir çox ticarət yollarının kəsişməsində yerləşir. Əfsuslar olsun ki, tarixən ölkəmizin ərazisindən işğalçı ordular da keçib. Lakin biz sülh və sabitlik erasına qədəm qoyuruq. NATO ilə ittifaq vasitəsilə təhlükəsizlik sisteminin qurulması bunu deməyə əsas verir. Təbii ki, biz Qafqazdakı durumu da diqqətlə izləyirik. Buradakı münaqişələrin təmkinlə, diplomatik vasitələrlə həll olunmasını arzulayırıq. Hesab edirəm ki, hər iki tərəf təchizat və nəqliyyat sahələrinin lazımi qaydada genişlənməsini

səbirsizliklə gözləyir. Sizin ölkənizin ərazisindən keçən tarixi ticarət yollarına oxşar marşrutlar Latviyada da mövcuddur.

Biz inanırıq ki, o gün gələcək və Böyük İpək Yolunun bir qolu şimal istiqamətində gedəcəkdir. Beləliklə, transkontinental dəmir yolu xətləri mövcud olacaq və onlar yüklərin bir neçə ölkələrin ərazisindən keçərək daşınmasını mümkün edəcəkdir. Malların Yaponiya, Koreya, Çin və bütün Avrasiya qitəsindən keçərək üç Baltik ölkəsinin qışda suları donmayan dəniz limanları vasitəsilə daşınması üçün istifadə oluna bilər.

Mən hesab edirəm ki, qarşılıqlı fəaliyyət və ölkələrdəki iqtisadi inkişaf genişləndikcə, hər tərəfin görəcəyi işlər kifayət qədər çox olacaqdır. Həm siz, həm biz birgə işləyərək ekspertiza, nou-hau və təcrübəni mübadilə etməklə, qarşımızda qoyduğumuz məqsədlərə nail olacağıq.

Mən burada iştirak edən bütün şəxslərə ən böyük uğurlar arzulayıram. İlk növbədə, hər birinizin həyatında ən vacib sayılan xoşbəxtlik diləyirəm. Apardığınız işgüzar fəaliyyətdə müvəffəqiyyətlər və nəzərdə tutduğunuz planların həyata keçirilməsində sizə yorulmaz fəaliyyət arzulayıram. Gələcəkdə ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə uğurlu əməkdaşlıq arzulayıram.

Sizə uğurlar diləyirəm.

* * *

*Forumda Azərbaycan Sahibkarlar Təşkilatı Konfederasiyası ilə Latviyanın Kiçik və Orta Biznes Sənətkarlar İttifaqı arasında qarşılıqlı informasiya mübadiləsi, birgə treninqlərin keçirilməsi, sərgilərin və biznes konfransların təşkili sahəsində saziş, İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə Latviyanın İnvestisiya və İnkişaf Agentliyi arasında ixrac sahəsində əməkdaşlıq haqqında, Bakı Biznes Mərkəzi ilə Riqa Biznes Tədris Mərkəzi arasında kadrların hazırlanması və məlumat mübadiləsi barədə protokollar, eləcə də istehsal olunan məhsulların qarşılıqlı ixracı və yeyinti məhsullarının, inşaat materiallarının istehsalı sahəsində sənədlər imzalandı.*

## İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı – İspaniyanın Milli günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı üçün atdığımız addımlar xalqlarımızın daha da yaxınlaşmasına, əlaqələrimizin hərtərəfli genişlənməsinə bilavasitə öz müsbət təsirini göstərəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İspaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2005-ci il*

**İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SPATEROYA**

Hörmətli cənab Sədr!

İspaniyanın Milli günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İspaniya arasında inkişaf etməkdə olan dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 oktyabr 2005-ci il*

## AZƏRBAYCAN rESPUBLİKASI XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) şəxsi heyəti ilə görüşmüşdür.*

*Prezident İlham Əliyevi Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik Vaqif Axundov XDMX-nin inzibati binası önündə qarşılayaraq görüşə hazır olduqlarını bildirdi.*

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.

*Ali Baş Komandan əsgərləri salamladı.*

*General-polkovnik Vaqif Axundov Azərbaycan prezidentinə XDMX rəisinin müavinlərini və idarə rəislərini təqdim etdi.*

*Prezident İlham Əliyev müasir standartlara uyğun tikilmiş, hər cür lazımi avadanlıqla təchiz olunmuş inzibati binanın birinci mərtəbəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstünün önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev Heydər Əliyev muzeyinin rəmzi açılışını bildirən qırmızı lenti kəsdi, müstəqil Azərbaycanın memarı və qurucusunun zəngin həyat və fəaliyyətini əks etdirən eksponatlarla yaxından tanış oldu.*

*Eksponatlar arasında Heydər Əliyevin məktəb, gənclik illərinə, ailə həyatına, respublikaya rəhbərliyinin hər iki dövrünü, həmin illərdə hərbçilərlə, xüsusi xidmət orqanlarının əməkdaşları, o cümlədən XDMX-nin şəxsi heyəti ilə, habelə qaçqın və məcburi köçkünlərlə, dünyanın tanınmış dövlət başçıları ilə görüşlərini əks etdirən fotoşəkillər diqqəti cəlb edir.*

Bildirildi ki, ümummilli liderin dövlət mühafizə xidmətinə diqqət və qayğısı hələ 1969-cu ildən başlanmışdır. Vaxtilə bu sistemdə işləyənlərin bir çoxu hazırda XDMX-də yüksək vəzifələrdə çalışırlar.

1994–1995-ci illərdə dövlət çevrilişinə cəhdlər zamanı Azərbaycan prezidenti Heydər Əliyevin xalqa müraciətində, eləcə də ictimaiyyətlə görüşlərində XDMX əməkdaşlarının fədakar fəaliyyəti barədə söylədiyi fikirlərin lent yazıları səsləndirildi:

**«Mən sizə inanıram. Mən sizə etibar edirəm, güvənirəm. Mən sizə bu şərəfli işinizdə uğurlar arzulayıram. Azərbaycan xalqı dərin mənəviyyata malik olan xalqdır, qəhrəman xalqdır və Azərbaycan xalqı azadlığı əldə etmiş xalq kimi yaşayacaq, müstəqil dövlətini qoruyacaq, saxlayacaqdır. Müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır.**

**Mən əminəm ki, Milli Qvardiyanın hər bir döyüşçüsü Vətənin yolunda, müstəqil Azərbaycanın yolunda, onun prezidentinin yolunda özünü əsirgəməyəcəkdir və lazım olarsa, qəhrəmanlıq, rəşadət nümunələri göstərəcəkdir. Sizin uğurlu fəaliyyətinizin əsası Azərbaycan dövlətinə, dövlətçiliyinə, Azərbaycanın müstəqilliyinə, Vətənə, xalqa, Azərbaycan prezidentinə sədaqətiniz olmalıdır. Öz peşənizə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan prezidentinə sədaqət sizin əsas vəzifəniz və borcunuzdur. Siz gərək hər dəqiqə, hər an öz xidməti vəzifənizi yerinə yetirməyə hazır olasınız. Siz gərək hər dəqiqə, hər an Azərbaycanın dövlətçiliyinə, onun prezidentinə qarşı yönəldilə biləcək hər bir cinayətkar, təxribatçı, terrorçu hərəkətlərin qarşısını almağa qadir ola biləsiniz».**

*Muzeylə tanışlığın sonunda XMDM-nin rəisi, general-polkovnik Vaqif Axundov yenicə çapdan çıxmış «Heydər Əliyev və Xüsusi Dövlət Mühafizə Xidməti» kitabının ilk nüsxəsini Azərbaycan prezidentinə təqdim etdi.*

## Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı

«Heydər Əliyev muzeyinin eksponatları ulu öndərin həyat və fəaliyyətini əks etdirir. Xüsusi Dövlət Mühafizə Xidmətinin formalaşmasında və güclənməsində Heydər Əliyevin çox böyük rolu olmuşdur.

Bu gün Xüsusi Dövlət Mühafizə Xidməti və Milli Qvardiya Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsində, qorunmasında fəal iştirak edir və öz vəzifə borcunu şərəflə yerinə yetirir.

Xüsusi Dövlət Mühafizə Xidməti və Milli Qvardiyanın bütün əməkdaşlarına cansağlığı, uğurlar arzulayıram.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*5 oktyabr 2005-ci il*».

*Azərbaycan prezidenti İlham Əliyev «Heydər Əliyev və Xüsusi Dövlət Mühafizə Xidməti» kitabının ilk nüsxəsini imzaladı, inzibati binanın iş otaqlarına, əməliyyat-növbətçi hissənin xidməti və silahsaxlama otaqlarına baxdı, əməkdaşlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

*Ali Baş Komandan XDMX-nin texniki təchizatı ilə, xidmətdə istifadə edilən xüsusi vasitələrlə də tanış oldu, İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyi idarəst tərəfindən mühafizə olunan boru kəmərlərinin marşrutunu əks etdirən xəritəyə, idarənin regional şöbələrinin şəxsi heyəti tərəfindən post-patrul xidməti aparılması üçün yeni alınmış 30 ədəd «Mitsubişi» markalı avtomobillərinə baxdı.*

*Sonra XDMX-nin hərbi şəhərçiyində şəxsi heyətlə təntənəli görüş keçirildi. Ali Baş Komandana Xüsusi Mühafizə Xidmətinin şəxsi heyətinin görüşə düzüldüyü barədə raport verildi.*

*Azərbaycan prezidenti İlham Əliyev şəxsi heyəti salamladı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin, respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı həlak olmuş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndi. Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik Vaqif Axundov məruzə etdi.*

*Sonra Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev görüşdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz əsgərlər, zabitlər, generallar!

Əziz milli qvardiyaçılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və vətən naminə şərəfli xidmətinizdə sizə uğurlar arzulayıram.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra Azərbaycanda Milli Qvardiya yarandı. O illərdə Milli Qvardiya dərhal Azərbaycana təcavüz edən, ölkəmizin ərazi bütövlüyünü pozan erməni qəsbkarlarına qarşı döyüşlərə başlamışdır. Çox fəal iştirak edirdi, şəhidlər verirdi və torpağımızın müdafiəsi uğrunda, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi işində böyük işlər görürdü. O illər Azərbaycanın gələcəyini müəyyən edirdi. Ölkədə hökm sürən anarxiya və xaos Azərbaycanın müstəqilliyini şübhə altına almışdı.

1993-cü ildə xalqımızın lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra vəziyyətdə əsaslı dönüş yarandı. Azərbaycanda sabitlik bərpa olundu, əmin-amanlıq, asayiş bərpa olundu. Eyni zamanda, normal inkişaf üçün də şərait yaradıldı. Ancaq bütün bunlara baxmayaraq, o illərdə də Azərbaycanın müstəqilliyini istəməyən, Azərbaycanın milli maraqlarının əleyhinə çıxan qüvvələr yenidən ölkəmizdə böhran, xaos, anarxiya yaratmaq istəyirdilər.

Hamımız yaxşı xatırlayırıq ki, 1994–1995-ci illərdə hərbi silahlı çevrilişə cəhdlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin cəsarəti ilə, Azərbaycan xalqının dəstəyi ilə yatırıldı. O illərdə Milli Qvardiyanın da rolu çox böyük idi. Azərbaycan xalqı öz lideri ətrafında birləşərək ölkəmizin gələcəyi üçün, möhkəmlənməsi üçün çox əhəmiyyətli işlər gördü. O illərdə yaranan sabitlik bu gün də davam edir. Sabitliyin qorunması hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir. Ölkəmiz çox sürətlə inkişaf edir. Ölkədə gedən proseslər Azərbaycanın bu gününü və gələcəyini müəyyən edəcəkdir. Azərbaycan xalqının rifahının yaxşılaşması istiqamətində böyük addımlar atılır. Amma eyni zamanda, biz bu müstəqilliyi, sabitliyi, əmin-amanlığı bütün başqa vasitələrlə də qorumalıyıq. Bu işdə Milli Qvardiyanın rolu çox yüksəkdir.

Xüsusi Dövlət Mühafizə Xidmətinin və Milli Qvardiyanın formalaşmasında və möhkəmlənməsində Heydər Əliyevin çox böyük rolu olmuşdur. Məhz 1990-cı illərin ortalarından başlayaraq həm maddi-texniki baza gücləndi, eyni zamanda, qvardiyaçıların hazırlıq səviyyəsi yüksəldi. Bu gün Azərbaycanda qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirən çox güclü Milli Qvardiya vardır.

Azərbaycanda ordu quruculuğu prosesi sürətlə gedir. Bu istiqamətdə də atılan addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənir. İldən-ilə artan hərbi büdcəmiz bizə imkan verir ki, ordu potensialımızı ən yüksək səviyyədə saxlaya biləк. 2004-cü ildə ordunun büdcəsi 175 milyon dollar, 2005-ci ildə 300 milyon dollar olmuşdur. 2006-cı ildə isə 600 milyon dollara çatacaqdır. Bu, orduya, ordu quruculuğuna göstərilən qayğının əyani sübutudur. Biz ordu potensialımızı gücləndirməliyik, onun maddi-texniki bazasını möhkəmləndirməliyik və orduda xidmət edən bütün insanların hazırlıq səviyyəsini də yüksəltməliyik. Bu istiqamətlərdə görülən işlər çox müsbətdir. Bunun təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Biz bu siyasəti uğurla davam etdiririk

və ölkəmizin qarşısında duran bütün vəzifələri ləyaqətlə yerinə yetiririk.

Azərbaycanda çox böyük imkanlar var, çox böyük sərvətlər var, milli sərvətlər var, təbii ehtiyatlar var. Bildiyiniz kimi, Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə başlanmış yeni neft strategiyası Azərbaycanda böyük dəyişikliklərə gətirib çıxardı. Ölkəmizin dinamik inkişafı, iqtisadi artımın yüksək sürəti, insanlarımızın həyat səviyyəsinin yaxşılaşması, maaşların, pensiyaların, digər sosial müavinətlərin artırılması o illərdə həyata keçirilməyə başlanmış neft strategiyasının nəticələri ilə bağlıdır.

Əlbəttə, ölkəmizin iqtisadi inkişafı üçün, Azərbaycanda siyasi proseslərin normal istiqamətdə inkişafı üçün, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi üçün Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin rolu çox əhəmiyyətlidir. Bu kəmər Azərbaycana böyük imkanlar yaradacaq, ölkə xəzinəsinə böyük vəsait gətirəcəkdir. Eyni zamanda, bölgədə, Azərbaycanda sülhü və təhlükəsizliyi təmin edəcəkdir.

Bu baxımdan Milli Qvardiyanın üzərinə çox böyük məsuliyyət düşür. Xüsusi Dövlət Mühafizə Xidmətinin üzərinə böyük vəzifələr düşür. Deyə bilərəm ki, Azərbaycanın neftini dünya bazarlarına çıxaran bütün neft kəmərləri lazımi səviyyədə qorunur və onların təhlükəsizliyini biz özümüz təmin edirik.

Uzun illər ərzində biz özümüz buna nail olmuşuq. Əminəm ki, gələcəkdə də bu kəmərlərin təhlükəsiz vəziyyətdə işlənməsi təmin olunacaqdır. Bunu etmək üçün lazımi avadanlıq, texnika alınıbdır.

Bütövlükdə, Xüsusi Dövlət Mühafizə Xidmətinin maddi-texniki bazası da güclənibdir. Mənə nə vaxt müraciət olunursa, həmişə bütün müraciətlərə müsbət reaksiya verirəm və verilən göstərişlər, qəbul edilmiş qərarlar Milli Qvardiyanın və Xüsusi Dövlət Mühafizə Xidmətinin maddi-texniki bazasının möhkəmlənməsi üçün çox müsbət rol oynayır.

Biz bunu etməliyik. Biz öz müdafiə potensialımızı gücləndirməliyik. Çünki biz müharibə şəraitində yaşayırıq. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızın azad edilməsi Azərbaycanın qarşısında duran ən başlıca məsələdir, ən başlıca problemdir. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bilirsiniz ki, danışıqlar gedir, ancaq nəticə yoxdur. Belə olan halda güclü ordu potensialının yaradılması zəruridir. Bu bizim milli maraqlarımıza cavab verir. Azərbaycan ordusunun potensialı güclənir, regionda böyük gücə çevrilir. Biz gələcəkdə bu artım sürətini saxlayacağıq, ordu potensialını, hərbi büdcəni daha da artıracağıq və Azərbaycan torpaqlarının azad edilməsinə nail olacağıq.

Əlbəttə, bunu etmək üçün iqtisadi potensialın möhkəmlənməsi, Azərbaycanda sabitliyin qorunub saxlanılması, ictimai asayişin qorunması çox mühüm rol oynayır. Bu istiqamətdə böyük işlər görülür və Milli Qvardiyanın bu işdə rolu çox böyükdür.

Azərbaycan tarixinin ən çətin anlarında, 1994–95-ci illərində Milli Qvardiya ulu öndər Heydər Əliyevi qorudu, onun mühafizəsini təmin etdi və beləliklə, Azərbaycan dövlətinin müstəqilliyini qorudu. Çünki əgər Heydər Əliyev olmasaydı, o vaxt Azərbaycana rəhbərlik etməsəydi, Azərbaycanın müstəqil ölkə kimi yaşaması sual altında olardı. Bu gün isə mən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı və Prezidenti Milli Qvardiya, xüsusi xidmət tərəfindən qorunuram. Mənim təhlükəsizliyim təmin olunur və beləliklə, Azərbaycanda sabitlik qorunur.

Mən şübhə etmirəm ki, qəbul olunmuş bütün qərarlar, müəyyən edilmiş məqsədlər yerinə yetiriləcəkdir. Azərbaycan çox sürətlə inkişaf edir, çox böyük perspektivlərimiz vardır. Ancaq ölkəmizin xoşbəxt gələcəyi bizim hamımızdan asılıdır. Biz hamımız, hərə öz yerində çalışmalıyıq ki, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə öz töhfəmizi verək.

Milli Qvardiyanın və xüsusi xidmətin sosial məsələləri də öz həllini tapır. Bu məsələlərə böyük diqqət göstərilir, maaşlar artırılır, maddi-texniki bazası möhkəmlənir, eyni zamanda əməkdaşların məişət problemləri də həll edilir. Bu belə də olmalıdır. Azərbaycan inkişaf edir, ölkəmizdə böyük işlər görülür və hər bir vətəndaş, xüsusilə hərbi xidmətdə olan hər bir insan yaxşı yaşamalıdır. Onun məişət problemləri olmamalıdır, yaxşı maaş almalıdır və ləyaqətlə xidmət etməlidir. Mən əminəm, ölkəmizdə gedən quruculuq işləri, inkişaf dinamikası imkan verəcək ki, qarşıda duran bütün məqsədlərə nail olaq və ölkəmizi hərtərəfli möhkəmləndirək, gücləndirək. İqtisadi inkişaf, sosial ədalət, siyasi proseslərin normal məcrada inkişaf etməsi və sabitliyin, əmin-amanlığın, ölkəmizin təhlükəsizliyinin qorunması qarşımızda duran ən başlıca məsələlərdir.

Azərbaycan zəngin, qüdrətli ölkəyə çevriləcəkdir. İndiki zamanədə dünyada yeni təhlükələr yaranır, yeni çağırışlar meydana çıxır. Dünyada gedən proseslər bəzi hallarda çox acı nəticələrlə sonuclanır. Müxtəlif ölkələrdə dəhşətli terror aktları baş verir. Bizim sərhədlərimizdən o qədər də uzaq olmayan yerlərdə, demək olar ki, mütəmadi qaydada terror aktları törədilir. Azərbaycan sabitlik məkanıdır. Azərbaycan təhlükəsizlik məkanıdır. Biz bu sabitliyi qorumalıyıq və qoruyuruq. Bizim buna imkanlarımız çatır. İlk növbədə, Azərbaycan xalqının vətənpərvərliyi, Azərbaycan hərbçilərinin və hüquq-mühafizə orqanlarının normal işləməsi, Azərbaycanda mümkün ola biləcək xoşagəlməz halların aradan qaldırılması üçün görülən operativ tədbirlər, eyni zamanda texniki tədbirlər imkan verir ki, biz Azərbaycanda bu sülhü, sabitliyi saxlayaq və bundan sonra da saxlayacağıq.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında bütün dövrlərdə, 1970-ci illərdə Azərbaycanda rəhbər işlədiyi dövrdə də çox böyük xidmətləri olubdur. 1990-cı illərdə respublika prezidenti kimi, Azərbaycanın sürətli inkişafını təmin edən, Azərbaycanı Dünya Birliyinə layiqli üzv

edən ümummilli liderin bütün həyatı xalqa xidmət etməkdən ibarət idi. Ancaq görülən bütün işlərin arasında ən mühümlərindən biri odur ki, Azərbaycanda sabitlik, əmin-amanlıq, sülh yarandı. Azərbaycanda qüdrətli ordu yarandı və bu ordu bütün hərbçilər qarşısında duran bütün vəzifələri həll etməyə qadirdir.

Əziz dostlar!

Əziz əsgərlər, zabitlər, generallar!

Əziz qvardiyaçılar!

Mən sizi bir daha ürəkdən salamlayıram və vətən naminə şərəfli xidmətinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

*«Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının Döyüş Bayrağı haqqında Əsasnamə»nin və «Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının Döyüş Bayrağının təsviri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2005-ci il 4 oktyabr tarixli Fərmanı oxundu.*

*Sonra Döyüş Bayrağının təqdim edilməsi mərasimi oldu. Bayrağı qarşılamaq üçün komanda verildi. Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevə məruzə edildi ki, Milli Qvardiya komandanının müavini – Qərargah rəisi Döyüş Bayrağını qəbul etməyə gəlmişdir.*

*Azərbaycan prezidenti hərbi orkestrin ifa etdiyi musiqi sədaları altında Döyüş Bayrağını Milli Qvardiya Komandanının müavini – Qərargah rəisinə verdi. Şəxsi heyət Döyüş Bayrağını sürəkli «Ura!» nidaları ilə salamladı. Azərbaycan prezidenti, Ali Baş Komandan şəxsi heyəti təbrik etdi:*

*«Yoldaş qvardiyaçılar, Milli Qvardiyaya Döyüş Bayrağının verilməsi münasibətilə sizi təbrik edirəm».*

*Prezident İlham Əliyevin 2005-ci il 22 avqust tarixli Sərəncamı ilə orden və medallarla təltif edilmiş hərbi qulluqçular tribunaya dəvət olundular. Azərbaycan prezidenti İlham Əliyev*

*hərbi qulluqçulara «Azərbaycan Bayrağı» ordenini, «İgidliyə görə», «Hərbi xidmətlərə görə» medallarını və qiymətli hədiyyələri, XDMX-nin hərbi qulluqçuları üçün tikilmiş 9 mərtəbəli yeni yaşayış binasından mənzil alanlara orderləri təqdim etdi.*

*XDMX-nin rəisi, general-polkovnik Vaqif Axundov şəxsi heyət adından Azərbaycan prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Ali Baş Komandan Xüsusi Dövlət Mühafizə Xidmətinin idarə, hissə və bölmələrinin şəxsi heyətinin nümunəvi çıxışlarına baxdı.*

*Sonra şəxsi heyət tribunanın qarşısından keçdi. Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Xüsusi Dövlət Mühafizə Xidmətinin və Milli Qvardiyanın hərbi qulluqçuları ilə xatirə şəkli çəkdirdi.*

## RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İQOR YUSUPOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiya Federasiyası Prezidentinin beynəlxalq energetika məsələləri üzrə xüsusi nümayəndəsi İqor Yusupovu qəbul etmişdir.*

*İqor Yusupov Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirdi, Rusiya prezidenti Vladimir Putinin salamlarını və xoş arzularını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı.*

*MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kazan Sammitində prezident Vladimir Putinlə keçirdiyi görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev bunun yaxşı görüş olduğunu bildirdi. Azərbaycan ilə Rusiya arasında münasibətlərin fəal surətdə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını, mədəniyyət sahəsində də əlaqələrin genişləndiyini nəzərə çatdırdı. Rusiyada Azərbaycan ilinin uğurla davam etdiyini bildirən prezident İlham Əliyev gələn il isə Azərbaycanda Rusiya ili keçiriləcəyini xatırlatdı.*

*Cənab İqor Yusupov dedi ki, Azərbaycanın iqtisadiyyatda və digər sahələrdə qazandığı böyük nailiyyətlər Rusiyada bizi sevindirir və əminik ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da inkişaf edəcəkdir.*

*Xəzər işçi qrupunun oktyabrın 6-da Bakıda işə başlayacağını söyləyən qonaq sahilyanı ölkələrin dövlət başçılarının sammiti ilə bağlı konkret işlər görüldüyünü bildirdi.*

*Salamlara və xoş arzulara görə minnətdarlığını bildirən Azərbaycan prezidenti İlham Əliyev onun da salamlarını və xoş arzularını Rusiya prezidenti Vladimir Putinə çatdırmağı xahiş etdi.*

## BÖYÜK BRİTANİYANIN LİBERAL DEMOKRAT PARTİYASI SƏDRİNİN MÜAVİNİ, KÖLGƏ KABİNETİNDƏ XARİCİ İŞLƏR NAZİRİ SER MENZİES KEMPBELLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Böyük Britaniyanın Liberal Demokrat Partiyasının parlamentdə xarici işlər üzrə aparıcı nümayəndəsi, partiya sədrinin müavini, Kölgə Kabinetində Xarici İşlər naziri, Con Smit Memorial Fondu İdarə heyəti sədrinin müavini ser Menzies Kempbellin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev qonağa müraciətlə dedi ki, bu səfər sizə ölkəmizdə gedən proseslərin inkişafını yaxından izləmək üçün imkan yaradır, eləcə də ölkələrimiz arasında ikitərəfli əlaqələr baxımından da vacibdir. Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin böyük tarixi vardır və hazırda ölkələrimiz səmərəli əməkdaşlıq edir. Böyük Britaniya şirkətləri Azərbaycanda ən fəal çalışan və ölkəmizə ən çox sərmayə qoyan şirkətlərdir. Mühüm amillərdən biri odur ki, əməkdaşlığımız təkcə neft və qaz sahəsində deyil, digər sahələrdə, o cümlədən təhsil sahəsində də həyata keçirilir.*

*Səmimi qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən ser Menzies Kempbell Azərbaycana ilk dəfə səfər etdiyini vurğuladı.*

*O bildirdi ki, Con Smit Memorial Fondu Toni Bleyrdən öncə Leyborist Partiyasına rəhbərlik etmiş Con Smitin xatirəsinə yaradılmışdır. Fondun məqsədi ölkələr arasında əməkdaşlığa töhfə verməkdən, o cümlədən müxtəlif ölkələrdən gəncləri tanışlıq məqsədi ilə Böyük Britaniyaya dəvət etməkdən ibarətdir.*

## MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev MDB İcraiyyə Komitəsinin sədri–icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Cənab Vladimir Ruşaylo bildirdi ki, onun Bakıya səfərinin əsas məqsədi MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kazan Sammitində qəbul edilmiş qərarların həyata keçirilməsi və iqtisadi inteqrasiya ilə bağlı məsələlər barədə prezident İlham Əliyev ilə fikir mübadiləsi aparmaqdan ibarətdir.*

*İcraçı katib qeyd etdi ki, sosioloji rəy sorğuları bir daha onu göstərir ki, Azərbaycanda böyük inkişaf var, inteqrasiya baxımından irəliyə doğru mühüm addımlar atılmışdır. MDB-nin müşahidəçilər missiyası Azərbaycan parlamentinə qarşıdakı seçkilərlə bağlı oktyabrın 6-da Bakıda işə başlayacaqdır. Beynəlxalq təşkilatlar və kütləvi informasiya vasitələri tərəfindən bu seçkilərə böyük maraq vardır. Bizim əsas məqsədimiz keçiriləcək seçkilərə obyektiv qiymət vermək, onun yerli qanunvericiliyə uyğun olub-olmaması barədə rəylərimizi bildirməkdir.*

*Prezident İlham Əliyev MDB-nin Kazan Sammitində dövlət başçılarının əldə etdikləri razılaşmaların həyata keçirilməsi baxımından məsləhətləşmələrin aparılmasının vacib olduğunu vurğuladı. Azərbaycanda qarşıdakı parlament seçkilərinə toxunan dövlətimizin başçısı bu seçkilərə beynəlxlaq ictimaiyyətin böyük maraq göstərdiyini bildirərək dedi ki, xeyli sayda müşahidəçi*

*ölkəmizdə parlament seçkilərinin qanunvericiliyə uyğun keçirilməsinin şahidi olacaqdır.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda parlament seçkilərinə hazırlıq yüksək səviyyədə gedir, deputatlığa namizədlərin 2000 nəfərdən çox olması onu göstərir ki, insanlarda bu seçkilərin ədalətli, şəffaf və demokratik keçirilməsinə böyük inam vardır. Deputatlığa namizədlərin hər biri üçün bərabər şərait yaradılmışdır. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qarşıdakı parlament seçkiləri ədalətli və şəffaf keçiriləcək və Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.*

*MDB məkanında əməkdaşlıq məsələlərinə toxunan prezident İlham Əliyev bu təşkilat çərçivəsində çoxtərəfli iqtisadi əməkdaşlıq imkanlarından Azərbaycanın tam istifadə etmək arzusunda olduğunu bildirdi. Ölkəmizdə iqtisadi sahədə böyük irəliləyişlər əldə edildiyini vurğulayan dövlətimizin başçısı dedi ki, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, o cümlədən regional iqtisadiyyata inteqrasiyası uğurla həyata keçirilir.*

## TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HİLMİ ÖZKÖK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hilmi Özkökü qəbul etmişdir.*

*Dövlətimizin başçısı ötən gün Türkiyə prezidentinə və Baş nazirinə telefonla zəng edərək, Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı danışıqların başlanması münasibətilə təbriklərini çatdırdığını bildirdi. O bu proseslərin Türkiyənin Dünya Birliyinə, Avropa ailəsinə inteqrasiyasının daha da möhkəmlənməsi baxımından yeni perspektivlər açdığını vurğuladı.*

*Prezident İlham Əliyev dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə Cümhuriyyətinin ölkəmizin ordu quruculuğunda dəstəyini yüksək qiymətləndirdi, eyni zamanda, Milli Ordumuzun gücləndirilməsi istiqamətində Azərbaycanda böyük işlərin görüldüyünü diqqətə çatdırdı.*

*Azərbaycan prezidenti ilə görüşündən qürur duyduğunu vurğulayan ordu generalı Hilmi Özkök Türkiyə prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük məmnunluqla xatırladan Baş qərargah rəisi həmin görüşlərin təəssüratlarının onun qəlbində daim yaşadığını vurğuladı. Türkiyənin Avropa*

*İttifaqına üzvlüyü ilə əlaqədar müzakirələrin başlanması məsələsinə toxunan qonaq bu prosesləri həm Türkiyənin Avropaya daha sıx inteqrasiyası, həm də Türkiyə xalqının tarixi-mənəvi dəyərlərinin Avropa ailəsinə daha fəal surətdə çatdırılması baxımından önəmli hadisə kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını cənab Əhməd Necdət Sezərə və cənab Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

## İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.*

*Qonaq İran prezidenti Mahmud Əhmədinejadın ehtiramını və salamlarını dövlətimizin başçısına çatdırmışdır. Mehdi Səfəri prezident İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri zamanı əldə olunmuş razılaşmaların və imzalanmış sənədlərdə nəzərdə tutulanların gerçəkləşməsi istiqamətlərində konkret işlərin getdiyini bildirmiş, o cümlədən İrandan Naxçıvan Muxtar Respublikasına çəkilən qaz kəmərinin inşasının yaxın zamanlarda başa çatdırılacağına əminliyini söyləmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla İran arasında iqtisadi əlaqələrin genişləndiyini qeyd edərək, birgə iqtisadi layihələrin, o cümlədən enerji layihələrinin reallaşmasının ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyini vurğulamışdır.*

*Dövlətimizin başçısı İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, özünün də ehtiramının və salamlarının İran prezidentinə çatdırılmasını xahiş etmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜRDƏMİR RAYONUNDA

*6 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 6-da səhər vertolyotla Kürdəmir rayonuna gəlmişdir. Şəhər stadionuna toplaşanlar dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmətlə və hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə Kürdəmir şəhərində Heydər Əliyev parkının açılış mərasimində iştirak etdi.*

*Parka toplaşmış on minlərlə sakin prezidenti və xanımını böyük hörmət və ehtiramla qarşıladılar. Onların əllərində ümummilli lider Heydər Əliyevin, dövlətimizin başçısının portretləri, Azərbaycanın dövlət bayraqları və prezidenti salamlayan şüarlar var idi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, parkın ümumi sahəsi 6,5 hektardır. Zövqlə düzəldilmiş pilləvarı fəvvarələr parka xüsusi yaraşıq verir, ulu öndərin abidəsi və Heydər Əliyev muzeyinin binası ilə birlikdə gözəl ansambl yaradır. Burada şəhər sakinlərinin istirahəti üçün hər cür şərait var.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsinin üzərindən ağ örtüyü götürdü.*

*Qranitdən yonulmuş əzəmətli abidənin hündürlüyü 3,3 metr, postamentlə birlikdə isə 5,5 metrdir. Abidənin müəllifi respublikanın Xalq rəssamı, akademik Ömər Eldarovdur.*

*Prezident İlham Əliyev və Mehriban xanım abidənin önünə gül dəstələri qoydular. Dövlətimizin başçısı kürdəmirlilərin sevimli istirahət guşəsinə çevriləcək Heydər Əliyev parkında görülmüş abadlıq işlərini yüksək qiymətləndirdi.*

## Heydər Əliyev muzeyinin açılış mərasimi

*Oktyabrın 6-da Kürdəmir şəhərindəki Heydər Əliyev parkında ümummilli liderimizin xatirəsinə yaradılmış muzeyin təntənəli açılışı olmuşdur.*

*Muzeyin işçiləri prezident İlham Əliyevi səmimiyyətlə qarşıladılar. Muzeyin direktoru İradə Şahverdiyeva dövlətimizin başçısına məlumat verdi ki, Heydər Əliyev muzeyinin tikintisinə 2005-ci ilin yanvar ayında başlanmış və avqust ayında başa çatdırılmışdır. Rayon ictimaiyyətinin təşəbbüsü ilə tikilmiş ikimərtəbəli bina altı otaqdan ibarətdir. 366 kvadratmetr ümumi sahənin 500 kvadratmetri ekspozisiya üçün ayrılmışdır. Ekspozisiya zövqlə tərtib olunmuşdur. Burada ulu öndərin bütün ictimai-siyasi, dövlətçilik fəaliyyətini, habelə respublikamızın rayonlarına, o cümlədən Kürdəmirə səfərlərini əks etdirən fotoşəkillər, kitablar toplanmışdır. Ulu öndərin rəssam Elçin Cabbarovun kətan üzərində yağlı boya ilə işlənmiş iri portreti diqqəti cəlb edir. Ümummilli lider Heydər Əliyevlə bağlı videomaterialları nümayiş etdirmək üçün burada ən müasir texniki avadanlıq quraşdırılmışdır. Ümummilli liderin zəngin irsinin öyrənilməsi üçün konfrans salonunda elmi-praktiki konfransların və «Dəyirmi masa»ların keçirilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev muzeydə toplanan eksponatları yüksək qiymətləndirdi, bunların Heydər Əliyev irsinin gələcək nəsillərə öyrədilməsi üçün faydalı olacağını söylədi. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin fəaliyyətinə dair qısa videofilmə baxdı.*

*Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.*

«Heydər Əliyev muzeyinin ekspozisiyası ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Muzey müasir üslubda tikilib. Gözəl memarlığı və dizaynı ilə fərqlənir. Müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi kursu bu gün də davam edir. Azərbaycanın uğurlu və hərtərəfli inkişafı üçün bu

siyasət əbədi yaşamalıdır. Bütün kürdəmirlilərə öz hörmət və məhəbbətimi ifadə edirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Kürdəmir, *6.10.2005-ci il*».

*Prezident İlham Əliyevə ümummilli lider Heydər Əliyevin 1970–80-ci illərdə Kürdəmirə səfərini əks etdirən fotoalbom, habelə xalça təqdim olundu.*

# KÜRDƏMİR ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*6 oktyabr 2005-ci il*

Əziz kürdəmirlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür, çox əlamətdar bir gündür. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi açıldı, muzey açıldı. Muzey memarlığı, həm də ekspozisiyası baxımından çox gözəldir. Muzeyin ekspozisiyasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti öz əksini tapmışdır. Bu park da bu şəhərə yaraşıq verir. Burada istirahət etmək üçün hər cür şərait var.

Azərbaycanın uğurlu, sürətli inkişafı 1990-cı illərin ortalarından başlanmışdır. Xatırlayırıq ki, 1990-cı illərin əvvəli ölkəmiz üçün çox ağır keçmişdi. Ölkə xaos, böhran içində idi. Ölkənin gələcəyi şübhə altında idi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət sabitləşdi və bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir.

Heydər Əliyevin Kürdəmirə həmişə xüsusi diqqəti və qayğısı olmuşdur. Burada deyildi ki, O dəfələrlə buraya gəlir, vəziyyətlə tanış olur, Kürdəmirin inkişafı üçün lazımi göstərişlər verirdi. Bu diqqət və qayğı indi də yüksək səviyyədədir. Mən bir ildən bir qədər əvvəl buraya yeni icra hakimiyyəti başçısı təyin elədim. Mənə verilən və müxtəlif mənbələrdən əldə etdiyim məlumatlara görə, işlər sürətlə gedir, abadlıq-quruculuq işləri görülür. Rayonun məişət problemləri, insanları narahat edən problemlər həll olunur. Bu məni çox sevindirir. Bu belə də olmalıdır. Azərbaycan sürətlə inkişaf etməlidir.

Azərbaycanın hər bir rayonu, hər bir bölgəsi, hər bir kəndi bu inkişaf yolunu keçməli, hiss etməli və bəhrəsini görməlidir. Əlbəttə ki, ölkəmizdə aparılan islahatlar, görülən işlər, regionların sosial-iqtisadi inkişaf proqramı bunu etmək üçün çox gözəl şərait yaradır. Bizim büdcəmiz artır, iqtisadi potensialımız güclənir, imkanlar da çoxalır. Ancaq eyni zamanda, yerlərdə olan vəziyyətdən, yerlərdəki rəhbərlərdən çox şey asılıdır. Biz nə qədər çalışsaq ki, mərkəzdə bütün işləri lazımi səviyyədə quraq, əgər yerlərdə bunun əks-sədası yoxdursa, əgər yerlərdə vəzifəli şəxslər, rəhbərlər öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmirsə, uğura nail ola bilmərik. Ona görə həm mərkəzi hökumətin gördüyü tədbirlər, həm də qəbul edilmiş qərarların düzgün icrası bizim işlərimizi daha da irəli aparacaqdır.

Azərbaycanın çox gözəl perspektivləri var, ölkədə gedən quruculuq-abadlıq işləri göz qabağındadır. İki il bundan əvvəl, prezident seçkiləri ərəfəsində verdiyim bütün vədlər yerinə yetirilir. Elə bir məsələ yoxdur ki, biz onu qarşımıza qoyaq, lakin icrasına nail olmayaq. Bütün sahələrdə – xarici siyasət məsələlərində, ordu quruculuğunda, iqtisadi islahatların davam etdirilməsində, regional inkişaf proqramının icra olunmasında – hər bir sahədə nəyi demişiksə, onu da edirik və hansı sözü, hansı vədi vermişiksə, o, yerinə yetiriləcəkdir. Yadımdadır ki, seçkilər ərəfəsində beş il ərzində 600 min iş yerinin yaradılması haqqında söz vermişdim. Bəziləri buna inanmadı, bəziləri hesab etdi ki, bu, populist bir bəyanatdır. Amma həyat özü göstərir ki, bu reallıqdır. Üstündən iki il keçib, artıq 300 min iş yeri açılıbdır və bu proses davam edir. Biz 600 min iş yerinin açılmasına da nail olacağıq.

Hər təzə iş yerinin açılması bir ailənin həyat səviyyəsinin yaxşılaşması deməkdir. Ona görə iş yerlərinin açılması, yoxsulluğun, işsizliyin azaldılması və aradan qaldırılması bizim başlıca prioritet vəzifələrimizdir. O vaxt bəyan etmişdim ki, Azərbaycan xalqı ildən-ilə yaxşı yaşayacaqdır. İldə bir neçə dəfə minimum əməkhaqqı qaldırılır. Son iki il ərzində minimum

əməkhaqqı üç dəfə qaldırılmışdır. Bu proses davam edəcək, çünki indiki səviyyə də bizi qane etmir, çətin şəraitdə yaşayan insanların sayı az deyildir. Amma dinamika var. İldən-ilə yoxsulluğun həddi aşağı düşür və Azərbaycanda, ümumiyyətlə, yoxsulluq şəraitində yaşayan adam olmamalıdır. Biz buna nail olacağıq.

Ordu quruculuğu işində bəyan etmişdik ki, biz hərbi potensialımızı gücləndirəcəyik və sözümüzün üstündə durduq. Əgər 2004-cü ildə hərbi xərclər 175 milyon dollar səviyyəsində idisə, 2006-cı ildə bu, 600 milyon dollar olacaqdır.

Büdcə gəlirlərimiz artır, maliyyə intizamı güclənir, iqtisadi islahatlar davam etdirilir. Büdcəmiz 2004-cü ildə 1 milyard 500 milyon dollar idi. 2006-cı ildə təxminən 4 milyard dollara çatacaqdır. Hansı ölkədə belə bir dinamika var? Heç bir ölkədə. Bu onu göstərir ki, nəzərdə tutulmuş bütün proqramlar reallığa əsaslanır və icra olunur.

Mən şübhə etmirəm ki, Azərbaycanın gələcəyi daha da yaxşı olacaqdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyası öz bəhrələrini verməkdədir. Bu yaxınlarda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd edəcəyik. Bu, tarixi bir hadisədir. Bu həm Azərbaycan üçün, xalqımız üçün, habelə bölgəmiz üçün, bölgədə gedən proseslər üçün, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsi üçün müstəsna əhəmiyyət daşıyan transmilli layihədir. Onun təşəbbüskarı Azərbaycan olubdur, onun prezidenti olubdur. Biz də bunu davam etdiririk və onun icrasına nail olacağıq.

İqtisadi potensial artdıqca, əlbəttə ki, sosial problemləri də sürətlə həll etməyə başlayırıq. Bilirsiniz ki, bu istiqamətdə də işlər gedir. Məktəblər tikilir, idman kompleksləri tikilir. İndi yeni proqrama başlayırıq ki, Azərbaycanın bütün bölgələrində yeni, müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilsin. İlk növbədə, bu, regionlar üzrə tikiləcəkdir ki, insanlar keyfiyyətli müalicə almaq, müayinədən keçmək üçün daha Bakıya gəlməsinlər. Ondan sonra isə bütün rayonlarda biz bunu

yaradacağıq. Bizim amalımız budur. Biz Azərbaycanın iqtisadi potensialını gücləndirdikcə, ilk növbədə, xalqımızı, sadə insanları düşünürük ki, insanlar necə yaşayır, onlar öz həyatından razıdırlarmı və onları narahat edən problemlər həll olunurmu? Əgər həll edilmirsə, nə üçün həll olunmur? Biz tədbirlər görürük ki, həll edilsin. Çünki bizim iqtidarımızın gücü xalqdır, xalqın iradəsidir. Biz xalqın iradəsinə, xalqın dəstəyinə arxalanırıq və bu dəstəyə arxalanaraq ölkəmizi inamla, cəsarətlə idarə edirik, öz müstəqil siyasətimizi yürüdürük.

Kürdəmirdə yeni, müasir idman kompleksinin tikintisi də çox böyük hadisədir. Bilirsiniz ki, bu proses geniş vüsət alıbdır. Azərbaycan Milli Olimpiya Komitəsi 2000-ci ildə Bakıda ilk idman kompleksini yaratmaqla bu prosesə çox güclü təkan verdi. İndi isə bu, artıq adi bir hala çevrilmişdir. O vaxt da mən deyirdim ki, ilk növbədə, regionlarda, ondan sonra isə hər bir rayonda belə komplekslər tikiləcəkdir. Bu gün Kürdəmirdə təməlini qoyacağımız idman kompleksi də, əminəm ki, yaxın zamanlarda tikiləcək, kürdəmirlilərin, idmançıların, bütün sakinlərin sərəncamına veriləcəkdir. Bu həm şəhərə yaraşıq verəcək, həm də ən müasir avadanlıqla təchiz ediləcəkdir. Orada həm oyun salonları, müxtəlif meydançalar, həm də üzgüçülük hövuzu olacaqdır. Yəni hər bir gəncin həm istirahətinin təşkili, həm də sağlamlığının möhkəmləndirilməsi üçün lazımi şərait yaradılacaqdır.

Biz gələcəyə inamla baxırıq, siyasətimiz xalq tərəfindən dəstəklənir. Sözümüzlə əməlimiz arasında vəhdət var, birlik var. Qarşıda duran bütün məsələlər öz həllini tapır. Azərbaycanın gələcəyi üçün enerji gücünün yaranması indi çox böyük əhəmiyyət kəsb edir. Bu məsələyə də böyük diqqət yetiririk. Hər yerdə, bütün bölgələrdə həm kiçik, həm də iri elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. Ümid edirəm ki, 2006-cı ilin sonuna qədər tikiləcək elektrik stansiyaları qış mövsümündə Azərbaycanda elektrik enerjisi qıtlığını aradan qaldıracaqdır.

Qaz təchizatı sahəsində də işlər sürətlə gedir. Bu, Kürdəmir rayonunda da göz qabağındadır. Biz çalışırıq ki, əhaliyə və müəssisələrə maksimum dərəcədə qaz verək. Amma bizim imkanlarımız məhduddur. Çünki Azərbaycanda hələlik kifayət qədər qaz hasil edilmir. Məcburuq bunu xaricdən alaq və oradan da istədiyimiz qədər ala bilmirik. Çünki qaz yoxdur. Amma bu məsələnin də üzərində işləyirik. Mən əminəm ki, əgər elektrik enerjisi ilə tam şəkildə təminat olarsa, qaza tələbat da azalar. İnsanlarımızın içməli su ilə təmin olunması məsələsi də çox aktualdır. Ağsaqqal bunu qeyd etdi. Biz bu məsələ ilə gündəlik məşğuluq. Yeni, böyük su kəmərinin çəkilməsi layihəsi artıq işlənilir. Ümid edirəm ki, iki il ərzində biz bunun tikintisinə nail olacağıq və o zaman bütövlükdə su problemi aradan qaldırılmalıdır. Yəni qlobal məsələlərlə yanaşı–Azərbaycanın təhlükəsizlik məsələləri, Dünya Birliyinə inteqrasiya məsələləri, ölkəmizin ordu potensialı, xarici siyasətimizin düzgün qurulması, iqtisadi islahatların davam etdirilməsi, makroiqtisadi sabitliyin saxlanması ilə yanaşı, gündəlik məsələlərlə də məşğul olmaq lazımdır. Çünki gündəlik məsələlər insanları ən çox narahat edən məsələlərdir. Biz yüksək iqtisadi artım sürəti ilə nə qədər öyünsək də, əgər bu, həyatda özünün əksini tapmırsa, heç bir faydası yoxdur. Amma yüksək iqtisadi artım öz növbəsində, hər bir insanın həyatında dəyişikliyə gətirib çıxarır. Əmək-haqları, pensiyalar, tələbələrin təqaüdləri artır, ölkəmizdə, demək olar ki, hər bir rayonda quruculuq-abadlıq işləri gedir. Bu məni çox sevindirir. Rayonlara əlavə vəsait ayrılacaqdır. Hər bir bölgədə olarkən, görüşlərdən sonra zona müşavirələri keçirilir ki, vəziyyətlə dəqiq tanış olum. Əlbəttə, mənim məlumatım genişdir, hər bir mənbədən məlumat alıram. Amma gərək öz gözümlə görüm, özüm məsələlərə münasibət bildirim. Bu çox vacibdir.

Bir daha demək istəyirəm ki, mən 2000-ci ildə parlament seçkiləri ərəfəsində Kürdəmirə gəlmişdim. O vaxt Yeni Azərbaycan Partiyasının siyahısına mən başçılıq edirdim və partiya adından təbliğat kampaniyasını aparırdım və Kür-

dəmirdə də olmuşdum. Bu gün də buradayam və vəziyyətlə tanış olacağam. Amma verilən məlumata görə, son müddət ərzində çox işlər görülübdür.

Parlament seçkiləri də bizim ölkəmizin həyatında çox böyük əhəmiyyət kəsb edir. Çünki yeni seçiləcək parlament ölkəmizdə yeni qanunların qəbul edilməsində mühüm rol oynayacaqdır. Eyni zamanda, Azərbaycanın demokratik inkişafı üçün bu seçkilərin çox böyük əhəmiyyəti vardır. Bildiyimiz kimi, seçki kampaniyası çox uğurla keçir. Qeydiyyat müddəti ərzində heç bir qanun pozuntusuna yol verilməyibdir. 2000-dən artıq insan deputat olmaq istəyir. Bu çox müsbət haldır. İndi seçki kampaniyası başlanıbdır. Bizim dövlət televiziyamız, ictimai televiziya bütün siyasi qüvvələrə, bütün namizədlərə pulsuz və ödənişli efir vaxtı ayırır. O cümlədən özəl telekanallar da öz kommersiya şərtləri ilə bunu edirlər. Seçki Məcəlləsi və mənim tərəfimdən mayın 11-də imzalanmış müvafiq sərəncam Azərbaycanda ədalətli, şəffaf, demokratik parlament seçkilərinin keçirilməsi üçün gözəl şərait yaradır. Bunu biz bilirik. Bunu bütün beynəlxalq qurumlar, bu məsələ ilə məşğul olan qurumlar da etiraf edirlər. Mən şübhə etmirəm ki, parlamet seçkilərinə qalan dövr ərzində də kampaniya uğurlu keçəcək, bundan sonra da hər bir namizədə eyni şərait yaradılacaqdır. Amma qanun çərçivəsində. Heç kəs qanunu poza bilməz. Qanun hamı üçün qanundur. Biz Azərbaycanda hüquqi dövlət qururuq. Heç vaxt özbaşınalığa, hansısa bir əlavə imtiyaza yol verə bilmərik. Hamı necə, başqası da elə. Açıq və qapalı şəkildə görüşlər keçirmək üçün hər yerdə şərait yaradılıbdır. Hər bir rayonda, eyni zamanda, bütün başqa şəhərlərdə bu olmalıdır. Amma qanunla nəzərdə tutulmuş yerlərdə. Əgər kimsə yaradılmış bu gözəl, demokratik şəraitdən öz çirkin məqsədləri üçün istifadə etmək istəyirsə, vəziyyəti süni şəkildə gərginləşdirmək istəyirsə, əvvəlcədən bilməlidir ki, buna heç kim yol verməyəcəkdir. Azərbaycan dövləti güclü dövlətdir, biz öz siyasətimizi xalqın dəstəyinə arxalanaraq aparırıq. Biz qanun çərçivəsində hər şeyi edirik, hər bir namizədə eyni şərait

yaradılıbdır, getsin özünü təbliğ etsin, özünü tərifləsin, nə bilim, vəd versin, söz versin. Amma onu da bilirik ki, Azərbaycan xalqı sözə inanır, amma əgər görür ki, sözün arxasında iş yoxdur, artıq o inam itir. Onu da bilirik ki, yalnız seçkilərdən-seçkilərə xalqla təmasda olan insanlara və dairələrə heç vaxt inam ola bilməz.

Biz hər zaman xalqla birlikdəyik. Mən 2003-cü ilə qədər, demək olar ki, Azərbaycanın hər bir yerini gəzmişəm, görüşmüşəm. 2003-cü ildən, prezident seçkilərindən sonra, səhv etmirəmsə, rayonlara 50-dən çox səfər etmişəm. Yəni mən bunu seçki naminə etməmişəm, kampaniya naminə etməmişəm. Demək olar ki, hər ay oتururam ya maşına, ya qatara, ya da vertolyota və gedirəm, insanlarla görüşürəm, vəziyyətlə tanış oluram. Bu mənim işimdir. Bu mənim borcumdur və mən məsuliyyətli adam kimi, öz vəzifə borcumu həmişə məsuliyyətlə icra edirəm.

Ancaq seçkilərdən-seçkilərə gələsən ki, mənə səs verin, bu bir az gülməlidir. İnsanlar real işə səs verər, insanlar real əmələ səs verər, insanlar gözəl hərəkətlərə səs verər.

Azərbaycan xalqı müdrik xalqdır, yaxşını pisdən yaxşı ayıra bilir. İstədiyi namizədə açıq, şəffaf şəkildə səs verəcəkdir. Ancaq eyni zamanda, bildiyiniz kimi, mənim imzaladığım sərəncamda o da göstərilir ki, yerli icra orqanları seçki prosesinə müdaxilə etməməlidir. Heç bir namizədə təzyiq etməməli, insanlara təzyiq etməməli və ümumiyyətlə, seçki prosesindən kənarda olmalıdır. Bütövlükdə deyə bilərəm ki, tam əksər hallarda bu sərəncam hər yerdə icra olunur. Ayrı-ayrı qüsurlar var və biz də onları aradan qaldırırıq.

Bir sözlə, əziz dostlar, bir aydan sonra keçiriləcək parlament seçkiləri Azərbaycanın gələcəyi üçün çox əhəmiyyətli rol oynayacaqdır. Ancaq bu bir prosesdir və bir seçkidir. Parlament seçkiləri ilə, yaxud da hansısa başqa seçkilərlə bizim işlərimiz dayanmır. Bizim proqramımız uzunmüddətlidir. Bu proqramın hər il üçün mərhələsi var. Biz indi proqramın ilkin mərhələsindəyik. Onu da uğurla icra edirik. 2008-ci ildə mən

beş ildə görülmüş işlər haqqında xalqa hesabat verəcəyəm. Ondan sonra üçün, daha uzunmüddətli perspektiv üçün proqramımız var. Hər bir proqram öz həllini tapmalıdır, hər bir vəzifə icra olunmalıdır. İnsanlar bunu görməlidir.

Ölkəmizdə problemlər də var, biz bunları bilirik və çalışırıq həll edək. Başlıcası problemi bilmək, onun həlli yolunu tapmaq və onu aradan qaldırmaq üçün tədbir görməkdir. Biz bunu edirik və gələcəkdə də edəcəyik. Mən sizi əmin etmək istəyirəm ki, bu vaxta qədər hansı söz verilibsə, o, həyatda öz həllini tapıbdır. Bundan sonra bizim işlərimiz daha da uğurla gedəcəkdir, Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Ölkəmiz daha da möhkəmlənməli, iqtisadi potensial güclənməli, sosial məsələlər həll olunmalıdır. Bir sözlə, biz Azərbaycanı zəngin, qüdrətli ölkəyə çevirməliyik. Əminəm ki, biz xalqın dəstəyi ilə buna nail olacağıq.

Əziz bacılar və qardaşlar, sizin hamınızı bir daha salamlayır, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə səmimi görüşdü, onların qayğıları və problemləri ilə maraqlandı. Sakinlər heç bir problemin olmadığını söyləyərək, prezidentə cansağlığı arzuladılar və ümummilli lider Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirdiyinə görə təşəkkürlərini bildirdilər və dövlətimizin başçısının daxili və xarici siyasətini dəstəklədiklərini vurğuladılar.*

## KÜRDƏMİR OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİ

*6 oktyabr 2005-ci il*

*Mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi burada idmançılar və inşaatçılar ehtiramla qarşıladılar.*

*Gənclər, İdman və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verərək dedi ki, idman kompleksinin ərazisi 5,5 hektardır. Smeta dəyəri 5 milyard manat olan kompleksdə dünya standartlarına uyğun əl oyunları idman salonu, üzgüçülük hovuzu, stadion, tennis kortları, 4 ədəd ikimərtəbəli kottec və istirahət zonası nəzərdə tutulmuşdur. Burada hər biri 20 yerlik 5 hotel də tikiləcəkdir.*

*Prezident İlham Əliyev bu işlərin bir il ərzində başa çatdırılmasını tapşırdı. Eyni zamanda bildirdi ki, Kürdəmirdə 50 yerlik hotelin tikilməsi də vacibdir, çünki şəhər TRASEKA yolu üzərində yerləşir.*

*Dövlətimizin başçısı idman kompleksinin maketi ilə tanış oldu və müvafiq tövsiyə və tapşırıqlarını verdi. Bildirdi ki, binanın xarici görünüşünün memarlıq üslubuna da fikir verilməlidir. Üzgüçülük hovuzu isə beynəlxalq standartlara uyğun olmalıdır.*

*Prezident İlham Əliyev hər bir kürdəmirliyə Azərbaycan dövlətinin başçısı adından sağlam həyat arzulayan sözlər yazılmış gilizi kompleksin təməlinə atdı və ilk betonu tökdü.*

### «Kürdəmir-Taxıl» Açıq Tipli Səhmdar Cəmiyyətinin istehsal müəssisəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev təməlqoyma mərasimindən sonra «Kürdəmir-Taxıl» ASC-nin istehsal müəssisəsinə gəldi. Dövlətimizin başçısını burada kollektivin üzvləri səmimiyyətlə qarşıladılar.*

*Prezidentə məlumat verildi ki, «Kürdəmir-Taxıl» taxıl məhsulları kombinatının bazasında yaradılmışdır.*

*Müəssisə 2004-cü ilin yanvar ayında «AVETA» Məhdud Məsuliyyətli Cəmiyyətə icarəyə verilmiş, 2004-cü ilin mart ayında məhsul istehsalına başlamışdır.*

*«AVETA» MMC müəssisədə ilk vaxtlar 111 nəfəri işlə təmin etmişdir. Gün ərzində emal gücü 250 ton idi. Sonradan müəssisə əsaslı surətdə yenidən qurulmuşdur. İkinci sexin istifadəyə verilməsi ilə 148 nəfərin daimi işlə təmin olunmasına şərait yaradılmış və gündəlik emal gücü 530 tona çatdırılmışdır. Müəssisədə un, yarma və mal-qara yemi istehsal olunur. İşçilərin orta əməkhaqqı 800 min manatdır.*

*Prezident İlham Əliyev müəssisənin sexlərini gəzdi, istehsal prosesi, istehsal olunan məhsulların keyfiyyəti, qiyməti və çeşidi ilə maraqlandı. Bildirildi ki, məhsul rəqabət qabiliyyətlidir. Dövlətimizin başçısı görülən işləri bəyəndiyini, bu cür müəssisələrin açılmasının əhəmiyyətli olduğunu və belə istehsal sahələrinin genişləndirilməsini daim dəstəkləyəcəyini söylədi, kollektivi təbrik etdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SABİRABAD RAYONUNDA

*6 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 6-da Kürdəmirdən Sabirabad rayonuna gəlmişdir.*

*Sabirabad rayonunun sərhədində prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmətlə, gül-çiçəklə qarşıladılar.*

*Sabirabad şəhərinə gedərkən yolboyu yerləşən kəndlərin sakinləri dövlətimizin başçısını hərarətlə salamlayırdılar.*

*Şəhərin girəcəyində, milli memarlıq üslubunda inşa edilmiş «Muğan» alaqapısının yanında sabirabadlılar prezident İlham Əliyevi hərarətlə, sürəkli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, şəhərin perspektiv planına uyğun olaraq, alaqapıdan Heydər Əliyev prospektinədək olan 5 kilometr məsafədə «Muğan» prospektinin salınması nəzərdə tutulmuşdur.*

## Sabirabad Olimpiya İdman Kompleksinin təməlinin qoyulması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyevi burada toplaşmış inşaatçılar, idmançılar, şəhər sakinləri səmimiyyətlə salamladılar.*

*2003-cü ildə prezident seçkiləri ərəfəsində Sabirabadda seçicilərlə görüşündə İlham Əliyev bu rayonda Olimpiya İdman Kompleksinin tikiləcəyini bildirmişdi. Kompleksin tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılaraq, layihə-smeta sənədləri hazırlanmışdır. Layihədə əsas korpusun, üzgüçülük hovuzunun, futbol, voleybol, basketbol meydançalarının, tennis kortlarının, 50 yerlik ikimərtəbəli mehmanxananın və hər biri dördnəfərlik olan 12 kottecin tikintisi nəzərdə tutulmuşdur. Tikintidə 300*

*nəfər çalışacaqdır. Respublikamızda sayca 14-cü olacaq bu kompleksin 2006-cı ildə istifadəyə verilməsi, 40 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılmışdır.*

*Prezident İlham Əliyev Olimpiya İdman Kompleksinin vaxtında hazır olması ilə bağlı tövsiyə və tapşırıqlarını verdi və dedi ki, kompleks elə tikilməlidir ki, gələcəkdə burada həm də beynəlxalq səviyyəli müxtəlif idman yarışlarının keçirilməsi mümkün olsun.*

*Dövlətimizin başçısı və xanımı rayonun doqquz yaşlı idmançıları Nazim Məlikov, Məmmədəli və Həzrətəli Bağırov qardaşları ilə səmimi görüşdülər, onları konfu do-karate üzrə Macarıstanda keçirilən Avropa çempionatında medal qazanmaları münasibətilə təbrik etdilər. Sabirabadda güclü idmançıların yetişdiyini vurğulayan prezident İlham Əliyev kompleksin istifadəyə verilməsindən sonra burada gənclərin imdanla məşğul olması, beynəlxalq yarışlarda Azərbaycanın şərəfini ləyaqətlə qorumaları üçün hər cür şəraitin yaradılacağını bildirdi.*

*Gənc idmançılar dövlətimizin başçısına minnətdarlıq etdilər, onlara göstərilən etimadı doğruldacaqlarını söylədilər.*

*Prezident İlham Əliyev Sabirabad Olimpiya İdman Kompleksinin bünövrəsinə içərisində yazılı kağız olan gilizi atdı və ilk beton qarışığını tökdü.*

**«Muğan» klinikası ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Sabirabad şəhərinin yeni tikilmiş sağlamlıq ocağı olan «Muğan» klinikasına gəldi.*

*Klinikanın əməkdaşları prezident və xanımını ehtiramla, gülçiçəklə qarşıladılar.*

*Dövlətimizin başçısı İlham Əliyev bu səhiyyə ocağının rəmzi açılışını bildirən qırmızı lenti kəsdi və klinika ilə yaxından tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotoguşə yaradılmışdır.*

*Prezidentə məlumat verildi ki, klinikada 16 müayinə otağı, 1 rentgen kabineti və xəstələr üçün iki palata vardır.*

*Gələcəkdə burada 41 nəfər çalışacaqdır. Əsas binanın tikintisinə 990 milyon manat, avadanlığın alınmasına isə 1 milyard 65 milyon manat vəsait sərf olunmuşdur. Müasir cihazlarla təmin olunmuş laboratoriyada gün ərzində 200-dək annaliz etmək mümkündür.*

*Prezident İlham Əliyev şöbələri, kabinetləri, laboratoriyanı gəzdi, burada yaradılan şəraiti yüksək qiymətləndirdi. Bildirdi ki, təcrübəli həkimlərin və tibbi heyətin çalışdığı belə müasir səhiyyə ocaqlarının açılması sakinlərin müalicə və müayinə üçün paytaxta axınının qarşısını xeyli alacaqdır.*

*Dövlətimizin başçısı və xanımı tibb işçiləri ilə xatirə şəkli çəkdirdilər.*

**Heydər Əliyev Abidə-Muzey Kompleksinin açılışı**

*Azərbaycan prezidenti İlham Əliyev Sabirabad şəhərində Heydər Əliyev Abidə-Muzey Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Kompleksin ətrafında toplaşan on minlərlə sabirabadlı dövlətimizin başçısını hərarətlə qarşıladı. Onların əllərində Azərbaycanın dövlət bayraqları, ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, ulu öndərin müdrik kəlamları yazılmış, dövlətimizin başçısını salamlayan şüarlar var idi.*

*Prezidentə və xanımına gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı kompleksin açılışını bildirən qırmızı lenti kəsdi.*

*Altı hektar sahəni əhatə edən kompleksin mərkəzində ümummilli lider Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılmış, muzey yaradılmışdır. Abidənin hündürlüyü postamentlə birlikdə 6,5 metrdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Ümumi sahəsi 466 kvadratmetr olan muzeydə Heydər Əliyevin Sabirabad rayonu ilə bağlı fəaliyyətini əks etdirən 6 bölmə təşkil edilmiş, ulu öndərin əsərlərindən ibarət kitabxana yaradılmışdır.*

**Heydər Əliyev muzeyi ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev Sabirabaddakı Heydər Əliyev muzeyi ilə tanış olmuşdur. Xalqımızın ümummilli liderinin müxtəlif illərdə 14 dəfə Sabirabada gəlməsini, zəhmət adamları ilə unudulmaz görüşlərini əks etdirən fotoşəkillər dövlətimizin başçısında böyük maraq doğurdu.*

*Rayon mədəniyyət şöbəsinin müdiri Böyükağa Həmidov prezidentə müraciətlə dedi ki, biz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində müstəqil Azərbaycanımızın bu gün dünyada tanınmasından fəxr duyuruq. Böyük qürur hissi keçiririk ki, Siz də müstəqil Azərbaycanın qurucusunun siyasətini davam etdirirsiniz.*

**Muzeyin xatirə kitabına yazdığı ürək sözləri**

«Heydər Əliyev muzeyinin eksponatları, fotoşəkillər, kitablar xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif aspektlərini əks etdirir. Sabirabada və sabirabadlılara xüsusi hörmət və məhəbbət bəsləyən, 14 dəfə Sabirabada gəlmiş ulu öndərin siyasəti bu gün də yaşayır və Azərbaycan xalqının xoşbəxt gələcəyinə xidmət edir.

Mən 2003-cü ilin oktyabr ayında burada olarkən bəyan etmişəm ki, bu siyasətə sadiq olacağam, onu davam etdirəcəyəm və xalqın dəstəyi ilə qarşıda duran bütün məsələlər həll olunur.

Sabirabadlılara möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*6 oktyabr 2005-ci il.*»

## SABİRABAD RAYONU SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*6 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 6-da Sabirabadda Heydər Əliyev Abidə-Muzey Kompleksində, ümummilli liderimizin abidəsi qarşısında rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

Əziz sabirabadlılar!

Əziz bacılar və qardaşlar!

Mən Sizin hamınızı ürəkdən salamlayıram və müqəddəs Ramazan ayının gəlməsi münasibətilə sizi təbrik edirəm.

Bu gün qeyd edildi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Sabirabada çox xüsusi diqqət və qayğı göstərirdi. O, 1970-ci illərdə Azərbaycanda işlədiyi dövrdə hər il Sabirabada gəlirdi, burada vəziyyətlə tanış olurdu, böyük istehsal kompleksinin yaradılmasında fəal iştirak edirdi. O illərdə Sabirabad abadlaşdı, sabirabadlılar daha da yaxşı yaşamağa başladılar. Burada gedən abadlıq, quruculuq işləri, kənd təsərrüfatının kəskin şəkildə inkişaf etməsi həm Azərbaycan iqtisadiyyatına, həm də burada yaşayan insanların həyat səviyyəsinə çox müsbət təsir göstərmişdir.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzolunmaz xidmətləri vardır. Ölkəmizi müttəfiq respublikalar arasında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaya çevirməsi də məhz onun xidməti idi. O vaxt Azərbaycan onun rəhbərliyi altında yeniləşdi, abadlaşdı, yeni müəssisələr, sənaye kompleksləri yarandı ki, onlar bu gün də müstəqil Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsinə gözəl töhfədir. Məhz o illərdə Azərbaycanda çox böyük sənaye potensialı yarandı, neft

emalı sənayesi, neftçıxarma sənayesi inkişaf etdi və indi Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində onların əvəzsiz əhəmiyyəti vardır.

1990-cı illərin əvvəllərində Azərbaycan xalqı üzləşdiyi bəlaların aradan qaldırılması üçün yenə də öz liderinə üz tutdu, ona müraciət etdi. Ağır, çətin vəziyyətdə ölkəyə rəhbərlik edən ulu öndər bütün o mənfi nəticələri aradan qaldırdı və davamlı inkişaf üçün zəmin yaratdı, Azərbaycan sürətlə inkişaf etməyə başladı. Ölkədə abadlıq-quruculuq işləri, iqtisadi islahatlar, o cümlədən aqrar islahat aparıldı. Həmin siyasət bu gün də davam edir. Təsadüfi deyil ki, Sabirabadda xalqımızın ulu öndəri Heydər Əliyevin abidəsi ucaldılıb, onun muzeyi açılıbdır. Bu, sabirabadlıların Heydər Əliyevin xatirəsinə olan böyük məhəbbətinin əlamətidir.

Heydər Əliyevin oğlu, onun siyasətinin davamçısı kimi, mən də Sabirabada və sabirabadlılara eyni münasibəti bəsləyirəm. Bu diyar mənim üçün də doğmadır. Çünki mən də yeniyetmə yaşlarımda, 1970-ci illərdə bir çox hallarda Heydər Əliyevlə birlikdə buraya gəlirdim. Xatirimdədir ki, burada nə qədər səmimi görüşlər olurdu, nə qədər böyük işlər görülürdü, zona müşavirələri keçirilirdi. Burada kənd təsərrüfatı istehsalının, xüsusilə pambıqçılığın inkişafı istiqamətində böyük işlər görülürdü.

Mühüm olanı odur ki, ədalət öz yerini tutdu. Əsassız ittihamlardan, əsassız təqiblərdən sonra, 1980-ci illərin sonu – 1990-cı illərin əvəllərində Azərbaycanda hakimiyyətdə olmuş riyakar, xəyanətkar rəhbərlərin çirkin kampaniyasından sonra Azərbaycan xalqı yenə də çətin anda öz liderinə üz tutdu və Heydər Əliyevi Azərbaycana dəvət etdi. Bu gün onun siyasəti davam edir. Mən bu siyasətə sadiqəm və onu davam etdirirəm. Hesab edirəm, bütün Azərbaycan xalqı görübdür ki, prezident seçkilərindən keçən 2 il ərzində Azərbaycanda bu siyasət yaşayır və möhkəmlənir.

Yadımdadır, 2003-cü ildə Sabirabadda olarkən – bu gün muzeylə tanış olanda da mənə xatırlatdılar – mənə müraciət

edilmişdi ki, Sabirabadda Olimpiya kompleksi tikilsin. Mən də öz çıxışımda bu müraciətə müsbət cavab olaraq söz verdim ki, bu kompleks tikiləcəkdir. Çox şadam ki, bu gün kompleksin təməlini şəxsən özüm qoydum.

Bilirsiniz, verilən hər bir söz, deyilən hər bir fikir, xüsusilə də əgər o, rəhbərdən gəlirsə, gərək həyatda öz əksini tapsın. Mənim verdiyim hər bir vəd, hər bir söz yerinə yetirilir. Bəziləri artıq həyata keçirilib, bəziləri isə icra prosesindədir. Bu çox vacibdir. Çünki sözlə əməl arasında mütləq birlik, vəhdət olmalıdır. Biz heç vaxt populist çıxışlar etməmişik, heç vaxt yalançı vədlər verməmişik, heç vaxt qeyri-real təkliflər irəli sürməmişik. Nəyi demişəmsə, hamısının düşünülmüş əsası var, icra mexanizmləri var və ən əsası odur ki, onları yerinə yetirmək üçün iradə var, istək var.

Mən çox istəyirəm ki, Azərbaycan zənginləşsin, qüdrətli dövlətə çevrilsin, çox güclü iqtisadi potensialını daha da möhkəmləndirsin. Bunu etmək üçün bütün şərait var. Bizim gözəl iqlimimiz var, çox gözəl torpağımız var, əlverişli coğrafi vəziyyətimiz var, təbii ehtiyatlarımız var, gözəl, istedadlı insanlarımız var. Ən əsası isə bizim siyasətimizə Azərbaycan xalqının dəstəyi var. Biz bu dəstəyə arxalanaraq öz siyasətimizi yürüdürük.

İqtisadi baxımdan Azərbaycan da dünyada ən yüksək sürətlə inkişaf edir. Bu ilin 8 ayında ÜDM 20 faiz, sənaye potensialı 26 faiz, əhalinin pul gəlirləri 27 faiz, əhalinin banklara qoyduğu əmanətlər təxminən 50 faiz artıbdır. Minimum əməkhaqqı son iki ildə 3 dəfə artıbdır. Tələbələrin təqaübləri 3 dəfə artıbdır. Bu, son hədd deyildir. Təbii ki, bunlar bizi qane edə bilməz. Çünki Azərbaycan xalqının bir hissəsi hələ yoxsulluq şəraitində yaşayır. Biz bununla barışa bilmərik. Bunu aradan qaldırmar üçün yeni iş yerlərinin açılması, yoxsulluqla mübarizə aparılması, ölkə iqtisadiyyatının güclənməsi başlıca şərtdir. Biz bunu edirik və bundan sonra da edəcəyik. Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşayacaqdır. Biz öz gücümüzü daha da inamla işə salacağıq.

Biz bölgədə ən qabaqcıl mövqeləri tuturuq. Azərbaycan Dünya Birliyinə çox sürətli inteqrasiya edən bir ölkədir. Biz bütün qonşularımızla çox səmərəli, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmışıq, bundan bəhrələnirik. Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və uğurla icra olunan neft strategiyamız Azərbaycana böyük imkanlar yaradır. Neft Fondunda külli miqdarda vəsait yığılıbdır. Bu bizim iqtisadi gücümüzdür. Hamımız yaxşı bilirik ki, əgər iqtisadi potensialımız olmasa, heç bir sosial proqramdan, heç bir maaş artırılmasından söhbət gedə bilməz.

Gələn ildən etibarən, vaxtilə sovet dövründə əmanət kassalarında qalmış əmanətlərin də qaytarılmasına başlayacağıq. Biz artıq özümüzdə bu iqtisadi imkanı hiss edirik, büdcəmiz artır. Deyə bilərəm ki, gələn ilin büdcəsi təxminən 4 milyard dollar məbləğində olacaqdır. Amma 2003, 2004-cü illərin büdcəsi təxminən 1 milyard, 1,5 milyard dollar idi. Yəni belə bir güclü sıçrayış heç bir ölkədə müşahidə olunmur.

Bunu etmək üçün, əlbəttə ki, gərək düşünülmüş konsepsiya olsun, iqtisadi siyasət olsun, sabitlik olsun, əmin-amanlıq olsun, sülh olsun. Yalnız bu şəraitdə biz bütün bu nailiyyətlərə çata bilərik. Heç kim – nə daxili, nə xarici sərmayəçi heç vaxt qeyri-sabit ölkəyə bir manat da sərmayə qoymaz. Bu, iqtisadiyyatın qanunudur.

Heydər Əliyevin Azərbaycan xalqı üçün gördüyü işlər arasında ictimai-siyasi sabitliyin bərpası və qorunub saxlanması çox mühüm yer tutur. Biz də bunu qorumalıyıq, davam etdirməliyik. Elə etməliyik ki, Azərbaycan, Azərbaycan xalqı həmişə yaxşı yaşasın. Mənim məqsədim budur, bundan başqa məqsədim yoxdur.

Bunu etmək üçün, əlbəttə ki, müxtəlif istiqamətlər var. O cümlədən kənd təsərrüfatının inkişafı məsələləri mənim diqqətimi cəlb edir və buna çox vaxt sərf edirəm. Çünki Azərbaycan xalqının, demək olar ki, yarısı kənd rayonlarında yaşayır. Aqrar islahatın aparılması çox mühümdür və onun

birinci mərhələsi artıq başa çatıb, torpaq kəndlilərin daimi mülkiyyətinə verilib və kənd təsərrüfatı istehsalı artıbdır.

Eyni zamanda, bilirsiniz ki, vaxtilə Heydər Əliyevin göstərişi ilə kəndlilər, demək olar, bütün vergilərdən azad olunublar. İndi kənd təsərrüfatında, aqrar sektorda islahatların ikinci mərhələsi başlanıbdır. Bu nədən ibarətdir? Ondan ibarətdir ki, indi fermerlərə, kəndlilərə kreditlər ayrılır və gələn il sahibkarlığın inkişafı üçün – bu da əsasən, bölgələrdə baş verir – 400 milyard manat güzəştli kredit ayrılacaqdır. Bununla yanaşı – mənim göstərişim var – onlara xaricdən gübrə də alınıb veriləcəkdir. «Aqrolizinq» Səhmdar Cəmiyyəti bu il 100 milyard manat, gələn il 150 milyard manat dəyərində kənd təsərrüfatı texnikası alıb gətirəcək və fermerlərə veriləcəkdir. Çünki əgər ilkin kapital, kredit yoxdursa, texnika, gübrə yoxdursa, kənd təsərrüfatı inkişaf edə bilməz. Bunu biz edirik və mən şübhə etmirəm ki, yaxın zamanlarda bunun gözəl nəticələrini görəcəyik.

Azərbaycanda sahibkarlıq inkişaf edir, güclü sahibkarlar sinfi yaranır.

Mən onları dəstəkləyirəm. Hər dəfə rayonlarda olarkən xüsusi maraqlanıram ki, özəl sektor necə inkişaf edir. Əlbəttə ki, iki il ərzində 300 min iş yerinin açılması analoqu olmayan bir hadisədir.

Bütün bunlar uğurlardır və biz haqlı olaraq bu uğurlardan danışırıq. Amma eyni zamanda, ölkənin problemləri də az deyil və bu problemləri biz bilirik. Bu nəticələr, əldə edilmiş nailiyyətlər məhz həmin problemlərin həll olunması deməkdir. Uğurlar nə qədər çox olsa, problemlər bir o qədər az qalacaqdır.

Əsas problemlərdən biri, əlbəttə ki, yoxsulluq, işsizlik və qaçqın-köçkünlərimizin çətin vəziyyətdə yaşamasıdır. Bu istiqamətdə də işlər görülür. Dünya Bankının verdiyi məlumata görə, Azərbaycanda təxminən il yarım ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 40 faizə düşübdür. Gələn il yenə də düşəcəkdir. Minimum əməkhaqlarının qaldırılması nəticəsində

yoxsulluğun səviyyəsi aşağı düşəcəkdir. İşsizlik haqqında artıq mən dedim – 300 min iş yeri cəmi iki il ərzində yaranmışdır.

Gələcəkdə bizim böyük işlərimiz var. Azərbaycan indi böyük neft inkişafının başlanğıcındadır. Biz böyük hadisələrin astanasındayıq. Hələ Bakı–Tbilisi–Ceyhan neft boru kəməri işə düşməyib, hələ Azərbaycana böyük həcmdə neftdən gəlir gəlməyibdir. Amma baxın, 2006–2008-ci illərdə və ondan sonrakı illərdə ölkəmizə neft gəlirləri şəklində milyardlarla dollar pul gələcək və bu pul Azərbaycan xalqı üçün işləyəcəkdir.

Neft Fondunun şəffaf olması çox vacib amildir. Hər bir vətəndaş bilir, yaxud maraqlanarsa, öyrənə bilər ki, Neft Fondunda nə qədər vəsait var. Çünki bütün sənədlər, hesabat şəffafdır, dərc olunur, hamı da bilir. Neft gəlirləri də ədalətli xərclənir. Büdcə müzakirə olunarkən parlament buna baxır, Neft Fondundan büdcəyə nə qədər transfer nəzərdə tutulması barədə qərar qəbul edir. Yəni bir sözlə, parlament vasitəsilə, millət vəkilləri vasitəsilə hər bir vətəndaş dolayı yolla bu prosesdə iştirak edir.

Qarşıdan parlament seçkiləri gəlir. Şübhə etmirəm ki, bütün başqa seçkilərdə olduğu kimi, Azərbaycan xalqının iradəsi bu dəfə də seçkilərin nəticələrində öz əksini tapacaqdır. Bu baxımdan 2003-cü ilin prezident seçkiləri də çox əhəmiyyətli idi. Çünki Azərbaycanda hakimiyyət quruluşu belədir ki, biz prezident respublikasıyıq və hakimiyyət prezidentin əlindədir. Ona görə ölkəmizin inkişafı üçün, siyasi xəttin müəyyən edilməsi üçün, əlbəttə ki, prezident seçkiləri çox böyük əhəmiyyət daşıyır. Parlament seçkiləri o baxımdan önəmlidir ki, yeni seçiləcək deputatlar yeni layihələr, qanunlar üzərində işləyəcəklər və qanunvericilik bazasını təkmilləşdirəcəklər. Azərbaycanın qanunvericiliyini Avropanın qanunvericiliyinə daha da yaxınlaşdıracaqlar. Əlbəttə ki, parlamentin səlahiyyətinə aid olan bütün məsələləri həll edəcəklər. Amma parlament seçkiləri Azərbaycanda hakimiyyətə gəlmək üçün keçirilən seçki deyildir. Ona görə bu seçki kampaniyasında

iştirak edən bəzi insanların bəyanatlarında belə bir fikir səslənəndə ki, parlament seçkiləri nəticəsində kimsə hakimiyyətə gələcəkdir – bu, təəccüblü görünür.

Birincisi, Azərbaycanda 1993-cü ildə hakimiyyətə gələn Yeni Azərbaycan Partiyası ən güclü partiyadır. Azərbaycan xalqının tam əksəriyyəti bu partiyanı dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Biz öz siyasətimizi xalqın, millətin, Azərbaycanın milli maraqları üzərində qururuq. Hansısa başqa dairələrin yox, məhz Azərbaycan xalqının milli maraqlarının. Ona görə bəzi hallarda müəyyən dairələr çalışırlar ki, bəzi addımlarımızı, necə deyərlər, tənqid etsinlər. Biz müstəqil siyasət aparırıq. Bizim siyasətimiz ancaq və ancaq Azərbaycanın inkişafına, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəlibdir. Əlbəttə ki, xalq da bunu bilir, görür.

Mən belə hesab edirəm ki, parlament seçkiləri ona görə önəmlidir ki, hər bir namizədin öz platformasını bəyan etməsinə, seçicilərə müraciət etməsinə imkan verir. Bilirsiniz ki, indi bizdə demokratiya çox sürətlə inkişaf edir. Qeydə alınmış 2 mindən artıq deputatlığa namizəd var. Bu özü onu göstərir ki, bu namizədlərdə seçkilərin ədalətli keçməsinə inam var. Başqa cür ola da bilməz. Azərbaycanda demokratik proseslərin inkişafı üçün, ölkəmizin hərtərəfli inkişafı üçün bu çox vacibdir. Belə olan halda, 2 min adamın hər birinin televiziya vasitəsilə, qəzet vasitəsilə, yaxud da görüşlər keçirməklə öz platformasını, öz sözünü, öz fikrini xalqa çatdırmağa eyni imkanı var. Azərbaycan xalqı müdrik xalqdır, öz qərarını verəcəkdir. Əminəm ki, Azərbaycan xalqı ən layiqli namizədlərə səs verəcəkdir.

Ancaq bir daha demək istəyirəm ki, icra orqanları bu prosesdən gərək kənarda dursunlar, heç kimi dəstəkləməsinlər, seçki prosesinə müdaxilə etməsinlər, heç bir təzyiq olmasın. Biz demokratik cəmiyyətdə yaşayırıq, parlament seçkilərində Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapmalıdır.

Mən şübhə etmirəm ki, Azərbaycan gələcəkdə daha böyük uğurlar qazanacaqdır.

Bunu deməyə əsas verən odur ki, bizim iqtisadiyyatımız sürətlə inkişaf edir, sosial məsələlər öz həllini tapır. Sizə deyə bilərəm ki, buna dünyada çox nadir hallarda rast gəlinir. Biz öz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipi əsasında qururuq. Ancaq eyni zamanda, əgər büdcəyə nəzər salsaq görərik ki, büdcəmiz sosialyönümlüdür. Yəni biz bu iki amili həmişə tarazlaşdırılmış vəziyyətdə saxlayırıq. Bazar iqtisadiyyatı, əlbəttə ki, hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

Amma onun da fəsadları var, mənfi tərəfləri var. Bu da ondan ibarətdir ki, əgər sırf bazar iqtisadiyyatı tətbiq olunarsa, onda insanların sosial vəziyyəti pisləşə bilər, aparılan radikal iqtisadi islahatlar insanların həyat səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər. Ona görə bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsi ilə paralel olaraq, sosial məsələlərə də daim diqqət yetirilməlidir. Bu da var və pensiyaların, maaşların, təqaüdlərin, digər sosial müavinətlərin qaldırılmasında öz əksini tapır.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı bir daha salamlayıram. Bir daha demək istəyirəm ki, bu diyar mənim üçün çox əzizdir. Mənim atam, ulu öndər Heydər Əliyev 14 dəfə Sabirabada gəlibdir. Mən yaxşı xatırlayıram ki, səhər saat 8-dən axşam saat 10-a qədər tarlalarda, tarla düşərgələrində insanlarla, zəhmətkeşlərlə görüşübdür. Onun Azərbaycan xalqına və Azərbaycan xalqının ona olan məhəbbəti bizim ölkəmiz üçün o vaxt da çox vacib idi, bu gün də çox lazımlıdır. Bu olmalıdır. Bu olmasa, heç bir ölkə uğurla inkişaf edə bilməz. Bu, qarşılıqlı olmalıdır, qarşılıqlı idi və bu gün də qarşılıqlıdır. Mən sizə öz dərin hörmət, ehtiram və məhəbbətimi bildirirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Rayon İcra Hakimiyyətinin başçısı Əşrəf Məmmədov Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya üzərində Sabirabadın simvolu olan nişanlar hədiyyə etdi.*

*Prezident İlham Əliyev Sosialist Əməyi qəhrəmanları, Prezident təqaüdçüləri Fatma Hüseynova, Zəminə Aslanova, habelə sabirabadlı akademik Böyükkişi Ağayevlə, SSRİ Xalq artisti Lütfiyar İmanovla səmimi görüşdü. Lütfiyar İmanov dövlətimizin başçısına olan hörmət və ehtiramını mahnı ilə bildirdi.*

*Dövlətimizin başçısı ulu öndərin abidəsi önündə xatirə şəkli çəkdirdi.*

* * *

*Heydər Əliyev Abidə-Muzey Kompleksinin ətrafına toplaşan sakinlər dövlətimizin başçısına yaxınlaşaraq ürək sözlərini bildirdilər, qayğı və problemlərindən söhbət açdılar. Sabirabadlılar prezidentin regional sosial-iqtisadi inkişafına verdiyi böyük önəmi, əhalinin rifahının yaxşılaşdırılması üçün həyata keçirilən tədbirləri yüksək qiymətləndirdilər, respublikamızın rəhbərinə Allahdan uzun ömür, cansağlığı arzuladılar.*

*Prezident İlham Əliyev ölkəmizdə iqtisadiyyat gücləndikcə əhalinin yaşayışının daha da yaxşılaşacağını və problemlərin aradan qaldırılması üçün bütün işlərin görüləcəyini bildirdi.*

## SABİRABAD ŞƏHƏRİNDƏ ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*6 oktyabr 2005-ci il*

*Sabirabad Rayon İcra Hakimiyyətinin binasında Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Əli Bayramlı şəhərinin, Sabirabad, Kürdəmir, Hacıqabul və Saatlı rayonlarının sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş müşavirə keçirilmişdir. Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*

**İ l h a m Ə l i y e v:** Regional inkişaf proqramı iki ilə yaxındır ki, icra olunur. Bu proqram keçən ilin fevral ayında qəbul edilib və deyə bilərəm ki, uğurla həyata keçirilir. Mən müxtəlif bölgələrdə, rayonlarda olarkən şəxsən özüm vəziyyətlə tanış oluram, maraqlanıram, yeni yaradılmış müəssisələrlə tanış oluram. Deyə bilərəm ki, bütövlükdə bizim regional inkişaf proqramının çox böyük əhəmiyyəti vardır.

Azərbaycan hərtərəfli inkişaf edir. Bizim paytaxtımız Bakı şəhəri, digər böyük şəhərlərimiz inkişaf edir, amma məqsədimiz odur ki, rayonlar da – hər bir kənd, hər bir qəsəbə inkişaf etsin. Yeni yollar salınmalı, yeni sənaye obyektləri tikilməli, sahibkarlığa daha da böyük diqqət göstərilməlidir. Əlbəttə ki, bu, Dövlət Proqramında öz əksini tapır. Bu gün sahibkarlığın inkişafı da çox sürətlə gedir. Kreditlər ayrılır, «Aqrolizinq»in yaradılması xüsusilə kənd təsərrüfatı ilə məşğul olanların həyat səviyyəsini yaxşılaşdıracaqdır. Fermer təsərrüfatlarının işi daha uğurla gedəcəkdir. Ancaq eyni zamanda nəzərdə tutulmuş bütün bu proqramlarla, qəbul edilmiş qərarlarla yanaşı, yerlərdə proqramın icrasına diqqət göstərilməlidir.

Proqramda hər şeyi nəzərdə tutmaq mümkün deyil. Tutaq ki, hansısa bölgədə elə məsələ var ki, o, vaxtında proqrama daxil

edilməmişdir. Ancaq onun həlli vacibdir. Yerli icra hakimiyyəti orqanları rayonlarda gedən proseslərə rəhbərlik edirlər, vəziyyətlə tanışdırlar, bütün məsələləri bilirlər. Ona görə mən istəyirəm ki, biz bu gün bu məsələləri müzakirə edək.

Bütövlükdə iqtisadiyyatımız inkişafdadır. Gələn ilin büdcəsi bu ilin büdcəsinə nisbətən haradasa 70 faiz çox olacaqdır. Bu bizim üçün yeni imkanlar yaradacaqdır. Həm əməkhaqları, pensiyalar, sosial müavinətlər artacaq, eyni zamanda kapital qoyuluşuna ayrılan vəsait artacaqdır. O cümlədən Azərbaycanın müxtəlif rayonlarının abadlaşdırılması üçün əlavə vəsait ayrılacaqdır.

Bu zona müşavirələri çox səmərəli bir iş formatıdır. Bunun əsasını 1970-ci illərdə ulu öndərimiz Heydər Əliyev qoymuşdur. Bilirsiniz ki, o, Azərbaycanın rayonlarında dəfələrlə olarkən həm vəziyyətlə tanış olurdu, eyni zamanda səfərlərin sonunda zona müşavirələri keçirirdi. O illərdə belə müşavirələr əsasən kənd təsərrüfatının inkişafı ilə bağlı – üzümçülük, pambıqçılıq, digər kənd təsərrüfatı məhsullarının istehsalı ilə, abadlıq-quruculuq işləri ilə bağlı keçirilirdi və onun səmərəsini də Azərbaycan xalqı çox yaxşı görürdü. Bu ənənə bu gün də yaşayır və öz səmərəsini verir. Mən müxtəlif vaxtlarda ayrı-ayrı bölgələrdə olarkən bu cür müşavirələr keçirirəm. Sonra sərəncam qəbul edilir və orada konkret məsələlər öz əksini tapır. Əlavə vəsait ayrılır, harada hansısa əlavə vəsaitə ehtiyac varsa, biz bunu təmin edirik. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır. Yenə deyirəm, büdcəmiz kəskin şəkildə artıbdır və artacaqdır. Neft Fondunda külli miqdarda vəsait toplanıbdır. Əlbəttə, bu vəsait Azərbaycan xalqının rifah halının yaxşılaşmasına və müasir infrastrukturun yaradılmasına yönəldilməlidir. Yollar, elektrik stansiyaları, qaz xətləri, su xətləri, digər kommunikasiyalar, xəstəxanalar, məktəblər, sosial obyektlər – bunlar hamısı yaranmalıdır.

Bu gün Azərbaycanda fəaliyyətdə olan obyektlərin tam əksəriyyəti 1970–1980-ci illərin əvvəllərində tikilmişdir. Onların bir çoxu köhnəlib, artıq yararsız vəziyyətə düşübdür. Biz

gərək öz ölkəmizi yeniləşdirək. Buna imkanımız var, iradəmiz, siyasətimiz və proqramımız var. Ona görə mən istəyirəm ki, biz bu gün rayonlarda gedən işləri müzakirə edək və mövcud olan problemləri dinləyək, onların həlli yollarını müəyyən edək.

**Ə ş r ə f M ə m m ə d o v** (*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı)*: Gərgin işinizə baxmayaraq vaxt tapıb Sabirabad camaatı ilə görüşdüyünüzə, ölkəmizdə apardığınız nəhəng işlərə görə təşəkkürümü bildirirəm. Ulu öndər Heydər Əliyevin 1970-ci illərdə qoyduğu ənənə müvəffəqiyyətlə davam edir. Ona olan məhəbbət bu gün Sizə göstərilir.

Rayon icra hakimiyyətinin başçısı təyin edildikdən sonra kəndlərdə, məhəllələrdə, məktəblərdə, xəstəxanalarda, məscidlərdə adamlarla görüşdüm və əsas diqqətimi prezidentin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin sürətləndirilməsi tədbirlərinə yönəltdim. Burada əsasən elektrik enerjisi ilə təminat, kanal və kollektor şəbəkəsinin təmizlənməsi və genişləndirilməsi, tibbi yardım, gənclərin sağlam böyüməsi üçün lazımi şəraitin yaradılması ilə bağlı problemlər mövcud idi.

Prezidentin Sabirabad rayonuna göstərdiyi böyük qayğı, diqqət nəticəsində bu məsələlər əsasən həll edilmişdir, yaxud da həlli istiqamətində ciddi iş aparılır. Kəndlərdə 2,5 meqavat gücündə yeni yardımçı stansiyalar qurulmuşdur. Minbaşı kəndində isə 20 meqavat gücündə belə stansiyanın qurulması planlaşdırılmışdır. İndiyədək bütün Sabirabad rayonunda yüksək gərginlikli elektrik enerjisini qəbul etmək üçün cəmi 120 meqavat gücündə yardımçı stansiyalar var idi.

**İ l h a m Ə l i y e v:** Elektrik enerjisi ilə bağlı problem varmı?

**Ə ş r ə f M ə m m ə d o v:** Hazırda, demək olar ki, yoxdur.

**İ l h a m Ə l i y e v:** Fasilələr var?

**Ə ş r ə f M ə m m ə d o v:** Son vaxtlar fasilələr gecə saat 2-dən sonra, cəmi iki saat olur. Ona da fasilə demək olmaz. Ümumiyyətlə, camaatımız elektrik enerjisinin verilməsindən razıdır.

Sizə müraciətdən sonra bizə kanal-kollektorların qazılması üçün Yaponiyadan qrant hesabına alınmış 18 yeni texnika verildi. Məhz bunun nəticəsidir ki, biz keçən il nə qədər kanal təmizləmişdiksə, bu yarım ildə ondan iki dəfə çox təmizlənmişdir. Bu, Sabirabada göstərdiyiniz qayğının sayəsində olmuşdur.

Cənab Prezident, rayonda qrunt sularının çoxluğundan bir çox xəstəliklərin yayıldığı səbəbdən xəstələrin hər dəfə Bakıya getməmələri üçün Sizin tapşırığınızla «Muğan» klinikası tikilib istifadəyə verildi. Bu gün təməlini qoyduğunuz Sabirabad Olimpiya İdman Kompleksi rayonda idmanın inkişafına, gənc nəslin sağlam böyüməsinə əlverişli şərait yaratmaqla yanaşı, Sabirabadda çay turizminin də inkişafına güclü təkan verəcək, aran rayonlarında infrastrukturun yeniləşməsinə kömək edəcəkdir.

Əhalinin məşğulluğunun təmin edilməsi üçün 2005-ci ilin 9 ayında rayonda 39 yeni müəssisə yaradılmış, uzun illər dayanmış 7 müəssisənin fəaliyyəti bərpa olunmuşdur. Fiziki şəxs kimi qeydiyyatdan keçən 613 nəfər müxtəlif sahələrdə sahibkarlıq fəaliyyətinə başlamışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti ilə rayonun Axtaçı Muğan kəndində 200 yerlik, Çığırğan kəndində isə 100 yerlik məktəb binaları tikilir.

Pambıq istehsalı rayonda işsizliyin aradan qalırılmasında mühüm rol oynayır. Ona görə çiyid səpini 5 min hektar artırılmışdır. Ötən ilin müvafiq dövrünə nisbətən 5 min ton, ümumi yekununa nisbətən isə 2,5 min ton çox pambıq yığılmışdır. Pambıqçılıqda texnikadan, gübrədən çox istifadə olunur. Bunların qiyməti üç dəfəyə yaxın artıbdır. Amma pambığın qiyməti keçənilki səviyyədə qalıb, hətta azalma da vardır. Buna Sizin müdaxilənizə ehtiyac vardır.

**İlham Əliyev:** Bunun səbəbi nədir?

**Əşrəf Məmmədov:** Şirkətlərin rəhbərləri ilə, pambıqçılarla görüşüb söhbət etmişik. Sizin köməyinizə ehtiyac duyulur. Çünki camaatın pambıqçılığa meyli artıbdır.

**İ l h a m  Ə l i y e v:** Gərək biz bunu tənzimləyək. Əlbəttə, dünyada pambıq dünya qiyməti ilə satılır və bunun qiyməti bəllidir. Amma gübrənin, texnikanın qiymətinin artması gərək bizi çox narahat etsin. Ona görə məşğul olarıq. Yusif müəllim, onu qeyd edin. Məsələni araşdıracağıq.

**Ə ş r ə f  M ə m m ə d o v:** Cənab Prezident, digər məsələlərlə bağlı işlərimiz yaxşı gedir. Fürsətdən istifadə edib, Prezidentin İcra Aparatına və Nazirlər Kabinetinə təşəkkürümü bildirirəm ki, Sizin sərəncamlarınızın, göstərişlərinizin həlli istiqamətində bizə yaxından kömək göstərirlər.

İcazənizlə, bir neçə məsələni xahiş edərdim. Sabirabad şəhərində 30 min əhali yaşayır. Burada qadınların əməyə cəlb olunması üçün istehsal obyekti yoxdur. Bəzi kəndlərdə müəyyən iş yerləri yaradılmışdır. Amma şəhərin özündə iş yeri açmaq lazımdır. Bunun üçün köhnə pambıqtəmizləmə zavodunun nəzdində toxuculuq fabrikinin işə salınmasına böyük ehtiyac vardır. Orada 450–500 qadın işləyə bilər. Sizin təşəbbüsünüz, tapşırığınızla türkiyəli tərəfdaşlarla birlikdə Axtaçı Muğan kəndində işə salınmış zavodda 250 nəfər işləyir və bu, yerli qadınların işlə təminatına kaməkdir. Nizami kəndində Beynəlxaq Bankın xətti ilə pambıqtəmizləmə məntəqəsi yaradılıbdır. Bu il 2,5 min ton pambıq qəbul olunubdur. Ancaq bu məntəqənin emal zavoduna çevrilməsinə ehtiyac vardır.

Sabirabad şəhərinin içməli su kəməri və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı problem vardır. Mərhum ümummilli liderimizin tapşırığı ilə plan hazırlanıbdır, iş gedir. Burada çirkab suları üzə tez çıxır və problemlər yaradır. Bu məsələnin həllində köməyinizə ehtiyac vardır.

**İ l h a m  Ə l i y e v:** Konkret nə etmək lazımdır?

**Ə ş r ə f  M ə m m ə d o v:** Vaxtilə burada ümummilli liderimizin göstərişi ilə su təchizatı yaradılmışdır. Şəhər və 75 kənd təmiz içməli su ilə təmin olunurdu. Həmin sistem SSRİ Dövlət mükafatına layiq görülmüşdü. İndi xətlərin dəyişdirilməsinə, sistemin yenidən qurulmasına böyük ehtiyac vardır.

«Muğan» prospektinin salınmasına başlamışıq, alaqapı tikmişik. Həmin prospekti Heydər Əliyev prospekti ilə birləşdirəcəyik. Olimpiya İdman Kompleksinin qarşısında Olimpiya meydanı salınacaqdır. Bu işlər üçün müəyyən vəsait lazımdır ki, Sabirabadı aran zonasında mədəni şəhərə çevirək.

Cənab Prezident, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sabirabadın hər bir sakini ulu öndər Heydər Əliyevin xatirəsini əziz tutur və Sizə dərin hörmət bəsləyir.

**M ə r d a n  C a m a l o v***(Əli Bayramlı Şəhər İcra Hakimiyyətinin başçısı)***:** Cənab Prezident, Sizi qədim Muğan torpağında əlibayramlılar adından səmimi-qəlbdən salamlayıram. Ulu öndərimiz Heydər Əliyev bu şəhərdə 3-cü dəfə olarkən, 1998-ci ildə demişdi: «Mən keçmişdə də, indi də əlibayramlıların dəstəyini və qayğısını hiss etmişəm». Ümummilli liderimizin Əli Bayramlı sakinləri haqqında söylədiyi bu xoş sözlərini böyük qürur və iftixar hissi ilə xatırlayırıq. Fəxr edirik ki, ümummilli liderimizin iqtisadi-siyasi xəttini Sizin rəhbərliyiniz altında uğurla həyata keçiririk. Son beş ay ərzində Əli Bayramlının siması kökündən dəyişmişdir. Ümumi sahəsi 2 hektardan çox olan və Heydər Əliyevin adını daşıyan baş meydanda ulu öndərimizin adına layiq möhtəşəm abidə kompleksi ucaldılmışdı. Həmin ərazidə Heydər Əliyevin muzeyi yaradılmışdır. Ulu öndərin adını daşıyan böyük parkda son tamamlama işləri gedir. Sizi əmin edirik ki, bu abidə kompleksi hər bir əlibayramlılının qürur və and yerinə çevriləcəkdir. Məhz Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Əli Bayramlı çoxprofilli sənaye mərkəzi kimi inkişaf etmişdir. Hazırda ayda orta hesabla 47,5 milyard manatlıq sənaye məhsulu istehsal olunur. Sənaye müəssisələrində 5550-dən çox adam işləyir. Onların orta aylıq əməkhaqqı 1,3 milyon manatdır.

**İ l h a m  Ə l i y e v:** Necə, orta aylıq əməkhaqqı 1,3 milyon manat?

**M ə r d a n  C a m a l o v:** Bəli. Burada əsasən «Şirvanoyl» neft şirkəti və digər müəssisələr yerləşir.

Ay ərzində sənaye müəssisələrindən orta hesabla 42 min ton neft, 1,5 milyon kubmetr qaz, 440 milyon kv/saat elektrik enerjisi hasil olunur, 500 ton mahlıc, 410 ton təmizlənmiş yağ, 380 ton pambıq yağı, 275 ton əhəng, 270 ton inşaat kərpici və digər sənaye məhsulları istehsal edilir.

Regionların sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq, ölkəmizin hər yerindəki kimi, Əli Bayramlıda da genişmiqyaslı tikinti-abadlıq işləri gedir. Şəhərin ərazisindən keçən magistral avtomobil yolu və daxili yollar tamamilə asfaltlaşdırılmışdır.

Baş Şirvan kollektoru üzərindəki qəza vəziyyətində olan avtomobil körpüsü müasir üslubda əsaslı təmir edilmişdir. Son 5 ayda şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və Böyük Vətən müharibəsi iştirakçıları üçün 105 mənzilli iki beşmərtəbəli yaşayış binası inşa edilibdir. Bu yaxınlarda orderlər paylanacaqdır. 34 və 8 mənzilli daha iki binada tikin-tiquraşdırma işləri aparılır. Şəhərin inzibati tabeliyində olan Hacı Qəhrəmanlı və Bayramlı qəsəbələrinin siması əsaslı şəkildə dəyişir. Təxminən 3 min nəfər əhalisi olan Bayramlı qəsəbəsi 20 ilə yaxın idi ki, mavi qazdan məhrum idi. Əsas problem də 200 metrə yaxın xəttin Kür çayının altından keçirilməsi idi.

«Azəriqaz»ın köməyi ilə bu iş görüldü və indi qəsəbə qazla təmin olunur.

**İ l h a m  Ə l i y e v:** Qaz yaxşı təzyiqlə verilir?

**M ə r d a n  C a m a l o v:** Bəli. Məktəblərə, uşaq bağçalarına da diqqət daim göstərilir. Bu yaxınlarda 640 yerlik orta məktəb istifadəyə verilmişdir. İşsizliyin aradan qaldırılması üçün də tədbirlər həyata keçirilir. Bu yaxınlarda keçirilən əmək yarmarkasında 200 nəfərdən artıq adam daimi və mövsümi işlə təmin edilmişdir. Bütövlükdə isə, son 5 ayda 1112 yeni iş yeri açılmışdır.

Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı 2005-ci il 21 iyun tarixli müşavirədə prezidentin verdiyi tapşırıqların icrası ilə əlaqədar konkret tədbirlər planı hazırlanıb həyata keçirilir. Əli Bayramlıda olan 5000-ə yaxın qaçqın və

köçkünün problemləri daim diqqət mərkəzindədir, məskunlaşma və sosial problemlərlə əlaqədar heç bir çətinlik yoxdur. Şəhərdə görülən bütün işlər rüblük «Xüsusi bülleten»də öz əksini tapır. Su-kanalizasiya sistemi ilə bağlı problemin əsas səbəblərindən biri avadanlığın köhnəlməsidir. Bu avadanlıq 1940-cı illərdə qurulmuşdur. Onda şəhərin əhalisi 30–40 min idi. İndi isə qaçqın-köçkünlərlə birlikdə 80 min nəfərdir. Şəhərin su-kanalizasiya sisteminin yenidən qurulmasında kömək göstərilməsini xahiş edirik.

Sovet dövründə Bayramlı qəsəbəsində pambıqtəmizləmə zavodu fəaliyyət göstərirdi. Ancaq indi işləmir.

**İlham Əliyev:** İnvestorlar maraq göstərmir?

**Mərdan Camalov:** Maraqlanmışam, məndən əvvəlki dövrdə gələn olub, amma nəticəsiz qalıbdır.

İdman sahəsində də vəziyyət qənaətbəxşdir, gənclərimiz uğur qazanırlar. Bildirməliyəm ki, idman qurğuları tam yararsız vəziyyətdədir. İndi 7 min tamaşaçı yeri olan stadionun və qapalı manejin tikintisinə başlanmışdır və yaxın vaxtlarda istifadəyə veriləcəkdir. İdmanda böyük ənənələri olan Əli Bayramlının bu sahədə də köməyə ehtiyacı vardır.

Cənab Prezident, Sizi əmin edirəm ki, Əli Bayramlı camaatı daxili və xarici siyasətinizi dəstəkləyir və şəhərimizə gəlməyinizi böyük səbirsizliklə gözləyirdi.

**İlham Əliyev:** Mən əvvəllər bir neçə dəfə Əli Bayramlıda olmuşam. Mütləq yenə gələcək, vəziyyətlə tanış olacağam. Bilirəm ki, çoxlu abadlıq işləri aparırsınız. Bu vacibdir. Çalışın ki, yeni tikilən binalar, salınan xiyabanlar müasir səviyyədə olsun, yüksək zövqlə yaradılsın. Əli Bayramlı böyük şəhərdir və əlbəttə, şəhərin problemi rayonun problemlərindən çox kəskin şəkildə fərqlənir. Burada yeni iş yerlərinin açılması çox ciddi problemdir.

Elektrik stansiyasının vəziyyəti necədir?

**Mərdan Camalov:** Cənab Prezident, elektrik stansiyasında 7 blokdan 5-i işləyir. Mən 1973-cü ildə bu stansiyada tornaçı işləmişəm. İndi böyük geriləmə var. Orada 1100-dən

çox insan çalışır. Onlarla və «Azərenerji»nin rəhbərləri ilə söhbət etdik. İndi işdə xeyli dönüş yaranmışdır.

**İ l h a m Ə l i y e v:** Orada nə qədər adam işləyir?

**M ə r d a n C a m a l o v:** 1167 nəfər.

**İ l h a m Ə l i y e v:** O stansiya da köhnəlibdir. Biz indi yeni stansiyalar tikirik. Əli Bayramlı elektrik stansiyasının yenidən qurulması layihəsi artıq müzakirə olunur. Orada çox güclü stansiya tikməliyik.

**M ə r d a n C a m a l o v:** Cənab Prezident, xatırladım ki, Əli Bayramlıda sutkada 24 saat daim işıq var.

**İ l h a m Ə l i y e v:** Problem yoxdur?

**M ə r d a n C a m a l o v:** Heç bir problem yoxdur.

**İ l h a m Ə l i y e v:** Evlərdə də, müəssisələrdə də?

**M ə r d a n C a m a l o v:** Heç birində. Qaz problemi də yoxdur. Vaxtın azlığından izahat verə bilmədim. Biz mədənlərdən çıxan qazdan istifadə edirik. Bu yaxınlarda 1 nömrəli mədəndən çıxan qazı şəhərin köhnə hissəsinə vermişik.

**İ l h a m Ə l i y e v:** Əvvəllər havaya buraxılırdı?

**M ə r d a n C a m a l o v:** Ya bağlanırdı, yaxud da açıq şəkildə havaya buraxılırdı.

**İ l h a m Ə l i y e v:** İndi onu şəhər şəbəkəsinə verirsiniz?

**M ə r d a n C a m a l o v:** Bəli, «Azəriqaz»ın köməyi ilə şəhərə yönəltmişik. Bu da əhalinin çox böyük razılığına səbəb olmuşdur.

**İ l h a m Ə l i y e v:** Bu, səmt qazıdır. Onun, demək olar, böyük maya dəyəri yoxdur.

**M ə r d a n C a m a l o v:** Bəli, müqavilələrdə göstərilibdir, təmənnasız verilir.

**İ l h a m Ə l i y e v:** Təmənnasız verməlidirlər. Dənizdə «Azəri»,«Çıraq»,«Günəşli»dən çıxan səmt qazını da Azərbaycana təmənnasız verirlər.

**M ə r d a n C a m a l o v:** Biz yaxın vaxtlarda Mişovdağ yatağından kənd evləri adlanan massivə də qaz verəcəyik.

**F ə x r ə d d i n M ə l i k o v** (*Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, rayon sakinləri adından

bir daha minnətdarlığımı bildirirəm. Sizin Kürdəmirə gəlişinizi səbirsizliklə gözləyirdik və bu tarixi gün bizə nəsib oldu.

Kürdəmir camaatı həmişə ulu öndərimizin ideyalarına sadiq olmuşdur. Ümummilli liderimiz 5 dəfə Kürdəmir rayonuna gəlmişdir. Ulu öndərin adını daşıyan, Sizin xeyir-duanızla açılışını qeyd etdiyimiz park 1972-ci ildə məhz onun tövsiyəsi ilə salınmış və çox gözəl istirahət zonasına çevrilmişdir. Lakin 1990-cı illərdə park viran qoyulmuşdu. Biz 7 ay ərzində o parkı yenidən qurduq. Rayonda quruculuq-abadlıq işləri genişlənir. Daha 3 park salınmış, 1600 yerlik 77 sinif otağı, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə 10 məktəb tikilmişdir.

Elektrik enerjisi təminatı ilə bağlı çox güclü baza yaradılıbdır. 25 meqavatlıq iki transformator istismara verilmişdir. Ümumiyyətlə, rayonun tələbatı 52 meqavatdır, bizim isə 62 meqavatlıq transformatorlarımız vardır. Ona görə də bu sahədə heç bir problem yoxdur. Gecələr 2–3 saatlıq fasiləni nəzərə almasaq, elektrik enerjisi ilə təminat vardır. Şəhər tam təchiz olunmuşdur. 3500 abonent mavi yanacaq alır. İçməli su sarıdan uzun illərdən bəri problem var. 1950-ci illərdə 34 kilometr məsafədən çəkilmiş su xətti baxımsızlıqdan yararsız hala düşüb, şəhərə lazımi miqdarda su gəlib çatmır.

Cənab Prezident, çox sağ olun ki, su təchizatı ilə əlaqədar Sizin tapşırığınızla 8,7 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Onun 2 milyard manatı xərclənibdir. Mümkünsə, qalan vəsaitin ayrılmasını xahiş edirik.

Hər həftənin cümə günü kəndlərdə səyyar qəbul təşkil olunur. Çünki elə kəndlər var ki, rayon mərkəzindən 55 kilometr məsafədə yerləşir.

Aparılan təhlillər göstərir ki, şikayətlər azalır, ərizə və şikayətlərin məzmunu da dəyişmişdir. Əsasən sahibkarlıq obyekti üçün yer ayrılması, kredit verilməsi və s. barədə ərizələrlə müraciət edirlər.

2003-cü ilin oktyabrından bəri rayonda 2772 iş yeri açılmışdır. Bunların 1390-nı daimi, 1382-si müvəqqəti iş yerləridir. Rayonda gündə 20–25 ton süd istehsal etmək mümkündür və

yağlılığı da yüksəkdir. «Azərsun» Holdinq Şirkətlər Qrupu bununla maraqlanır. Layihə-smeta sənədləri hazırlanıb, 20 hektar yer ayrılıb və təxminən 1000 iş yerinin olacağı gözlənilir.

Kanalizasiya sistemində yaranan çətin vəziyyətdən çıxmaq üçün yenə də köməyə ehtiyac vardır.

Rayonun ərazisində qiymətli xammal olan biyan kökü tədarük etmək mümkündür. 1988–1989-cu illərin statistik rəqəmlərinə görə əhali bundan ildə 1 milyon dollara yaxın gəlir götürübdür. Sonralar bu iş sistematik xarakter daşımayıb, indi isə ayrı-ayrı şəxslər Ağcabədiyə daşıyıb aparır, çünki orada tədarük olunur. Cənab Prezident, biyan kökünün tədarükü və emalı ilə məşğul olan müəssisənin yaradılması yaxşı olardı.

**İ l h a m Ə l i y e v:** Emal müəssisəsi yaranmalıdır?

**F ə x r ə d d i n M ə l i k o v:** Bəli. Mən çoxlu sahibkarla, Baş nazirlə də görüşmüşəm. Baş nazir də çox maraqlandı, dedi ki, narahat olma, bu məsələyə baxacağıq. Bu çox gəlir gətirən bir sahədir.

Rayonumuzda idman sahəsində də uğurlarımız çoxdur. Cənab Prezident, Sizin xeyir-duanızla Kürdəmirdə Olimpiya İdman Kompleksinin inşa olunmasını insanlarımız çox böyük ruh yüksəkliyi ilə qarşıladılar. Şəhər stadionunun bərpası ilə bağlı da xahişimiz var. 7 hektarlıq gözəl bir ərazidədir. Mümkün olsa, onun bərpasına kömək edərdiniz.

Elə kənd yollarımız var ki, qışda hətta yük maşınları ilə də getmək qeyri-mümkündür. Yolların abadlaşdırılmasına büdcədə ayrılan 280 milyon manat vəsaitin 50 milyon manatı kənd yolları üçün nəzərdə tutulmuşdur. Lakin bu çox azdır.

**İ l h a m Ə l i y e v:** Təxminən nə qədər lazımdır ki, biz bütün kənd yollarını abadlaşdıraq. Belə bir təxmini məlumat var?

**F ə x r ə d d i n M ə l i k o v:** Cənab Prezident, onu tam dəqiq bilmirik, amma elə düşünürəm ki, təxminən 500 milyon manat lazımdır. İnandırım Sizi ki, indi Kürdəmirdə əhalinin şikayətləri çox deyildir. Sadəcə, yol məsələsi qalıbdır.

**İ l h a m Ə l i y e v:** Yəqin ki, başqa rayonlarda da bu problem var. Kənd yollarının olmaması.

**F ə x r ə d d i n M ə l i k o v:** Bəli.

**İ l h a m Ə l i y e v:** Yaxşı, mən sözümü deyərəm.

**F ə x r ə d d i n M ə l i k o v:** Cənab Prezident, bu gün rayonda ab-hava çox sağlamdır, insanlar, Kürdəmir camaatı dövlətə, dövlətçiliyə sadiqdir. Parlament seçkilərinə hazırlıq gedir və görüşlərdə də deyilir ki, hər bir kürdəmirli layiqli namizədə səs verəcəkdir.

**F i r u d i n B a b a y e v** (*Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı*): Hörmətli cənab Prezident, Sizin respublikamızın müxtəlif bölgələrində keçirdiyiniz müşavirələr regionların sosial-iqtisadi inkişafına, xüsusilə mövcud problemlərin uğurlu həllinə hərtərəfli yol açmışdır. Aran zonasında keçirilən bugünkü müşavirə də bu bölgənin yeni inkişaf mərhələsinə keçəcəyinə böyük təkan verəcəkdir.

Hacıqabul rayonu 1990-cı ildə Sabirabad, Şamaxı, Salyan rayonlarının və Əli Bayramlı şəhərinin tabeliyindəki ucqar yaşayış məntəqələri hesabına yaradılmışdır. Strateji əhəmiyyətə malik olan Bakı–Tbilisi dəmir yolu, tarixi Böyük İpək Yolu və ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri rayonumuzun ərazisindən keçir. Rayonun ərazisi 1641 kvadratkilometr, əhalisi 61 min nəfərdir.

Rayonumuz yeni olduğundan burada görülən işlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Buradan keçən və Bakı şəhərini içməli su ilə təmin edən Kür su kəmərini də ulu öndərimiz çəkdirmişdir. Əliyev siyasəti Azərbaycanda uğurla davam etdirilir və ölkəmizin xoşbəxt gələcəyi üçün başlıca şərtdir. 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində baş verən hadisələr Azərbaycanı tamamilə uçuruma, məhvə aparırdı. Yalnız xalqımızın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət normallaşdı və Azərbaycan yeni inkişaf mərhələsinə qədəm

qoydu. Heydər Əliyev siyasəti həm ölkə daxilində inkişafa təkan verdi, həm də Azərbaycanı dünyaya tanıtdı.

Sizin təsdiqlədiyiniz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında Hacıqabul rayonu üzrə nəzərdə tutulmuş bütün tədbirlərin həyata keçirilməsi əsasən təmin edilmişdir. Rayonda taxıl, tərəvəz-bostan məhsulları və pambıq istehsalı ötən illərlə müqayisədə xeyli artmışdır.

Dövlət Proqramına əsasən 2004–2008-ci illərdə rayonda 3269 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

2004-cü ildə 650, 2005-ci ilin birinci yarısında 337 iş yeri açılmışdır. Quşçuluq Səhmdar Cəmiyyətində sutkada 240 ton yem istehsal edən zavod və yeni kəsim sexi istifadəyə verilmişdir. Quba şəhərində fəaliyyət göstərən «SAF» şirkətinin rayonun Navahı kəndində meyvə-tərəvəz məhsulları emal edilən filialı tikilmiş fabrikində 23 yeni əyirici dəzgah quraşdırılmışdır. Yeni Yol istismar sahəsi, Kür rayonlararası tingçilik müəssisəsi açılmış, Hacıqabul Balıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Fəaliyyəti dayanmış asfalt zavodu təmir edilərək işə salınmışdır.

Hacıqabul şəhərinin abadlaşdırılması, təhsil, səhiyyə və mədəniyyət sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də xeyli iş görülmüşdür.

Ümummilli lider Heydər Əliyevin adını daşıyan park salınmış, orada ulu öndərimizin büstü qoyulmuşdur.

Əhalinin qaz təminatını yaxşılaşdırmaq üçün daxili imkanlar hesabına 1651 metr, su təminatını yaxşılaşdırmaq üçün isə 1835 metr yeni xətlər çəkilmişdir.

Yeni dərs ilinə hazırlıqla əlaqədar Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rayonun Udullu və Qubalı kəndlərində 240 və 100 yerlik iki məktəb binası tikilmiş, sinif otaqları lazımi avadanlıqla təmin edilmişdir.

Fürsətdən istifadə edərək, bu qayğıya görə Sizə və Heydər Əliyev Fondunun rəhbərliyinə Hacıqabul rayonunun sakinləri adından dərin minnətdarlığımızı bildiririk.

Son iki ildə dövlət vəsaiti hesabına rayonun Şorbaçı kəndində əlavə 6 sinif otağı, Qarasu kəndində isə əlavə 5 sinif otağı tikilib istifadəyə verilmişdir. Rayon ərazisində ölkə əhəmiyyətli tarixi abidə – orta əsrlərə aid Pir Hüseyn türbəsinin də daxil olduğu Pirsaatçay xanəgahı vardır. Abidədə qəza vəziyyətinin yaranmasını nəzərə alaraq rayon icra hakimiyyəti 2003-cü ildə Mədəniyyət Nazirliyi qarşısında məsələ qaldırmışdır. Mədəniyyət Nazirliyi 2004-cü ildən rayon icra hakimiyyəti ilə birlikdə bu möhtəşəm tarixi abidənin bərpasına başlamışdır və hazırda iş davam edir.

Xəstəxanamız 1950-ci illərdə tikilmiş binada yerləşir. Hələ 1998-ci ildə binanın tikilməsi planlaşdırılmışdır. Bizdə xəstəxana yox səviyyəsindədir.

**İ l h a m  Ə l i y e v:** Bəs insanlar harada müalicə olunurlar?

**F i r u d i n  B a b a y e v:** O köhnə binanı çox yaxşı təmir eləmişik, amma xəstələri lazımi səviyyədə qəbul edib tibbi yardım göstərmək mümkün deyildir. Hacıqabul rayonunun ərazisi çox böyükdür və magistral avtomobil yolunun 87 kilometri buradan keçir. Ona görə də ağır avtomobil qəzaları olanda yaralıları Əli Bayramlıya, yaxud da Bakıya aparırlar. Xəstəxananın 1998-ci ildən başlanan tikintisi indiyə kimi yarımçıq qalıbdır. Bu il də vəsait ayrılıb, amma indiyədək bir manatlıq da tikinti işləri görülməyibdir.

**İ l h a m  Ə l i y e v:** Məşğul olarıq.

**F i r u d i n  B a b a y e v:** Kanalizasiya ilə bağlı bizdə də problem var.

**İ l h a m  Ə l i y e v:** Sizdə də eyni problem var.

**F i r u d i n  B a b a y e v:** Bu rayon sonradan yarandığına görə həmişə diqqətdən kənarda qalıbdır.

**İ l h a m  Ə l i y e v:** Təzə rayon olduğuna görə.

**F i r u d i n  B a b a y e v:** Bəli. Rayon yaranandan sonra, üzr istəyirəm, «papaqaldıqaç» olub, cəbhəçilər baxmayıblar.

**İ l h a m  Ə l i y e v:** Rayon neçənci ildə yaranıbdır?

**F i r u d i n  B a b a y e v:** 1990-cı il aprelin 21-də yaranıbdır.

**İ l h a m  Ə l i y e v:** Hansı rayonların ərazisi hesabına yaratdılar?

**F i r u d i n  B a b a y e v:** Sabirabad, Şamaxı, Salyan rayonları və Əli Bayramlı şəhəri.

**İ l h a m  Ə l i y e v:** Bu rayonun yaradılmasının səbəbi nə idi?

**F i r u d i n  B a b a y e v:** Bu ərazilər rayon mərkəzlərindən çox uzaq idi. Məsələn, Padar kəndindən Sabirabad təxminən 90–95 kilometrdir.

**Y u s i f  H ü m b ə t o v** *(Prezidentin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri)*: Cənab Prezident, Ayaz Mütəllibovun vaxtında icra hakimiyyəti başçılarının sayını artırmaq, bir neçə nəfərə vəzifə vermək məqsədi ilə.

**F i r u d i n  B a b a y e v:** Cənab Prezident, bir xahişim də var. Pirsaatçay Hacıqabulun içərisindən Navahı kəndinə keçib dənizə tökülür. El arasında ona «Birsaatçay» deyirlər. Yəni sel gələndən-gələnə su olur. 1963-cü ildə bu çayın 17 milyon kubmetr su tutumu olub. Hazırda lilləndiyindən su tutumu 1 milyon kubmetrdir. Vaxtilə 12 min hektar ərazini suvarırdı, indi 1500 hektar sahəni suvarır. Bu sahədə işlərin görülməsinə də ehtiyac duyulur.

**İ l h a m  Ə l i y e v:** İşıqla bağlı problem var?

**F i r u d i n  B a b a y e v:** Problem yoxdur. Qazla problem də yoxdur. Suyu isə Bakı kəmərindən götürürük.

**İ l h a m  Ə l i y e v:** İçməli su da gəlir.

**F i r u d i n  B a b a y e v:** Bəli, içməli su var.

**Ə l i h ü s e y n  H ü s e y n o v** (*Saatlı Rayon İcra Hakimiyyətinin başçısının müavini*): Möhtərəm cənab Prezident!

Sizi, ümummilli liderimiz Heydər Əliyev xəttinin layiqli davamçısını, çağdaş dünyamızın böyük dövlət və siyasi xadimini, xalqımızın vətənpərvər oğlunu ürəkdən salamlayır, Sizə rayonumuzun hər bir sakininin ən səmimi və xoş arzularını çatdırmaqdan qürur duyuram.

Respublikanın sosial-iqtisadi, mədəni-siyasi həyatında qazanılmış uğurlar böyük öndərimiz Heydər Əliyevin zəngin

siyasi təcrübəsi, onun qətiyyətli tədbirləri və dövlətçilik məharəti sayəsində əldə olunmuşdur.

Tarix və zaman şahiddir ki, memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan Azərbaycan Respublikası Sizin həyata keçirdiyiniz ardıcıl və məqsədyönlü tədbirlər sayəsində daha da möhkəmlənir və qüdrətli bir dövlətə çevrilir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf proqramı Sizin tərəfinizdən uğurla davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbulundan ötən dövr ərzində rayonda «Şəki–İpək» ASC-nin pambıqçılıq idarəsi, Seyidoba və Sarıcalar süd emalı müəssisəsi, Şirinbəy kəndində və Saatlı şəhərində qarışıq yem istehsal edən müəssisə, Varxankənddə «Bərəkət» MMC-nin xidmət servisi, Sarıcalar kəndində Belarus–Azərbaycan birgə müəssisəsinin Belaz «Aqrotexservis» müəssisəsi, üzlük piltə istehsal edən sexlər, inkubator sexləri və istirahət mərkəzləri istifadəyə verilmiş, 1200 nəfərdən çox rayon sakini daimi iş yeri ilə təmin olunmuşdur.

Ötən il Saatlı rayonu respublikada ən çox pambıq istehsal edən rayon olmuşdur. Sahibkarlar və fermerlər 11105 hektar sahənin hər hektarından 24,5 sentner məhsul götürərək tədarük məntəqələrinə 35350 ton pambıq satmışlar. Bu, respublikada istehsal olunan pambığın 26 faizinə bərabərdir.

Təkcə pambıqçılıqdan 55 milyard manat gəlir götürülmüşdür. Bu il rayonumuzda 17824 hektar sahədə çiyid səpilmiş, indiyədək tədarük məntəqələrinə 24 min tona yaxın pambıq satılmışdır. Bu, eyni zamanda 23 min əhalinin 8 ay mövsümi işlə təmin olunması deməkdir.

Taxılçılıq sahəsində də nəticələr ürəkaçandır. Bu il rayonda 14214 hektar sahədə taxıl əkilmiş, hər hektardan 41,2 sentner, bütünlükdə isə 58631ton məhsul yığılmışdır. Hektarın məhsuldarlığına görə Saatlı respublikada birinci yerdədir.

Aqrar islahatdan sonra heyvandarlıq sahəsində xeyli irəliləyiş olmuşdur. 1996-cı ildə 35653 baş qaramal olduğu halda,

2005-ci ildə 54754 başa, davarların sayı isə 39879 başdan 75820 başa çatmışdır.

Təhsil, səhiyyə, mədəniyyət və digər sosial sahələrdə də işlər görülmüşdür. Heydər Əliyev Fondunun həyata keçirdiyi «Yeniləşən Azərbaycana yeni məktəb» proqramına uyğun olaraq rayonun Əhmədbəyli kəndində 200 yerlik yeni məktəb binasının inşasına başlanmışdır. Dövlət vəsaiti, daxili imkanlar və yerli ehtiyatlar hesabına rayonun Xanlarkənd, Soltanabad, Dəlilər, Mollavazlı, Şirinbəy və Heydərabad kəndlərində müasir tələblərə cavab verən 6 məktəb binası tikilib istifadəyə verilmiş, bir neçə məktəbdə əlavə sinif otaqları inşa edilmişdir. Əksər təhsil müəssisələri əsaslı təmir olunmuş, müasir tədris avadanlığı ilə təchiz edilmişdir. Mərkəzi rayon xəstəxanasında doğum, cərrahiyyə və uşaq şöbəsi əsaslı təmir olunmuş, su və kanalizasiya sistemi yenidən qurulmuşdur.

Rayonda geniş abadlıq və quruculuq işləri gedir. Rayon sakinlərinin istək və arzusu ilə şəhərin ən böyük meydanına ulu öndərimizin adı verilmiş, burada onun tuncdan büstü ucaldılmışdır. «Gənclik» və «Muğan» parklarında əl oyunları meydançası və yeni tipli ikimərtəbəli idman mərkəzi gənclərin istifadəsinə verilmişdir.

Rayonun yaxın kəndlərindən Sarıcalar, Qara Nuru, Mollavazlı və Ağarəhimli kəndlərinə mavi qaz vermək üçün təmir işləri başa çatdırılmışdır.

Cənab Prezident, saatlılar Sizin rəhbərliyiniz altında Azərbaycanın xoşbəxt gələcəyinin və xalqımızın firavan həyatının təmin ediləcəyinə möhkəm əmindirlər. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Sizin rayonda problem yoxdur.

**Ə l i h ü s e y n H ü s e y n o v:** Cənab Prezident, rayonumuzdakı problemlə bağlı təkliflər var, Sizə verəcəyik. Əsas problemimiz odur ki, rayonda 32 min Məhsəti türkü yaşayır. Çadır şəhərciyinə gedən yol yaxşı deyil.

**İ l h a m Ə l i y e v:** Deməli, sizin rayonda çadır şəhərciyi də yerləşir.

**Ə l i h ü s e y n  H ü s e y n o v:** Bəli, əvvəllər var idi. İndi həmin yerlərə gedən yola asfalt döşənsə, daha yaxşı olar. Bizdə də kanalizasiya sistemi yoxdur. Elektrik enerjisinə gəldikdə, keçən il yardımçı stansiya istifadəyə vermişik ki, bu da rayonun təminatına qismən kömək edir. Yay aylarında fasilələr olmur. Qışda hamıdakı kimi, bizdə də problem olur.

Vaxtilə Azərbaycan 1 milyon ton pambıq istehsal edirdi, indi isə 135 min tondur. Hamı deyir zavodlar işləmir, amma zavod xammalla işləyir. Xammalı artırmalıyıq ki, zavodu tam gücü ilə işə sala bilək. Əhalini pambıqçılığa daha çox cəlb edə bilsək, pambığın məhsuldarlığını artırsaq, yaxşı olar. Bir hektardan 15 yox, 35 sentner məhsul götürmək mümkündür.

**İ l h a m  Ə l i y e v:** İndi kolxoz, sovxoz yoxdur. Fermer təsərrüfatıdır və bir də özəl fəaliyyətdir. Ona görə gərək siz yerlərdə çalışasınız, şərait yaradasınız, kömək edəsiniz ki, daha da çox məhsul yığsınlar. Yaxşı bilirsiniz ki, 1970-ci illərdə pambıq yığımını tez qurtarırdılar. İndi yığım uzanır. Yağışlar da yağacaq, qurtardı getdi.

Dinamika necədir, məsələn, keçən il, ondan əvvəlki il necə olubdur?

**Ə l i h ü s e y n  H ü s e y n o v:** Əvvəlki illərə nisbətən 7–8 min ton artım var. İşləsək, yenə də artıra bilərik.

**İ l h a m  Ə l i y e v:** Yəni artım var.

## YEKUN NİTQİ

Biz aran zonasında gedən işlər haqqında məlumatları dinlədik. Bütövlükdə, hər yerdə olduğu kimi, burada da inkişaf var və eyni zamanda da oxşar problemlər var. Sevindirici hal odur ki, demək olar, indi rayonların tam əksəriyyətində işıq problemi aradan qaldırılıbdır. Bu bizi narahat edən ən əsas problemlərdən biri idi. Əvvəlki illərdə həmişə əhali, sahibkar tərəfindən ən çox şikayətlər bu barədə idi. İndi, demək olar ki, yaz, yay, payız aylarında problem yoxdur. Fasilələr aradan

qaldırılıbdır. İndi əsas məqsəd budur ki, qışda da bu problem yaranmasın. Bu problemin tam aradan qaldırılması üçün müəyyən bir zaman lazımdır. Əminəm ki, bu problem gələn ilin sonuna qədər tamamilə aradan qaldırılacaqdır. Çünki gələn ilin sonuna qədər Azərbaycana 52 kiçikhəcmli elektrik stansiyası gətiriləcək və ölkənin müxtəlif yerlərində quraşdırılacaqdır. Bu bizə haradasa 400–500 meqavat əlavə güc deməkdir. Demək olar ki, elektrik enerjisinə olan tələbat tam şəkildə ödəniləcəkdir.

Nəzərə alsaq ki, Sumqayıt buxar-qaz qurğusunun tikintisinə başlamışıq, «Şimal-2» elektrik stansiyası tikilməlidir – bunlar birlikdə yerdə 1000 meqavat güc təmin etməlidir. Əli Bayramlı elektrik stansiyasının yenidən qurulması layihəsinin müzakirəsi başlanıbdır. Mən hökumətə və «Azərenerji»yə göstəriş verdim ki, layihə hazırlasınlar. Bəlkə də biz heç xaricdən kredit axtarmayaq, indi bizim öz imkanlarımız var. Özümüz pul qoyaq və bu stansiyanı yenidən quraq. Çünki burada şərti yanacaq sərfi çox yüksəkdir. Adətən, müasir elektrik stansiyalarında hər bir kilovat-saata 200, 300, maksimum 400 qram mazut sərf edilir. Amma Əli Bayramlıda 700 qram, 800 qram. Bu, əlbəttə, əlavə xərclərə səbəb olur, əlavə mazut, qaz yandırılır. Bir sözlə, elektrik enerjisi sahəsindəki problemlər aradan qaldırılmaqdadır və tədricən biz buna nail olacağıq.

Qaz təchizatı sahəsində də işlər yaxşı gedir. Bir neçə il bundan əvvəl, uzun fasilədən sonra Azərbaycanın bir çox rayonlarına təbii qazın verilməsi bərpa edildi. Verilən qazın həcmi ildən-ilə artırılır. Amma tam şəkildə bizi təmin etmir. Azərbaycanda 4 milyard kubmetr, bəlkə də bir az çox təbii qaz hasil edilir və xaricdən 4,5 milyard kubmetr təbii qaz alınır. Biz daha da çox ala bilərik. Rusiya ilə bu məsələyə dair bağlanmış müqaviləyə əsasən bu il Azərbaycana 5,5 milyard kubmetr qaz gəlməli idi. Ancaq orada qazın verilməsi ilə problemlər yarandı və bizə 4,5 milyard kubmetrdən çox qaz verə bilmirlər. Bəzi yerlərdə qazın çatışmamasının səbəbi məhz bundadır. Yəni kifayət qədər yerli qaz hasil edilmir. İmkanımız yoxdur ki,

xaricdən lazımi səviyyədə alaq. Amma bu məsələ də aradan qaldırılacaqdır. Artıq «Çıraq» yatağından və «Azəri» yatağından çıxan səmt qazı bizim sistemə daxil edilibdir. Orada hasilat ildən-ilə artacaqdır. 2006-cı ildən başlayaraq «Şahdəniz» qaz-kondensat yatağı işə düşəcək və Azərbaycanda bu problem də aradan qaldırılacaqdır.

Bir sözlə, son 2–3 ilə qədər əhalini narahat edən ən mühüm problemlər, demək olar ki, artıq aradan qaldırılıbdır. Əsas problem – siz də burada deyirsiniz, başqa rayonlarda da bunu eşidirəm, Bakıda da bu problem çox kəskin şəkildə durur – su təchizatı və kanalizasiya sistemidir. İndi biz əsas səylərimizi buna yönəldirik. Beynəlxalq maliyyə qurumları ilə müvafiq müzakirələr aparılır, müqavilələr bağlanıbdır. Bəzi hallarda kreditlərin ayrılması da nəzərdə tutulub, bəzi hallarda isə biz öz pulumuzla etməliyik.

Yəqin eşitmisiniz, bir müddət bundan əvvəl Bakını və Abşeron yarımadasını bulaq suyu ilə təmin etmək üçün qərarlar qəbul edildi. Qəbələ–Oğuz zonasında yerləşən böyük su mənbəyində kəşfiyyat işləri aparılmışdır, quyular qazılmışdır. O quyular sübut etdi ki, çox yüksək debitli su mənbəyi var, özü də bulaq suyu. İndi biz su kəmərinin tikilməsi ilə məşğuluq. Mən qarşıya vəzifə qoydum ki, 2 il 6 ay ərzində bu su kəməri tikilsin. Bu tikiləndən sonra Bakıda, Abşeron yarımadasında su problemi tamamilə aradan qaldırılacaqdır. Uzun müddət ərzində, onilliklər ərzində bu problemlər olmayacaqdır.

Ancaq eyni zamanda, hər bir rayonun su və kanalizasiya problemi bizi narahat etməlidir. Müvafiq göstərişlər veriləcəkdir. İndi bilirsiniz ki, bu sahədə qayda-qanun yaradıldı. Əvvəllər bu sahədə idarəetmə çox pərakəndə şəkildə idi. Çünki Abşeron regional su idarəsi var idi və o, Bakının Abşeron yarımadasının su təminatı ilə məşğul idi. Rayonların su ilə təmin olunması başqa strukturlarda idi. Kanalizasiya sistemi, tutaq ki, Bakı Şəhər İcra Hakimiyyətinin nəzdində idi. Mən bunların hamısını birləşdirdim.

«Azərsu» Səhmdar Cəmiyyəti yarandı və bütün su, kanalizasiya problemləri artıq orada həll olunur. Orada böyük işlər gedir, təhlillər aparılıbdır, layihələr müəyyən edilibdir. Bu müşavirədən sonra da əlavə göstərişlər veriləcək ki, rayonlarda bu məsələ tezliklə öz həllini tapsın.

İş yerlərinin açılması prosesi sürətlə gedir. Bu, Azərbaycanda artıq – kampaniya demək istəmirəm, çünki «kampaniya» sözü bəzi hallarda mənfi mənalarda da ifadə olunur – sözün yaxşı mənasında bir hərəkata çevrilibdir. Hər bir rayonda, hər bir bölgədə iş yerlərinin yaranması prosesi sürətlə gedir. Mənə məruzələr ediləndə də mütləq bildirilir ki, nə qədər iş yeri açılıbdır. Çünki bilirlər və siz də bilirsiniz ki, bu mənim üçün çox vacibdir. Ona görə yox ki, mən demişəm, 600 min iş yeri açılmalıdır və açılacaqdır. Ona görə ki, iş yerlərinin açılması, sadəcə, bir statistik rəqəm deyildir. Hər bir iş yerinin açılması insanların həyat səviyyəsinin yaxşılaşmasına gətirir. İş yerinin açılması, eyni zamanda, müəssisələrin, fabriklərin, yeni infrastrukturun, yeni imkanların yaradılması deməkdir.

Əlbəttə, 300 min iş yerinin tam əksəriyyəti özəl sektorda yaranıbdır. Bilirik ki, özəl sektorda maaşlar dövlət sektorunda olan maaşlardan xeyli yüksəkdir. Deməli, yeni iş yerləri eyni zamanda yüksək şərait yaradır. İşləyən yüksək əməkhaqqı alır və beləliklə, həm ailə yaxşı dolanır, həm də ölkə zənginləşir.

Bu bölgədə, Saatlıda, Sabirabadda qaçqın-köçkün problemi də mövcuddur. Bilirsiniz ki, biz bu problemin aradan qaldırılması üçün müvəqqəti şəkildə böyük işlər görürük. Mən iki il bundan əvvəl bəyan etmişdim ki, 2003–2008-ci ilə qədər, yəni bu prezidentlik dövrü ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Bu istiqamətdə işlər görülür. Bilirsiniz ki, Biləsuvar rayonunda çadır şəhərciyi tamamilə ləğv olunubdur. Deyəsən, 2003-cü ilin oktyabr ayında orada yeni şəhərciyin açılışını qeyd etdik. İndi Bərdə rayonunda məskunlaşmış soydaşlarımızın həyat səviyyəsini yaxşılaşdırırıq. Orada da bütün çadır şəhərcikləri ləğv olunmalıdır. Ağdam rayonu ərazisində müasir evlər, məktəblər, xəstəxanalar, yollar,

infrastruktur yaradılır. Bu, böyük bir layihədir. Minlərlə ailə oraya köçəcəkdir. Sonuncu mərhələ Saatlı, Sabirabad rayonları ərazisində yerləşən çadır şəhərciklərinin ləğvidir. Buna da biz nail olacağıq. Bizim soydaşlarımız müvəqqəti olaraq normal şəraitlə təmin ediləcəklər.

Bu bölgədə kənd təsərrüfatı ənənəvi xarakter daşıyır. Əhalinin tam əksəriyyəti kənd təsərrüfatı ilə məşğuldur. Bu gün mən çıxışımda qeyd etdim ki, «Aqrolizinq»in yaradılması burada bu sahənin inkişafına güclü təkan verəcəkdir. Artıq işlər başlanıb, texnika alınıbdır. Bu il 100 milyard mAnat, gələn il 150 milyard manat dəyərində texnika alınacaqdır. Gələn il lazım olarsa, biz bu məbləği artırarıq ki, qısa müddət ərzində texnikaya, özü də müasir texnikaya olan tələbat ödənilsin.

Siz yaxşı bilirsiniz, indi bizdə olan texnika sovet dövründən qalan kombayn, traktorlardır. Onların böyük əksəriyyəti yararsız vəziyyətdədir. Kombaynlar bir gün işləyir, bir gün işləmir. Onu işlədənlər də təmirə çox böyük pul xərcləyirlər. Belə olan halda böyük çətinliklər yaranır. Bir rayonda iş qurtarır, kombaynı 100–200 kilometr yol keçib, başqa yerə aparırlar.

Biz hər bir bölgədə «Aqrolizinq»in məntəqələrini yaradacağıq ki, fermerlər oradan texnikanı icarəyə alsınlar, müasir texnikadan istifadə etsinlər və öz işlərini görsünlər. Mən eyni zamanda gübrələrin alınması barədə də göstəriş verdim ki, bu məsələ də öz həllini tapsın. Əminəm ki, bu il görülən, gələn il görüləcək işlər 2–3 ildən sonra öz nəticəsini göstərəcəkdir.

Burada ərizələrlə bağlı məsələyə də toxunuldu. Buna da diqqət göstərməliyik. Mən həmişə bunu deyirəm. Siz, rayon rəhbərləri də buna çox diqqət göstərin. Əgər problem olmasa, heç kim ərizə ilə saatlarla prezidenti gözləməz. Yaxud da başqa şəhərdən, başqa yerdən prezidentin dalınca gəlməz. Deməli, insanı nə isə narahat edir, haradasa ədalətsizlik var, haradasa köməyə ehtiyac var. Amma bununla yanaşı, çalışıram ki, mənə verilən bütün ərizələrlə tanış olum. Tapşırıram ki, reaksiya verilsin, operativ qaydada həll olunsun.

Təhlil onu göstərir ki, – Fəxrəddin Məlikov bunu qeyd etdi – artıq şikayətlər kəskin şəkildə azalıbdır. Ərizələrdə əks olunan əsas məsələlər maddi köməklə bağlıdır, hansısa bir xəstənin müalicəsi, tələbənin oxuması, məişət problemlərinin həlli ilə bağlıdır. Bir də həbsdə olan insanların azad olunması, əfv edilməsi ilə bağlıdır. Bu çox müsbət bir haldır ki, bu ərizələrdə şikayət xarakterli məqamlar kəskin şəkildə azalıbdır. Bu onu göstərir ki, insanlara yerlərdə də diqqət artır, məsələlər də həll olunur və işlər normal şəkildə gedir. Amma bununla yanaşı, imkan daxilində çalışmalıyıq ki, hər bir müraciətə, ərizəyə reaksiya verək və insanların qayğılarını, onları narahat edən məsələləri həll edək.

Bu gün həm Kürdəmirdə, həm də Sabirabadda yeni olimpiya komplekslərinin təməli qoyuldu. Bu da rayonların inkişafı üçün, infrastrukturun yaranması üçün, insanların istirahəti, sağlamlığı üçün çox vacibdir. Mən çox şadam ki, biz buna nail olduq. Gələn ildə yeni idman komplekslərinin tikintisi nəzərdə tutulur. Bilirsiniz ki, biz buna 2000-ci ildə başlamışıq. Bu təşəbbüslə Milli Olimpiya Komitəsi çıxış etdi. Baxmayaraq ki, bu, Milli Olimpiya Komitəsinin bilavasitə işi deyildir. Dünyada mövcud olan olimpiya komitələri, adətən, olimpiya hərəkatının, olimpiya ideallarının təbliği ilə məşğul olurlar. Amma bizdə belə deyildir. Mən Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən dərhal sonra biz bu işlərə başladıq. Görün nə qədər böyük işlər görmüşük. İndi təsəvvür edin, 10–12 rayon və şəhərdə müasir olimpiya kompleksləri tikilib, onların gözəl şəraiti, qapalı, açıq idman meydançaları, üzgüçülük hovuzları var, kotteclər tikilmişdir. Bu, inkişaf deməkdir. Bu o deməkdir ki, ölkəmiz inkişaf edir. Hansı başqa ölkədə bu məsələyə belə yüksək diqqət göstərilir? Heç bir ölkədə!

Biz bunu bundan sonra da edəcəyik. Bununla yanaşı, digər sosial infrastrukturun yaradılması məsələləri də çox böyük diqqət tələb edir.

Məktəb tikintisi. Bu ənənə artıq başlanıb, yüzlərlə məktəb tikilib və siz də çalışın, öz tərəfinizdən bu məsələyə, bu işlərə

dəstək verin. Ondan sonra xəstəxanaların tikintisi nəzərdə tutulubdur. Mən artıq göstəriş vermişəm. Hər bir bölgədə müasir diaqnostika mərkəzi və xəstəxana tikilməlidir. Müxtəlif şöbələr olmalıdır, reanimasiya şöbəsi olmalıdır, müasir avadanlıq olmalıdır. Bunlar bizdə yoxdur.

Yadımdadır. Lənkəranda bədbəxt hadisə baş verəndə, bina çökəndə oraya getdim. Mərkəzi xəstəxanaya gəldim. Deyirəm ki, bəs ən ağır xəstələr haradadır? Deyirlər ki, onlar reanimasiyadadır. Dedim, gedək reanimasiyaya. Getdik. Nədir reanimasiya? İkinci mərtəbədə adi palata, «dırnaqarası» reanimasiya da üçüncü mərtəbədə. Adi palatadır, adi otaqdır, taxta çarpayıdır. Heç nə yoxdur. Nə təzyiqölçən cihaz, nə monitor, nə elektrokardioqraf var, heç nə yoxdur. Reanimasiyanın adı var. Burada insan necə müalicə olunsun?

Ona görə mən bu dəfə Lənkəranda olanda orada yeni, müasir xəstəxananın təməlini qoydum. Bu, bütün bölgələrdə olmalıdır. İnsanlar xəstələnəndə Bakıya, yaxud başqa böyük şəhərə getməməlidir. İlk mərhələdə elə etməliyik ki, hər 100–150 kilometr məsafədə bir müasir tibb məntəqəsi olsun. Düzdür, indi özəl tibb məntəqələri də yaradılır. Biz bu gün Sabirabadda da bunun açılışında iştirak etdik. Çox müsbət haldır. Başqa yerlərdə də var. Xaçmazda da görmüşəm, başqa rayonlarda da var. Amma biri var özəl klinika, biri də var dövlət klinikası. Biz gərək dövlət tərəfindən bu işləri görək. Əminəm ki, mənim bu təşəbbüsümə özəl sektor da qoşulacaqdır. Çünki mənim bütün təşəbbüslərim Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəlibdir.

İdman – sağlamlıq deməkdir, məktəb – savad, bilik deməkdir, gələcək deməkdir, gənc nəslin yetişməsi deməkdir. Xəstəxana isə sağlamlıq deməkdir, şəfa deməkdir. Yəni bütün bu təşəbbüslər Azərbaycan xalqının rifah halına xidmət edir. Ona görə mən şübhə etmirəm ki, bu təşəbbüslərə qoşulanların sayı da çox olacaqdır. Əminəm ki, biz müasir tələblərə uyğun sosial infrastrukturun yaradılmasına nail olacağıq.

Eyni zamanda indi bizim şəhər və rayonlarımızın görkəmi də dəyişməlidir. Bilirsiniz, keçmiş illərdə işlər görülübdür. Çoxlu binalar, zavodlar, fabriklər tikilibdir. Ancaq o vaxt müəyyən çərçivələr var idi. Moskvada, yaxud da başqa mərkəzdə hazırlanmış müəyyən layihələr var idi. Standart layihələr idi, nə memarlığı, nə də bir yaraşığı vardı.

Biz isə yeni tikilən binalara o nöqteyi-nəzərdən yanaşmalıyıq ki, bunların xarici görkəmi də gözəl olsun. Ona görə siz də abadlıq işlərinə fikir verin. Mən görürəm ki, rayonlarda çox iş görülür, binalar tikilir, yeni xiyabanlar salınır. Bu çox müsbət haldır. Mən bunu dəstəkləyirəm, lazımi vəsaiti ayırıram və ayıracağam da. Amma bəzi hallarda görürəm ki, binalar bir az zövqsüz tikilir. Yaxud da elə rənglənir ki, adam baxanda məəttəl qalır: kimin ağlına gəlib ki, onu bu rənglə rəngləsin. Bunu eləyəndə gərək ictimai rəyi biz nəzərə alaq. Eyni zamanda bu məsələlərlə məşğul olan xüsusi qurumlar var, dizaynerlər var, yüksək zövqlü mütəxəssislər var. Onlarla da məsləhətləşmək lazımdır. Çünki rəng qamması elə mürəkkəb bir məsələdir ki, bir balaca burada uyarlılıq nəzərə alınmayanda, lap memarlıq baxımından ən gözəl bina olsun, onu belə rəngləsən heç bir görkəmi olmayacaqdır. Əksinə, çox eybəcər görünəcəkdir. Ona görə buna fikir verin. Hər şey səliqəli olmalıdır.

Mən rayonlarda tez-tez oluram. Maşınla da, qatarla da, vertolyotla da gedirəm, hər tərəfdən – həm yerdən, həm də göydən görürəm. Çalışın ki, rayon ərazisində səliqəsiz daxmaları, paslanmış budkaları, köhnəlmiş, heç kimə lazım olmayan dəmir-dümürləri yığışdırın. Bunu etmək üçün böyük vəsait lazım deyildir. Sadəcə olaraq, təmizlik işləri aparın, bir səliqə yaradın ki, adam gələndə, vətəndaş baxanda onun gözünü oxşasın. Axı biz bu qədər iş görürük. Büdcəmiz, maaşlar bir neçə dəfə artıbdır. İndi gələn ilin büdcəsinə baxacağıq. Onu da artıracağam və sizin rayonlara da vəsait ayıracağam.

Əlbəttə ki, kommunikasiya işləri, elektrik stansiyaları, qaz xətləri, su xətləri – bunlar çox lazımdır, çox pul aparır. Ancaq

bunlar kənardan görünən işlər deyildir. Amma kənardan görülən işlər də var. Ona bəlkə o qədər pul ayırmaq heç lazım da deyildir. Sadəcə, təmizlik aparmaq, süpürmək, yararsız vəziyyətdə olan daxmaları sökmək, dəmir-dümürləri yığışdırmaq lazımdır. Buna böyük vəsait lazım deyildir. Bu işlərə, sadəcə, bir az düzgün yanaşma lazımdır. Ona görə mən bunu sizə də, məni bu gün eşidən bütün başqa rayon icra hakimiyyətlərinin başçılarına, məsul şəxslərə də deyirəm. Bu, təkcə rayon icra hakimiyyəti başçılarının vəzifəsi deyil, həm də rayon ərazisində yerləşən müəssisələrin işidir.

Bir də ki, bilmirəm, bu haradan yaranıb – bizdə bəzi hallarda çox mənfi bir hal var. Böyük bir bina, yaxud da ev tikirlər. Tiksinlər, heç kim etiraz etmir. Amma onun yanında zibilxana, hansısa xoşagəlməz mənzərə olur. Axı orda yaşayanın, imarəti tikənin yəqin imkanı var ki, tikir. Qoy daha da artıq olsun. Biz elə onu istəyirik. İstəyirik ki, sahibkarlar sinfi güclənsin, Azərbaycan xalqı zənginləşsin, insanlarımızın pulu çoxalsın. Özləri üçün də, xalq üçün də çox ev tiksinlər. Ancaq bunu tikəndə heç olmasa öz yan-yörəsinə də fikir versin. Heç olmasa baxsın ki, onun ətrafında zibilxana, yaxud da başqa çirkin mənzərə var. Axı bu, bütün görüntünü pozur. Ona görə də deyirəm, bu təkcə sizin işiniz deyil, bütün müəssisə və təşkilatların işidir. Özəl sektor da buna fikir verməlidir.

İnkişaf etmiş ölkələrdə çox ciddi qaydalar var. Müəyyən yerlərdə müəyyən mərtəbədən çox bina tikilə bilməz. Yaxud da fasad hissəsində hansısa başqa bir rəng ola bilməz. Yaxud da ki, başqa bir memarlıq əlaməti ola bilməz. Bu bizdə yoxdur. Bu da təbiidir. Çünki bu qaydanı yaratmaq üçün vaxt lazımdır. Amma mən əminəm ki, biz bunu yaradacağıq. Ancaq indi biz gərək çalışaq ki, tikilən hər bir yeni bina, obyekt, müəssisə estetik cəhətdən də gözəl olsun. Əlbəttə, biz gərək narahatlıq doğuran məsələləri aradan qaldıraq.

Kənd yollarının tikintisi çox vacibdir. Mən bunu bilirəm. Bu məqsədlər üçün başqa rayonlara vəsait ayırmışam. Bakıya gedən kimi göstəriş verəcəyəm ki, sizin rayonlara da vəsait

ayrılsın. Bütövlükdə, mən soruşdum ki, indi bütün kənd yollarının tikintisi üçün nə qədər vəsait lazımdır? Dedilər, 500 milyon manat. Mən sizə deyirəm, Bakıya gedən kimi göstəriş verəcəyəm ki, hər rayona 1 milyard 500 milyon manat vəsait ayrılsın. Ondan siz səmərəli istifadə edin, kənd yollarının hamısına əl gəzdirin. Harada ki təmir lazımdır, təmir edin, harada ki yol yoxdur, yol çəkdirin. Qalan hissəni də şəhərin, rayonun abadlıq işlərinə sərf edin. Büdcədə nə qədər vəsait nəzərdə tutulubsa, bu ondan əlavə olacaqdır. Bu barədə göstəriş veriləcəkdir. Amma buna nəzarət edəcəyəm. Sonra gərək siz şifahi, sənədlərlə, şəkillərlə hesabat verəsiniz. Mən Yusif Hümbətova tapşırıram. Nəzarət edin və sizə də məruzə etsinlər ki, harada nə edirlər, necə edirlər. Təki insanlar bundan razı olsunlar.

Biz əsas məsələləri müzakirə etdik. Qarşıdan gələn seçkilər barədə mən bu gün çıxışlarımda öz münasibətimi bildirdim. Bu, artıq sizə də bəllidir. Mənim çıxışlarımda, imzaladığımız sərəncamda bütün bu məsələlər öz əksini tapıbdır. Biz şəffaf, ədalətli seçkilərin tərəfdarıyıq. Əminəm ki, bu belə də olacaqdır. Kampaniya çox uğurla gedir. Bu günə qədər heç bir qanun pozuntusu qeydə alınmayıbdır. Xırda anlaşılmazlıqlar var, onlar da təbiidir. Biz onları da aradan qaldırırıq. Haradan siqnal gəlirsə ki, qanun pozuntusu var, buna dərhal reaksiya verilir.

Bilirsiniz ki, bütün namizədlərə eyni şərait yaradılıbdır. Qeydiyyatda heç bir problem olmadı, kampaniyada heç bir problem yoxdur. İctimai televiziyada, dövlət televiziyasında hamıya eyni hüquqlar verilibdir. Siyasi əqidəsindən asılı olmayaraq, bütün namizədlərə eyni şərait yaradılıbdır. Bu, normal prosesdir. Şübhə etmirəm ki, seçkilərə qədər qalan dövr də normal keçəcəkdir. Azərbaycanda demokratik proses təmin ediləcəkdir.

O ki qaldı bəzi qüvvələrin vəziyyəti gərginləşdirmək istəyinə, biz buna da adekvat cavab veririk. Azərbaycanda qayda-qanun var. Azərbaycan hüquqi dövlət qurur. Biz heç vaxt

özbaşınalığa, anarxiyaya yol verə bilmərik. Kiminsə nazı ilə də oynayan deyilik. Hamı üçün qayda-qanun var. Hamı qanuna tabe olmalıdır. Kim qanuna tabe olmursa, kim qanunu pozursa, kim qeyri-qanuni hərəkət edirsə, o, qanun qarşısında cavab verməlidir və verəcəkdir. Azərbaycan dövlətinin gücü kifayət qədərdir. Hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq istəyən qüvvələr də artıq buna yaxşı bələddir. Yaxşı bilirlər ki, Azərbaycan dövləti istənilən qanunsuz hərəkətin qarşısını qətiyyətlə, cəsarətlə və qanun çərçivəsində alacaqlar.

Sizə də deyirəm ki, seçki prosesinə qarışmayın, müdaxilə etməyin. Bilirəm ki, yaxşı bir iş görmək naminə bəzi hallarda istəyirlər müəyyən namizədlərə kömək etsinlər. Lazım deyil, onda bu, «ayı xidməti» olacaqdır. Bu lazım deyil. Seçkilər normal gedir. Prezident kimi və Yeni Azərbaycan Partiyasının sədri kimi, mən tam əminəm ki, Azərbaycan dövlətinin rəhbərliyinin siyasi xətti bu seçkilərdə dəstəklənəcəkdir. Buna heç bir şübhə yoxdur. Bu vaxta qədər keçirilən və bundan sonra keçiriləcək rəy sorğuları da bunu təsdiqləyir və təsdiqləyəcəkdir. Həm mötəbər beynəlxalq təşkilatlar, həm də yerli təşkilatlar tərəfindən rəy sorğuları kifayət qədər siqnal verir ki, seçkilərin nəticələri nə olacaqdır.

Ona görə hamıya eyni şərait yaradılmalıdır. Rayonlarda mitinqlərin keçirilməsi üçün hamıya eyni yerlər – klublar, yaxud başqa yerlər ayrılmalıdır. Əlbəttə, baxmalısınız ki, tədbirlər insanların gündəlik həyatına müdaxilə etməsin, heç kimə narahatçılıq yaratmasın, normal həyat tərzi davam etsin.

O ki qaldı bəzi populist çıxışlara, onlara da fikir vermək lazım deyildir. Bəzi adamlar var ki, beş ildə bir dəfə xalq qarşısına çıxır və hansısa vədləri verir, kimisə təhqir etməyə çalışırlar. Bunlara fikir vermək lazım deyildir. Mən demişəm, bir də deyirəm – Azərbaycanda boşboğazlıq dövrü çoxdan bitdi. Sadəcə olaraq, bəzi insanlar hələ 1980-ci illərin sonları – 1990-cı illərin əvvəlində baş vermiş hadisələrlə, o əhval-ruhiyyə ilə yaşayırlar. O bitdi, qurtardı, heç vaxt da təkrarlanmayacaqdır. O tarixdir və acı tarixdir. O tarixin kitabı bağlandı və arxivə göndərildi.

Azərbaycan yeniləşir, müasirləşir. Azərbaycan Dünya Birliyinə inteqrasiya edir. Biz öz işimizi xalqın iradəsi ilə aparırıq. Bütün sahələrdə – siyasi müstəvidə, demokratikləşmə prosesində, Azərbaycanda sabitliyin qorunması işində, iqtisadi islahatların davam etdirilməsində, sosial məsələlərin həllində, büdcənin artırılmasında, ordu quruculuğunda görülən işlərdə bizim nailiyyətlərimiz var. Biz bunları daha da artırmalıyıq və ölkəmizi inkişaf etdirməliyik, möhkəmləndirməliyik.

O ki qaldı bizə müxalifət olmaq istəyən adamlara, xatırlayıram – 2000-ci ildə parlament seçkilərində Yeni Azərbaycan Partiyasının siyahısına rəhbərlik edirdim – çıxışlarımın birində ya mənə sual verildi, yaxud haradasa demişdim ki, müxalifət pensiyaya çıxana qədər müxalifət olaraq qalacaqdır. İndi üstündən beş il keçibdir. Mən yenə haqlı çıxdım. İndi onların pensiyasına hələ 10–15 il var. Allah onlara ömür versin. Pensiyaya qədər müxalifətdə olarlar. Ondan sonra biz onlara yaxşı pensiya verərik, getsinlər yaşasınlar. Ona görə bu barədə heç kimin heç bir narahatçılığı, şübhəsi olmasın. Biz ölkəni inamla idarə edirik, xalqın dəstəyinə arxalanırıq. Milli maraqlarımızı müdafiə edirik və ölkəmizi bu yolla irəliyə, gələcəyə aparacağıq. Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.*

## BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ VİTALİ SMİRNOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 oktyabr 2005-ci il*

*Beynəlxalq Olimpiya Komitəsinin bu günlərdə keçirilmiş iclasında iştirak etdiyini vurğulayan qonaq dedi ki, BOK-un prezidenti onun salamlarını və müxtəlif yarışlarda Azərbaycan idmançılarının uğurlu çıxışlarına görə təbriklərini prezident İlham Əliyevə çatdırmağı xahiş etmişdir.*

*Azərbaycan voleybolçularının çox yaxşı çıxış etdiklərini söyləyən cənab Smirnov həmin yarışlarda onlara azarkeşlik etdiyini vurğuladı. O, Azərbaycanda olimpiya lisenziya turnirlərinin yüksək səviyyədə keçdiyini bildirdi.*

*Ölkəmizdə idmanın inkişafı üçün böyük işlər görüldüyünü deyən prezident İlham Əliyev Azərbaycanda beynəlxalq turnirlərin yüksək səviyyədə keçdiyini və onların təkcə Bakıda deyil, həm də respublikamızın rayonlarındakı müasir tipli olimpiya komplekslərində təşkilinin böyük əhəmiyyəti olduğunu vurğuladı.*

*Azərbaycanda dünya standartlarına cavab verən bir çox olimpiya idman kompleksinin inşa edildiyini xatırladan dövlətimizin başçısı daha bir neçə rayonda belə komplekslərin özülünün qoyulduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, onların hər birində beynəlxalq yarışların yüksək səviyyəsində təşkili mümkündür. Dünya standartlarına cavab verən olimpiya komplekslərinin ətrafında infrastrukturun yaradılması həm də Azərbaycanda turizmin inkişafına xidmət edir.*

*Azərbaycan voleybolçularının böyük uğurla çıxış etdiklərini vurğulayan prezident İlham Əliyev dedi ki, Bakıda otüstü xokkey üzrə beynəlxalq turnir müvəffəqiyyətlə keçmiş, Azərbaycan komandası dünya çempionatının final mərhələsinə vəsiqə qazanmışdır. Hazırda ölkəmizdə bədii gimnastika üzrə dünya çempionatı keçirilir. Bir sıra beynəlxalq turnirlərin keçirilməsi də nəzərdə tutulmuşdur. Bütün bunlar Azərbaycanda idman sahəsində işlərin uğurla getdiyini göstərir.*

*Salamlara və təbrikə görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını BOK-un prezidenti cənab Jak Roqqa çatdırmağı xahiş etdi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu dəhşətli fəlakət ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, qardaş Pakistan xalqına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralanlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2005-ci il*

## BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ BRUNO QRANDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 oktyabr 2005-ci il*

*Qəbula görə təşəkkür edən* Bruno Qrandi *dedi ki, cənab Prezident, ilk görüşümüz zamanı Siz Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti idiniz.*

*Dövlətimizin başçısı bildirdi ki, o indi də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir.*

*Beynəlxalq Federasiyanın rəhbəri Bakıya gəlməzdən əvvəl Avropa Olimpiya Komitəsinin prezidenti Mario Peskante ilə görüşdüyünü bildirdi və prezident İlham Əliyevə onun salamlarını çatdırdı.*

*Salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da ən səmimi salamlarını AOK-nın rəhbərinə çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı dedi ki, biz Avropa Olimpiya Komitəsində birgə çalışmışıq, o zaman Mario Peskante Baş katib idi.*

*Bədii gimnastika üzrə dünya çempionatının Azərbaycanda keçirilməsinə görə təşəkkürünü bildirən prezident İlham Əliyev dedi ki, bir neçə gün ərzində bu tədbir bütün televiziya kanallarında və idman verilişlərində yayımlanmışdır. Ölkəmizdə bu tədbirə böyük maraq var idi.*

*İlk dəfə idi ki, olimpiya idman növü üzrə ölkəmizdə dünya çempionatı keçirilirdi. Azərbaycana göstərdiyiniz bu diqqətə və əməkdaşlığınıza görə sizə təşəkkür edirəm. Mən ümid edirəm ki, gələcəkdə ölkəmizdə daha çox beynəlxalq tədbirlər keçiriləcəkdir.*

Azərbaycanda gələcəkdə bir sıra dünya və Avropa çempionatlarının keçiriləcəyini vurğulayan qonaq Bakıda olmasından çox məmnun qaldığını söylədi. O dedi ki, biz bədii gimnastika üzrə dünya çempionatının keçirilməsi üçün Bakını seçəndə bilirdik ki, ölkəmizdə belə tədbir ilk dəfə olacaqdır. Lakin deməliyəm ki, seçimimiz çox düzgün olmuşdur. Hər şey çox yaxşı təşkil edilmişdi. Mən çox məmnunam. Təşkilati işləriniz və qonaqpərvərliyiniz çox yüksək səviyyədə idi. Deyərdim ki, Azərbaycan qonaqpərvərlikdə ən birinci yerdə durur. İştirakçılar bütün bunlara görə təşəkkürlərini bildirdilər. Bütün dostlarım adından Sizə təşəkkür edirəm. Azərbaycan komandası çox yaxşı çıxış etdi, bu onlar üçün böyük tərəqqidir.

Xoş sözlərə görə minnətdarlığını bildirən prezident İlham Əliyev dedi ki, Azərbaycanda idman çox uğurla inkişaf edir. Bir çox idman növlərində gözəl naticələr əldə olunur.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏRİ

## Gəncə şəhərində beynəlxalq hava limanının tikintisi ilə tanışlıq

*11 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 11-də səhər Gəncə şəhərinə gəlmişdir. Dövlətimizin başçısını hava limanında səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev beynəlxalq hava limanında tikinti işlərinin gedişi ilə maraqlandı. «Azərbaycan Hava Yolları» Dövlət Konsernin Baş direktoru Cahangir Əsgərov məlumat verdi ki, tikinti işlərinin müəyyən hissəsi artıq yerinə yetirilmişdir. Yeni aerovağzal binasının uzunluğu 130 metr, eni 43 metr, ümumi sahəsi 12 min kvadratmetr olacaqdır. Burada VİP salonu da nəzərdə tutulmuşdur.*

*Müxtəlif çeşidli yüklərin qəbulu və göndərilməsi üçün sahəsi 1000 kvadratmetr olan yük terminalı, hava limanının xüsusi texnikasının və maşın-mexanizmlərinin profilaktikası və təmiri üçün emalatxana, avtobaza, avtomobil qarajı, örtülü dayanacaq tikiləcəkdir.*

*Aerovağzalın köhnə inzibati binası isə əsaslı təmir edilərək, polis, gömrük və sərhəd xidməti əməkdaşlarının istifadəsinə veriləcəkdir.*

*Bu tikintiyə yerli işçilər cəlb olunmuşdur. Bütün işlər yüksək səviyyədə aparılır və vaxtında başa çatdırılacaqdır.*

*Sonra prezident İlham Əliyev gələcək tikililərin maketləri ilə tanış oldu və tövsiyələrini verdi. Bildirdi ki, aerovağzal binasının milli arxitektura elementləri nəzərə alınmaqla tikilməsinə nail olmaq lazımdır ki, xarici görünüşü də gözəl olsun.*

*Sonra dövlətimizin başçısı avtobusla hava limanının ərazisini gəzdi, uzunluğu 3000 metr, eni 45 metr, sahəsi 135 min kvadratmetr olacaq uçuş-enmə zolağının tikintisi ilə tanış oldu.*

**Ümummilli lider Heydər Əliyevin abidə-muzey kompleksi ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev Gəncə beynəlxalq hava limanının tikintisi ilə tanışlıqdan sonra şəhərə yola düşdü. Dövlətimizin başçısını qarşılamaq üçün küçələrə çıxan on minlərlə gəncəli prezidenti hərarətlə salamlayır, öz hörmət və ehtiramlarını alqışlarla ifadə edirdi.*

*Prezident İlham Əliyev əvvəlcə şəhərin mərkəzi meydanına gəldi. O burada tanınmış heykəltəraş Şərif Şərifovun layihəsi ilə ümummilli liderimiz Heydər Əliyevə ucaldılmış abidəni ziyarət edərək, gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına mərkəzi meydanın yenidən qurulması, ulu öndərin xatirəsinə yaradılan abidə-muzey kompleksinin tamamlanması üçün görülən işlər barədə məlumat verildi. Azərbaycan prezidenti İlham Əliyev burada yaradılan səliqə-sahmanı, abadlıq işlərini yüksək qiymətləndirdi və gəncəlilərin istirahəti üçün çox gözəl şərait yaradıldığını bildirdi.*

*Dövlətimizin başçısı sonra Heydər Əliyev xatirə muzeyinə gəldi. Muzeyin qarşısında səmimi söhbət zamanı akademik Siddiqə Məmmədova şəhər ziyalılarının ürək sözlərini ifadə edərək prezident İlham Əliyevi yenidən Gəncədə görməkdən qürur duyduqlarını bildirdi, ona cansağlığı, uğurlar, fəaliyyətində daha böyük nailiyyətlər arzuladı.*

*Sonra prezident İlham Əliyev muzeylə yaxından tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətinin bütün dövrlərini, o cümlədən müstəqil Azərbaycanın prezidenti kimi, xarici ölkələrə səfərlərini, nüfuzlu dövlət xadimləri ilə görüşlərini əks etdirən fotoşəkillər, ulu öndərə həsr olunmuş kitablar toplanmışdır. Muzeydə qoyulmuş kompüter vasitəsilə Heydər Əliyevin bütün həyatı barədə internet saytından məlumat almaq mümkündür.*

**Muzeyin xatirə kitabına yazdığı ürək sözləri**

«Cənab Heydər Əliyev muzeyinin ekspozisiyası ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Müasir Azərbaycanın qurucusu Heydər Əliyev Gəncəyə və gəncəlilərə həmişə böyük qayğı və diqqət göstərirdi. Bütün başqa sahələrdə olduğu kimi, bu işdə də Heydər Əliyevin siyasəti davam etdirilir. Gəncəyə və gəncəlilərə mənim xüsusi hörmətim vardır. Çox sevinirəm ki, öz tarixi simasını saxlayaraq Gəncə yeniləşir, abadlaşır, gözəlləşir. Əminəm ki, bundan sonra da Gəncə sürətlə inkişaf edəcək. Burada yaşayan insanlar sülh, əmin-amanlıq, sabitlik şəraitində yaşayacaqlar. Gəncəlilərə öz dərin hörmətimi və məhəbbətimi ifadə edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Gəncə, *11.10.2005-ci il*»

*Muzeylə tanışlıqdan sonra meydana toplaşan insanlarla səmimi görüşən prezident İlham Əliyev onların qayğı və problemləri ilə maraqlandı. Sakinlər ulu öndərin siyasi xəttinin layiqli davamçısının Gəncəyə tez-tez gəlməsini yüksək qiymətləndirdilər, şəhərin inkişafına göstərdiyi diqqətə görə təşəkkürlərini bildirdilər.*

*Prezident İlham Əliyev şəhər sakinlərinə müraciətlə dedi: «Yenidən Gəncəyə gəlmişəm. Görürəm ərizə, məktublar verirlər. İndi bunlar yığılır və hamısına baxılacaqdır. Siz narahat olmayın, mənə daxil olan məktublara reaksiya verilir, çalışırıq kömək edək ki, sizin problemləriniz aradan qaldırılsın. Mənim də bölgələrə səfərlərimin əsas məqsədi odur ki, yerlərdə abadlıq, quruculuq işləri daha da yaxşı getsin, ərizə və şikayətlərə baxılsın. Əgər kiminsə problemi varsa, narahat edən məsələ varsa, onlar həll olunmalıdır. Ona görə bütün ərizələrə, şikayətlərə baxılacaq və lazımi tədbirlər görüləcəkdir. Mən sizi bir daha salamlayıram, təbrik edirəm ki, şəhəriniz, bizim qədim*

*Gəncəmiz günü-gündən gözəlləşir, abadlaşır, yeni müəssisələr yaranır, binalar tikilir, parklar salınır».*

## Gəncə Regional Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimində

*Gəncə Regional Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasiminə gedən prezident İlham Əliyev yolüstü bir neçə yerdə dayanaraq sakinlərlə görüşüb söhbət etdi, onların problemləri ilə maraqlandı. Sakinlər dövlətimizin başçısına təşəkkür edərək ona həmişə arxa-dayaq olacaqlarını vurğuladılar, Gəncənin sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.*

*Gəncədə Regional Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması münasibətilə keçirilən mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyevi mərasimə toplaşanlar hərarətlə qarşıladılar. ARDNŞ-nin prezidenti Natiq Əliyev respublikamızın rəhbərinə məlumat verdi ki, şirkətin vəsaiti hesabına tikiləcək mərkəz gələn ilin oktyabrında hazır olacaqdır. Ümumi sahəsi 7 min kvadratmetr olacaq 4 mərtəbəli binanın birinci mərtəbəsində yeməkxana, funksional dializ bölməsi, camaşırxana və təsərrüfat anbarları, şüa-diaqnostika, təcili yardım bölmələri fəaliyyət göstərəcəkdir. İkinci-üçüncü mərtəbələrdə diaqnoz bölməsi, konfrans salonu, həkim otaqları, palatalar, reanimasiya şöbəsi yerləşəcəkdir. Dördüncü mərtəbə isə cərrahiyyə-əməliyyat bloku üçün nəzərdə tutulmuşdur. Mərkəzdə müasir tibb avadanlığı quraşdırılacaq, müalicə və dializlər üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev Gəncəçayın səfalı sahilində müalicə-diaqnostika mərkəzinin tikilməsini yüksək qiymətləndirdi və bunu Gəncə sakinlərinin probleminin həlli istiqamətində növbəti tədbir kimi səciyyələndirdi.*

*Sonra prezident İlham Əliyev müalicə-diaqnostika mərkəzinin bünövrəsinə içərisində yazılı kağız olan gilizi atdı və ilk beton qarışığını tökdü.*

# GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*11 oktyabr 2005-ci il*

*Görüşü Azərbaycan Yazıçılar Birliyinin Gəncəbasar bölməsinin sədri Məmməd Alim açaraq dedi:*

Cənab Prezident!

Dahi Nizaminin vətəninə, xalqımızın tarixini yaşadan Gəncəyə xoş gəlmisiniz!

Gəncə ziyalıları, bütün şəhər əhalisi adından Sizi salamlamaq, ən xoş arzularımızı, minnətdarlığımızı bildirmək istəyirəm.

Əziz Prezidentimiz! Sizin ölkədaxili hər səfəriniz, Gəncəyə hər gəlişiniz regionların sosial-iqtisadi inkişafı proqramının uğurlu həyata keçirilməsinin təsdiqidir. Bu, böyük Heydər Əliyev xəttinin məntiqi davamıdır.

Əziz Prezidentimiz! Mən Sizin Gəncə haqqında dediyiniz sözləri olduğu kimi xatırlayıram. Siz demişdiniz: «Gəncə inkişaf edir, müasirləşir. Amma eyni zamanda, öz qədim simasını saxlayır və belə də olmalıdır». Siz əmin ola bilərsiniz, Gəncə – ulu öndərimiz Heydər Əliyevin böyük diqqət və qayğı göstərdiyi bu şəhər indi həm Heydər Əliyevin, həm də Sizin göstərdiyiniz yolla gedir. Hazırda Gəncədə tarixiliklə müasirlik, sözün əsl mənasında, bir-birini tamamlayır. Bu gün Gəncədə regional müalicə-diaqnostika mərkəzinin əsasının qoyulmasının özü Sizin təşəbbüsünüzdür, birbaşa Sizin təşəbbüsünüzlə həyata keçirilən bir mərasimdir. Respublikamızın hər yerində, eləcə də Gəncədə çoxlu hündürmərtəbəli binalar tikilmişdir. Əziz Prezidentimiz! Mən deyərdim ki, Siz bu gün mənaca, məzmunca çox mötəbər bir Azərbaycan qurursunuz.

Hörmətli Prezidentimiz! Gözəl türk şairi Orxan Vəlinin sözlərini xatırlayıram. O yazırdı ki, tarixin bəyənərək tanıdığı insanlar daim dönüş nöqtələrində olanlardır. Dahi Heydər Əliyev də Azərbaycan tarixinin, dünya tarixinin belə dönüş nöqtələrində olan bir şəxsiyyət idi. O, dünyada, cəmiyyətimizdə baş verən hadisələri lazımi məcraya yönəldirdi. Çox sağ olun ki, Siz Heydər Əliyev yolunu layiqincə davam etdirirsiniz. Mənim belə bir inamım var və gəncəlilər də bu cür düşünürlər ki, Azərbaycan tarixinin çox mühüm dönüş nöqtələrindən biri, yəqin Sizin adınızla bağlı olacaq.

Hörmətli Prezidentimiz! Mən bilirəm ki, Siz şəhərin mərkəzindən keçib gəldiniz və ulu öndərimiz Heydər Əliyevin abidəsini ziyarət etdiniz. Heydər Əliyevin şəhərin baş meydanında ucalan abidəsi, mən deyərdim ki, bu gün bizim deyəcəklərimizdən daha çox söz deyir. Mən bütün gəncəlilərin, o cümlədən ziyalıların fikrini ifadə edərək respublikamızın, müstəqil dövlətimizin tərəqqisi naminə, bizim Gəncənin inkişafı üçün gördüyünüz çox böyük işlərə görə Sizə dərin minnətdarlığımızı bildirirəm.

Heydər Əliyevin ruhu şad olsun! Sizin də canınız sağ olsun!

Əziz Prezidentimiz! Bu gün Gəncəçayın sahilində, çox səfalı bir guşədə, ekoloji cəhətdən çox sevimli bir yerdə müalicə-diaqnostika mərkəzinin təməlini qoydunuz.

Biz gəncəlilər Sizdən xahiş edirik, öz fikirlərinizi bizimlə bölüşəsiniz.

**İlham Əliyev:** Əziz gəncəlilər!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram və bu gün təməlini qoyduğumuz müalicə-diaqnostika mərkəzinin tikintisi münasibətilə Sizi təbrik edirəm.

Bir neçə ay bundan əvvəl biz birlikdəydik, mən Gəncəyə gəlmişdim. Burada yeni tikiləcək aeroportun layihəsi ilə tanış olurdum və geniş müzakirə aparılmışdı. Xatırlayıram ki, o tədbirdə siz də iştirak edirdiniz, geniş ictimaiyyətin iştirakı ilə müzakirə apardıq. Bu gün yenidən Gəncədə olarkən tikintinin

gedişi ilə tanış oldum və çox sevindim ki, müasir uçuş zolağı artıq hazırdır. Aerovağzal kompleksi tikilir, ən yüksək səviyyədədir, ən yüksək dünya standartlarına cavab verir. Bir neçə aydan sonra biz Gəncədə yeni aeroportun açılışında da toplaşacağıq və onu qeyd edəcəyik. Bu gün isə yeni bir xoş hadisə baş verir. Dövlət Neft Şirkəti tərəfindən Gəncədə yeni müasir müalicə-diaqnostika mərkəzi tikiləcəkdir. Bunlar çox əlamətdar hadisələrdir və onu göstərir ki, ölkəmiz, o cümlədən bizim qədim, doğma Gəncə şəhərimiz çox sürətlə inkişaf edir. Ölkədə gedən proseslər, quruculuq-abadlıq işləri, infrastruktur layihələrinin həyata keçirilməsi, sosial sahəyə diqqətin artması bu gün Azərbaycanın həqiqətləridir. Ölkəmiz inkişafdadır. Dünyada ən yüksək iqtisadi inkişaf sürəti Azərbaycandadır, ən yüksək büdcə artımı Azərbaycandadır, əmək haqlarının ən sürətli artımı Azərbaycandadır. Azərbaycanın hər yerində müasir infrastruktur yaranır. Hava limanları, xəstəxanalar, məktəblər tikilir. İndi Gəncədə yeni müasir mehmanxana da tikilir. Onu da xatırlayıram ki, keçən dəfə burada olarkən bu məsələni müzakirə elədik və bildirdi ki, Gəncədə yeni mehmanxanaya böyük ehtiyac var. Şəhər inkişaf edir, çoxlu qonaqlar gəlir. Gələcəkdə daha çox gələcəkdir. Artıq mehmanxananın ilk mərtəbələri inşa edilir. Yenə deyirəm, bu onu göstərir ki, ölkəmiz çox sürətlə inkişaf edir və bizim ümumi iqtisadi inkişafımız xalqın bilavasitə rifah halının yaxşılaşmasına xidmət edir.

İnsanları ən çox narahat edən məsələlər sosial məsələlərdir: əmək haqları, pensiyalar, təqaüdlər, təhsil, səhiyyə ilə bağlı problemlər – yəni insanların gündəlik həyatda qarşılaşdıqları məsələlərdir. Ona görə güclü infrastrukturun yaranması ilə yanaşı, sosail sahəyə də böyük diqqət verilməsi artıq gerçəklikdir. Onu da demək istəyirəm ki, bizim nəzərdə tutduğumuz bütün layihələr, proqramlar həyatda öz əksini tapır. Mən demişdim ki, Azərbaycanda bazar iqtisadiyyatı sürətlə inkişaf etməli və onun prinsipləri tam şəkildə öz ifadəsini tapmalıdır.

Ancaq eyni zamanda, sosial sektor da inkişaf etməlidir. Bu gün bizim büdcəyə baxsaq görərik ki, o həm sosial yönümlü, həm investisiya yönümlüdür. Biz həm neft-qaz kəmərləri çəkirik, eyni zamanda məktəblər, xəstəxanalar da tikirik. Əsas budur. Bu, imkan verəcək ki, ölkə hərtərəfli inkişaf etsin və gedən müsbət proseslər hər bir vətəndaşın həyatına öz təsirini göstərsin. Bizim əsas məqsədimiz budur.

Regionlarda gedən abadlıq-quruculuq işləri əyani şəkildə sübut edir ki, bizim siyasətimiz düzgündür və yerlərdə də icra olunur. Bundan da çox şey asılıdır. Biz çox gözəl proqramlar qəbul edə, gözəl layihələr tərtib edə, öz planlarımızı yüksək səviyyədə hazırlaya bilərik. Ancaq əgər yerlərdə onlar düzgün icra edilmirsə, heç bir əhəmiyyəti, heç bir faydası olmayacaqdır. Ona görə də bu gün Gəncədə olarkən mən həmin məsələyə bir də toxunmaq istəyirəm. Mən çox şadam ki, Gəncə rəhbərliyi, onun icra hakimiyyəti başçısı, fəalları, ictimaiyyət şəhərin inkişafında çox böyük rol oynayırlar. Abadlaşan, gözəlləşən Gəncə bunun əyani sübutudur.

Bu gün buraya gələrkən ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdim. Keçən dəfə burada olanda muzey inşa edilirdi, abidə hələ qoyulmamışdı, onun layihəsini görmüşdüm. Amma bu gün hər ikisini hazır gördüm. Gördüm ki, xalqımızın ulu öndəri Heydər Əliyevin işıqlı xatirəsi gəncəlilər üçün çox əzizdir. Mən bunu bilirdim və bu gün bir daha əmin oldum. Azərbaycanın tarixində Heydər Əliyevin rolu müstəsna əhəmiyyət daşıyır. Ölkəmiz 1990-cı illərin əvvəllərində üzləşdiyi ağır problemləri onun siyasi biliyi, bacarığı, təcrübəsi, qətiyyəti nəticəsində həll edə bildi. Azərbaycan inkişaf yoluna çıxdı və bu gün dünyada ən sürətlə inkişaf edən ölkədir.

Sabah Gürcüstanda biz Heydər Əliyevin əsəri olan, onun təşəbbüsü ilə inşa edilən və adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin növbəti mərhələsinin başa çatmasını qeyd edəcəyik. Bu kəmər artıq Azərbaycana öz bəhrəsini verir. Azərbaycanda gedən quruculuq-abadlıq işlərinin, büdcəmizin artmasının, pensiyaların, maaşların qaldırılmasının və bunların

gələcəkdə nəzərdə tutulan artımının təməlində məhz 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başlanmış neft strategiyamız dayanır.

Həmin strategiya bu gün uğurla icra edilir. Bir vaxt əfsanə sayılan Bakı–Tbilisi–Ceyhan kəməri indi reallıqdır. Rəmzi məna daşıyan hal odur ki, indi xəstəxanaları, müalicə-diaqnostika mərkəzlərini də məhz Azərbaycan Dövlət Neft Şirkəti tikir. Bu çox gözəl təşəbbüsdür. Mən bəyan etmişdim ki, Azərbaycanın müxtəlif bölgələrində ən müasir tibb mərkəzləri yaranmalıdır, insanlar ən müasir müalicə almalıdır, onlara yüksək səviyyədə tibbi xidmət göstərilməlidir. Görün qısa müddət ərzində Azərbaycanın müxtəlif yerlərində necə gözəl xəstəxanalar, diaqnostika mərkəzləri yaranır və bu proses geniş vüsət alacaqdır. Bunlar Azərbaycanın hər bir bölgəsində, ondan sonra isə hər bir rayonunda olacaqdır.

Güclü iqtisadiyyat, yeni iş yerlərinin açılması, iqtisadiyyatımızın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın inkişafı və sosial məsələlərin həlli bizim əsas məqsədlərimizdir. Gördüyünüz kimi, biz bu məqsədlərə inamla yaxınlaşırıq, qarşıda duran bütün vəzifələri yerinə yetiririk. Rayonlarda, bölgələrdə gedən proseslər də bunu göstərir. Mən çox istəyirəm ki, bu proses daha sürətlə getsin. Yeni binalar tikilsin, yollar salınsın, şəhərlərimiz, kəndlərimiz, rayonlarımız abadlaşsın, insanlar daha da yaxşı yaşasınlar. Bunu etmək üçün hər cür imkanlar var, siyasi iradə var, xalqın Azərbaycan iqtidarına güclü dəstəyi var. Əsas budur. Əgər bu dəstək olmasa, heç bir proqramı icra etmək mümkün olmayacaqdır. Mən buna arxalanıram, buna güvənirəm, mənə güc verən xalqın dəstəyidir. Mən bunu hər yerdə görürəm, hər yerdə. Azərbaycanın hər bir yerində inkişaf var, abadlıq-quruculuq işləri gedir. Sabitlik, firavanlıq hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Böyük çətinliklərlə Azərbaycanda bərqərar olunmuş ictimai-siyasi sabitlik, asayiş bu gün ölkəmizin hərtərəfli inkişafına xidmət edir.

Heç kimə imkan verilməyəcək ki, Azərbaycanda bu sabitlik, asayiş pozulsun. Biz öz siyasətimizi qanunlar əsasında qururuq. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, Azərbaycanda gedən proseslər bunu bir daha göstərir.

Ümid edirəm ki, bu gün təməlini qoyduğumuz müalicə-diaqnostika mərkəzi də qısa müddət ərzində tikiləcək və biz birlikdə onun açılışında iştirak edəcəyik. Belə tədbirlər hələ çox olacaqdır. Ümid edirəm ki, Gəncə beynəlxaq hava limanının, başqa-başqa obyektlərin, yeni məktəblərin, binaların istifadəyə verilməsində birlikdə olacağıq. İnkişaf budur, Azərbaycanın gerçəkliyi budur, gələcəyi budur. Mən şübhə etmirəm ki, biz hamımız birlikdə doğma Azərbaycanımızı daha da inkişaf etdirəcəyik, Azərbaycanda sabitlik, əmin-amanlıq qorunacaq və ölkəmiz gələcəyə inamla gedəcəkdir.

Əziz bacılar və qardaşlar! Mən bir daha deyirəm, çox şadam ki, yenidən Gəncədəyəm. Gəncə mənim üçün çox əziz, doğma şəhərdir, mən burada dəfələrlə, prezident seçkiləri ərəfəsində və ondan sonra da olmuşam. Əminəm ki, bundan sonra da tez-tez görüşəcəyik. Hər dəfə görəndə ki, burada inkişaf gedir, mən ürəkdən sevinirəm. Əminəm ki, siz də buna sevinirsiniz. Bu gözəl təməlqoyma mərasimi münasibətilə bir daha hamımızı ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAX RAYONUNA SƏFƏRİ

*11 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gəncəyə səfərini başa çatdırdıqdan sonra Qazax rayonunda səfərdə olmuşdur.*

*Dövlətimizin başçısını rayonun mərkəzində on minlərlə sakin böyük məhəbbətlə, hörmətlə qarşıladı. Onların əllərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, ümummilli liderimizin müdrik kəlamları yazılmış transparantlar, prezidenti salamlayan şüarlar, Azərbaycanın dövlət bayraqları var idi.*

*Prezident İham Əliyev sakinlərə yaxınlaşaraq, hal-əhval tutdu, onların qayğı və problemləri ilə maraqlandı.*

### Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması mərasimi

*Oktyabrın 11-də Qazax şəhərində Müalicə-Diaqnostika Mərkəzinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin baş planı ilə yaxından tanış oldu. Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev məlumat verərək bildirdi ki, rayonun mərkəzində, Ağstafaçayın sahilində yerləşəcək bu səhiyyə ocağı gələn ilin iyul ayınadək istifadəyə tam hazır olacaqdır. Layihənin smeta dəyəri 5 milyon dollardır. Üçmərtəbəli binanın birinci mərtəbəsində əsasən stasionar, dializ bölməsi və yeməkxana olacaqdır. İkinci mərtəbədə daxili funksional diaqnostika, təcili yardım, qəbul bölmələri, həkim otaqları, şüa diaqnostikası, üçüncü mərtəbədə isə cərrahiyyə,*

*reanimasiya şöbəsi və palatalar yerləşəcəkdir. Su çənləri, nasos stansiyası, istilik mərkəzi, elektrik yardımçı stansiyası quraşdırılacaq, istirahət zonası və avtomobillər üçün dayanacaq da yaradılacaqdır. Ümumiyyətlə, prezidentin göstərişinə əsasən, ilkin mərhələdə 10 bölgədə bu cür müalicə-diaqnostika mərkəzləri tikiləcəkdir.*

*Dövlətimizin başçısı tikinti işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması, binanın xarici görünüşünün milli memarlıq üslubunda və yaraşıqlı olması barədə tövsiyələrini verdi, bu mərkəzin ətraf rayonların, eləcə də qonşu Gürcüstanda yaşayan soydaşlarımızın müalicə və müayinəsi üçün faydalı olacağını bildirdi, öz xeyir-duasını verdi.*

*Prezident İlham Əliyev müalicə-diaqnostika mərkəzinin bünövrəsinə içərisində yazılı kağız olan gilizi atdı və ilk beton qarışığını tökdü.*

## QAZAX RAYONU SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*11 oktyabr 2005-ci il*

**X a n q u l u   S ü l e y m a n o v** (*rayon ağsaqqalı*): Zati-aliləri, hörmətli Prezidentimiz!

Biz ümummilli liderimiz Heydər Əliyevin ideyalarına sadiqliyimizi nümayiş etdirərək, Sizin Qazax bölgəsinə gəlməyinizi çoxdan arzulayırdıq. Bu gün Qazax torpağına gəlməyinizlə əlaqədar Sizi rayon rəhbərliyi, ağsaqqalları, əmək və müharibə veteranları adından səmimi-qəlbdən salamlayır, Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Hörmətli cənab Prezident!

Sizin Azərbaycan xalqının böyük əksəriyyətinin səs verməsi yolu ilə prezident seçilməyinizin iki ili tamam olur. Bu müddətdə Azərbaycanın ayrı-ayrı bölgələrinə səfəriniz nəticəsində görülmüş böyük işlərin hamısı göz qabağındadır. Bu işlərin hamısı, xüsusilə yeni iş yerlərinin açılması Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına xidmət edir.

Hörmətli Prezident, ümummilli liderimiz Heydər Əliyevin varisi və onun siyasətini davam etdirən dövlət başçısı kimi, Sizə iki il müddətində Azərbaycanın ayrı-ayrı bölgələrində gördüyünüz işlərə görə minnətdarlığımızı bildiririk. Sizə cansağlığı, uzun ömür diləməklə bərabər, öz işinizdə müvəffəqiyyət arzulayırıq.

Sizin işiniz çox çətindir. O işlərin öhdəsindən gəlmək asan deyildir. Sizin qızıl vaxtınızı almaq istəmirəm. Ümummilli liderimiz Heydər Əliyevin işinin davamçısı kimi, Sizə, ətrafınızda olan ayrı-ayrı nazirlərə, yoldaşlara uzun ömür, cansağlığı, uğurlar arzulayıram.

Hörmətli Prezident!

Bilirsiniz ki, unudulmaz Heydər Əliyev Qazax rayonuna dəfələrlə gəlmişdir. Heydər Əliyevin gəlişi hər vaxt Azərbaycan xalqının ürəyincə olmuş, Qazax camaatı həmişə onu sevmiş, həmişə dəstəkləmişdir. İndi də Qazax camaatı Azərbaycan Respublikasının Prezidenti kimi, Heydər Əliyevin siyasətinin davamçısı kimi, Sizə möhkəm arxadır, Sizi dəstəkləyir. Əmin edirik ki, Azərbaycan xalqının gələcəyi naminə gördüyünüz işlərdə Sizinlə bir yerdə olacağıq.

Hörmətli Prezident, Qazax rayonuna bir ildən artıqdır təyin etdiyiniz icra hakimiyyəti başçısının bu müddətdə Sizin göstərişiniz, tələbiniz əsasında rayonda gördüyü işlər göz qabağındadır. Körpü tamamilə yenidən qurulmuşdur. 1898-ci ildə əsası qoyulmuş körpünü dörd il idi ki, sel aparmışdı. Lakin icra hakimiyyəti başçısının təkidi, cəsarətli işi və Qazax camaatının imkanlı adamlarının köməyi nəticəsində indi görəcəyiniz nəhəng bir körpü salındı. Bunların hamısı Sizin Qazax rayonuna göstərdiyiniz diqqətin bariz nümunəsidir.

Hazırda təməlini qoyduğumuz diaqnostika mərkəzinin tikilməsi də Sizin diqqətinizin, qayğınızın nəticəsidir. Bu mərkəzin açılması nəinki Qazax əhalisinin, eyni zamanda, qonşu rayonların və qardaş Gürcüstanda yaşayan azərbaycanlıların ehtiyacını ödəyəcəkdir. Ona görə Sizə deyirik ki, canınız sağ olsun. Gələcəkdə böyük işinizdə, Azərbaycanın xeyri, Azərbaycanın gələcəyi naminə gördüyünüz işlərdə Sizə müvəffəqiyyətlər, uzun ömür, cansağlığı arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Əziz qazaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə öz hörmət və məhəbbətimi ifadə edirəm.

Bu gün çox əlamətdar bir gündür. Qazaxda yeni, müasir müalicə-diaqnostika mərkəzinin təməli qoyuldu. Bu çox gözəl hadisədir. Yeni, müasir tibb ocağı yaxın zamanlarda qazaxlıların sərəncamına veriləcəkdir. Azərbaycanda gedən inkişaf, quruculuq, abadlıq işləri ölkəmizi hərtərəfli inkişaf etdirir. Ancaq

ümumi iqtisadi uğurlarla yanaşı, gündəlik məsələləri də həll etməliyik. İnsanların daim təmasda olduqları müəssisələr, tibb ocaqları, məktəblər ən yüksək səviyyədə tikilməlidir. Tikiləcək bu müalicə-diaqnostika mərkəzi də əhaliyə ən yüksək səviyyədə tibbi xidmət göstərəcəkdir. Burada müayinə üçün gözəl şərait olacaq, müasir avadanlıq quraşdırılacaqdır. Cərrahiyyə şöbəsi yaradılacaq, reanimasiya şöbəsi və bir sözlə, bütün lazımi şərait olacaqdır.

Əlbəttə, biz istəmirik ki, kimsə xəstələnsin. İstəyirik ki, insanlarımız sağlam olsun. Amma bu həyatdır. Adam da xəstə olanda bilməlidir ki, ona ən yüksək səviyyədə tibbi yardım göstərilə bilər. Burada deyildi ki, bu, eyni zamanda, region üçün bir mərkəzdir. Qərb regionunda yaşayan bütün insanlar bu mərkəzdən istifadə edə biləcəklər. Eyni zamanda, Gürcüstanda yaşayan soydaşlarımız da. Gələcəkdə isə Azərbaycanın hər bir rayonunda buna bənzər gözəl tibb mərkəzi yaradılacaqdır.

Çox sevindirici haldır ki, Azərbaycan iqtisadiyyatının aparıcı sektoru olan neft sektoru və Azərbaycan Dövlət Neft Şirkəti artıq bu gözəl təşəbbüsə başlamışdır. Azərbaycanın müxtəlif yerlərində gözəl tibb ocaqları yaradılır.

Bilirsiniz ki, bu bölgədən Azərbaycan neftini dünya bazarlarına aparacaq Bakı–Tbilisi–Ceyhan neft kəməri keçir. Biz sabah Gürcüstanda kəmərin növbəti mərhələsinin istifadəyə verilməsini qeyd edəcəyik. Çox əlamətdar haldır ki, Azərbaycan nefti artıq Azərbaycan xalqına gözəl xidmət edir. Həm büdcəmiz artır, iqtisadi imkanlarımız yaxşılaşır, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti sosial məsələlərə böyük diqqət göstərir. Bu onu göstərir ki, ölkəmiz hərtərəfli inkişaf edir. Həm iqtisadi inkişaf, makroiqtisadi sabitlik var, Azərbaycanda müsbət proseslər gedir, eyni zamanda, sosial sahəyə diqqət artırılır.

Sosial sahə bizim üçün prioritet sahədir. Bizim bütün iqtisadi layihələrimiz, regionların sosial-iqtisadi inkişaf proqramı, digər iqtisadi təşəbbüslərimiz məhz bu məqsədə xidmət edir ki, sosial sahədə gözəl irəliləyiş olsun. Məktəblər tikilsin, xəstəxanalar

tikilsin, digər sosial infrastruktur yaransın və insanlarımıza xidmət etsin. Bu məsələyə çox böyük diqqət göstərilir.

Bilirsiniz ki, regionların sosial-iqtisadi inkişafı proqramı mənim fəaliyyətimdə prioritet əhəmiyyət daşıyır. Azərbaycanın bölgələrində olarkən vəziyyətlə, proqramın icrası ilə tanış oluram. Bu səfərlərin sonunda zona müşavirələri keçirilir və konkret göstərişlər verilir. Bu dəfə də biz burada müşavirə keçirəcək və bölgənin ümumi problemlərini müzakirə edəcəyik.

Azərbaycan sürətlə inkişaf edir, iqtisadi artım göz qabağındadır, maaşlar, pensiyalar artırılır. Amma bu bizi hələ ki, qane etmir. Baxmayaraq ki, son illər ərzində minimum əməkhaqqı üç dəfə qalxıb, amma yenə də istənilən səviyyədə deyildir. Biz istəyirik ki, Azərbaycanda yoxsul adam olmasın, işsiz adam olmasın. Ancaq bunu etmək üçün gərək güclü iqtisadiyyat olsun, iqtisadi potensial yaransın. Əgər bu yoxdursa, heç bir sosial layihə, maaşların qaldırılması mümkün olmayacaqdır. Ona görə bütün səylərimiz iqtisadi inkişafa yönəldilibdir.

Baxın, bir neçə il bundan əvvəl Azərbaycanın büdcəsi 1 milyard dollardan aşağı idi. Gələn ilin büdcə xərclərimiz 4 milyard dollara çatır. Bu onu göstərir ki, Azərbaycanda aparılmış və davam etdirilən iqtisadi islahatlar öz bəhrəsini verir. Son iki il ərzində Azərbaycanda 300 min yeni iş yeri açılıbdır. Bu o deməkdir ki, 300 min ailə yeni imkanlar əldə edib, yeni şərait yaranıbdır. Mən əminəm ki, əgər bu meyllər davam edərsə, yaxın zamanlarda Azərbaycan iqtisadi cəhətdən çox qüdrətli ölkəyə çevriləcəkdir.

Qazax rayonu Azərbaycanın paytaxtdan ən uzaqda yerləşən rayonlarından biridir. Ona görə bu rayona xüsusi diqqət, xüsusi qayğı göstərilməlidir. Bir il bundan əvvəl mən burada olarkən olimpiya kompleksinin tikilməsi haqqında göstəriş verdim. Bu gün mənə tikinti barədə məlumat verildi və özüm də gedib baxacağam. Tikinti işləri uğurla gedir və yaxın zamanlarda olimpiya kompleksi istismara veriləcəkdir. Bundan gənclər, rayon sakinləri istifadə edəcək, həm idmanla məşğul olacaqlar, həm də öz sağlamlıqlarını möhkəmləndirəcəklər. Bu gün təməlini

qoyduğumuz müalicə-diaqnostika mərkəzi də bu məqsədə xidmət edir. Mən istəyirəm ki, bu rayonda daha çox müəssisə açılsın, iş yeri açılsın, infrastruktur yaransın ki, camaat burada yaxşı yaşasın.

Bizi narahat edən ən əsas problemlərdən biri – elektrik enerjisi ilə təchizat məsələsi də öz həllini tapır. Bu il və gələn il quraşdırılacaq yeni elektrik stansiyaları, demək olar ki, 2006-cı ilin sonuna qədər Azərbaycanda bu problemi tamamilə həll edəcəkdir. Ondan sonra yeni müəssisələrin yaranması, yeni iş yerlərinin yaranması daha da sürətlə gedəcəkdir. Çünki hər bir inkişafın əsasında ölkənin enerji sistemi durur.

Bizim xoşbəxtliyimiz ondadır ki, Azərbaycanda çox böyük təbii ehtiyatlar var. Ancaq təbii ehtiyatlar insana və ölkəyə o vaxt xeyir gətirir ki, onlar yerin altından çıxarılır və dünya bazarlarına çatdırılır. Mən bu gün çox xoşbəxtəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış uğurlu neft strategiyamız həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri yaxın zamanlarda istismara veriləcək və bu, ölkəmizə çox böyük həcmdə valyuta gətirəcəkdir. Belə olan halda, Azərbaycanda iqtisadi imkanlar çoxaldıqca, əlbəttə, bütün məsələlər öz həllini tapacaqdır. Maaşlar, pensiyalar, tələbələrin təqaüdləri daha da çox qaldırılacaq, yeni infrastrukturun yaranması daha sürətlə gedəcəkdir.

İndi Azərbaycanda yeni yollar salınır. Misal üçün, bu bölgədə də Bakını Qazaxla birləşdirən yeni, müasir avtomobil yolu salınır və il yarım, iki ildən sonra tamamilə istismara veriləcəkdir. Yeni qaz xətləri, su kəməri çəkilir, elektrik stansiyaları tikilir. Bütün bunları etmək üçün, əlbəttə ki, maddi imkanlar lazımdır. Bu maddi imkanları biz hamımız birlikdə yaratmalıyıq.

Bizim uğurlu siyasətimiz məqsədyönlü şəkildə apardığımız siyasi və iqtisadi islahatlarla, iqtisadi potensialın möhkəmlənməsi və əlbəttə, yerlərdə bizim qərarlarımızın düzgün icra olunması ilə bağlıdır. Sonuncu çox vacib məsələdir. Çünki biz mərkəzdə nə qədər çalışsaq da, əgər yerlərdə iş getmirsə, heç bir qərar, heç bir göstəriş fayda verməz. Ona görə yerlərdə olan vəziyyətlə mən

şəxsən tanış oluram. Mənim bölgələrə səfərlərimin əsas məqsədi məhz bundan ibarətdir. Şəxsən görməliyəm, tanış olmalıyam, problem varsa, onun həlli yolları tapılmalı, dərhal aradan qaldırılmalıdır.

Azərbaycanda iqtisadi inkişaf sürəti hazırda dünyada ən yüksək sürətdir. Bunu Beynəlxalq  Valyuta Fondu deyir. Yəni iqtisadi islahatlar uğurla aparılır. Eyni zamanda, siyasi islahatlar da aparılır. Azərbaycanda siyasi proseslərin normal məcrada inkişaf etməsi bizim hamımız üçün çox vacibdir.

Qarşıdan parlament seçkiləri gəlir. Siz də görürsünüz, hamı da görür ki, hər bir namizəd üçün eyni şərait yaradılıbdır. Hər bir namizəd sərbəst şəkildə qeydiyyatdan keçib və bu gün öz seçki kampaniyasını aparır. Bunu həm dövlət televiziyasında, həm də ictimai televiziyada, özəl televiziya kanallarında görmək olar. Hər bir deputatlığa namizəd öz seçiciləri ilə sərbəst şəkildə görüşlər keçirir, öz platforması haqqında məlumat verir. Yəqin hansısa vədlər verir və çalışır ki, potensial seçiciləri öz tərəfinə çəksin. Bu, normal siyasi prosesdir. Hər bir normal demokratik ölkədə seçkilər məhz bu cür keçirilir. Azərbaycan da Dünya Birliyinə, Avropa strukturlarına inteqrasiya etdikcə, əlbəttə, bu proseslərə fəal qoşulur.

Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda, hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə. Seçkilər hamı üçün açıqdır. Baxın görün, ilk dəfədir ki, Azərbaycanda parlament seçkilərində 2 mindən artıq namizəd qeydiyyatdan keçmişdir. Bu nəyi göstərir? Onu göstərir ki, qeydiyyat zamanı heç kimə heç bir problem yaradılmamışdır və yaradılmamalıdır. Kim deputat seçilmək istəyirsə, öz namizədliyini qeydə aldırıb və bu gün kampaniya aparır. Əgər kimsə bu gözəl, demokratik ab-havadan, bu şəraitdən, bu gözəl imkanlardan öz çirkin məqsədləri üçün istifadə etmək istəyirsə, kimsə

seçkiqabağı vəziyyətdən istifadə edib ölkəmizdə hökm sürən sabitliyi pozmaq istəyirsə, buna imkan verilməyəcəkdir. Azərbaycan güclü dövlətdir. Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin, yaxud da polisə hücum etsin.

Mən bir daha deyirəm, Azərbaycanda normal demokratik proses gedir, siyasi proses gedir, ölkəmiz Dünya Birliyinə inteqrasiya edir. Seçki kampaniyası uğurla gedir. Ancaq eyni zamanda, hamı bilməlidir ki, qanun var. Ən başlıca şərt budur. Mən şübhə etmirəm ki, noyabrın 6-da Azərbaycan xalqı öz iradəsini ifadə edəcəkdir. İndi seçim etmək üçün böyük imkanlar var. Əgər hər bir namizəd deputat seçilmək istəyirsə, getsin seçicilərlə görüşsün, televiziyanın imkanlarından istifadə edib öz proqramını bəyan etsin, qanunla təsdiq edilmiş yerlərdə mitinqlər keçirsin, görüşlər keçirsin və çalışsın ki, deputat seçilsin.

Mən şübhə etmirəm ki, Azərbaycan xalqı öz seçimini edəcək və noyabrın 6-da seçiləcək millət vəkilləri Azərbaycan xalqının rifah halının yaxşılaşmasına töhfə verəcəklər. Əsas budur. Xalq kimi seçməlidir? O insanı seçməlidir ki, o, sabah xalqla birlikdə olacaqdır. O insanı seçməlidir ki, sabah o, kəndə, qəsəbəyə, rayona kömək göstərəcəkdir. Əgər kimsə beş ildən bir meydana çıxırsa, mənə səs verin deyirsə, əlbəttə, o insanların seçilmə şansları çox aşağıdır. Seçilmək üçün, etibar qazanmaq üçün, xalqın məhəbbətini qazanmaq üçün gərək daim xalqla birlikdə olasan, xalqın qayğıları ilə yaşayasan, xalq üçün yaşayasan, yaradasan, qurasan. Amma əgər kimsə, sadəcə olaraq, seçkilərdən-seçkilərə gəlir və deyirsə ki, mənə səs ver, əlbəttə, Azərbaycan xaqı müdrik xalqdır, öz qərarını verəcəkdir.

Əziz bacılar və qardaşlar!

Mən bu gün yenidən Qazaxda olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən çox istəyirəm ki, Qazax rayonu daha da sürətlə inkişaf etsin. Ona görə, burada tibb ocaqları, idman kompleksləri, digər lazımi infrastruktur yaradılmalıdır və yaradılacaqdır. Gələcəkdə başqa layihələr də olacaq, işlərimiz daha

böyük sürətlə gedəcəkdir. Çünki imkanlarımız artacaqdır. Əgər cəmi iki il ərzində 300 min yeni iş yeri yaranıbsa, əgər iki il ərzində büdcəmiz 1 milyard dollardan 4 milyard dollara qalxıbsa, deməli, biz düz yoldayıq. Deməli, bizim siyasətimiz həyatda öz əksini tapır. İnsanların əmək haqları ildən-ilə, hər 6 aydan bir artır. Bu, artıq ənənəyə çevrilibdir, artıq bəziləri buna öyrəşibdir. Bu da normaldır.

Mən istəyirəm ki, Azərbaycanda yoxsul adam olmasın, kasıb adam olmasın, işsiz adam olmasın, hamı yaxşı yaşasın. Bunu etmək üçün də hər cür imkan var. Gözəl diyarımız, ölkəmiz, gözəl iqlimimiz, təbiətimiz, istedadlı insanlarımız, zəngin təbii ehtiyatlarımız var. Azərbaycanın əlverişli coğrafi vəziyyəti var, bölgədəki nəqliyyat dəhlizlərinin, demək olar ki, hamısı buradan keçir. Siyasi iradə, xalqla iqtidar arasında birlik var. Bunlar olan halda, biz mütləq və mütləq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirməliyik və çevirəcəyik. Mənim məqsədim budur.

Mən bu fikirlərlə, bu amalla iki il bundan əvvəl prezident seçkilərinə qoşulmuşdum. Mənim iki illik fəaliyyətim onu göstərir ki, nəyi demişəmsə, onu da etmişəm, bəlkə ondan da artıq etmişəm. Sizə söz verirəm ki, bundan sonra da öz əməyimi Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə sərf edəcəyəm.

Sizə bir daha cansağlığı, uzun ömür arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX ŞƏHƏRİNDƏ

*11 oktyabr 2005-ci il*

### Heydər Əliyev parkı ilə tanışlıq

*Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdən sonra Qazax şəhərindəki Heydər Əliyev parkına gəldi.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış qranit abidəsi önünə gül dəstəsi qoydu. 5 hektardan çox ərazini əhatə edən və şəhərin mənzərəli guşəsində, Ağstafaçayın sahilində yerləşən, sakinlərin rahatlığı üçün hər cür şərait yaradılmış bu park bir neçə ay ərzində salınmışdır. Dörd ay əvvəl sakinlərin istifadəsinə verilmiş parkda müxtəlif növ ağaclar və gül kolları əkilmişdir.*

*Prezident İlham Əliyev respublikamızda ilk dəfə bu parkda yaradılmış və ulu öndərimizin xidmətlərini əks etdirən foto-kompüter köşkü ilə yaxından tanış oldu. Köşkün üzərindəki lövhədə bu sözlər yazılmışdır: «Bu yüksək texnologiyalı informasiya köşkü Azərbaycan xalqının ümummilli lideri, dahi prezident Heydər Əliyevin uca xatirəsinə ithaf olunur. Bu köşk vasitəsilə siz onun həyat yolu və fəaliyyəti haqqında dolğun informasiya ala bilərsiniz. Köşk internet şəbəkəsinə qoşulmuşdur. Siz həmçinin dünya informasiya mənbələrinə də daxil ola bilərsiniz. Əlavə olaraq, bu köşk vasitəsilə siz rayon icra hakimiyyətinin başçısına elektron poçt vasitəsilə öz təkliflərinizi və fikirlərinizi yaza bilərsiniz».*

*Prezident İlham Əliyev parkda görülən işləri yüksək qiymətləndirdi, informasiya köşkündən sakinlərin necə istifadə etmələri ilə maraqlandı, əhalinin bu cür köşklər vasitəsilə ulu öndərin fəaliyyətinə dair daha geniş məlumat ala biləcəklərini vurğuladı.*

### Qazax şəhərində körpünün açılışı mərasimi

*Prezident İlham Əliyev oktyabrın 11-də, Heydər Əliyev parkı ilə tanışlıqdan sonra Ağstafaçay üzərində salınmış, Qazax şəhərinin hər iki hissəsini birləşdirən körpünün təntənəli açılışı mərasimində iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov tikinti işləri barədə ətraflı məlumat verdi ki, yeni körpünün uzunluğu 114 metrdən çox, eni isə 14 metrdir. Əvvəllər burada olan körpü 1898-ci ildə salınmış, 2001-ci ilədək heç bir təmir işləri aparılmamışdı. Həmin ildə bu körpü güclü sel nəticəsində dağılmışdı. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, bu körpünün tikintisi daxili investisiya proqramına salınmışdı. Ən azı 100 ildən çox ömrü olacaq yeni körpü möhkəm təməllər üzərində tikilmişdir. Azərbaycanın digər bölgələrində də bu cür körpülər inşa edilir. İndiyədək 28 körpü istifadəyə verilmiş, birinin tikintisi başa çatmaqdadır.*

*Prezident İlham Əliyev körpünün texniki göstəricilərini əks etdirən baş planla tanış oldu, Azərbaycanı Gürcüstan sərhədi ilə birləşdirən İpək Yolunun üzərində yerləşən və bərbad vəziyyətə düşmüş körpünün də yenidən qurulması üçün müvafiq göstəriş və tapşırıqlarını verdi. Bildirdi ki, gələn ilin investisiya proqramında da yeni körpülərin tikilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, istismar müddətini başa vurmuş bütün körpülər yenidən tikilməlidir.*

*Dövlətimizin başçısı tikinti işlərini 5 ay müddətində yerinə yetirən «Gəncəkörpütikinti» özəl şirkətinin inşaatçıları ilə görüşdü, onların iş sistemi, əməkhaqqı ilə maraqlandı. Prezidentə məlumat verildi ki, burada çalışanlar ayda 800 min manatdan 1,5 milyon manata qədər əməkhaqqı almışlar.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən qırmızı lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov dedi ki, cənab Prezident, ümummilli liderimiz Heydər Əliyev bu qayçı vasitəsilə bir neçə mühüm obyektin açılışında lenti kəsmişdir. Xatirə olaraq bu qayçını Sizə təqdim etmək istəyirik.*

*Dövlətimizin başçısı təşəkkürünü bildirərək* dedi *ki, hələ* bundan sonra *çoxlu* sayda *belə gözəl obyektlərin, körpülərin istifadəyə verilməsi münasibətilə lentlər kəsiləcəkdir.* Bu *qayçını saxlayın ki, gələcəkdə bizə hələ çox lazım olacaqdır.*

*Azərbaycan prezidenti körpünü piyada keçdi, buraya toplaşan sakinlərlə görüşərək onları təbrik etdi.*

*Razılıqlarını böyük sevinclə ifadə edən qazaxlılar* ulu *öndər Heydər Əliyevin nəcib siyasətini, xeyirxah işlərini uğurla* davam *etdirən* prezident *İlham Əliyevə təşəkkürlərini bildirərək dedilər* ki, sevinirik *ki, xalqın qayğısına qalınır. Körpünün möhkəmliyi də ümid* verir *ki, Ağstafaçayda* suyun *səviyyəsinin artması* daha *heç* bir *təhlükə törətməyəcəkdir.*

Prezident *İlham Əliyev* bundan sonra da *əhalinin yaşayış səviyyəsinin, rahatlığının və* sosial *rifahının yaxşılaşması üçün mühüm tədbirlər görüləcəyini diqqətə çatdırdı.*

## Olimpiya İdman Kompleksinin tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev* Qazaxa *səfəri çərçivəsində əsası* bir il *əvvəl qoyulmuş* Olimpiya *İdman* Kompleksinin *tikintisinin gedişi ilə tanış olmuşdur. Dövlətimizin başçısını* kompleksin *qarşısında* rayon *idmançıları hörmətlə qarşıladılar.*

*Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının üzvü,* Avropa *və dünya* birinciliyinin *mükafatçısı* Firdovsi Umudov *dövlətimizin başçısı ilə çəkdirdiyi fotoşəkli* prezident *İlham Əliyevə təqdim edərək dedi:*

*Cənab* Prezident, *Sizin keçən dəfə* Qazaxa *gəlişiniz* biz *idmançılarda* da ruh *yüksəkliyi yaratdı. Yeniyetmələrimiz, gənclərimiz* Avropa *səviyyəli yarışlarda mükafatlar qazandılar. «Göyəzən» güləş* klubu *açmışıq, yaxşı fəaliyyət göstərir və nailiyyətlərimizi* bundan sonra da davam *etdirəcəyik.* Qazan*dığımız uğurlara görə* ümummilli liderimiz *Heydər Əliyevə və Sizə* borcluyuq. *Heydər Əliyevin hakimiyyətə gəlməsindən* sonra *nailiyyətlərimiz artmağa başladı. Vaxtilə məşqləri belə*

komplekslərdə yox, klublarda, mədəniyyət saraylarında edirdik. İndi şükür Allaha, yetirmələrimiz uğurlarını artıracaqlar. Rayon rəhbərliyi, iş adamları da diqqət və qayğı göstərirlər.

Prezident İlham Əliyev idmançılarla görüşdü, onlara göstərilən diqqət və qayğının bundan sonra da artırılacağını bildirdi, problemləri ilə maraqlandı. Bu kompleks hazır olandan sonra Qazaxda idmana marağın artacağına, yerli idmançıların daha böyük uğurlar qazanacaqlarına, ölkəmizin şərəfini uca tutacaqlarına əminliyini vurğuladı. Dövlətimizin başçısı idmançılarla xatirə şəkli çəkdirdi. «Xəzər» Gənclər Elmi-Texniki Yaradıcılıq Mərkəzinin rəhbəri Akim Bədəlov tikinti işləri barədə məlumat verərək bildirdi ki, kompleksin ətrafında bir və ikimərtəbəli 16 kottec, motel tipli mehmanxana da tikiləcək, beləliklə, gələcəkdə burada istirahət zonası da yaradılacaq və turizm üçün gözəl şərait imkanları olacaqdır. Kompleksdə futbol meydançaları, idman oyunları salonu, tennis kortları, digər idman qurğuları, Avropa standartlarına uyğun üzgüçülük hovuzu, məşq otaqları tikiləcəkdir. İşlərin xeyli hissəsi görülmüş, Almaniyadan, Türkiyədən lazımi avadanlıq və ləvazimat gətirilmişdir.

Prezident İlham Əliyev tikinti işlərini aparan şirkətin əməkdaşlarına təşəkkür etdi, bu obyektlərin istifadəyə verilməsinin əhalinin, xüsusən gənc nəslin sağlamlığına kömək edəcəyini, idmana marağın daha da artmasına səbəb olacağını söylədi. Bildirdi ki, Azərbaycanın bölgələrində olimpiya komplekslərinin tikilməsi bundan sonra da davam etdiriləcəkdir.

Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, eyni zamanda, bəzi tövsiyələrini söyləyərək dedi:

Motel tipli mehmanxana mütləq lazımdır. Qazaxda olan mehmanxana da yaqin yaxşı vəziyyətdə deyildir. Görülən hər bir iş dünya standartlarına cavab verməlidir. Çünki Qazax İpək Yolunun üstündə yerləşir, qonaqlar olacaq, gəlib-gedənlər var. Burada konfransların, görüşlərin keçirilməsi üçün də lazımi salonların tikilməsi zəruridir. Gələcəkdə tələbat daha da coxa-

*lacaqdır. Məsələn, indi Bakıdakı mehmanxanalarda yer yoxdur. Nə qədər tikilir, yenə də yer yoxdur. Gələcəkdə axın daha da çoxalacaqdır. İndi rayonlarda sürətli abadlıq, tikinti, quruculuq işləri gedir, qonaqlar çox olacaq, başqa rayonlardan gələnlər olacaqdır.*

*Çalışın ki, kompleksi nəzərdə tutulduğu kimi, iyulun 15-dək təhvil verin. Çox böyük obyektdir. Burada idman yarışları, digər tədbirlər keçiriləcək, konsertlər veriləcəkdir. Təkcə idmançılar yox, rayon sakinləri də gələcəklər. İdman kompleksi kimi yaranır, amma əslində, burada turizm və sairə üçün də şərait olacaqdır. Bir ildən sonra burada gözəl bir saray olacaqdır. Sizə uğurlar arzulayıram. Sağ olun.*

## QAZAX RAYONUNDA ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*11 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Qazax Rayonu İcra Hakimiyyətinin binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarının sosial-iqtisadi inkişafına və problemlərinə həsr olunmuş zona müşavirəsi keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*

**İlham Əliyev:** Regionların inkişafı proqramı uğurla icra edilir. Bildiyiniz kimi, müxtəlif yerlərdə, rayonlarda olarkən vəziyyətlə şəxsən tanış oluram, gedən işlərlə maraqlanıram və görürəm ki, bütövlükdə, nəzərdə tutulmuş proqramlar yerinə yetirilir. Bu çox müsbət haldır. Çünki regionların inkişafı bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli inkişaf etsin.

Bizim çox gözəl iqtisadi göstəricilərimiz vardır. İqtisadiyyat çox yüksək sürətlə inkişaf edir. Bir müddətdən sonra üçüncü rübün yekunları müzakirə olunacaqdır. İlkin məlumatlara əsasən demək olar ki, 9 ay ərzində Azərbaycan iqtisadiyyatı 20 faiz artıbdır. Sənaye potensialı təxminən 26 faiz artıbdır. Əgər dünyanın istənilən ölkəsi ilə müqayisə etsək görərik ki, bu, dünyada mövcud olan ən yüksək inkişaf sürətidir. Əlbəttə, bu bizə imkan verir ki, qarşımızda duran bütün vəzifələri uğurla icra edək, infrastrukturun yaradılmasında böyük işlər görək.

Maaşlar, pensiyalar, sosial müavinətlər artırılır. Gələn ilin büdcəsi artıq parlamentə göndərilib və yaxın zamanlarda müzakirə olunacaqdır. Bizim təklifimiz, hökumətin təklifi belədir ki, büdcə xərcləri təxminən 4 milyard dollara bərabər olsun. Nəzərə alsaq ki, iki-üç il bundan əvvəl bizim büdcəmiz 1

milyard dollar idi, bu çox böyük nailiyyətdir, böyük uğurdur. Gələn ilin büdcəsi böyük sıçrayışdır. Böyük büdcə böyük xərclər deməkdir, böyük işlərin görülməsi deməkdir, sosial infrastrukturun inkişafı, qaz kəmərlərinin, su kəmərlərinin çəkilişi deməkdir.

Təbii ki, ümumi büdcə artdıqca, bölgələrə ayrılan vəsait də artmalıdır. Bildiyiniz kimi, keçən il qəbul etdiyimiz regionların inkişafı proqramı da bütün bu işləri özündə əks etdirir. Bu, real proqramdır. Bu proqramda heç bir şüar, heç bir başqa niyyət yoxdur. Orada hər bir iqtisadi zona üçün, hər bir rayon üçün real, konkret işlər öz əksini tapıbdır.

Bu gün səhər Gəncədə idim, orada vəziyyətlə tanış oldum, işlər yaxşı gedir. Bu gün Qazaxa gəlmişəm. Bildiyiniz kimi, burada yeni, müasir müalicə-diaqnostika mərkəzinin təməli qoyuldu. Bu mərkəz bütün ətraf rayonlara da xidmət göstərəcəkdir. Gürcüstanda yaşayan soydaşlarımız da bu gözəl imkanlardan istifadə edə bilərlər.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da sabitlik bizim inkişafımızın başlıca şərtidir. İnsanların əhval-ruhiyyəsi də məni qane edir. Mən bunu bölgələrə etdiyim bütün səfərlərdə görürəm, hiss edirəm. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və bəyənilir. Bu da onu göstərir ki, bizim uğurlu fəaliyyətimiz, qarşımıza qoyduğumuz proqramların həyatda öz əksini tapması Azərbaycanda çox gözəl ab-hava yaradır.

Bu gün isə konkret məsələləri müzakirə edəcəyik. Əlbəttə, regional inkişaf proqramında bütün əsas istiqamətlər öz əksini tapıbdır. Amma bunu dəfələrlə bəyan etmişəm ki, hər bir məsələni nəzərdə tutmaq mümkün deyildir. Ona görə biz gərək konkret məsələlər haqqında fikir mübadiləsi aparaq. Siz görülən işlər haqqında məruzə edəcəksiniz. Hansı məsələ həll olunmalıdır, hansı məsələ bəlkə də regional inkişaf proqramında öz əksini tapmamışdır, yaxud da o vaxt mövcud deyildi, indi yaranıbdır – biz bu gün bu barədə danışacağıq.

* * *

*Sonra İcra hakimiyyəti başçıları məlumatlarının dinlənildi.*

**R a u f  H ü s e y n o v** (*Qazax Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində rayonda son dərəcə mühüm tədbirlər görülmüş, yerli sahibkarlığın inkişafı nəticəsində yeni iş yerləri açılmış, əhalinin sosial rifahı dinamik şəkildə yüksəlmişdir. Vətəndaşların şikayətlərinə diqqətlə yanaşıldığından ötən dövr ərzində şikayətlər xeyli azalmışdır. 2004-cü ildə işlə təminatla bağlı 209 müraciət olmuşdur. Bu ilin doqquz ayında isə bu rəqəm 99-a enmişdir.

**İ l h a m  Ə l i y e v**: Sizə hansısa əlavə kömək lazımdırmı, yaxud hansısa bir problem varmı ki, özünüz həll edə bilmirsiniz? Yaxud həlli üçün mərkəzdən göstəriş verilməli, qərar qəbul edilməli olan problem var?

**R a u f  H ü s e y n o v:** Cənab Prezident, bayaq yol problemi ilə bağlı çox düzgün qeyd etdiniz. Rayon mərkəzinin yol problemini həll edəcəyik, iş gedir. Çox əfsuslar olsun ki, Sizin gəlişinizə çatdıra bilmədik. Amma çox yaxın vaxtda biz rayon mərkəzinin yol problemini həll edəcəyik. Regionlara olan bu qayğını hamı hiss edir, «Kaspian servis» şirkəti çoxmərtəbəli ev tikmək üçün müraciət etmişdir. Məktubları var, onlar bizdən yer istəyiblər. Yəqin ki, Heydər Əliyev parkına yaxın ərazidə onlara yer veriləcək və yaxın vaxtlarda tikinti başlanacaqdır.

**İ l h a m  Ə l i y e v:** Əgər çoxmərtəbəli evlər tikmək istəyən varsa, demək, inkişaf gedir. İndi bizdə ancaq Bakıda çoxmərtəbəli evlər tikilir. Bu gün gördüm, artıq Gəncədə də başlanıbdır. 7 mərtəbəli, çoxmərtəbəli ev tikilir. Artıq bu onu göstərir ki, regionlar da sürətlə inkişaf edir. Çünki hər bir inkişafın öz əlamətləri var. Tikinti onun, necə deyərlər, ən bariz nümunəsidir, yaxud da əlamətidir. Əgər sizdə də bu proses başlanırsa, bunu ancaq dəstəkləmək lazımdır. Amma baxın ki, yeni binalar gözəl zövqlə tikilsin. Mən keçən dəfə Sabirabadda bu barədə öz fikirlərimi dedim. Bu sizə də aiddir. Baxın,

rayonlarda səliqə-sahman yaradın, heç kimin istifadə etmədiyi yararsız binaları, əyri-üyrü daxmaları sökün. Dəmir-dümürlər, əgər istifadə olunmursa, paslanmış hasarlar götürülməlidir ki, təmizlik olsun, gözəllik olsun. Əlbəttə, hər yeni tikilən binaya bu yanaşma tətbiq olunmalıdır.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Həmid Bağırov çıxışında ölkəmizdə iqtisadi inkişafın yüksək sürətinin Tovuz rayonunda da aydın şəkildə hiss edildiyini konkret rəqəmlərlə diqqətə çatdırdı. Bütün bunların yoxsulluğun azaldılmasına, işsizliyin aradan qaldırılmasına və əhalinin həyat şəraitinin yaxşılaşmasına xidmət etdiyini bildirdi. O dedi ki, prezidentin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycandakı inkişafa uyğun olaraq rayonumuzda da müəyyən nəticələr əldə olunmuşdur. Cari ilin oktyabrınadək 8700 yeni iş yeri açılmışdır. Bundan 3300-ü daimi iş yeridir.

H.Bağırov rayonda abadlıq və quruculuq işlərinin, tikinti və kənd təsərrüfatı məhsulları istehsalının durmadan artdığını və sosial-iqtisadi resurslardan maksimum səmərəli istifadə edildiyini bildirdi.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Nazim Veysov da rayonda yeni istehsal sahələrinin yaradılması ilə bağlı ardıcıl tədbirlər görüldüyünü, yeni iş yerlərinin açıldığını, özəl sektorun, azad sahibkarlığın intensiv inkişaf etdiyini, nəticədə keyfiyyətli yerli məhsullar istehsalına nail olunduğunu, kənd təsərrüfatı sektorunda da böyük uğurlar əldə edildiyini söylədi.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Cümşüd Musayev regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası sayəsində qazanılan nəticələri sadaladı, rayonda təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial sahələrdəki inkişafı, istehsal sahələrinin yaradılması və genişləndirilməsindəki uğurları xatırlatdı, elektrik enerjisi və su problemlərinin aradan qaldırılması üçün tədbirlər görüldüyünü bildirdi.

Sonra çıxış edən Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Kamran Rzazadə ölkədəki yüksəlişin Gədəbəydə də iqtisadi inkişafla müşayiət olunduğunu dedi. O, Heydər Əliyev Fondunun

«Yeniləşən Azərbaycana yeni məktəb» proqramı çərçivəsində Gədəbəyin ən ucqar kəndlərinin birində də 100 yerlik yeni məktəb binasının yüksək standartlara uyğun şəkildə tikilib istifadəyə verildiyini xüsusi vurğuladı.

Rayonların ayrı-ayrılıqda mövcud sosial-iqtisadi vəziyyəti ilə bağlı göstəricilərini dinləyən Azərbaycan prezidenti İlham Əliyev müşavirəyə yekun vurdu.

## YEKUN NİTQİ

İndi sadalanan problemlər, demək olar ki, Azərbaycanın hər bir yerində, hər bir bölgəsində, hər bir rayonunda var. Müxtəlif vaxtlarda keçirdiyim zona müşavirələri onu göstərir ki, demək olar, hər bir rayonda eyni problemlər mövcuddur. Əlbəttə, biz çalışacağıq ki, bunları tezliklə həll edək və bu müşavirədən sonra xüsusi sərəncam hazırlanacaq və icra olunacaqdır. Burada qaldırılmış bütün məsələlər sərəncamda öz əksini tapacaqdır. Vəsait də nəzərdə tutulacaq ki, məsələlər həll edilsin.

Hər bir məsələ həll oluna bilər. Bunu etmək üçün bir neçə amil lazımdır. İlk növbədə, maddi imkan və işlərin düzgün aparılması lazımdır. İndi Azərbaycanda  maddi imkan güclənir. Bayaq dediyim kimi, bizim büdcəmiz artır və sonrakı illərdə daha da kəskin şəkildə artacaqdır. Çünki hələ biz Bakı–Tbilisi–Ceyhan neft kəmərini istismara verməmişik. Kəmər istismara veriləndən sonra bizim maliyyə imkanlarımız kəskin surətdə artacaqdır. Amma indi də imkanlarımız kifayət qədərdir. Biz gərək bunlardan səmərəli istifadə edək və vəsaiti qaldırdığınız problemlərin həllinə yönəldək. Bundan məqsədyönlü şəkildə və səmərəli istifadə etməliyik.

Əsas problemlərimiz su, kanalizasiya, suvarma problemidir. Artıq göstərişlər verilibdir ki, bütün rayonlarda bu problemlər təhlil olunsun, təkliflər paketi hazırlansın və biz praktiki işlərə keçək.

Son müddət ərzində elektrik enerjisi ilə təchizat yaxşılaşıbdir. Məndə olan məlumata görə, rayonların əksəriyyətində fasilələr ya ümumiyyətlə, yoxdur, ya da qısa müddət ərzində olur. İndi əsas məqsəd ondan ibarətdir ki, qış aylarında gərginlik yaranmasın. Bunu etmək üçün, bildiyiniz kimi, kiçikhəcmli modul elektrik stansiyaları alınır. Bu ilin sonuna qədər cənub bölgəsində 90 meqavat gücündə stansiyalar quraşdırılacaqdır. Gələn il isə bu stansiyalar Azərbaycanın müxtəlif yerlərində olacaqdır. Belə olan halda, Mingəçevirdəki DRES–bizim ən böyük stansiyamız elektrik enerjisinin böyük hissəsini qərb bölgələrinə ötürəcək və işıqla təminat kəskin şəkildə yaxşılaşacaqdır.

Ancaq eyni zamanda, biz ötürücü xətlərə də fikir verməliyik. Çünki biz bu gücü yaradırıq, elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. Amma ötürücü xətlərdə problemlər var. O xətlərdə bir balaca nasazlıq olan kimi, təchizatda da problem yaranır.

Yolların tikintisi çox vacibdir. Əgər biz bölgədə infrastrukturu, sənaye potensialını, turizm potensialını inkişaf etdirmək istəyiriksə – burada səsləndi ki, turizm üçün də gözəl şərait var – mütləq və mütləq yollar çəkilməlidir. Bakını Qazaxla birləşdirən magistral müasir İpək Yolu layihəsi çərçivəsində çəkilir. Təxminən il yarım, iki il ərzində bu yol tamamilə istismara veriləcəkdir. İndi hissə-hissə istismara verilir. Bakı–Qazax–Gürcüstan sərhədinədək tikiləcəkdir.

Ancaq eyni zamanda, rayondaxili yollara və kənd yollarına fikir verilməlidir. İlk növbədə, siz buna diqqət göstərməlisiniz. Amma onu da bilirik ki, maliyyə vəsaiti olmayan yerdə bunu etmək mümkün deyildir. Ona görə sizə deyirəm, mən göstəriş verəcəyəm ki, hər bir rayona indiki pulla 1 milyard 500 milyon manat vəsait ayrılsın. Siz də bundan səmərəli istifadə edin. Mən bilirəm ki, bu, bütün, yaxud da əksər kənd yollarının yüksək səviyyədə yaradılması üçün kifayətdir. Yusif Hümbətova tapşırıram ki, nəzarət etsin. Siz də harada nə yol çəkilirsə, onun fotoşəkilləri ilə birlikdə vaxtaşırı hesabat verin, biz də bilək ki, bu

pul haraya xərclənir. Elə etməlisiniz ki, qısa müddət ərzində bu puldan səmərəli istifadə edilsin. Əgər o vəsaitdən səmərəli istifadə etsəniz, digər işlərə, abadlıq-quruculuq işlərinə də ayıra bilərsiniz. Gərək biz bütün şəhərlərimizi yeniləşdirək, abadlaşdıraq, gözəl, yaraşıqlı binalar tikək, köhnə, uçuq binaları təmir etdirək ki, ümumi görüntünü pozan eybəcər binalardan, necə deyərlər, xilas olaq. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin təşkili kənd təsərrüfatının inkişafında böyük dönüş yaradacaqdır. Bildiyiniz kimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatında islahat aparılmışdır. Kəndlilər, demək olar ki, bütün vergilərdən azad edilmişlər, torpaq kəndlilərə paylanmışdır. Bu gün də burada rəqəmlər səsləndi, kənd təsərrüfatı məhsullarının istehsalı dəfələrlə artmışdır. Bu, taxılçılıqda, heyvandarlıqda, bütün başqa sahələrdə özünü göstərir. Ancaq indiki zamanədə yeni mərhələnin başlanması zəruridir. O da ondan ibarətdir ki, kəndlilərə kredit verilməlidir, texnika və gübrə verilməlidir. Hər üç məsələ öz həllini tapır.

Kreditlərin verilməsi üçün gələn ilin büdcəsində 80 milyon dollar vəsait nəzərdə tutulubdur. Əsas vəsait kənd təsərrüfatına və emal sənayesinə gedir. Gübrənin alınması üçün «Aqrolizinq»ə göstəriş verilibdir. Kənd təsərrüfatı texnikasının alınması prosesi başlamışdır. Bu il 100 milyard manat, gələn il 150 milyard manat dəyərində texnika alınacaqdır. Bütün bölgələrdə «Aqrolizinq»in dayaq məntəqələri yaranacaq və bu texnika icarə yolu ilə kəndlilərə veriləcəkdir. Gələn illər lazım olarsa, biz daha böyük vəsait ayırarıq. Çünki bizim gələcəkdə ciddi maliyyə problemlərimiz olmamalıdır.

Azərbaycan əhalisinin təxminən yarısı kənd yerlərində yaşayır. «Aqrolizinq»in yaranması kənd təsərrüfatına çox güclü təkan verəcəkdir. Siz də öz tərəfinizdən bu işləri tənzimləyin, bu işlərə rəhbərlik edin, fermerlərə, sahibkarlara kömək göstərin. Çalışın ki, onların şəraiti yaxşılaşsın və Azərbaycanda güclü sahibkarlar sinfi yaransın.

Ərizə və şikayətlərə də daim diqqət göstərmək lazımdır. Mən bu gün bunu qeyd etdim. Mənim rayonlara bütün səfərlərimdə xüsusi insanlar, köməkçilərim görüşlərdən sonra qalır, ərizələri yığırlar. Ondan sonra o ərizələr təhlil olunur və həmin ərizələrdə göstərilən konkret məsələlər həll edilir. Bu gün siz də qeyd etdiniz ki, şikayət xarakterli məktublar azalır. Əsasən maddi yardım, ev şəraitinin yaxşılaşdırılması, insanların müalicə məsələləri barədə xahişlərdir. Amma biz gərək büna da diqqət göstərək. Çox sevindirici haldır ki, şikayət xarakterli məktublar, demək olar, kəskin şəkildə azalıbdır. Bu onu göstərir ki, işlər yaxşı gedir, ədalətsizlik aradan qaldırılır, yerlərdə, bölgələrdə işləyən məmurlar da öz vəzifə borcunu yerinə yetirirlər.

Bu gün Qazaxda təməli qoyulan müalicə-diaqnostika mərkəzinin istifadəyə verilməsi də ərizələrin bir hissəsinin azalmasına gətirib çıxaracaqdır. Çünki burada çox gözəl müasir avadanlıq, şərait, pulsuz xidmət olacaqdır. Bu, özəl xəstəxana deyil – özəl xəstəxanalar da lazımdır, müxtəlif rayonlarda inşa edilir – dövlət xəstəxanası olacaqdır. Çox təcrübəli həkimlər işləyəcək, yüzlərlə insan işləyəcək, ən müasir tibbi xidmət göstəriləcəkdir.

İndi bizim imkanlarımız artır, Heydər Əliyevin neft strategiyası uğurla icra olunur. Biz əsas diqqəti sosial sahəyə –məktəblərin, xəstəxanaların tikintisinə, digər sosial infrastrukturun yaranmasına yönəltməliyik ki, Azərbaycan xalqı, bizim vətəndaşlarımız müsbət dəyişiklikləri öz gündəlik həyatlarında hiss etsinlər.

Makroiqtisadi vəziyyət çox yaxşıdır. Bunu hamı bilir. Beynəlxalq Valyuta Fondu bunu bəyan edir. Azərbaycan dünyada makroiqtisadi göstəricilərinə görə birinci ölkədir. Ölkəmizdə ümumi daxili məhsul 20 faiz artıbdır. İnkişaf etmiş ölkələrdə bu heç vaxt 2–3 faizi keçmir.

Düzdür, inkişaf etmiş ölkələrdə imkanlar artıq tükənir. Bu ölkələrdə iqtisadiyyat indi elə bir səviyyədədir ki, böyük bir addıma imkan yoxdur. Ancaq gəlin bölgəmizdəki ölkələrin,

bizimlə bərabər şəraitdə olan, yaxud da Sovet İttifaqı dağılandan sonra müstəqilliyini əldə etmiş ölkələrin iqtisadi göstəricilərinə nəzər salaq. Mən heç bir müqayisə aparmaq istəmirəm və biz heç vaxt öz işimizi müqayisə prinsipi əsasında qurmamışıq. Biz, sadəcə, öz işimizi görürük, heç bir başqa ölkənin işinə qarışmırıq. Amma müqayisə etsək görərik ki, Azərbaycan ən qabaqcıl yerlərdədir. Bu çox mühümdür, bizim iqtisadi inkişafımızın uğurlu olmasından xəbər verir. Ancaq eyni zamanda hər bir vətəndaş da gündəlik həyatda müsbət dəyişiklikləri görməlidir. Onun tibbi xidməti daha da yaxşı olmalıdır. Uşağının oxuduğu məktəbdə istilik sistemi, gözəl avadanlıq, şərait olmalıdır, yaxşı yolları, kənd yolları, işığı, suyu, qazı olmalıdır. Bu, insanların təbii tələbatıdır. Biz də gərək bunu təmin edək.

Düzdür, bunu etmək çətindir. Çünki 1990-cı illərin əvvəllərində Azərbaycanın üzləşdiyi o ağır problemlər ölkəmizə böyük zərbələr endirdi. Bu yaxınlarda demişdim ki, biz ancaq 2005-ci ildə 1990-cı ilin iqtisadi potensialının səviyyəsinə yüksələ bildik. Nəyə görə? Çünki 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərində Azərbaycanqa rəhbərlik etmiş xəyanətkar, riyakar, bacarıqsız, səriştəsiz rəhbərlər ölkəni iflic vəziyyətinə salmışdılar. Ölkə dağılırdı, xaos, anarxiya, iqtisadi tənəzzül baş alıb gedirdi. Uzun illər lazım oldu ki, Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi islahatlar aparılsın. Bu gün də onlar davam etdirilir. 15 il lazım oldu ki, biz 1990-cı ilin səviyyəsinə gəlib çataq. Belə çıxır ki, bu 15 il itirilibdir. Əgər 1990-cı illərin əvvəllərində Azərbaycana bu zərbələr vurulmasaydı, o ağılsız iqtisadi siyasət aparılmasaydı, təcrübəsiz, küçədən gələn insanlar Azərbaycana rəhbərlik etməsəydi, belə olmazdı. Bu müddətdə Azərbaycan nə qədər irəliyə gedə bilərdi. Amma küçədən gəlmiş, meydanlarda qışqıran adamlar gəlib Baş nazir, parlament sədri oldular. Bütün nazirliklərə heç bir savadı, təcrübəsi olmayan, dünyagörüşü, mədəniyyəti olmayan adamlar rəhbərlik etməyə gəldi və təbii ki, ölkə dağıldı. Xalqımızın müdrikliyi ondadır ki, öz liderinə üz tutdu, Heydər Əliyevi dəvət etdi və biz bu çətin vəziyyətdən çıxdıq.

Bu səbəblərə görə də indi insanların dediyim təbii tələbatı ilə bağlı məsələləri birdən-birə həll etmək çətindir. Çünki işıq sistemini bərpa etmək üçün milyardlarla investisiya lazımdır. Bunun üçün də gərək hansısa bir məhsul istehsal olunsun ki, çoxlu gəlir gətirsin. İndi bizim imkanımız var. Biz yüzlərlə elektrik stansiyasının tikintisinə milyon dollar dəyərində pul qoyuruq. Başqa imkanımız da var, xarici maliyyə qurumları bizə inanırlar və kredit ayırırlar. Əvvəllər bizə nə üçün heç kim kredit vermirdi?

Çünki əmin deyildilər ki, Azərbaycanın gələcəyi necə olacaqdır. İndi Azərbaycan üçün, bizim üçün kredit almaq problem deyildir.

Əksinə, bəzi maliyyə qurumları, xarici banklar bizdən xahiş edirlər ki, kredit götürək. Biz isə fikirləşirik ki, götürək, götürməyək. Əgər götürürüksə, hansı şərtlərlə, nəyə görə. Çünki inam var ki, Azərbaycanın uzunmüddətli inkişaf perspektivləri mövcuddur. İnam var ki, Azərbaycan əgər son 10– 12 il ərzində belə sürətlə inkişaf edibsə, bu inkişaf davam edəcəkdir. İnam var ki, Azərbaycan rəhbərliyi qarşıda duran bütün vəzifələri bundan sonra da ləyaqətlə yerinə yetirəcəkdir.

Energetika sisteminin bərpası, qaz təchizatının yaxşılaşması, su, kanalizasiya, suvarma sisteminin təkmilləşdirilməsi, yolların salınması indi prioritet məsələlərdir. Bunlar çoxlu vəsait, böyük iş görülməsini tələb edir. Biz bunu təmin edəcəyik. Bəzi hallarda yerlərdə olan məsələlərin həlli böyük vəsait tələb etmir. Harada ki, tələb edir, biz o vəsaiti verəcəyik. Mən sizə bu gün dedim, 1,5 milyard manat kifayətdir ki, siz kənd yollarını bəlkə da artıqlaması ilə sahmana salasınız. Sonra başqa məsələ meydana çıxanda onu da həll edəcəyik. Amma yerlərdə elə məsələlər var ki, böyük vəsait, yaxud da, necə deyərlər, böyük işgüzarlıq yox, sadəcə, diqqət, qayğı tələb edir. Gərək məsələyə biganə yanaşılmasın və məsələ öz həllini tapsın. Xüsusilə insanlarla ünsiyyətdə.

Bizim güc mənbəyimiz xalqımızdır. Biz böyük vəzifələr tuturuq. Prezident vəzifəsi, icra hakimiyyəti başçısı vəzifəsi –

böyük vəzifələrdir, böyük məsuliyyətdir. Mən ölkəyə rəhbərlik edirəm, siz rayonlara rəhbərlik edirsiniz və bütün məsuliyyəti öz çiyinlərimizdə daşıyırıq. Çalışmalıyıq ki, gündəlik həyatda insanları narahat edən məsələləri həll edək və yaradaq, quraq, tikək, abadlaşdıraq. Mənim iş prinsiplərim bunlardır. Bu, Heydər Əliyevin iş prinsipləridir, onun qoyduğu yoldur. Bu gün onun siyasəti bütün sahələrdə – Azərbaycanın iqtisadi inkişaf strategiyasında, siyasi müstəvidə, xarici siyasətdə, ordu quruculuğunda, sosial məsələlərin həllində davam etdirilir. Haraya baxsanız görərsiniz ki, inkişaf var, irəliləyiş var. Mən istəyirəm ki, bu daha da yüksək sürətlə getsin. İqtisadi potensialın güclənməsi isə bunun üçün başlıca amildir.

Eyni zamanda, iqtisadi inkişaf ancaq sabitlik olan yerlərdə mümkündür. Dünya təcrübəsi də, inkişaf etmiş ölkələrin təcrübəsi də bunu göstərir. Harada çaxnaşma varsa, sabitlik yoxdur, özbaşınalıq varsa, heç vaxt orada nə inkişaf var, tərəqqi var, nə də rifah var. Ancaq ziddiyyətlər, toqquşmalar və bəlalar var.

Azərbaycan bu bölgədə sabitlik məkanıdır, əmin-amanlıq məkanıdır. Bu sabitliyi bizə ərməğan edən ulu öndər Heydər Əliyevdir. Biz də bunu qoruyuruq, saxlayırıq, möhkəmləndiririk, qanun çərçivəsində, Konstitusiya çərçivəsində Azərbaycanın normal, demokratik inkişafını təmin edirik.

Ölkədə siyasi proseslərin normal məcrada inkişaf etməsi də çox önəmlidir. Bu baxımdan qarşıdan gələn parlament seçkiləri də əhəmiyyət kəsb edir. Ona görə yox ki, parlament seçkiləri Azərbaycanda hakimiyyət məsələsini həll edir. Xeyr, Azərbaycan prezident respublikasıdır. Burada bütün səlahiyyətlər və hakimiyyət prezidentin əlindədir. Ona görə ki, parlament seçkiləri hər bir ölkənin demokratik inkişafı üçün vacib hadisədir və prosesdir. Biz də elə etməliyik ki, seçkilər şəffaf keçsin, ədalətli keçsin. Azərbaycan xalqı istənilən namizədə səs versin. Hesab edirəm ki, bu vaxta qədər seçki kampaniyası müsbət gedir, qeydiyyat məsələsində heç bir problem olmadı. Təşviqat, təbliğat kampaniyası da rahat, azad

şəraitdə gedir. Bilirsiniz ki, həm dövlət televiziyası, həm də ictimai televiziya, özəl kanallar bütün namizədlərə imkan yaradır ki, öz proqramları ilə çıxış etsinlər. Vacibdir ki, seçkilər günü də qanun pozuntusu olmasın və seçkilər normal keçsin.

Yerli icra orqanları da bu işlərə müdaxilə etməməlidir. Mən bunu dəfələrlə demişəm, bu gün sizə də deyirəm. Siz o proseslərdən kənarda qalmalısınız, heç bir namizədə təzyiq göstərməməlisiniz, heç bir ayrı-seçkiliyə yol verməməlisiniz. Bütün namizədlərə eyni şərait yaradılmalıdır. Bilirəm ki, hər bir rayonda mitinqlərin, əhali ilə görüşlərin keçirilməsi üçün də müvafiq yerlər ayrılıbdır. Siyasi əqidəsindən asılı olmayaraq, bütün namizədlər eyni yerlərdə öz görüşlərini qapalı və açıq şəkildə keçirməlidir. Qayda-qanun hamı üçün eyni olmalıdır.

Deyə bilərəm ki, Azərbaycanın bölgələrində seçki kampaniyası ilə əlaqədar heç bir problem yoxdur. Bütün namizədlər müəyyən edilmiş yerlərdə görüşlər də keçirirlər, mitinqlər də keçirirlər və kampaniya çox ədalətli və qanunauyğun şəkildə gedir. Ancaq Bakıda son zamanlar bəzi siyasi qüvvələr tərəfindən qanunsuz mitinqlər keçirmək cəhdi, əlbəttə, müsbət hal kimi qəbul oluna bilməz. Bunun da səbəbi aydındır, heç kimə sirr deyildir.

Bilirsiniz ki, Bakıda «Qələbə» kinoteatrı qarşısındakı meydan Azərbaycanda seçkiqabağı mitinqlərin keçirilməsi üçün ayrılmış bir yerdir. Orada prezident Heydər Əliyev öz seçkiqabağı mitinqlərini keçirmişdir. Mən parlament və prezident seçkiləri ərəfəsində mitinqlər keçirmişəm. 2003-cü il prezident seçkilərində bütün namizədlər və siyasi birliklər mitinqlərini orada keçirmişlər. Heç kimdə problem yaranmamışdır ki, həmin meydan bu işə yararlı deyildir. İndi nə olub? Seçki kampaniyası başlanılan gündən bu meydanda heç bir problemsiz, heç bir toqquşmasız mitinqlər keçirilirdi. Amma bu kiməsə sərf etmir. Kimsə istəyir ki, vəziyyəti gərginləşdirsin. Sən demə, indi bu meydan bunlara darısqallıq edir. Nə olub, 2003-cü ildə «Qələbə» meydanı məqbul idi, indi yox?! Nə olub, bəlkə meydan balacalaşdı? Məqsəd aydındır.

Məqsəd Azərbaycanda gərginlik yaratmaq, toqquşma yaratmaq, telekameranın qarşısında özünü qurban kimi göstərmək, döyülməkdir. Ancaq o insanları qeyri-qanuni yollara təhrik edənlərin özləri döyülmür, özləri «nədənsə» qanunsuz mitinqlərdə iştirak etmirlər. Pis olmazdı, bir gün onlar da kabinetdə, «Mersedes»də oturmasınlar, o insanları göndərdikləri yerə özləri getsin, qanunsuz mitinqlərdə iştirak etsinlər. Ondan sonra görsünlər ki, bu nədir. Biz bu cür mitinqlərə imkan verməyəcəyik. Azərbaycan dövləti qanunlar əsasında işləyir. Konstitusiya da Əsas Qanundur. Harada nəzərdə tutulubsa, orada da mitinq keçiriləcəkdir. Qanunsuz heç bir hərəkətə yol verilməyəcəkdir. Son hadisələr onu göstərir ki, Azərbaycan dövlətinə rəhbərliyinə heç vaxt, heç kim tərəfindən heç bir təzyiq göstərilə bilməz. Biz möhkəm dayanmışıq. Öz fəaliyyətimizi qanun çərçivəsində, Konstitusiya çərçivəsində qururuq, xalqın dəstəyinə arxalanırıq. Belə olan halda, müəyyən edilmiş yerlərdə mitinqlərin keçirilməsi mümkün olacaqdır.

Yenə də bu məsələyə qayıtmaq istəyirəm ki, heç bir rayonda buna oxşar problem yoxdur. Sizin rayonlarınızda mitinqlər keçirilir, namizədlər seçicilərlə görüşürlər. Heç kimə problem yaratmırlar. Mən qadağan etmişəm. Ona görə, Bakıda da gərək hamı başa düşsün ki, qayda-qanun olmalıdır. Özbaşınalıq dövrü getdi, bitdi. Hərc-mərclik dövrü bitdi, anarxiya dövrü bitdi, bir daha qayıtmayacaqdır. Azərbaycanda qayda-qanun olacaqdır. Ancaq yenə də deyirəm, çalışmalısınız ki, siyasi əqidəsindən, mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlərə eyni şərait yaradılsın.

Parlament seçkiləri də bir prosesdir, bir hadisədir. Əminəm ki, seçkilərdən sonra Azərbaycan demokratik inkişaf baxımından daha da sürətlə inkişaf edəcəkdir. Qarşımızda böyük planlar, proqramlar var. Biz ölkəmizi çox inamla idarə edirik. Ölkəmizin iqtisadi potensialı güclənir. Dünya Birliyində bizim rolumuz, yerimiz möhkəmlənir. Digər ölkələrlə münasibətlər möhkəmlənir, inteqrasiya məsələləri öz həllini tapır, transmilli layihələr bizim iştirakımızla həyata keçirilir.

Əlbəttə, gələcəkdə gözəl imkanlardan istifadə edib, ölkəmizi daha da inkişaf etdirəcəyik. Bunu etmək üçün biz hamımız yaxşı işləməliyik, məsuliyyətli işləməliyik. Hərə öz işi ilə məşğul olmalıdır, öz vəzifə borcunu ləyaqətlə icra etməlidir.

Yerlərdə sizin fəaliyyətinizdən də çox şey asılıdır. Siz mənim nümayəndələrimsiniz və sizin bütövlükdə fəaliyyətiniz əsasında yerlərdə insanlar iqtidar haqqında rəy, fikir formalaşdırırlar. Ona görə gərək siz də öz işinizə məsuliyyətlə yanaşasınız. Gərək həm rayonların iqtisadi potensialının inkişafı ilə bağlı məsələlərdə, eyni zamanda insanlarla ünsiyyətdə diqqətli olasınız. Çalışasınız ki, problemlər öz həllini tapsın. Harada gücünüz çatmırsa, yaxud da imkan yoxdursa, mənə, Nazirlər Kabinetinə müraciət edin.

Bilirsiniz ki, mənim siyasətimin əsas prioritetlərindən biri regional inkişaf proqramıdır. Ona görə tez-tez rayonlara səfərə çıxıram, vəziyyətlə tanış oluram. Bilin ki, qaldırdığınız və qaldıracağınız bütün məsələlərə diqqətlə yanaşacağam və həllinə kömək edəcəyəm. Ona görə sizə uğurlar arzulayıram, yaxşı işləyin. Sağ olun.

## RESPUBLİKAMIZIN ŞİMAL–QƏRB SƏRHƏDLƏRİNİN MÜHAFİZƏSİ İLƏ TANIŞLIQ

*12 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Gəncəyə və Qazaxa səfəri zamanı ölkəmizin şimal–qərb sərhədlərinin mühafizəsi ilə tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-leytenant Elçin Quliyev Ali Baş Komandana şəxsi heyətin baxışa hazır olması barədə raport verdi.*

*General-leytenant Elçin Quliyev prezident İlham Əliyevə Azərbaycanın dövlət sərhədlərinin etibarlı şəkildə qorunması, sərhəd xidmətinin ən müasir standartlar səviyyəsində təkmilləşdirilməsi üçün həyata keçirilən ardıcıl və kompleks tədbirlər, eyni zamanda burada şəxsi heyət üçün yaradılmış şərait barədə ətraflı məlumat verdi. Prezident İlham Əliyev Azərbaycanın sərhəd xidmətinin inkişafı üçün silsilə tədbirlərin görüldüyünü vurğuladı, şəxsi heyətə yaradılan şəraitdən razı qaldığını söylədi.*

*Sonra səhra yeməkxanasına gələn Ali Baş Komandan sərhədçilər üçün hazırlanan yeməklərdən dadaraq, bəyəndiyini bildirdi.*

*Qonşu ölkələrlə sərhədlərin qorunmasının etibarlılığının daha da gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin genişlənəcəyini vurğulayan prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin fəaliyyətinin getdikcə yüksəlməsindən razılığını bildirdi, müvafiq tapşırıqlar verdi, şəxsi heyətə xoş arzularını çatdırdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

*Oktyabrın 12-də Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə təntənəli mərasimdə iştirak etmək üçün Gürcüstanda səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev ilə Türkiyə prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.*

*Dost və qardaş ölkələr arasında münasibətlərin daha da dərinləşdirilməsinin vacibliyini vurğulayan prezidentlər Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsinin əhəmiyyəti və bu layihənin perspektivləri barədə söhbət açmışlar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

*Oktyabrın 12-də Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin Gürcüstan hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə Qardabanidə keçirilən təntənəli mərasimdə iştirak etmək üçün Gürcüstanda səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev ilə Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Söhbət zamanı bu layihənin başa çatdırılmasının xalqlarımıza böyük fayda gətirəcəyi, regional əməkdaşlığa böyük təkan verəcəyi xüsusi vurğulanmışdır.*

*Görüşdə prezident İlham Əliyev Gürcüstanın dövlət başçısı Mixeil Saakaşviliyə xalça hədiyyə etmişdir.*

# HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN GÜRCÜSTAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*Gürcüstan, Qardabani rayonu*

*12 oktyabr 2005-ci il*

*Memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti öz tarixinin əlamətdar bir dövrünü yaşayır. Hazırda dünyanın ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin tikintisi başa çatmış və Azərbaycan nefti boruya doldurulmuşdur. Bu, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış və 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması ilə başlayan Azərbaycanın yeni neft strategiyasının təntənəsidir.*

*Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq, Gürcüstandan keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan 1768 kilometrlik xəttin «qara qızılla» doldurulması üçün 10 milyon barel xam neft tələb olunur. Bu neft Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri»–«Çıraq»–«Günəşli» yataqlarından çıxarılacaqdır. Kəmərin Azərbaycan hissəsi neftlə doldurulmuşdur və hazırda Gürcüstandan Türkiyə sərhədinə qədər olan hissəyə neft vurulur. İlin sonunda Ceyhanda Azərbaycan nefti yüklənmiş ilk tankerin yola salınacağı gözlənilir.*

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə oktyabrın 12-də Gürcüstanın Qardabani rayonunda*

*yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Gürcüstan prezidenti Mixeil Saakaşvili, ABŞ-ın, Böyük Britaniyanın və digər ölkələrin yüksək vəzifəli şəxsləri mərasimdə iştirak edirdilər.*

*Prezidentlər mərasimdə nitq söylədilər.*

## Gürcüstan prezidenti Mixeil Saakaşvilinin nitqi

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Sizin hamınızı salamlayıram. Əsasən də bizim dostlarımızı, Azərbaycan və Türkiyə prezidentlərini, eləcə də *bp*-nin nümayəndələrini salamlayıram. Bugünkü tədbir elə bir tədbirdir ki, bir neçə il öncə bunu təsəvvür etmək mümkün deyildi. Bunu inanılmaz bir hadisə hesab edirdilər. Biz bu gün çox şadıq ki, tarixin dialektikası, məntiqi və istiqaməti biz istədiyimiz kimi inkişaf edir. Bizim ölkələr, iqtisadiyyatımız inkişaf edir. Ölkələrimizin əhəmiyyəti böyüyür. Bu bizim ölkələrin tutduğu düzgün istiqamətə əsaslanır. Çox şadıq ki, Azərbaycan çox yaxşı, Gürcüstanın arzuladığı kimi inkişaf edir. Azərbaycan varlı bir dövlətə çevrilir. Sosial və iqtisadi sahələr çox sürətlə inkişaf edir. Bu sahələrin inkişafı insanların rifah halının yüksəlməsinə xidmət edir. Bütün bunlar təkcə Azərbaycan xalqı üçün yox, həm də gürcü xalqı üçün faydalıdır.

Mən sizə dostum, qardaşım İlham Əliyev haqqında danışmaq istəyirəm. Onun siyasəti bizi çox sevindirir. Ona görə ki, biz qonşumuzun varlı olmasını istəyirik. Azərbaycanın iqtisadi cəhətdən güclü olması Gürcüstanın iqtisadi və siyasi məsələlərinin həllinə də öz müsbət təsirini göstərir. Azərbaycan bilməlidir ki, onun Gürcüstan kimi dostu, qardaşı vardır.

Türkiyə böyük ölkə olmaqla yanaşı, həm də güclü iqtisadi potensiala malikdir. O, Gürcüstanın dar günündə həmişə kömək əlini uzadıb, təmənnasız kömək göstəribdir. Gürcüstanın

müstəqilliyinin ilk illərində Türkiyə ona yardım edən, dost əli uzadan, bizi dəstəkləyən ilk ölkələrdəndir.

Acarıstanda baş vermiş vətəndaş qarşıdurması təhlükəsi yaranan zaman Türkiyənin köməyini bir daha hiss etdik. Bu böhrandan dinc, sakit çıxmaq üçün bizə yardımını əsirgəmədi. Türkiyə bu gün də bizim tərəfdaşımızdır. İqtisadi layihələrdə iştirak edir. Tbilisinin və Batuminin hava limanlarının yenidən qurulmasında yaxından iştirak edir. İqtisadiyyatın başqa-başqa sahələrinə, o cümlədən ticarət və tikinti, energetikanın müxtəlif sahələrinə sərmayə qoyurlar. Digər infrastruktur layihələrdə də iştirak edirlər. Biz bu münasibətin inkişafından çox razıyıq. Düşünürəm ki, biz bir regionda yaşadığımız üçün belə də olmalıdır.

Bizim həmçinin *bp* ilə iş təcrübəmiz var. Biz hakimiyyətdə əvvəllər olsaydıq, bu məsələni sürətləndirə bilərdik. Hakimiyyətə gələndən sonra mövcud problemlərin həlli ilə məşğul olduq. Bunun gözəl nümunəsindən biri də bu gün iştirakçısı olduğumuz möhtəşəm tarixi hadisədir və Borjomi parkının bərpasıdır. Biz birlikdə başqa layihələr də həyata keçirdik. Hazırda Axaltsixe şəhərinin su sisteminin bərpası ilə əlaqədar danışıqlar aparılır. Bundan əlavə, kiçik və böyük həcmli layihələr üzərində birlikdə işləyirik. Bütün bu işlərin yüksək səviyyədə yerinə yetirilməsi üçün lazımi qanun və qərarları hazırlayıb tətbiq edəcəyik.

Mən dost və qardaş ölkələrin prezidentlərini və digər hörmətli qonaqlarımızı bir daha salamlayıram.

Bu neft kəmərinin Gürcüstan üçün əhəmiyyəti nədən ibarətdir? İqtisadi baxımdan bir sıra infrastrukturun yaranması və genişlənməsi Gürcüstana sərmayənin axını deməkdir. Siyasi baxımdan isə çox böyük əhəmiyyəti vardır. Gürcüstan Dünya Birliyində tanınır.

Gələn il Gürcüstandan keçəcək Bakı–Tbilisi–Ərzurum qaz kəməri də işə düşəcəkdir. Bu bizim üçün daha da əhəmiyyətlidir. Bu qaz xətti eyni zamanda, mavi yanacaq baxımından Gürcüstanın asılılığını aradan qaldırmağa kömək

edəcəkdir. Bütün bunlar, eləcə də bugünkü mərasim bizim üçün tarixi bir hadisədir. Əhəmiyyətlisi odur ki, regionumuz dünya üçün açıqdır və perspektivlidir. Hansı ölkədə iqtisadi rəqabət varsa, orada düzgün seçim və demokratik inkişaf var, demək, o ölkənin müstəqilliyi güclənir. Bütün bu dəyərlər neft və qazdan qat-qat üstündür.

Enerji sektoru ilə bağlı danışıqlarımız müsbət və mənfi reaksiyalarla üzləşmişdi. Bu, təbii haldır. Sağlam rəqabət olan yerdə heç kəs uduzmur. Biz ayaq üstündə nə qədər güclü dayanırıqsa, məğlubiyyətə uğrayan olmayacaq və bütün tərəflər udacaqdır. Biz bu məsələlərə real yanaşsaq, görərik ki, bu layihə heç kəsə qarşı yönəlməyibdir.

Bütün iştirakçılara, bu işdə əməyi olan şirkətlərə, onların rəhbərlərinə təşəkkür edirəm. Artıq neft mənim dayandığım yerdədir və bu yer Gürcüstanın əhəmiyyətini daha da artırır.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Gürcüstan prezidenti Mixeil Saakaşvili!

Hörmətli Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən yenidən qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam və bu fürsətdən istifadə edərək, bütün qardaş gürcü xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək istəyirəm.

Bu gün çox əlamətdar bir gündür. Bu gün Gürcüstan torpağında Bakı–Tbilisi–Ceyhan neft kəmərinin həyatında çox mühüm hadisə baş verir. Azərbaycan nefti artıq Gürcüstanın ərazisinə daxil olubdur və bundan sonra Türkiyənin Ceyhan limanına nəql ediləcəkdir. Bir neçə ay bundan əvvəl buna oxşar mərasim Bakıda keçirilmişdi və mənim əziz dostlarım – Türkiyə və Gürcüstan prezidentləri həmin mərasimdə iştirak etmişdilər. Ümid edirəm ki, yaxın zamanlarda buna bənzər mərasim Türkiyənin Ceyhan limanında keçiriləcək və beləliklə, uzun illər əfsanə sayılan kəmər işə düşəcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində iştirak etmiş, bu layihəni gerçəkləşdirmiş bütün insanlara öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu layihənin həyata keçirilməsində çoxlu insan iştirak edibdir. Biz hamımız – çoxlu şirkətlər, dövlətlər, beynəlxalq maliyyə qurumları, adi fəhlələr bunu birlikdə etmişik. Ancaq hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda «Əsrin müqaviləsi»nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində «Əsrin müqaviləsi» imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı. O illər Azərbaycanda çox böyük təlatüm müşahidə olunurdu. Azərbaycana çoxlu təzyiqlər edilirdi. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yaranmasını istəməyən qüvvələr müxtəlif təzyiqlər göstərirdi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan rəhbərliyinin, xalqımızın ümummilli lideri Heydər Əliyevin qətiyyəti, cəsarəti, Azərbaycan xalqının dəstəyi bizə imkan verdi ki, ölkəmiz öz zəngin neft, qaz yataqlarını işə sala bildi və bu gün bizim təbii ehtiyatlarımız dünya bazarlarına çıxarılır.

Mən bu fürsətdən istifadə edib bir məsələyə də toxunmaq istəyirəm. Bu layihə transmilli bir layihədir. Dünyanın ən böyük enerji layihəsidir. Şübhəsiz ki, əgər burada çox geniş əməkdaşlıq olmasaydı, biz bu layihəni həyata keçirə bilməzdik.

Layihənin aparıcı şirkəti olan *bp* şirkəti, beynəlxalq maliyyə qurumları, konsorsiumun digər üzvləri və əlbəttə ki, Gürcüstan, Türkiyə və Azərbaycan rəhbərliyinin siyasi iradəsi, qətiyyəti, cəsarəti bu layihəni əfsanədən gerçəkliyə çevirdi. Bu gün bu gözəl mərasimi keçirərək, yenidən ötən illərə nəzər salırıq və çox böyük fərəh hissi ilə deyə bilərik ki, biz bunu bacardıq. Bütün çətinliklərə, bütün əngəllərə baxmayaraq, biz bunu bacardıq və beləliklə, biz tarixi yazdıq. Bu tarix yeni tarix olacaqdır. Bu bizim xalqlarımızın inkişafına, ölkələrimizin müstəqil şəkildə yaşamasına çox güclü şərait yaradacaqdır.

Sirr deyil ki, Sovet İttifaqı dağılandan sonra həm Gürcüstan, həm də Azərbaycan çox çətin vəziyyətə düşmüşdü. Ölkədə gedən proseslər, sabitliyin pozulması, torpaqlarımızın işğal altına düşməsi bizi çox sarsıtdı. Bu əməkdaşlıq, bu işbirliyi bizə yeni üfüqlər açır. Mən sübhə etmirəm ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarından əldə ediləcək gəlirlər bizim xalqlarımızın rifah halının yaxşılaşmasına sərf olunacaq, ölkələrimizin hər bir vətəndaşı bundan fayda götürəcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin digər əhəmiyyəti ondadır ki, bu, bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə güclü xidmət edəcəkdir. Bildiyiniz kimi, bu bölgədə təhlükəsizlik sisteminin möhkəmlənməsinə böyük ehtiyac var və hər üç ölkə öz tərəfindən bu işə töhfəsini verir və verəcəkdir. Əminəm ki, kəmərin istismara verilməsindən sonra təhlükəsizlik sistemi daha da möhkəmlənəcəkdir. Digər tərəfdən, bu, regional əməkdaşlığın çox parlaq bir təzahürüdür. Həm də onu göstərir ki, regionda əməkdaşlıq uğurla gedə bilər. Üç ölkə dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsinə nail oldu. Bu, gələcəkdə imkan verəcək ki, digər beynəlxalq iqtisadi və nəqliyyat layihələrimizi də birlikdə icra edək.

«Şahdəniz» yatağının işə düşməsi ilə əlaqədar Cənubi Qafqaz qaz kəmərinin tikintisi layihəsi çox böyük önəm daşıyır. Bu, Azərbaycan qazının Gürcüstana, Türkiyəyə və ondan sonra digər ölkələrə daşınmasını təmin edəcəkdir.

Bölgədə növbəti regional əməkdaşlıq layihəsi Qars–Axalkalaki–Tbilisi–Bakı dəmir yolunun çəkilməsidir. Biz bu layihəyə də çox böyük əhəmiyyət veririk və ümid edirəm ki, yaxın zamanlarda bu əfsanə də gerçəkliyə çevriləcəkdir. Yəni gələcəkdə görüləcək işlər çoxdur. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yaranması bütün dünyaya sübut etdi ki, burada gözəl əməkdaşlıq var, gözəl ab-hava hökm sürür, ölkələr arasında əsl qardaşlıq əlaqələri mövcuddur.

Bu fürsətdən istifadə edərək, mən bizim aramızda olan əlaqələrin inkişafına yenidən diqqət yetirmək istəyirəm. Gürcüstanla Azərbaycanı çox dərin tarixi tellər bağlayır. Bizim

xalqlarımız qonşudur. Həmişə, bütün zamanlarda biz mehribanlıq şəraitində, dostluq, qardaşlıq şəraitində yaşamışıq. Yaxşı qonşu olmuşuq, yaxşı dost, yaxşı qardaş olmuşuq. Çox sevindirici haldır ki, ölkələrimizin indiki rəhbərləri bu gözəl ənənələri davam etdirir. Bu əlaqələr çox böyük və güclü zəmin üzərində qurulubdur.

Əminəm ki, Mixeil Saakaşvili ilə bizim şəxsi dostluğumuz, qardaşlığımız ölkələrimizin çox uğurlu inkişafına da böyük təkan verir. Bizim xalqlarımız, ölkələrimiz bir-birinə çox sıx bağlıdır. Gürcüstanın uğuru bizim uğurumuzdur, Azərbaycanın uğuru Gürcüstanın uğurudur. Biz bir-birimizə o qədər sıx bağlıyıq ki, bir ölkə o biri ölkənin inkişafında iştirak edir və əksinə. Eyni zamanda, bizi bağlayan dostluq, qardaşlıq münasibətləridir. Biz bu münasibətlərə çox böyük əhəmiyyət verir, onu çox yüksək dəyərləndiririk. Biz Gürcüstanda gedən prosesləri dəstəkləyirik. Rəhbərliyin qətiyyətli siyasətini bəyənirik. Azərbaycanda buna çox böyük rəğbət var. Sizin uğurlarınıza sevinirik. Görəndə ki, Gürcüstanın büdcəsi artır, sosial vəziyyət yaxşılaşır, ölkənizdə güclü infrastruktur yaradılır, qayda-qanun yaradılır – bu bizi də çox sevindirir. Çünki dost kimi, qardaş kimi bizim mövqeyimiz başqa cür ola da bilməz. Ümid edirəm ki, gələcəkdə bizim uğurlarımız daha da böyük olacaqdır. Həm Gürcüstanın, həm də Azərbaycanın gələcəkdə böyük perspektivləri vardır. Bu perspektivləri reallaşdırmaq üçün bütün səviyyələrdə birlik olmalıdır, dostluq, qardaşlıq olmalıdır.

Mən bu gün dostum, qardaşım Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezəri də görməyimdən çox məmnunam. Bildiyiniz kimi, Türkiyə və Azərbaycan qardaş ölkələrdir.

Bizim aramızda münasibətlər ən yüksək səviyyədədir. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olubdur. Bütün beynəlxalq tədbirlərdə, bütün məsələlərdə həmişə biz bu dəstəyi hiss etmişik və buna arxalanırıq.

Bu gün üç ölkənin prezidentləri bu gözəl mərasimə toplaşaraq Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yeni bir hissəsinin işə salınmasını qeyd edirik. Bu çox əlamətdar hadisədir. Bu, lokal hadisə deyil, çünki Bakı–Tbilisi–Ceyhan neft kəməri transmilli layihədir. Dünyanın ən böyük enerji layihəsidir və onun uğurla başa çatması bütün bölgəyə yeni nəfəs gətirəcək, burada yeni imkanlar yaradacaqdır. İnsanlarımız daha da yaxşı yaşayacaqlar. Çünki bundan əldə olunan gəlir, şübhə etmirəm ki, bölgəmizin iqtisadi potensialına, rifah halının yaxşılaşmasına xidmət edəcəkdir.

Əziz dostlar, bu gözəl bayram münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, qardaş Gürcüstan xalqına uğurlar, xoşbəxtlik, tərəqqi arzulayıram.

## Türkiyə prezidenti Əhməd Necdət Sezərin nitqi

Çox hörmətli Cümhur başqanları!

Hörmətli nazirlər!

Hörmətli iştirakçılar!

Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri ilə illik neftin Gürcüstana gəlməsi münasibətilə keçirilən təntənəli mərasimə qatılmaqdan və dost, qonşu Gürcüstanda olmaqdan böyük məmnunluq duyuram.

Təxminən dörd ay əvvəl, mayın 25-də Azərbaycanın Səngəçal terminalında keçirilən ilk təntənəli mərasimdən sonra bu gün layihənin ikinci mərhələsini reallaşdırırıq. Hamımız Avropa və Asiyanın kəsişdiyi, strateji önəm daşıyan Cənubi Qafqazda sabitliyin, sülh və təhlükəsizliyin təmin olunması, əlverişli beynəlxalq əməkdaşlığın yaradılması üçün atılan bu böyük addımın reallığını yaşayırıq. Şərq–Qərb enerji dəhlizini gerçəkləşdirən layihələr bölgədə təhlükəsizliyin, sülhün möhkəmlənməsi, iqtisadi dirçəliş yolunda mühüm bir addımdır. Bu layihələr bölgə ölkələrinin bir-biri ilə əlaqələri ilə yanaşı, Qərb dünyası ilə də əlaqələrini gücləndirəcəkdir.

Bölgə ölkələrində iqtisadi və sosial inkişafın davam etdirilməsi önəm daşıyır. Bu çərçivədə xüsusi yeri olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin son mərhələsinə ölkələrimiz arasında etimada əsaslanan fəaliyyət nəticəsində nail olacağıq. Avropa və Asiyaya yeni dinamika gətirəcək və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq bu layihə son hədəfinə doğru sürətlə irəliləməkdədir. Bakı–Tbilisi–Ceyhan layihəsinin gerçəkləşməsində əməyi olan hər kəsi ürəkdən təbrik edir, təşəkkürlərimi bildirirəm.

Hörmətli Cümhur başqanları!

Dəyərli iştirakçılar!

Enerji təhlükəsizliyi bütün ölkələrin işbirliyi baxımından dünyəvi bir məsələdir. Amerikada baş verən «Katrina» və «Rita» qasırğaları kimi təbii fəlakətlər beynəlxalq enerji təhlükəsizliyinin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha göstərdi. Bakı–Tbilisi–Ceyhan neft kəməri Avropa bazarlarında Xəzər neftinə olan ehtiyacı ödəyəcəkdir. Bu kəmərlə gündə nəql edilən 1 milyon barel və ildə 50 milyon ton neft dünyada enerji təhlükəsizliyinin gücləndirilməsinə önəmli töhfə verəcəkdir.

Təxminən 1770 kilometr uzunluğunda olan «qara qızıl» kəmərindən söhbət açırıq. Bu kəmərə Qazaxıstanın da qoşulması ilə onun əhəmiyyətinin daha da artacağına və Qazaxıstan neftinin bir hissəsinin ən əlverişli şəkildə Aralıq dənizinə çıxmasına şərait yaranacağına inanırıq.

Türkiyə, Gürcüstan və Azərbaycan bir zamanlar əfsanə kimi görünən Bakı–Tbilisi–Ceyhan layihəsini müvəffəqiyyətlə həyata keçirərək, regional işbirliyi sahəsində digər ölkələrə gözəl nümunə göstərmişlər. Bakı–Tbilisi–Ceyhan layihəsini tamamlamaq yolunda çalışdığımız bu mərhələdə digər layihələri reallaşdırmağımızın da zamanı gəlib çatmışdır. Bundan sonrakı hədəfimiz Bakı–Tbilisi–Ərzurum təbii qaz kəmərinin ən qısa zamanda – 2006-cı ilin sonunadək başa çatdırılması olmalıdır. Xəzərdəki yataqlarda olan təbii qazın Avropa Birliyinin bazarlarına çatdırılması üçün Türkiyə–Yunanıstan–İtaliya qaz kəmərinin çəkilməsi istiqamətində apa-

rılan işlər də xüsusi önəm daşıyır. Avropa ilə Asiya arasında əlaqənin daha sürətlə inkişafı, mal və xidmətlərin səmərəli və daha ucuz yollarla daşınması baxımından ölkələrimizin əhəmiyyəti böyükdür. Bu sahədə önəmli layihələrdən biri Şərq və Qərb arasında dəmir yolu vasitəsilə əlaqə yaradılmasına xidmət edən Qars–Tbilisi–Bakı dəmir yoludur. Bu layihə gerçəkləşdirildikdə Türkiyə Cənubi Qafqazla Orta Asiyanı bir-birinə bağlamaqla yanaşı, tarixi İpək Yolunu da XXI əsrdə yenidən canlandıra biləcəkdir.

Türkiyə Şərq–Qərb enerji dəhlizi ilə yanaşı, Şimal–Cənub nəqliyyat dəzlizində də işbirliyinə önəm verməkdədir. Avrasiya bölgəsində Xəzəri Aralıq dənizi ilə, Qara dənizi Orta Şərqlə bağlamaq gücündə olan ölkəmiz bölgədəki xalqların müştərək formada həyata keçiriləcək bütün layihələrə kömək etmək niyyətindədir.

Hörmətli Cümhur başqanları!

Hörmətli iştirakçılar!

Bildiyiniz kimi, Xəzərin enerji ehtiyatlarının dünya bazarına çatdırılmasında önəmli yollardan biri də Türkiyədəki boğazlardır. Türkiyədəki boğazlardan daşınan neft dünyada neftə tələbatın təxminən dörd faizini təmin etməkdədir. Bakı–Tbilisi–Ceyhan layihəsi ilə genişlənəcək Ceyhan limanı dünyanın mühüm enerji, ticarət və s. mərkəzinə çevriləcəkdir. Ceyhan terminalına çəkiləcək yeni boru xətləri Türkiyədəki boğazlardan keçən yüklərin həcmini azaltmağa, enerji, sərhəd təhlükəsizliyini inkişaf etdirməyə səbəb olacaqdır. Boğazlardan tankerlərin və təhlükəli maddələrin keçməsinin qarşısını almaqla, İstanbulun və ətrafının qorxusuz bir sahəyə çevrilməsini nəzərdə tuturuq. Bu çərçivədə Şimal–Cənub dəhlizində reallaşdırılmaqda olan digər bir layihə Novorossiysk və Supsaya gətiriləcək nefti Aralıq dənizinə daşıyacaq Samsun–Ceyhan neft boru xəttidir. 2010-cu ildən başlayaraq Qara dənizə çatması gözlənilən Rusiya və Qazaxıstan neftinin Samsun–Ceyhan boru xətti vasitəsilə ən təhlükəsiz, sərfəli şəkildə Aralıq dənizinə və oradan da dünya bazarlarına çıxarılacağına inanırıq.

Hörmətli Cümhur başqanları!

Hörmətli iştirakçılar!

Tarixdən gələn dərin əlaqələrə malik Qafqazın sülh, sabitlik və işıqlı günlərə qovuşması ən böyük diləyimizdir. Qardabani rayonu bu aydınlığın, sabaha doğru uzanan yolun yeni bir məkanıdır. Bakı–Tbilisi–Ceyhan boru xəttindən keçəcək neftin Ceyhandan tankerlərə yüklənməsi münasibətilə Ceyhanda təşkil olunacaq mərasimdə sizlərlə yenidən görüşməyi gözləyirik. Gələcəkdə bölgə ölkələrinin Bakı–Tbilisi–Ceyhan neft xətti kimi uğurlu, çox mühüm layihələrə imza atacağına inanır, ən səmimi diləklərimi bildirirəm.

* * *

*Təntənəli mərasimdə Amerika Birləşmiş Ştatları hökuməti adından çıxış edən konqresmen Bakı–Tbilisi–Ceyhan boru xəttinin Gürcüstan ərazisində tikintisinin başa çatması münasibətilə ABŞ prezidenti Corc Buşun təbriki və xoş arzularını çatdırdı.*

*bp şirkətinin Baş direktorunun müavini bu kəmərin region ölkələrinin tərəqqisinə çox böyük köməyi dəyəcəyini və sosial proqramların reallaşmasına təkan verəcəyini, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin gələn il işə salınacağını söylədi.*

*Böyük Britaniyanın nümayəndəsi çıxışında bu layihənin çox cəsarətli addım olduğunu və bu gün onun konkret nəticələrinin göründüyünü xüsusi vurğuladı, Dünya Birliyinə inteqrasiyanın iqtisadi aspektlərinə toxundu.*

*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, bp – Azərbaycan şirkətinin prezidenti Devid Vudvord bu əlamətdar tarixi gün münasibətilə mərasim iştirakçılarını təbrik etdilər və növbəti işlər barədə məlumat verdilər.*

*Sonra prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixeil Saakaşvili Azərbaycan neftinin Gürcüstan ərazisində Bakı–Tbilisi–Ceyhan boru xəttinə doldurulması ilə bağlı prosesi həyata keçirdilər.*

## LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Əfqanıstandan qayıdarkən yolüstü Bakıda dayanan Litva Respublikasının prezidenti Valdas Adamkus ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli, çoxtərəfli münasibətlərin uğurla inkişafı, müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahədə əlaqələr, beynəlxalq təşkilatlar, həmçinin Avropa Şurası, Avropa Birliyi çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.*

*Görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyevin adından Litva prezidenti Valdas Adamkusun şərəfinə nahar verilmişdir.*

## AŞPA-nın NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycanda demokratikləşmə prosesi, qarşıdan gələn parlament seçkiləri və Azərbaycan–AŞPA əməkdaşlığının müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ DARREL İSSA VƏ LORENSO SANÇES İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2005-ci il*

*Azərbaycana səfər etməkdən və bu gözəl ölkəni görməkdən məmnunluğunu bildirən cənab Darrel İssa Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin inşasının başa çatdırılması və kəmərin xam neftlə doldurulması münasibətilə oktyabrın 12-də keçirilmiş təntənəli mərasimi yüksək dəyərləndirdi. O bildirdi ki, mərasim geosiyası və strateji baxımdan böyük əhəmiyyət daşıyan bu regionun ölkələri üçün çox mühüm bir vaxtda keçirildi.*

*Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə, o cümlədən enerji və digər sektorlarda əməkdaşlığın çox uğurla inkişaf etdiyini nəzərə çatdıran dövlətimizin başçısı əlaqələrimizin hazırkı vəziyyətindən məmnun olduğunu vurğuladı.*

*Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istismara verilməsinə həsr olunmuş mərasimin yaxşı səviyyədə keçirildiyini bildirən prezident İlham Əliyev bunu regional əməkdaşlığın yaxşı nümunəsi adlandırdı, Azərbaycanın bu layihəyə və əməkdaşlığa böyük əhəmiyyət verdiyini söylədi.*

*Cənab Darrel İssa dedi ki, biz ölkələrimiz arasındakı əlaqələrin hazırkı səviyyəsindən çox razıyıq, beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın bizə verdiyi dəstəyi çox mühüm hesab edirik.*

*Azərbaycan ilə ABŞ arasında iqtisadi əlaqələrin də çox böyük əhəmiyyət daşıdığını nəzərə çatdıran qonaq dedi ki, cənab Prezident, Sizin regionda sabitliyin təmin olunması istiqamətindəki fəaliyyətiniz böyük önəm daşıyır. Qarşıdan ölkənizdə parlament seçkiləri gəlir. Bu seçkilərin Azərbaycan üçün böyük əhəmiyyəti vardır.*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətləri dövlətlərimizin rifahı naminə, regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi naminə bundan sonra da inkişaf edəcək və dərinləşəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Türkmənistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı münasibətilə Sizi və dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında genişlənən əlaqələr, dostluq və əməkdaşlığımız xalqlarımızın rifahı naminə daim inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Çexiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum, qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün Türkiyə xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən salamlayır, səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Türkiyənin qazandığı uğurlar, ölkənizin iqtisadi qüdrətinin, siyasi nüfuzunun artması, beynəlxalq miqyasda nailiyyətləriniz bizi son dərəcə sevindirir.

Biz həmçinin qardaş xalqlarımızın iradəsi ilə misli görünməmiş səviyyəyə yüksəlmiş ikitərəfli dövlətlərarası münasibətlərimizi, hərtərəfli müttəfiqliyimizi yüksək qiymətləndiririk.

Bir daha Sizə ən xoş arzularımı yetirir, qardaş Türkiyə xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir!

Əziz dostum, qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizə və qardaş Türkiyə xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Türkiyənin hərtərəfli yüksəlişindən, qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləyişindən və əldə etdiyi uğurlardan qürur duyuruq.

Xalqlarımızın qarşılıqlı inamı, etimadı və dəstəyi ilə həyata keçirdiyimiz birgə layihələrin ardıcıl şəkildə gerçəkləşməsini və perspektivlərini böyük məmnunluqla qeyd etmək istərdim. Ümidvaram ki, ən böyük sərvətimiz olan dostluq, qardaşlıq münasibətlərimizi bundan sonra da qoruyub saxlayacaq və gələcək nəsillərə ərməğan edəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Türkiyə xalqına sülh və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LASLO ŞOYOMA**

Hörmətli cənab Prezident!

Macarıstan Respublikasının elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Macarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Macarıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

## AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, qarşıdakı illərdə xalqlarımızın mənafeləri baxımından dostluq və əməkdaşlıq münasibətlərimizin daha da inkişafına nail olacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına sülh və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbayan Respublikasının Prezidenti**

Bakı, *14 oktyabr 2005-ci il*

# AZƏRBAYCAN GƏNCLƏRİNİN IV FORUMUNUN YEKUN TOPLANTISINDA NİTQ

*Heydər Əliyev adına saray*

*14 oktyabr 2005-ci il*

Əziz gənclər!
Əziz dostlar!

Bu gün çox gözəl bir gündür. Azərbaycan Gənclərinin IV Forumu öz işini yekunlaşdırır. Bir neçə ay ərzində Azərbaycanın müxtəlif rayonlarında, şəhərlərdə gənclərin tədbirləri keçirilmişdir. Bu tədbirlər bir daha göstərdi ki, Azərbaycan gəncləri çox fəaldırlar. Azərbaycanın hərtərəfli inkişafında çox böyük işlər görürlər, öz töhfələrini verirlər. Bu çox sevindirici bir haldır. Çünki Azərbaycanın hərtərəfli inkişafında Azərbaycanda demokratik proseslərin gücləndirilməsində cəmiyyətimizin bütün təbəqələri fəal iştirak etməlidir. Gənclər cəmiyyətimizin ən fəal hissəsidir.

Bu gün burada videokadrlar nümayiş etdirildi. O günləri biz bir daha nəzərdən keçirdik. Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev gənclərin fəallaşmasında çox mühüm və böyük rol oynamışdır. Məhz onun təşəbbüsü ilə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaranmışdır. O, gənclərlə daim ünsiyyətdə idi, tədbirlərdə daim iştirak edir, öz dərin tövsiyələrini verir, inkişaf istiqamətlərini müəyyən edirdi. Bu gün Azərbaycanda çox güclü gəncliyin yaranması, əlbəttə, o illərdə görülmüş işlərin nəticəsidir.

Azərbaycanın çox gözəl və böyük uğurları, çox gözəl perspektivləri vardır. Biz hamımız xatırlayırıq ki, Heydər Əliyev hələ 1970-ci illərdə bu məsələyə çox böyük diqqət gös-

tərirdi. Minlərlə gənc o illərdə güzəştli şərtlərlə Sovet İttifaqının ən mötəbər təhsil ocaqlarına göndərilirdi. Eyni zamanda, Azərbaycanda məhz 1970-ci illərdə hərbi məktəb yaranmışdır. Naxçıvanski adına hərbi məktəbin yaranması bu gün Azərbaycanın nizami ordusunun güclənməsinə xidmət edir. Bütün bu tarix bizə bəllidir.

Bu gün Azərbaycanın qarşısında yeni çağırışlar, yeni məsələlər dayanır. Qarşıda duran bütün vəzifələri uğurla icra etmək, ölkəmizi daha da zənginləşdirmək, çox güclü iqtisadi potensial yaratmaq bizim hamımızdan asılıdır. Təsadüfi deyil ki, forumun əsas mövzusu Azərbaycanda gedən sosial-iqtisadi proseslərin təhlili və inkişaf perspektivləridir.

Bu baxımdan Azərbaycan bölgədə və dünyada ən sürətlə inkişaf edən ölkədir. Artıq beynəlxalq maliyyə qurumları öz bəyanatlarında bunu etiraf edir və vurğulayırlar. İqtisadi inkişaf sürətinə görə Azərbaycan dünyada ən qabaqcıl ölkədir. Ölkənin iqtisadiyyatı bu ilin əvvəlindən 20 faiz artıbdır, gələn il daha da yüksək sürətlə artacaqdır. Azərbaycanda güclü sənaye potensialı, güclü infrastruktur yaranır, müxtəlif sosial layihələr uğurla icra olunur.

Bu ilin may ayında və oktyabr ayında Bakıda və Gürcüstanda Heydər Əliyevin əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi ilə əlaqədar tədbirlər keçirilmişdir. Bu kəmər Azərbaycanı uzun illər ərzində iqtisadi cəhətdən gücləndirəcəkdir. Azərbaycanda fəaliyyət göstərən Dövlət Neft Fondu iqtisadi inkişaf üçün artıq çox güclü bir amildir. Bildiyiniz kimi, Neft Fondunun əsas gəlirləri və vəsaiti gələcək nəsillər üçün əmanət kimi saxlanılacaqdır. Əminəm ki, gələcək nəsillər, gənclər bu gözəl imkanlardan səmərəli istifadə edəcəklər.

Gəncləri narahat edən problemlər də var. Biz də o problemləri bilirik və çalışırıq ki, onları həll edək. İlk növbədə, məşğulluq problemidir. Bu, Azərbaycan üçün çox ciddi bir problemdir. Təkcə bizim üçün yox, bütün postsovet ölkələri üçün ciddi problemdir. Ancaq Azərbaycanda bu problem öz

həllini tapmaqdadır. Son iki il ərzində 300 min yeni iş yerinin açılması bunun əyani sübutudur. Dünyada analoqu olmayan bir hadisədir ki, qısa müddət ərzində 300 min yeni iş yeri açılsın. Onu da bilirik ki, bu iş yerlərində, yeni yaranmış müəssisələrdə, fabriklərdə gənclər çox fəal çalışırlar.

Gəncləri narahat edən digər problem onların məişət şəraitidir, ev problemidir. Biz çalışırıq ki, bu məsələyə də imkan daxilində öz köməyimizi göstərək. Əminəm ki, bu yaxınlarda İpoteka kreditləşməsi haqqında atılmış addımlar bu istiqamətdə çox ciddi dönüş yaradacaqdır. İpoteka krediti yolu ilə yeni mənzillərin alınması mümkün olacaqdır. Artıq bu məqsəd üçün müəyyən vəsait ayrılıbdır. Əlbəttə, bizim iqtisadi imkanlarımız genişləndikcə, bu məqsədlərə daha böyük həcmdə vəsait ayrılacaqdır.

Bütövlükdə, Azərbaycanda iqtisadi inkişaf çox sürətlə gedir. Bildiyiniz kimi, 2006-cı ilin büdcəsi təxminən 4 milyard dollara çatacaqdır. Bir neçə il bundan əvvəl büdcəmiz 1 milyard dollara da çatmırdı. Bu gün 4 milyard olub. Büdcə artımı 70 faiz səviyyəsindədir. Bu da dünyada heç bir başqa ölkədə baş vermir. Azərbaycan bu baxımdan da çox nadir addımlar atır. Bütün bunların arxasında real işlər, real islahatlar dayanır.

Azərbaycanda sosial-iqtisadi islahatlar 1990-cı illərin ortalarında başlamışdır. Azərbaycan o vaxt böhrandan çıxandan sonra ölkədə güclü və köklü iqtisadi islahatlar aparılmağa başlandı. 1996-cı ildən başlayaraq, ölkə iqtisadiyyatı orta hesabla hər il 10–11 faiz artırdı. Bu il isə Azərbaycan sıçrayış etdi. Ötən aylarda artım 20 faiz, gələn illərdə isə 25–30 faiz olacaqdır. Bu onu göstərir ki, iş olan yerdə nəticə də var.

Biz öz siyasətimizi düşünülmüş, uzunmüddətli iqtisadi strategiya əsasında, çox güclü əsaslarla, elmi yanaşmalarla qururuq və həyata keçiririk.

Regionların inkişaf proqramı çox sürətlə yerinə yetirilir. Mənim bölgələrə çoxsaylı səfərlərim bir də onu göstərir ki, Azərbaycanın elə bir bölgəsi yoxdur ki, orada inkişaf getməsin. Evlər, binalar tikilir, yollar, xiyabanlar salınır, yeni iş yerləri

açılır. Bu gün Azərbaycanın bütün regionlarında canlanma var. Bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, Azərbaycanın hərtərəfli inkişafı üçün əsas, böyük şəhərlərlə yanaşı, rayonlar, kəndlər də inkişaf etməlidir. Biz miqrasiyanın qarşısını almalıyıq. Amma təbii yollarla. Bölgələrdə iş yerlərinin açılması, infrastrukturun yaranması, elektrik stansiyalarının tikilməsi, yolların salınması, qaz xətlərinin, su kəmərlərinin çəkilməsi, artezian quyularının qazılması – bütün bunlar bölgələrdə yeni şərait yaradır. Əgər bölgələrdə, rayonlarda elektrik enerjisi ilə problem varsa, orada heç vaxt nə müəssisə yaranacaq, nə də hansısa ciddi bir iqtisadi layihə həyata keçiriləcəkdir.

Ona görə bölgələrin inkişafı bu gün bizim prioritet məsələmizdir. Azərbaycan əhalisinin 50 faizi aqrar sahədə fəaliyyət göstərir. Əlbəttə, gənclər də aqrar sahədə işləyirlər. Ona görə aqrar islahatların növbəti mərhələsi də başlanmışdır. Bu da ondan ibarətdir ki, fermer təsərrüfatlarına, kəndlilərə güzəştli şərtlərlə kreditlər ayrılır və daha da böyük məbləğdə veriləcəkdir. Gələn il büdcədən bu məqsədlərə təxminən 80 milyon dollar sərf olunacaqdır. Digər mühüm məsələyə – kənd təsərrüfatı texnikasının təminatı məsələsinə də biz artıq baxmışıq, qərarlar qəbul edilibdir. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaranması bu məsələni həll edəcəkdir. Bu il 20 milyon dollar, gələn il 30 milyon dollar dəyərində yeni, müasir texnika gətirilib kəndlilərə paylanılacaqdır. Həmçinin gübrənin alınması məsələsində də çox ciddi dönüş yaranacaqdır.

Beləliklə, görülən bütün tədbirlərin nəticəsində bir-iki ildən sonra kənd təsərrüfatı istehsalı kəskin şəkildə artacaqdır. Bu bizə ilk növbədə, imkan yaradacaq ki, insanlar o sahədə daha da fəal olsunlar, işlə təmin edilsinlər. Digər tərəfdən, Azərbaycanın iqtisadiyyatı çoxşaxəli istiqamətdə inkişaf edəcəkdir.

Azərbaycan qədim neft ölkəsidir və neft bizim milli, təbii sərvətimizdir. Azərbaycan nefti Azərbaycan xalqına məxsusdur və onun rifah halının yaxşılaşmasına xidmət edir. Uzun illər bundan sonra da belə olacaqdır. Bizim iqtisadiyyatımızın əsas

sektoru neft, qaz sektorudur. Amma eyni zamanda, qeyri-neft sektorunun inkişafı bu gün ən başlıca məsələlərdən biridir. Neft sənayesində görülən işlər, Heydər Əliyevin neft strategiyasının uğurla icra olunması, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin tikintisi artıq gerçəklikdir, reallıqdır. Baxmayaraq ki, müəyyən mərhələdə bəzi qüvvələr bunun əleyhinə çıxmağa cəhd göstərmişlər. Artıq bu mərhələ bitdi.

İndi bizim bütün səylərimiz qeyri-neft sektorunun inkişafına yönəldilməlidir. Bu sahədə kənd təsərrüfatı, xidmət sektoru, inşaat sektoru, Azərbaycanda yeni sənaye sahələrinin yaranması məsələləri prioritet xarakter daşıyır. Bütün bu işlərdə, əlbəttə, ən fəal qüvvə gənclərdir. Bu proseslərdə daha fəal iştirak etmək üçün gənclərin təhsil problemləri də yüksək səviyyədə həll olunmalıdır. Biz bu məsələyə çox böyük diqqət göstəririk. İnkişaf etmiş ölkələrin təcrübəsini çox yaxşı öyrənmişik, bilir və görürük ki, harada təhsilə böyük diqqət göstərilirsə, çoxlu vəsait ayrılırsa, o ölkələrdə inkişaf da var. Bu gün dünyada inkişafı təmin edən təbii ehtiyatlar, yaxud da başqa milli sərvətlər deyil, ilk növbədə bilik, savad, yeni texnologiyadır. Bilik, savad, müasirlik – buna nail olmaq üçün Azərbaycanda təhsilin səviyyəsi mütləq qalxmalıdır.

Eyni zamanda, bizim gənclərimiz xaricdə təhsil almaq üçün yeni imkanlar əldə etməlidirlər. Bu barədə artıq müvafiq göstərişlər verilibdir. Bilirəm ki, bu proses indi gedir. Gənclər müəyyən yollarla xarici ölkələrin çox tanınmış təhsil ocaqlarına daxil olurlar, orada oxuyurlar, yaxşı savad alırlar. Bəziləri qayıtmır, oxuduqları ölkələrdə qalıb işləyirlər. Mən bunda da bir problem görmürəm. Çünki bu bizə lazımdır. Gec-tez qayıdacaqlar. Çünki azərbaycanlıları səciyyələndirən xüsusiyyətlərdən biri də odur ki, biz öz doğma Vətənimizə, torpağımıza çox bağlıyıq.

Xaricdə yaxşı təhsil almaq, işləmək, böyük təcrübə toplamaq bizim ölkəmiz üçün lazımdır. Ancaq ölkə daxilində təhsil problemlərini daha sürətlə həll etmək üçün mütləq ciddi

addımlar atılmalıdır. Bilirsiniz ki, bu yaxınlarda yeni məktəblərin tikintisi prosesi başlanmışdır. Qısa müddət ərzində 150-dən çox məktəb tikilibdir. Hər bir məktəbdə kompüter sinfi yaradılır. Azərbaycanda 4500-ə qədər məktəb var. Onun hər birində kompüter sinfi yaradılmalı və internetə qoşulmalıdır. Hər bir şagird dünyada gedən bütün proseslərdən xəbərdar olmalıdır. Onun yeni texnologiyalara çıxışı olmalıdır. Əlbəttə, ümidvaram ki, bir neçə ildən sonra Azərbaycanda bu baxımdan çox böyük irəliləyiş əldə ediləcəkdir.

Bir sözlə, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Yenə də bütün əsas məsələlər hər bir ölkənin iqtisadi potensialına bağlıdır. Ona görə də bizim iqtisadi məsələlərə göstərdiyimiz bu diqqət başadüşüləndir. Bu, təkcə diqqət deyil, real işlərdir, real addımlardır. İki il bundan əvvəl prezident seçkiləri ərəfəsində deyilmiş bütün sözlər, verilmiş bütün vədlər, qarşıya qoyduğumuz bütün vəzifələr bu gün Azərbaycanda yerinə yetirilir. Uğurla, bəlkə də daha yüksək sürətlə icra olunur. Bu isə deməyə əsas verir ki, bu meyllər gələcəkdə də davam edəcəkdir. Əgər biz iki il ərzində verdiyimiz bütün sözlərə sadiq qalmışıqsa, deyilənləri həyata keçirmişiksə, deməli, növbəti illərdə də bütün işlərimiz proqram şəklində icra olunacaqdır.

Eyni zamanda, çox sevindirici haldır ki, bu gün Azərbaycanda cəmiyyətdə və xüsusən gənclərdə vətənpərvərlik ruhu çox yüksək səviyyədədir. Bu məni çox sevindirir. Azərbaycan müharibə şəraitində yaşayır və bizim torpaqlarımız işğal altındadır. Bütün səylərə baxmayaraq, apardığımız bütün danışıqlara baxmayaraq məsələ öz həllini tapmır. Əlbəttə, biz müəyyən diplomatik uğurlardan danışa bilərik, haqlı olaraq danışa bilərik. Çünki müxtəlif beynəlxalq təşkilatların bu məsələyə yanaşmasında dönüş müşahidə olunur. Müxtəlif beynəlxalq təşkilatlar – Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, digər təşkilatlar Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox önəmli, birmənalı qərarlar çıxarmış və qətnamələr qəbul etmişdir.

Əlbəttə, bütün bunlar bizim siyasi və diplomatik uğurlarımızdır. Amma əgər nəticə yoxdursa, bu uğurların heç bir əhəmiyyəti də yoxdur. Biz bütün imkanlardan istifadə etməyə çalışırıq. Danışıqlar prosesindən istifadə etməyə çalışırıq. Mən demişəm, bir də deyirəm, danışıqlar prosesi nə qədər ki, tükənməyib, imkanlar tükənməyib, biz bu sülh danışıqlarına sadiq qalacağıq. Amma bizim səbrimizin həddi var, tükənməz deyildir. Biz nə vaxta qədər bu danışıqları aparacağıq?! Nə vaxta qədər vəziyyət dəyişməz olaraq qalacaqdır?! Bu bizim haqqımızdır. Azərbaycanın ərazi bütövlüyü bütün Dünya Birliyi tərəfindən qəbul edilir, dəstəklənir və buna birmənalı yanaşma var. Eyni zamanda, məsələ öz həllini tapmır. Bunun səbəbləri müxtəlifdir. Mən bu barədə çox danışmaq istəməzdim.

Amma mən tam əminəm ki, əgər biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etmək istəyiriksə, danışıqlarla bərabər, Azərbaycanda ordu quruculuğuna böyük diqqət göstərilməlidir. Bu mənim seçkiqabağı platformamın tərkib hissəsi idi və iki il bundan əvvəl bəyan etmişdim ki, əgər xalq mənə etimad göstərib prezident vəzifəsinə seçərsə, ordu quruculuğuna böyük diqqət göstəriləcəkdir. Nəticələr göz qabağındadır. Əgər 2004-cü ildə hərbi büdcəmiz 170 milyon dollar idisə, 2006-cı ildə 600 milyon dollar olacaqdır. Bəyan etmişəm ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Siz də yaxşı bilirsiniz ki, mənim dediyim bütün sözlər həyatda öz əksini tapır. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Azərbaycanda daha güclü ordu yaranacaqdır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olmalıdır və biz doğma torpaqlarımızı azad etməliyik.

Mən bu gün bu kürsüdən Azərbaycan əsgərini, Azərbaycan gənclərini salamlamaq istəyirəm. Bu gün səngərdə, sərhəddə Azərbaycan torpaqlarını, sərhədlərini qoruyan əsgərlərə öz salamlarımı çatdırıram, onlara öz hörmətimi, məhəbbətimi ifadə edirəm.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün, əlbəttə ki, idman amili də çox mühüm yer tutur. İdman artıq dünyada böyük bir ictimai, siyasi məsələyə çevrilibdir. Bildiyiniz kimi, Azərbaycanda uzun illərdir ki, bu sahəyə böyük diqqət göstərilir. 2000-ci ildən başlayaraq, Azərbaycan Milli Olimpiya Komitəsi böyük bir proqramla, təşəbbüslə çıxış etdi, Azərbaycanın hər bir bölgəsində müasir olimpiya komplekslərinin tikintisi haqqında qərar verildi. Mən çox şadam ki, Azərbaycanın bütün bölgələrində bu iş çox geniş vüsət alıb, müasir idman kompleksləri tikilir və rayonlarda yaşayan gənclər ən yüksək dünya səviyyəsinə uyğun olan şəraitdə məşq edirlər, idmanla məşğul olurlar. Bu proqram davam etdirilir. İndi rayonlarda yeni idman kompleksləri tikilir. Bu, gənclərin sağlamlığını təmin edəcəkdir.

Eyni zamanda, Azərbaycanın idman şöhrəti də yüksəklərə qaldırılır. İdmançılarımızın bütün beynəlxalq yarışlarda nə qədər medal, nə qədər mükafat aldıqlarını bu gün nazir öz məruzəsində dedi. Hər dəfə bizim dövlət himnimiz səslənəndə, hər dəfə bayrağımız qaldırılanda hər bir azərbaycanlı qürur hissi keçirir. Mən gəncləri, uşaqları idmanla daha da fəal məşğul olmağa çağırıram. Bu həm sağlamlıq deməkdir, həm də nizam, intizam deməkdir. İdmanla məşğul olan uşaqlar pis vərdişlərdən uzaq olurlar və çox gözəl vətəndaş kimi yetişirlər. Onlarda çox gözəl dünyagörüşü yaranır, vətənpərvərlik ruhu çox yüksək səviyyədə olur.

Əziz dostlar!

Mən bir məsələyə də toxunmaq istəyirəm. Çox şadam ki, Azərbaycan gəncləri ölkəmizin ictimai-siyasi həyatında çox fəal iştirak edirlər. Bu çox təqdirəlayiq bir haldır. Mən hesab edirəm ki, gənclər irəliyə daha da inamla getməlidirlər, müvafiq dövlət, hökumət orqanlarında gənclərə böyük yer ayrılmalıdır, onlara inam olmalıdır. Çünki bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir. Bugünkü gənclər bir neçə ildən sonra Azərbaycanın bütün idarəetmə sistemində əsas rol oynayacaqdır. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək

lazımdır ki, onlar işləsinlər, gözəl təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyət üçün hazır olsunlar.

Eyni zamanda, gənclər siyasi proseslərdə fəal iştirak edirlər. Bu da çox sevindirici haldır. Bildiyiniz kimi, parlament seçkilərində də gənclər fəal iştirak edirlər. 2000-dən artıq namizəd qeydiyyatdan keçib və bu özlüyündə onu göstərir ki, cəmiyyətdə parlament seçkilərinin şəffaf, ədalətli keçirilməsinə böyük inam var. Mən hesab edirəm ki, həm qeydiyyat mərhələsi uğurla başa çatıb, həm də təşviqat-təbliğat kampaniyası uğurla gedir. Şübhə etmirəm ki, noyabrın 6-da keçiriləcək parlament seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirəcək və Azərbaycan xalqı dəstəklədiyi namizədə səs verəcəkdir. Mən gəncləri daha da fəal olmağa çağırıram. Çünki parlament seçkiləri Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycan demokratiya yolu ilə çox inamla addımlayır. Azərbaycanda demokratik cəmiyyətin, hüquqi dövlətin yaranması bizim başlıca məqsədimizdir. Mən yenə də beynəlxalq təcrübəyə qayıtmaq istəyirəm. Biz dünyada gedən prosesləri çox yaxşı izləyirik, görürük ki, harada tərəqqi, inkişaf varsa, o yerdə demokratik cəmiyyət mövcuddur. Mən tam əminəm ki, ölkədə nə qədər neft, qaz, başqa təbii ehtiyatlar olsa belə, əgər ölkə azad deyilsə, demokratiya tam bərqərar edilməyibsə, həmin ölkənin gələcəyi o qədər də uğurlu olmayacaqdır.

Azərbaycanda ölkəmizi həm siyasi, həm iqtisadi cəhətdən hərtərəfli inkişaf etdirmək üçün bütün şərait var. Bizim zəngin təbii ehtiyatlarımız var, çox əlverişli coğrafi vəziyyətimiz var. Azərbaycanın bölgədə və dünyada coğrafi-siyasi və coğrafi-strateji əhəmiyyəti günü-gündən artmaqdadır. Ölkəmizdə çox gözəl insan potensialı var, savadlı insanlar var, demokratik cəmiyyət qurulur. Azərbaycan dünyəvi ölkədir və biz çalışmalıyıq ki, bütün bu proseslərə daha da güclü təkan verək. Əgər biz bu amillərdən hər hansı birini ümumi konteksdən çıxarsaq, onda biz uğur qazana bilmərik. Eyni zamanda, kasıb ölkədə, yoxsullar olan ölkədə tam şəkildə demokratik cəmiyyətin qurulması da mümkün deyildir. Çünki əgər insanlar kasıbdırsa, əgər yoxsulluq, işsizlik şəraitində

yaşayırsa, onları tamamilə başqa məsələlər düşündürür. Ona görə biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Güclü iqtisadi bazanın yaradılması eyni zamanda ölkənin normal demokratik inkişafına zəmin yaradır və onu müəyyən edir.

Mən hesab edirəm ki, Azərbaycan cəmiyyətində bu məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Biz hamımız istəyirik ki, ölkəmiz müasirləşsin, yeniləşsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, hər bir vətəndaş azad olsun, cəmiyyətimiz inkişaf etsin və Azərbaycan bölgədə öz liderlik mövqelərini daha da möhkəmləndirsin. Bu indi də belədir. Bu gün də Azərbaycanın iştirakı, yaxud da razılığı olmadan bölgədə heç bir məsələ həll edilə bilməz, heç bir layihə həyata keçirilə bilməz. Bu bizim nailiyyətimizdir. Dünyada bizim önəmimiz artır. Azərbaycan hər cəhətdən örnək ölkə ola bilər və olmalıdır. Mənim məqsədim budur.

Prezident kimi, mən bu yüksək məsuliyyəti öz üzərimə götürərkən bunu bəyan etmişdim. Bəyan etmişdim ki, mən Azərbaycan xalqına xidmət edəcəyəm, Azərbaycanın milli maraqlarını qoruyacağam, onları hər şeydən üstün tutacağam, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi işində öz səylərimi əsirgəməyəcəyəm, xalqın iradəsinə, xalqın dəstəyinə arxalanaraq doğma Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Mən vaxtınızı çox almaq istəmirəm. Bir şeyi də demək istəyirəm, bilirsiniz ki, mənim gənclərə xüsusi münasibətim var. Bir neçə il bundan əvvəl mən də özümü gənc hesab edirdim və siyasətə gələndə gənc idim. Ancaq illər keçir, sonra adam baxanda ki, artıq sən gənc deyilsən, əlbəttə, bir az təəssüflənir. Mən artıq yaş baxımdan gənc sayıla bilmərəm. Amma bilin ki, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram. Sizə cansağlığı, uğurlar arzulayıram.

Sağ olun.

## «LUKoyl» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev «LUKoyl» şirkətinin prezidenti Vahid Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Vahid Ələkbərov dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, icazə verin, «Azərbaycan – səxavətli diyarım» kitabını Sizə təqdim edim. Ölkənin, Azərbaycan cəmiyyətinin inkişafından, dəyərlərindən bəhs edən bu kitab «LUKoyl» şirkəti tərəfindən hazırlanmışdır və əminəm ki, bu nəşr digər belə kitabların işıq üzü görməsinə də təkan verəcəkdir.*

*Prezident İlham Əliyev belə qiymətli kitabın hazırlanmasına görə minnətdarlığını bildirərək dedi ki, sizin şirkət Azərbaycanda neft sənayesi ilə yanaşı, müxtəlif sahələrdə, o cümlədən xeyriyyəçilik işlərində, sosial sahədə də fəal iştirak edir. Şirkətiniz tərəfindən hazırlanmış dərin məzmunlu bu kitab Azərbaycan haqqında tam təəssüratın yaranmasına xidmət edir.*

*Vahid Ələkbərov dedi ki, bu gün biz Azərbaycan Dövlət Neft Akademiyasında olduq. Tələbələrdə biliyə, təhsilə böyük maraq, çiçəklənən Azərbaycanda yaşamağa böyük həvəs hiss etdim. Sizin səyləriniz, fəaliyyətiniz, ökədə hər sahədə varisliyin olması Azərbaycan xalqının gələcək inkişafı və firavanlığının təminatıdır.*

*Prezident İlham Əliyev vurğuladı ki, mühüm məqam ondan ibarətdir ki, gənclər yaxşı təhsil almadan uğur qazanmağın mümkün olmadığını dərk edirlər. Müasir şəraitdə, bazar iqti-*

*sadiyyatının mövcud olduğu bir dövrdə, geniş dünyagörüşü, bacarıq, bilik olmadan cəmiyyətdə layiqli yer tutmaq çətindir. Biz ölkədə təhsil sisteminin, xüsusilə orta məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində böyük işlər görürük. Növbəti iki ildə bütün orta məktəblərdə kompüter sinifləri yaradılacaq və bunlar şagirdlərin müasir informasiyaya yiyələnməsi üçün internet sisteminə qoşulacaqdır.*

*Azərbaycanda şagirdlərin neft və qaz sənayesi ilə əlaqədar ali təhsil müəssisələrinə maraqlarının artmasının çox mühüm olduğunu vurğulayan Vahid Ələkbərov dedi ki, şirkətimiz zəngin təcrübəsi olan Azərbaycan Dövlət Neft Akademiyasında təhsil almaq üçün 20 nəfər iraqlı tələbəni Bakıya gətirmişdir.*

## RUS SOYDAŞLAR BEYNƏLXALQ ŞURASI İDARƏ HEYƏTİNİN SƏDRİ, «YÜZİLLİYİN MESENATI» BEYNƏLXALQ XEYRİYYƏ FONDU RƏYASƏT HEYƏTİNİN ÜZVÜ QRAF PYOTR ŞEREMETYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rus Soydaşlar Beynəlxalq Şurası İdarə Heyətinin sədri, «Yüzilliyin mesenatı» Beynəlxalq Xeyriyyə Fondu Rəyasət Heyətinin üzvü qraf Pyotr Şeremetyevi qəbul etmişdir.*

*Qraf Şeremetyev dövlətimizin başçısına müraciətlə* dedi ki, *mən ilk dəfədir Sizin gözəl şəhərinizdəyəm və* burada olmaq *mənim üçün xoşbəxtlikdir. Fransa Senatının prezidenti cənab Ponsöle dünən mənə zəng* etdi, o, Sizin böyük dostunuzdur *və Sizə ən səmimi salamlarını çatdırdı. Cənab Ponsöle Sizi Parisdə gözlədiyini* bildirdi.

*Prezident İlham Əliyev* dedi ki, *mən Parisə hər iki səfərim zamanı cənab Ponsöle ilə görüşmüşəm və* onu *Azərbaycana səfərə dəvət etmişəm. Ümid edirəm ki, burada, yaxud da Parisdə* onunla *yenidən görüşəcəyəm. Xahiş edirəm ki, mənim salamlarımı cənab Ponsöleyə çatdırasınız.*

*Bakıya səfərinin* onda *xoş təəssürat yaratdığını* bir daha *vurğulayan* qonaq *paytaxtımızdakı* pravoslav kafedral *kilsəsinin yenidən bərpa edilməsindən* sevinc *duyduğunu söylədi. Cənab Pyotr Şeremetyev Bakı şəhərində aparılan böyük* tikinti *işlərinin də diqqəti cəlb* etdiyini bildirdi.

*Azərbaycan haqqında dünyada və* Avropada *yetərincə məlumat olmadığını, ölkəmiz barədə həqiqətlərin* daha *geniş*

yayılmasının vacibliyini nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşayır və onların arasında mehriban münasibətlər, dini və etnik tolerantlıq mövcuddur. Bu baxımdan Azərbaycan bir çox ölkələrə nümunə ola bilər.

İsmayıllı rayonundakı İvanovka kəndini misal gətirən dövlətimizin başçısı hökumət tərəfindən həmin kəndin əhalisinə göstərilən diqqət və qayğıdan bəhs etdi.

Cənab Pyotr Şeremetyev bütün bunları Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin siyasətinin uğurlu nəticəsi kimi dəyərləndirdi. Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycana yenidən səfər edəcəkdir.

# XƏZƏRİN İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ SƏDRİ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Xəzərin İşlənilməsi üzrə Məsləhət Şurasının sədri Yan Leşlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənab Yan Leşli dedi ki, biz Azərbaycanda hasilat sənayesində şəffaflıq məsələsini, regionda enerji sektorunda görülən işləri və digər məsələləri müzakirə etmək niyyətindəyik.*

*Cənab Prezident, hasilat sənayesində şəffaflıq sahəsində Sizin gördüyünüz işlərin çox böyük əhəmiyyəti var. Ona görə də neftin qiymətinin artması, neftdən gələn gəlirlərin xərclənməsi və perspektivləri barədə Sizinlə fikir mübadiləsi aparmaq bizim üçün çox əhəmiyyətlidir.*

*Dövlətimizin başçısı dedi ki, Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir. Ölkəmizdə Neft Fondunun yaranması ilə əlaqədar bu işlər uğurla gedir. Biz siyasətimizi elə aparırıq ki, insanlar bu Fonda toplanan vəsaitin həcmi və xərclənməsi barədə şəffaf məlumata malik olsunlar. Ölkəmizdə bu sahədə həyata keçirdiyimiz işlər çox faydalıdır. Neft Fondunun vəsaitinin tənzimlənməsi üzərində şəffaf nəzarət mexanizmi mövcuddur. Biz gələcəkdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik.*

## ABŞ-ın «NEW YORK TİMES», «LOS ANGELES TİMES» QƏZETLƏRİNİN, «BLOOMBERG» İNFORMASİYA AGENTLİYİNİN VƏ «DOW JONES/CNBC» TELEKANALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*18 oktyabr 2005-ci il*

**M ü x b i r: Bu gün bizi qəbul etdiyinizə görə təşəkkür edirik.**

**P r e z i d e n t:** Eşitdiyimə görə, artıq bir müddətdir ki, Azərbaycandasınız. Bu çox vacib bir məsələdir. Belə ki, bu sizə ölkəmizdə gedən prosesləri, əhalinin necə yaşamasını öz gözlərinizlə görmək imkanı verir.

**«N e w Y o r k T i m e s»: Cənab Prezident, Sizə bir neçə sualımız var. İlk sualımız Neft Fondu ilə bağlıdır. Fondun fəaliyyətini necə dəyərləndirirsiniz, Fonda nə qədər gəlir daxil olmuşdur və bu gəlirlər hansı sahələr üzrə bölüşdürülür?**

**P r e z i d e n t:** Neft Fondunun yaradılması neft strategiyamızın vacib elementlərindən biri olmuşdur. Neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Fond çox müasir və şəffaf quruluşa malikdir və onun fəaliyyəti və gəlirləri haqqında məlumatlar müntəzəm olaraq dərc edilir. Bu çox vacib bir məsələdir, belə ki, uğur qazanmaq, ölkəni inkişaf etdirmək və gəlirlərdən lazımi qaydada istifadə etmək üçün maksimum dərəcədə şəffaflığın təmin edilməsi zəruridir. Fond üzərində beynəlxalq audit həyata keçirilir və o, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu da daxil olmaqla, beynəlxalq maliyyə təşkilatları ilə yaxından əməkdaşlıq edir.

Buna görə də belə hesab edirəm ki, Neft Fondunun fəaliyyəti ölkə iqtisadiyyatının gələcəkdə çoxşaxəli inkişafı üçün olduqca vacib rol oynayacaqdır. Neft və onun qiymətindən asılı olmamaq üçün Neft Fondunun vəsaitindən istifadə edərək iqtisadiyyatın digər sahələrinin inkişafına kömək göstərməliyik. Eyni zamanda, qeyd etmək istəyirəm ki, Azərbaycan Böyük Britaniyanın hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur və bu təşəbbüsə regionda təkan verilməsi istiqamətində göstərdiyimiz fəaliyyət ABŞ və Böyük Britaniya tərəfindən yüksək qiymətləndirilmişdir. Son beş ildə Neft Fondunun açıq və şəffaf şəkildə idarə olunması sahəsində təcrübəmiz mövcuddur və hesab edirəm ki, bu işi uğurla həyata keçiririk.

**«New York Times»: Neft Fondunda toplanmış gəlirləri necə xərcləmək fikrindəsiniz? Əsas investisiyalar hansı sahələrə yönəldiləcəkdir?**

**Prezident:** Deməliyəm ki, neftdən əldə olunan gəlirlərin, sadəcə, toplanması deyil, eyni zamanda bölüşdürülməsinin də şəffaflığının təmin edilməsi olduqca vacibdir. Neft Fondunun gəlirlərinin nə miqdarda və hansı sahələrə xərclənməsi barədə qərarın qəbul edilməsi səlahiyyəti parlamentə məxsusdur. Parlament Neft Fondunun gəlirlərinin necə istifadə edilməsi haqqında qərarı büdcəni müzakirə edən zaman qəbul edir. Şəxsən mən gəlirlərin tarazlı şəkildə bölüşdürülməsinin tərəfdarıyam.

İlk növbədə, toplanmış gəlirlərin böyük bir hissəsinə toxunmamalı, gələcək nəsillər üçün strateji ehtiyat kimi saxlamalıyıq. Belə ki, neft yataqlarındakı ehtiyatlarımız tükəndiyi təqdirdə, bu gəlirlər bizə strateji vəsait kimi lazım olacaqdır. İkincisi, təbii ki, biz ölkənin bütün infrastrukturunu – yolları, elektrik stansiyalarını, su və qaz paylaşdırıcı sistemləri yeniləşdirməli, yeni xəstəxanalar, məktəblər və sair inşa etməliyik. Bu proses artıq başlamışdır. İndi ölkənin bütün yerlərində böyük tikinti və yeni infrastrukturun yaradılması işləri gedir.

Bununla yanaşı, sosial siyasətimizi və həyat tərzinin daha yaxşı olmasını arzu edən insanların gözlədiklərini nəzərə alaraq bu gəlirləri sosial sahəyə də yönəltməliyik. Mən əmək haqlarını, pensiyaları və digər mühüm sosial məsələləri nəzərdə tuturam. Prezident vəzifəsinə seçildiyimdən keçən iki il ərzində Azərbaycanda minimum əmək haqqının məbləği üç dəfə artırılmışdır. Eyni zamanda, son iki il ərzində əsas etibarilə regionlarda və böyük əksəriyyəti qeyri-neft sektorunda olmaqla, 300 min yeni iş yerinin açılmasına nail olmuşuq. Bu o deməkdir ki, neft gəlirlərindən müdrik şəkildə istifadə etmək strategiyamız hələ Bakı–Tbilisi–Ceyhan boru kəməri fəaliyyətə başlamamış ölkəyə və xalqa xeyir gətirir.

**«D o w J o n e s / C n b c»: Dünən Azərbaycanın Neft Fondunda bizə bildirdilər ki, gələn il Fondun gəlirlərinin 1 milyard ABŞ dollarına çatması gözlənilir. Buna görə də sual vermək istərdim ki, gələn il üçün Neft Fondunun gəlirlərinin xərclənməsi ilə bağlı hər hansı konkret planınız varmı?**

**P r e z i d e n t:** Bir neçə il bundan əvvəl dövlətimizin büdcəsi bir milyard dollar idi, gələn il isə bu məbləğ 4 milyard dollara yaxınlaşacaqdır. Yəqin məlumatınız vardır ki, hazırda Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsidir. Cari ilin 9 ayı ərzində ümumi daxili məhsulun artımı təxminən 21 faiz olmuşdur və çox əhəmiyyətli bir haldır ki, ümumi daxili məhsulun ən böyük hissəsi qeyri-neft sektorunun payına düşür. 2005-ci ilin 9 ayı ərzində sənaye məhsulu istehsalının artımı 26 faiz olmuşdur. Öz növbəsində, əhalinin gəlirləri 27 faiz artmışdır. Büdcəmiz misli görünməmiş artıma malikdir. Belə ki, 2006-cı il üçün bu artım 67 faiz təşkil edəcəkdir. Bu zaman belə bir faktı da nəzərə almaq lazımdır ki, 2004-cü illə müqayisədə 2005-ci il dövlət büdcəsinin artımı 46 faiz olmuşdur. Başqa sözlə desək, biz gələnilki artıma sıfırdan deyil, əvvəlki ilə nisbətən əldə etdiyimiz böyük artımdan başlayaraq nail oluruq. Belə bir vəziyyətdə Neft Fondundan büdcəyə köçürmələr heç də həlledici rol oynamır. Bu köçürmələr bizə həyata keçirilməsi 2–

3 il vaxt tələb edən layihələrin icrasına başlamaq üçün vacibdir. Biz yeni elektrik stansiyaları inşa etməliyik. Bilirik ki, bu işin görülməsi üçün bir və yaxud da iki il tələb olunacaqdır. Ona görə də vəsaiti indidən ayırırıq ki, qış mövsümündə enerji çatışmazlığı problemini iki il müddətinə tamamilə həll edək. Bakı şəhərinin su təchizatı sistemi inkişaf etdirilməlidir. İndi bu sahədə vəziyyət yaxşı deyil. Bu məqsədlə ölkənin şimal–qərb rayonlarından Bakı şəhərinə uzunluğu 300 kilometrdən çox olan su kəməri çəkmək fikrimiz vardır. Bu, olduqca böyük layihədir və buna görə də boru kəmərini 2–3 il müddətində istismara vermək üçün bu gündən işə başlamalıyıq. Bütün bunlar vəsait tələb edir. Buna görə də fikirləşməliyik ki, Neft Fondundan nə qədər vəsait götürək ki, makroiqtisadi sabitlik pozulmasın. Çünki bildiyiniz kimi, xərclər çox olduqca inflyasiyanın baş verməsi təhlükəsi vardır. Bununla yanaşı, insanların gündəlik tələbatını da təmin etməliyik.

**«D o w J o n e s / C n b c»: Deyə bilərsinizmi, hazırda Neft Fondundan nə qədər vəsait götürülə bilər? Bu qızıl orta xətt müəyyənləşdirilmişdirmi ki, Neft Fondundan hansı miqdarda vəsaitin götürülməsi makroiqtisadi sabitliyin pozulmamasına təminat verə bilər, yoxsa bu hələ müəyyən edilməyib?**

**P r e z i d e n t:** Hesab edirəm ki, bu məsələ üzərində işləmək lazımdır. Çünki bu, Azərbaycan üçün tamamilə yeni bir vəziyyətdir. Əvvəllər bizim daimi problemimiz maliyyə vəsaitini haradan əldə etmək və büdcəni necə artırmaq olmuşdur. İndi isə qarşımızda tamamilə başqa problem durur: maliyyə vəsaitindən necə istifadə edək ki, bu, inflyasiyaya səbəb olmasın. Buna görə də hökumət çox dəqiq işləməli və biz beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlığımızı davam etdirməliyik. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə çox səmərəli əməkdaşlığımız mövcuddur və bizim bu təşkilatların tövsiyələrinə, həmçinin Azərbaycan ilə oxşar vəziyyətdə olan dövlətlərin təcrübəsindən yararlanmağa ehtiyacımız vardır.

**«B l o o m b e r g»: Sənayenin hansı sahələrinə daha çox diqqət ayırmaq istəyirsiniz? Başqa sözlə, iqtisadiyyatda hökumətin əsas prioritetləri hansı sahələrdir: emal sənayesi, turizm və ya digərləri?**

**P r e z i d e n t:** Əlbəttə, bizim prioritetlərimiz mövcuddur və onlardan biri kənd təsərrüfatının inkişafıdır. Azərbaycan əhalisinin 50 faizi kənd yerlərində yaşayır. Yaxşı potensialımız, torpağımız, iqlimimiz var. Demək olar ki, bütün kənd təsərrüfatı məhsullarını istehsal edirik. O cümlədən neft kimyası sənayesi prioritetlərimizdən biridir. bu sahədə xammal ehtiyatlarımız mövcuddur və deməliyəm ki, neft kimyası sənayesi məhsullarının satılması hətta neft satışından daha sərfəlidir. Əlbəttə ki, infrastrukturun inkişafı, yolların inşa edilməsi də vacib bir məsələdir. Belə ki, bu, regionların inkişafına səbəb olacaqdır. Yollar olmadan turizmi və ya iqtisadiyyatın hər hansı başqa sahəsini inkişaf etdirmək mümkün deyildir. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Buna görə də şəxsən mən hökumətin yeni sənaye sahələrinin yaradılmasına birbaşa müdaxiləsinin tərəfdarı deyiləm. Biz bu işlər üçün özəl sektora kömək göstərməliyik. Əgər hökumətin üzərinə müəyyən maliyyə öhdəliyi götürməsinə ehtiyac olacaqsa, bunu edəcəyik. Lakin ölkənin qeyri-neft sahələri özəl sektor tərəfindən inkişaf etdirilməlidir və biz buna nail olmağa çalışırıq. Büdcəmizdə sahibkarlığın inkişafı üçün böyük miqdarda vəsait nəzərdə tutulmuşdur və bu vəsaiti müxtəlif şirkətlər arasında bölüşdürürük. İmtiyazlı əsaslarla kreditlər verilir, nəticədə yeni iş yerləri yaradılır. Bununla yanaşı, yuxarıda qeyd etdiyim sahələrin inkişafı da özəl sektor tərəfindən həyata keçiriləcəkdir. Hazırda Azərbaycanda özəlləşdirmə prosesi gedir və iqtisadiyyatı yenidən dövlət nəzarətinə qaytara bilmərik. Biz istiqamətlər müəyyənləşdirə və zəruri infrastruktur – yollar, elektrik stansiyaları və sair – təmin edə bilərik.

**«D o w J o n e s/C n b c»: Rusiya və Qazaxıstanda olan ekspertlərin bir çoxu bildirir ki, onların ölkələrində dövlətin xüsusilə enerji sektoruna daha çox cəlb olunması prosesi**

**gedir. Bu bir çox səbəblərdən baş verir və əminəm ki, Sizin bu barədə məlumatınız vardır. Mənə maraqlıdır ki, belə bir proses Azərbaycanda da gedirmi? Soruşmaq istəyirəm ki, dövlət ilə neft şirkətləri arasında vaxtilə bağlanmış sazişlərlə əlaqədar hazırda mübahisələr ortaya çıxırmı və fikrinizcə, dövlətlə neft şirkətləri arasında münasibətlərdə hansısa dəyişikliyin edilməsi zərurəti varmı?**

**P r e z i d e n t:** Azərbaycan adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə regionda aparıcı dövlətdir. Son on il ərzində Azərbaycana 25 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da böyük hissəsini xarici investisiyalar təşkil etmişdir. Bunun əsas səbəblərindən biri odur ki, biz xarici sərmayəçilərlə münasibətlərimizi qanun çərçivəsində, qarşılıqlı etimad və hörmət əsasında qurmuşuq. Bu günə qədər neft sektorunda imzalanmış sazişlərlə bağlı heç bir yeni danışıqlar aparılmamış və onlara dəyişikliklər edilməmişdir. Biz xarici sərmayəçilərin fəaliyyəti üçün tam təminat yaratmışıq və eyni zamanda ölkəmiz üçün maksimum faydalı şərtlər müəyyənləşdirmişik. Hasilatın pay bölgüsünə dair xarici şirkətlərlə bağlanmış bütün sazişlər parlament tərəfindən təsdiq edildikdən sonra qanun qüvvəsinə malik olur və buna görə də bu sazişlərdə heç kim dəyişiklik apara bilməz. Hətta kimsə belə bir fikrə düşsə də, bunu etmək mümkün deyildir. Xarici şirkətlərlə etimad yaratmaq və yaxşı münasibətlər qurmaq üçün illər tələb olunur, lakin bir yalnış addım bütün bunları alt-üst edə bilər. Xoşbəxtlikdən, bu günə kimi belə bir yalnış addım atmamışıq və əminəm ki, bundan sonra da atmayacağıq, xarici tərəfdaşlarımız ilə yuxarıda qeyd etdiyim prinsiplər – qarşılıqlı etimad və qarşılıqlı hörmət əsasında əməkdaşlığı davam etdirəcəyik.

**«L o s A n g e l e s T i m e s»: Qarşıdan gələn parlament seçkiləri ilə bağlı sual vermək istərdim. Bəzi yerlərdə qeyd edirlər ki, bu seçkilər Gürcüstan, Ukrayna və Qırğızıstandakı seçkilərlə eyni ssenaridə inkişaf edə bilər. Bu mümkündürmü? Əgər mümkün deyilsə,**

**Azərbaycandakı vəziyyət həmin dövlətlərdən nə ilə fərqlənir? Bu baxımdan dünən Rəsul Quliyevin Ukraynada tutulması nə qədər əhəmiyyətli hadisədir? Nə üçün onun Bakıya gəlməsinə icazə verilmədi? Bu məsələ ilə bağlı başqa bir sualım da var. Bəzi analitiklər deyirlər ki, Sizin tərəfdarlarınız arasında parçalanma vardır. Köhnə qvardiya adlanan müəyyən qüvvələr daha avtoritar üsullardan istifadə etməklə nəzarəti əldə saxlamağa çalışır, yeni islahatçılar isə, sözün əsl mənasında, ədalətli seçkilərin keçirilməsini istəyirlər. Deyirlər ki, Sizin rəğbətiniz gənc nəslin tərəfindədir, lakin onlara tam dəstək vermək imkanınız yoxdur.**

**P r e z i d e n t:** İlk növbədə deməliyəm ki, Azərbaycanda çox şey qonşu dövlətlərdən fərqlidir. Hər bir dövlətin öz inkişaf yolu, öz problemləri, öz nailiyyətləri var. Gürcüstandakı, Ukraynadakı seçkiqabağı siyasi, iqtisadi vəziyyəti Azərbaycan ilə müqayisə etsəniz, fərqləri özünüz də görərsiniz. Əsas fərq ondadır ki, Azərbaycan xalqı bizim siyasəti dəstəkləyir. Ölkəmizdə çox nüfuzlu beynəlxalq təşkilatlar da daxil olmaqla, müxtəlif qurumlar tərəfindən həyata keçirilmiş rəy sorğularının nəticələrinə görə prezident kimi, məni əhalinin 70 faizindən 77 faizə qədəri dəstəkləyir. Adətən, belə şəraitdə inqilab baş vermir. İnqilab o zaman baş verir ki, prezident, hökumət ilə xalq arasında dərin ziddiyyətlər olsun. Azərbaycanda isə belə hal yoxdur. Bundan əlavə, yuxarıda qeyd etdiyim kimi, Azərbaycan çox uğurlu iqtisadi və sosial inkişafa malik olan bir ölkədir. Beynəlxalq Valyuta Fondunun məlumatlarına görə, Azərbaycan ən dinamik inkişaf edən iqtisadiyyata malikdir. Mən 2003-cü ildən ölkəyə rəhbərlik edirəm. Yeni prezidentəm. Gürcüstan və Ukraynanın prezidentləri isə 10 ildən artıq idi ki, ölkələrinə rəhbərlik edirdilər. Eyni zamanda, deməliyəm ki, iki il bundan əvvəl üzərimə götürdüyüm bütün öhdəliklər həyata keçirilir, bütün vədlər icra olunur. 2003-cü ildə verdiyim elə bir vəd yoxdur ki, həyata keçirilməmiş olsun. Xalq bizə böyük dəstək verir. Uğurlu inkişaf proqramımız mövcuddur. İqtisadi,

sosail baxımdan, Azərbaycanın Avratlantik strukturlarına inteqrasiyası baxımından olduqca uğurlu siyasət həyata keçiririk. Qonşularımız ilə çox yaxşı münasibətlərimiz mövcuddur. Azərbaycan dünyanın ən böyük enerji layihəsi olan Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsinə nail olmuşdur. Əlbəttə ki, bütün bu amillər bizim mövqelərimizi və hakimiyyətimizi daha da gücləndirir.

Bunun əksinə olaraq, müxalifət qeyri-mütəşəkkil və zəifdir. Onların Azərbaycanda inqilab öncəsi vəziyyət yaratmaq səyləri uğursuzluğa düçar oldu, göstərdikləri cəhdlər, aldıqları maliyyə vəsaitləri öz faydasını vermədi. Məsələ «narıncı» və ya digər rəngdə deyil, xalqdadır. Azərbaycanda xalqın etimad göstərə biləcəyi müxalifət lideri yoxdur. Müxalifətin bütün liderləri 1990-cı illərin əvvəllərində hakimiyyətdə olmuş və onların hakimiyyəti tam uğursuzluqla başa çatmışdır. Onlar yalnız bir il ölkəni idarə edə bildilər, sonra isə Bakıdan qaçdılar. Əgər müxalifətdən soruşsanız ki, 1993-cü ilin iyun ayında baş vermiş hadisələr zamanı harada idilər, sizə belə cavab verəcəklər ki, qaçıb getmişdilər. İsa Qəmbər rahat yerdə gizlənmiş, Əli Kərimov Bakıdan qaçmış, digərləri də qeyb olmuşdular. Əgər ağır şəraitdə xalqı idarə etmək cəsarətiniz və gücünüz yoxdursa, insanlar sizə necə inana bilər?! 2003-cü ilin prezident seçkilərindən sonra baş vermiş zorakılıq hallarına da toxunmaq istərdim. Müxalifət həmin hadisələr zamanı insanları küçələrə çıxarmış və bu insanlar da zorakılıq törətmiş, əllərinə keçəni dağıtmışlar. Soruşmaq lazımdır, bu vaxt müxalifət liderləri harada idilər? Onlar evlərində gizlənirdilər. Sizcə, belə insanlara dəstək vermək olarmı? 10 ildən artıq bir dövrdə müxalifətdə olan, heç bir uğur qazanmayan, bütün seçkilərdə, 1993, 1998, 2003-cü illərin prezident seçkilərində, 1995 və 2000-ci illərin parlament seçkilərində məğlub olmuş bu müxalifət bundan sonra xalqın dəstəyinə ümid edə bilməz.

Müxalifətin güclənməsi üçün onun daxilində dəyişiklik lazımdır. Onlar partiya daxilində gənc və saf insanları irəli çəkməlidirlər. Lakin belə desək, köhnə müxalifət buna imkan vermir. Bu sizin sualın birinci hissəsinin cavabıdır. Bir daha

təkrarlayıram ki, Gürcüstan və Ukraynada baş vermiş hadisələr ilə Azərbaycan arasında hər hansı bənzətmənin aparılması mümkün deyildir və ölkəmizdə qarşıdan gələn parlament seçkiləri ilə bağlı hər hansı bir problem görmürəm. Müxalifət tərəfindən zorakılıq hərəkətləri edilə bilər, qanunsuz əməllərə cəhd göstərilə bilər. Lakin bunların qarşısı çox ciddi şəkildə və qanun çərçivəsində alınacaqdır.

Sualınızın ikinci hissəsi ilə bağlı demək istəyirəm ki, Rəsul Quliyevin Bakıya gəlmək xahişi heç də rədd edilməmişdir. Bu yenə də müxalifətin ictimai rəyi azdırmaq cəhdidir. Hesab edirəm ki, dünən «Azərbaycan Hava Yolları» Dövlət Konserni açıq şəkildə bəyanat vermiş və Rəsul Quliyevin içərisində olduğu təyyarənin Bakıya enmək üçün xahiş etdiyi icazəyə rədd cavabının verilmədiyini təsdiq edən sənədlər təqdim etmişdir. Biz icazəyə necə rədd cavabı verə bilərik ki, hazırda Rəsul Quliyevi ölkəmizə ekstradisiya etməyə çalışırıq? O, Ukraynada tutulmuşdur, çünki İnterpol tərəfindən axtarışdadır və onun tutulması üçün biz Ukrayna tərəfinə müraciət etmişdik. Dünən gecə Respublika Prokurorluğunun və digər hüquq-mühafizə orqanlarının nümayəndələrindən ibarət xüsusi bir qrup Ukraynaya uçmuşdur. Onlar indi Kiyevdədirlər və bu şəxsin dərhal Azərbaycana ekstradisiya edilməsi üçün Ukrayna rəsmiləri ilə birgə iş aparırlar. Rəsul Quliyev indi Simferopolda həbsdədir. Dünən onlar təyyarənin Bakıya enməsi üçün icazə istəmiş və 2 saatdan az bir müddət ərzində bu icazə verilmişdir. Buna görə də bu gün mən «New York Times» qəzetində icazə xahişinin rədd edilməsi barədə məlumatı görəndə çox təəccübləndim. Xahiş edirəm ki, məlumatları düzgün əks etdirəsiniz və yalnış xəbərlər verməklə ictimai rəyi azdırmayasınız. O cinayətkardır, beynəlxalq mafiyanın başçılarından biridir. R.Quliyevin cinayət əməlləri haqqında yalnız Azərbaycanda deyil, başqa ölkələrdə də xəbərdardırlar. Buna görə də o, ədalət mühakiməsi qarşısında dayanmalı və etdiklərinə görə cavab verməlidir. R.Quliyev bir siyasətçi də olmamışdır. İqtisadiyyatın müəyyən sahələri ilə məşğul olmuşdur. Biz onu

gözləyirik, onun mümkün qədər tez bir vaxtda ədalət mühakiməsinə cəlb edilməsi üçün əlimizdən gələni edirik.

Sonuncu sual hakimiyyət–daxili münasibətlər ilə bağlı idi. Bu məsələ də şişirdilmişdir. Azərbaycan Respublikasının prezidenti seçilərkən açıq şəkildə bildirmişdim ki, işlərini lazımi qaydada icra edənlər vəzifədə qalacaq, icra edə bilməyənlər isə vəzifələrindən gedəcəklər. Artıq bir çox dəyişikliklər edilmişdir. Misal üçün deyə bilərəm ki, onlarca yerli icra hakimiyyəti başçıları vəzifələrindən kənarlaşdırılmışdır. Hazırda regionların əksəriyyətinə mənim tərəfimdən təyin edilmiş şəxslər rəbhərlik edirlər. Eyni zamanda, icra hakimiyyətinin müxtəlif səviyyələrində, hökumətdə və digər strukturlarda da dəyişiklik olmuşdur. Bu, normal bir prosesdir. Mən radikal dəyişikliyin, heç bir fərq qoyulmadan bütün şəxslərin vəzifələrindən uzaqlaşdırılmasının əleyhinəyəm. Hər bir məsələyə fərdi qaydada yanaşmaq lazımdır. Əlbəttə ki, bu proses davam edir, çox sakit və səmərəli formada dəyişikliklər baş verir. Bir prezident kimi, mənim hakimiyyətim çox güclüdür. Gənclər və yaşlılar arasında fərq qoymuram. Məsələ yaşda deyil, baxışlarda, hər bir şəxsin fəaliyyətinin səmərəliliyi və nəticələrindədir.

**«N e w Y o r k T i m e s»: Burada köhnə qvardiya dedikdə, yaşdan daha çox mentalitet nəzərdə tutulur. Yeni nəsil siyasi islahatların həyata keçirildiyi sistemin lehinə olduğu halda, yaşlı nəsil daha mərkəzləşmiş sistemin tərəfdarı olur.**

**P r e z i d e n t:** Xeyr. Müxtəlif insanların fərqli mentaliteti olur. Yenə də demək istərdim ki, köhnə qvardiya ilə yeni qvardiya kimi bölgünün aparılmasının əleyhinəyəm. Bəzən yeni nəsil və ya islahatçı kimi baxılan insanlar islahatlardan çox uzaq, köhnə qvardiya hesab edilən insanlardan daha mühafizəkar olurlar. Bizdə belə bir bölgü yoxdur və mən tabeliyimdə olan insanlara bu prizmadan yanaşmıram. Qeyd etdiyim kimi, ən əsas məsələ səmərəlilik və işin nəticəsidir.

**«N e w  Y o r k  T i m e s»: Növbəti sualım Avropa Şurasının Parlament Assambleyası tərəfindən Azərbaycanda qarşıdan gələn seçkilərlə bağlı bu yaxınlarda qəbul edilmiş məruzə ilə əlaqədardır. Bildiyimiz kimi, Sizin cari ilin may ayında seçkilərlə bağlı imzaladığınız sərəncam Qərb ölkələri, müxtəlif təşkilatlar tərəfindən yüksək qəbul edilmişdir. Avropa Şurası səsvermə zamanı əl barmağının mürəkkəbə batırılmasına, dinc toplaşmaq azadlığının təmin edilməsinə, seçkilərdə qanun pozuntuları ilə bağlı iddiaların araşdırılmasına dair tövsiyələr vermişdir. Məruzədə qeyd edilir ki, prezident tərəfindən seçkilərlə bağlı mütərəqqi sərəncam qəbul edilmişdir, lakin regionlarda bu sərəncamın pozulması ehtimalları mövcuddur. Bu məsələyə necə baxırsınız?**

**P r e z i d e n t:** Bu sərəncama əsas etibarilə əməl edilir. Lakin müəyyən istisnaların olması mümkündür. Çünki insanların özlərini yeni şəraitə uyğunlaşdırmaları üçün zamana ehtiyac vardır. Lakin sizə deyə bilərəm ki, regionlarda bu sərəncam bir qayda olaraq həyata keçirilir. Sərəncam azad və ədalətli seçkilərin keçirilməsinin əməli bir vasitəsidir. Avropa Şurasının və ölkəmizdəki ATƏT missiyasının bəyanatlarına görə, hazırkı Seçki Məcəlləsi və seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam əsasında demokratik, azad və ədalətli seçkilər keçirmək mümkündür. İstər Seçki Məcəlləsində, istərsə də qeyd olunan sərəncamda seçkilər zamanı manipulyasiyanın qarşısını almağa yönəldilmiş bir çox vasitələr nəzərdə tutulmuşdur. Seçkilərin necə keçirilməsinə nəzarət etmək üçün exit-pollar təşkil ediləcək, digər tədbirlər görüləcəkdir. Seçkiləri izləmək məqsədi ilə Azərbaycana misli görünməmiş sayda müşahidəçi gələcəkdir. Beynəlxalq müşahidəçilərin sayı təxminən 1500 nəfər olacaqdır. Bununla yanaşı, bütün siyasi partiyalardan minlərlə müşahidəçi də seçkilərin gedişini izləyəcəkdir. Seçki məntəqələrinin sayı isə təxminən 4500-dən müəyyən qədər artıqdır. Yəni bütün seçki məntəqələrini müşahidə edərək, seçkilərin necə keçirilməsinə nəzarət etmək mümkündür. Heç nəyi gizlətmək fikrimiz yoxdur və

biz azad və ədalətli seçkilərin keçirilməsinin tərəfdarıyıq. Bir prezident və Yeni Azərbaycan Partiyasının sədri kimi, tam şəkildə əminəm ki, partiyamız seçkilərdə qələbə qazanacaqdır. Belə bir inamı mənə keçirilən rəy sorğuları və ölkədəki ümumi vəziyyət verir. Barmağın mürəkkəbə batırılması məsələsinə gəldikdə, deyə bilərəm ki, biz Avropa ölkələrinin təcrübələrindən yararlanmağa çalışırıq. Avropa Şurasına üzv olduqdan sonra Azərbaycan üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirmişdir. Barmağın mürəkkəbə batırılması məsələsi Azərbaycan qarşısında əvvəllər heç zaman qaldırılmamışdır və bu təcrübədən Avropa Şurasının üzvü olan ölkələrdə heç vaxt istifadə edilməmişdir. Ona görə də nə üçün buna bizim ölkədən başlanmalıdır? Əgər Avropa ölkələrindən hansısa bunu münasib ideya kimi qəbul edərsə, biz də bu təcrübəni lazımi qaydada öyrənib ondan yararlanarıq. Lakin indiyə kimi buna heç bir ehtiyac olmamışdır. Bir daha qeyd edirəm ki, Seçki Məcəlləsi və imzaladığım sərəncam azad və ədalətli seçkilərin keçirilməsi üçün yaxşı imkan yaradır.

**«L o s  A n g e l e s  T i m e s»: Bu məsələni davam etdirmək istərdim. Bəzi tənqidçilər bildirirlər ki, müxalifətin şəhərin mərkəzi həssələrində mitinqlər keçirməsinə imkan verilmirsə, seçkilər demokratik, azad və ədalətli ola bilməz. Nə üçün onlara Azadlıq meydanında və ya buna bənzər digər yerlərdə mitinq keçirməyə imkan vermirsiniz və müxalifətin şəhərin mərkəzində icazəsiz mitinq keçirməsinin qarşısının alınması zamanı polisin həddən artıq güc tətbiq etməsi ilə bağlı ittihamlara necə cavab verərdiniz?**

**P r e z i d e n t:** İlk növbədə qeyd etmək istəyirəm ki, seçki təşviqatının başlandığı ilk günlərdən dinc toplaşmaq azadlığı hər yerdə – Bakıda və Azərbaycanın bütün regionlarında təmin edilmişdir. Vəziyyət bütün regionlarda yenə də eyni şəkildədir. Müxalifətin problem yaratdığı yeganə yer Bakı şəhəridir. Hakimiyyətin dinc toplaşmaq azadlığını təmin etmək niyyəti səmimidir və bunu öz əməllərimizlə də nümayiş etdiririk. Bizim heç yerdə heç bir problemimiz yoxdur. Bakıdakı vəziyyət isə

belədir. Seçki təşviqatı başlayanda bütün siyasi qüvvələr öz mitinqlərini Qələbə meydanında keçirməyə başladılar. Bu meydan belə tədbirlər üçün nəzərdə tutulmuş ümumi bir yerdir. Mən özüm və rəhbərlik etdiyim Yeni Azərbaycan Partiyası mitinqini Qələbə meydanında keçirmişdim. Müxalifətin də bir sıra mitinqləri bu meydanda olmuşdur. Bu zaman heç bir problem ortaya çıxmamış, hər hansı zorakılıq, qarşıdurma baş verməmiş, mitinqlər dinc şəraitdə keçirilmişdir. Həmçinin sizə deyə bilərəm ki, əvvəlki seçki təşviqatları dövründə bütün mitinqlər Qələbə meydanında keçirildi. Söhbət 2000-ci ilin parlament, 2003-cü ilin prezident seçkilərindən gedir. Nə üçün 2003-cü ildə Qələbə meydanı münasib hesab olunurdu, indi isə yox? Nə baş verib? Nə üçün bu meydan əvvəlki təşviqatlar zamanı müsbət qəbul edilirdi, lakin sonra isə bilə-bilə ki, şəhər rəsmiləri imtina edəcəklər, başqa yerlər tələb olunmağa başlandı? Onlar böyük insan izdihamı olan, ticarətin gur olduğu, Qələbə meydanından daha kiçik və metroya bir çox yerlərdən girişi olan meydanlar tələb edirlər. Müxalifət bilirdi ki, belə meydanlarda onların mitinq keçirməsinə icazə verilməyəcəkdir. Məsələ bundadır ki, müxalifət onların Qələbə meydanında keçirdikləri mitinqlərə getdikcə daha az insan toplaşdığını görürdü. Onların bu mitinqlərə 10 mindən 50 minə qədər insan toplamaq vədləri puça çıxdı. Biz bilirdik ki, müxalifət bunu heç zaman edə bilməyəcəkdir. Buna görə də onlar başqa taktika, qarşıdurma taktikasını seçiblər. İndi müxalifətin məqsədi müxtəlif televiziya kanallarında görünmək, adlarını dünya mətbuatında hallandırmaq və Azərbaycanı dinc toplaşmaq azadlığının təmin olunmadığı dövlət kimi təqdim etməyə çalışmaqdır. Bu, tamamilə yalnış bir addım, açıq təxribatdır və hamı bunu bilməlidir. Eyni zamanda, polisin həddən artıq güc tətbiq etməsi barəsindəki fikrinizlə razılaşmıram. Belə ki, polis çox dözümlü, ehtiyatlı olmağa çalışır, böyük qarşıdurma olmadan belə, qayda-qanunun bərpa edilməsinin mümkünlüyünü nümayiş etdirir. Bununla yanaşı, hər şey qanun çərçivəsində olmalıdır. İlk qarşıdurma baş verdikdə danışıqlar

keçirildi və müxalifətin mitinqlər keçirməsi üçün Qələbə meydanından başqa daha dörd meydan müəyyən edildi. Başqa sözlə, indi belə tədbirlərin keçirilməsi üçün beş meydan var. Bu meydanlar şəhərin mərkəzindən uzaqda deyildir. Misal üçün, buradan maşınla Qələbə meydanına 10 dəqiqəyə getmək olar. Bəzi jurnalistlərin qəzetlərində yazdıqları kimi, bu meydan heç də Bakıdan kənarda yerləşmir. Beləliklə, bütün bu hərəkətlər müxalifətin zorakılıq törətmək, döyülmək, sonra isə Azərbaycanda demokratiyanın mövcud olmaması barədə fikirlər yaratmağa yönəldilmiş qəsdən edilən əməlləridir.

**«N e w  Y o r k  T i m e s»: Əgər müxalifət zəifdirsə, mitinqlərinə on min insanı yığa bilmirsə, nə üçün onların televiziya önünə çıxmasına, polis ilə qarşıdurmaların televiziya vasitəsilə göstərilməsi nəticəsində Azərbaycanın nüfuzuna xələl gətirilməsinə imkan verirsiniz? Düzgün olmazdımı ki, bu halda müxalifətin istədiyi hansısa yeri onların mitinq keçirməsi üçün ayırasınız?**

**P r e z i d e n t:** Müxalifətin niyyəti mitinq keçirmək deyil. Əgər onlara indi can atdıqları meydanda mitinq keçirməyə icazə verilərsə, gələn həftə yeni bir şey icad edəcəklər. Bu halda olan, ümumiyyətlə, belə tədbirlər üçün tamamilə münasib olmayan yerlərdə mitinq keçirməyə icazə verilməsini tələb edəcəklər. Buna görə də müxalifətin əsl niyyətinin nə olduğunu anlamalıyıq. Müxalifətin niyyəti dinc yığıncaqlar keçirmək, seçkilərdə iştirak etmək və deputat yerləri qazanmaq deyildir. Onlar bəyan edirlər ki, seçkilərin nəticəsində hakimiyyətə gələcəklər. Necə? Onlardan soruşmaq lazımdır ki, belə deyəndə nəyi nəzərdə tuturlar? Azərbaycan prezidentli respublikadır. Parlament seçkiləri vasitəsilə heç kəs hakimiyyətə gəlmir. Burada prezident seçkiləri nəticəsində qalib gələrək, hakimiyyətə gəlmək mümkündür. Ölkəmizdə mövcud olan sistemdə hətta parlamentdə müəyyən yerləri qazanmaq belə, hakimiyyətə gəlmək demək deyildir. Belə olduqda, müxalifət nəyi nəzərdə tutur və nə planlaşdırır? Bu aydındır. Onlar seçkilərdən sonrakı günə hazırlaşırlar. Müxalifət 6 noyabr tarixi

üçün deyil, 7 noyabr tarixi üçün hazırlaşır. Onlar regionda mövcud olan «inqilab əhval-ruhiyyəsi»ndən cuşa gəlmiş, artıq başqa yerlərdə istifadə olunmuş, gülünc görünən geyimləri əyinlərinə almışlar və belə fikirləşirlər ki, narıncı köynəkləri geyinməklə böyük inqilabçılara çevrilirlər. Əslində isə bu belə deyildir. Onlar çox gülünc və zəifdirlər. Mən şəxsən çox təəssüf edirəm ki, Azərbaycanda müxalifət belə bir vəziyyətdədir. Çünki bu həm də ölkə üçün rüsvayçılıqdır. Buna görə də artıq qeyd etdiyim kimi, biz müxalifətin niyyətlərini bilməli və realist olmalıyıq. Onlara təklif olunmuş yerlər bütün partiyalar, o cümlədən Yeni Azərbaycan Partiyası tərəfindən istifadə olunur və müxalifət bu mənada qanun çərçivəsində hərəkət etməlidir.

**«D o w J o n e s/C n b c»: Siz rəy sorğuları barədə danışır və bildirirsiniz ki, onun nəticələrinə görə, əhalinin 70 faizindən 77 faizinə qədəri Sizə dəstək verir. Bu rəy sorğularına əsaslanaraq rəhbərlik etdiyiniz partiya ilə müxalifət partiyalarının bu seçkilərdəki şansları, onların nə qədər səs qazana biləcəkləri barəsində nə deyə bilərsiniz? Əminliklə deyə bilərsinizmi ki, seçkilərin nəticəsindən asılı olmayaraq, müxalifət onu saxta hesab edəcək və küçələrə çıxmağa çalışacaqdır?**

**P r e z i d e n t:** Təəssüf ki, hadisələrin gedişi 2003-cü ildə baş vermiş hadisələrin builki seçkilərdən sonra da təkrarlanmasının mümkünlüyünü göstərir. Nə Azərbaycanda, nə də dünyada heç kəs şübhə etmirdi ki, prezident seçkilərində mən inamlı qələbə qazanmışdım. Lakin müxalifət seçkilərin saxtalaşdırıldığını bəyan edərək, iğtişaşlar törətməyə başladı. Yaxşı olardı onlardan soruşasınız ki, prezident seçkilərində hansınız qələbə qazanmışdınız? Hər biri deyəcəkdir ki, o özü qələbə qazanmış, səslərin 60 faizini toplamışdır. Bu isə ümumilikdə 200 faiz edəcəkdir. Ola bilsin ki, bu dəfə də eyni hadisə baş versin. Artıq bunun müəyyən əlamətləri barədə eşidirik və hesab edirəm ki, burada fəaliyyət göstərən beynəlxalq qurumlar da eşidirlər ki, seçkilərin nəticəsindən asılı olmayaraq, müxalifət onları saxta adlandıracaqdır. Proqnozlara

gəldikdə, bu barədə nə isə demək çox çətindir. Hazırda 125 deputat yeri uğrunda 2000-ə yaxın namizəd mübarizə aparır. Bu, misli görünməmiş bir rəqəmdir. Keçən parlament seçkilərində 400 namizəd iştirak edirdi. 2000 namizədin olması özlüyündə onu göstərir ki, insanlar seçki prosesinə inanırlar. Deputat yerləri uğrunda çoxlu bitərəf namizədlər mübarizə aparır. Bu səbəbdən də hansısa bir proqnoz vermək çox çətindir. Bununla yanaşı, hesab edirəm ki, Azərbaycan xalqı indi kimin parlamentdə təmsil olunmağa layiq olduğunu gözəl anlayır. Gördüyünüz kimi, seçki təşviqatı çox azad surətdə gedir. Namizədlər televiziya vasitəsilə tez-tez çıxış edirlər. Lakin namizədlər üçün qələbə qazanmaq olduqca çətin olacaqdır. Çünki bəzi seçki dairələrində bir yer uğrunda 20 namizəd mübarizə aparır.

**«B l o o m b e r g»: Müxalifətin gözlənilən iğtişaşlarının qarşısını almaq üçün hansı tədbirlər görüləcəkdir? Bu məqsədlə polis ilə yanaşı, hərbçilərdən də istifadə oluna bilərmi?**

**P r e z i d e n t:** Hesab etmirəm ki, buna ehtiyac olacaqdır. Fikrimcə, qayda-qanunun bərpa edilməsi üçün polisdən istifadə etmək kifayət edəcəkdir. Əvvəlki həftələrdə müxalifət tərəfindən həyata keçirilmiş müəyyən zorakılıq əməlləri açıq şəkildə göstərdi ki, polisin gücündən minimal şəkildə istifadə etməklə qayda-qanunu bərpa etmək mümkündür. Bu baxımdan hansısa bir problem görmürəm. Hər hansı bir ciddi problem o zaman meydana çıxa bilər ki, insanlar nədənsə məyus olsunlar və dəyişiklik istəsinlər. Azərbaycanda isə vəziyyət belə deyildir. Hətta 2003-cü ildə müxalifətin fəalları avtobusları saxlayıb onların pəncərələrini sındıranda və insanları nəqliyyat vasitələrindən yerə düşürdərək onları zorakılıq əməllərinə qoşmağa cəhd göstərəndə də insanlar onlara dəstək vermədilər. Ən vacibi budur. Buna görə də zorakılığa yol verən kiçik bir müxalifətçi qrup ölkənin sabitliyi və təhlükəsizliyinə hədə törədə bilməyəcəkdir.

**«N e w  Y o r k  T i m e s»: Biz müxalifətin başqa ölkələrdə baş vermiş inqilab ssenarilərindən ruhlanması**

**məsələsinə toxunduq. İnqilab təhlükəsi ilə üzləşmiş digər ölkələr müxalifətə təlim keçən xarici qeyri-hökumət təşkilatlarını kəskin tənqid etmişlər. Xarici qeyri-hökumət təşkilatları, xüsusilə Azadlıq evi, Milli Demokratiya İnstitutu kimi Qərb QHT-lərinin Azərbaycandakı fəaliyyətini necə qiymətləndirirsiniz?**

**P r e z i d e n t:** Bilirsiniz, daim dialoq aparmaq vacib bir məsələdir. Mənim şərik olmadığım, bəzən isə faktlara deyil, səhv məlumatlara əsaslanan yalnış fikirlər, baxışlar, rəylər ola bilər. Bəzən rəsmilərimiz ilə xarici QHT-lər arasında mübahisələr baş verir, lakin bu, normal bir şeydir. Biz onların fəaliyyətini hansısa bir formada məhdudlaşdırmırıq. Ümumilikdə, mən xarici qeyri-hökumət təşkilatlarının fəaliyyətini müsbət qiymətləndirirəm. Azərbaycan demokratiyanın bərqərar edilməsi yolunda inkişaf edən bir ölkədir. İqtisadi, siyasi, demokratik inkişaf baxımından firavan ölkəyə çevrilmək üçün gözəl imkanlarımız mövcuddur. Qeyri-hökumət təşkilatları isə istənilən demokratik cəmiyyətin vacib elementidir. Sovet İttifaqı zamanında və ya müstəqilliyimizin ilk dövründə Azərbaycanda belə təşkilatlar yox idi. Ölkədə mübarizə, vətəndaş müharibəsi gedir, itaətsizlik hökm sürürdü. Yalnız vəziyyət sabitləşdikdən sonra ölkə demokratik cəhətdən daha fəal surətdə inkişaf etməyə başladı. Buna görə də ümumilikdə mən qeyri-hökumət təşkilatlarının fəaliyyətini dəstəkləyirəm. Lakin bəzi qeyri-hökumət təşkilatları da mövcuddur ki, onların fəaliyyətində siyasət əsas yer tutur. Mənə elə gəlir ki, QHT-lər hər hansı siyasi qüvvənin tərəfini tutmamalıdırlar. Əgər onlar qeyri-hökumət təşkilatıdırlarsa, demək, eyni zamanda, qeyri-müxalifət təşkilatı olmalıdırlar. Bəzi hallarda müəyyən qeyri-hökumət təşkilatları müxalifət partiyalarının bir qurumu kimi fəaliyyət göstərir. Bu, aradan qaldırılarsa, gələcəkdə, ümumiyyətlə, bu sahədə hansısa bir problem olmayacaqdır.

**«N e w Y o r k T i m e s»: Fəaliyyətlərini belə şəkildə həyata keçirən təşkilatlar barəsində məlumatınız varmı?**

**P r e z i d e n t:** Bizdə belə məlumatlar var, lakin mən onların adlarını çəkmək istəməzdim. Hesab edirəm ki, özləri bilirlər ki, onlar kimlərdir. Ola bilsin ki, bu qeyri-hökumət təşkilatlarının müəyyən nümayəndələri bəzən bu və ya digər siyasi qüvvənin güclü tərəfdaşları kimi çıxış edirlər. Lakin mən bütünlükdə QHT-lər barəsində bunu deyə bilmərəm. Çünki müxtəlif təşkilatlarda işlərini lazımi qaydada həyata keçirməyən nümayəndələr ola bilər. Biz müəyyən insanların fəaliyyəti əsasında bütün təşkilat barəsində mühakimə yürüdə bilmərik.

**«B l o o m b e r g»: Belə bir məsələ var ki, Rusiya və İran kimi ölkələr seçkilərə təsir göstərmək istəyirlər. Bəzi azərbaycanlı müşahidəçilər xüsusilə İranla sərhəddə fundamentalizm, ekstremizm baxışlarının artdığını bildirirlər. Bununla bağlı vəziyyəti Siz necə qiymətləndirirsiniz?**

**P r e z i d e n t:** Xeyr. Bizə hər hansı bir təsir edilmir və bu istiqamətdə səylər də göstərilmir. Qonşularımız ilə münasibətlərimiz konstruktivdir. Biz mehriban qonşuluq siyasətinin tərəfdarıyıq və hesab edirəm ki, Rusiya və İran ilə aramızdakı münasibətlərdəki son proseslər onu göstərir ki, əlaqələr daxili işlərə qarışmamaq, qarşılıqlı hörmət, mehriban qonşuluq pinsipləri əsasında qurulanda hər iki tərəf bundan faydalanır. Hər iki ölkə ilə yaxşı iqtisadi əlaqələrimiz vardır və seçkilər ilə bağlı ölkəmizə hər hansı təsir göstərilməsi cəhdləri mövcud deyildir. Eyni zamanda deyə bilərəm ki, Azərbaycan öz imkanları əsasında yaşayışını təmin edə bilər. Mən ölkəmizin enerji, iqtisadi və siyasi imkanlarını nəzərdə tuturam. Başqa sözlə, biz hər hansı xarici yardımdan asılı deyilik. Təhlükəsizlik, hərbi məsələlərdə, enerji məsələlərində də asılılığımız yoxdur. Yalnız öz imkanlarımıza arxalanmaq bizim daimi siyasətimiz olmuşdur. Buna görə də hətta hansısa dövlət burada öz nufuzundan istifadə etməyə çalışsa belə, bu, asan olmayacaqdır.

**«B l o o m b e r g»: Ölkənizdə korrupsiyanın yüksək səviyyədə olmasını bildirirlər. Bu məsələ barəsində nə deyə**

**bilərsiniz? Digər bir sualım ARDNŞ barəsindədir. Onun özəlləşdirilməsinə dair keçmişdə söhbətlər gəzirdi. Bu məsələ hazırda nə yerdədir?**

**P r e z i d e n t:** ARDNŞ-nin özəlləşdirilməsi məsələsi heç zaman ortaya çıxmamışdır. Heç zaman heç bir hökumət və ya dövlət rəsmimiz ARDNŞ-nin özəlləşdiriləcəyini bildirməmişdir. Çünki neft ölkəyə və Azərbaycan xalqına məxsusdur. Bizim keçmişdə də belə planlarımız olmayıb, indi də yoxdur.

Korrupsiyaya gəldikdə, deməliyəm ki, belə bir problem mövcuddur, lakin o, bütün dövlətlərdə vardır. Keçmiş sovet ölkələrinə baxsanız, görərsiniz ki, korrupsiya bütün bu dövlətlər üçün ciddi problemə çevrilmişdir. Bu, totalitar, qərarların inzibati qaydada qəbul edildiyi sistemdən miras qalmış bir məsələdir. Korrupsiya ilə necə mübarizə aparmaq olar? Hesab etmirəm ki, inzibati vasitələr ilə bu işdə müsbət nəticələr əldə etmək mümkündür. Bürokratları dəyişməklə biz yalnız müvəqqəti, bir və ya iki aylıq səmərəli nəticə əldə edə bilərik. Sonra isə hər şey təkrarlanacaqdır. Mənim şəxsi inamıma görə, korrupsiya ilə güclü iqtisadi tədbirlər və mükəmməl qanunlar vasitəsilə mübarizə aparmaq mümkündür. Parlament tərəfindən korrupsiya ilə mübarizəyə dair qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Baş Prokurorluğu tərkibində korrupsiya ilə mübarizə aparmaq üçün xüsusi idarə yaradılmışdır. Eyni zamanda, genişmiqyaslı özəlləşdirmə siyasəti korrupsiyanın səviyyəsinin aşağı salınmasına imkan verəcəkdir. Misal üçün, Azərbaycanın özəl sektoruna baxsanız, burada korrupsiya hallarına rast gəlməyəcəksiniz. Öz növbəsində bildirməliyəm ki, Azərbaycanda ümumi daxili məhsulun 75 faizi özəl sektorun payına düşür. Bu isə o deməkdir ki, ümumi daxili məhsulun üçdə iki hissəsi korrupsiya hallarına məruz qalmır. Orta təbəqənin yaradılması, bürokratik aparatın ixtisar edilməsi və iqtisadiyyatın maksimal dərəcədə liberallaşdırılması korrupsiyanın səviyyəsinin əhəmiyyətli şəkildə aşağı salınmasını təmin edə bilər. Bu proses artıq başlamışdır. Bu barədə insanların özündən də soruşa bilərsiniz. İndi biz bu prosesi

sürətləndirməliyik. Lakin bunun üçün daha çox iqtisadi vasitələrə ehtiyac vardır. Əməkhaqları aşağı, imkanlar isə yüksək olarsa, korrupsiya halları baş verə bilər. Biz insanların həyat tərzini qaldırmalı, əməkhaqlarını artırmalıyıq və güclü ictimai nəzarəti təmin etməliyik. Yenidən demokratik inkişaf məsələsinə qayıdaraq bildirmək istərdim ki, bu, konkret halda ictimai nəzarət məsələsi əməli əhəmiyyətə malikdir. Belə ki, zəngin ola, böyük neft və qaz ehtiyatlarına malik ola bilərsiniz, lakin ictimai nəzarət və demokratik şərait olmazsa, daim bu problem ilə üzləşəcəksiniz. Biz bunu həll etməyə çalışırıq. Əminəm ki, vəzifədə olduğum müddətdə korrupsiyanın səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salınacaqdır.

**«D o w J o n e s/C n b c»: Yenidən seçkilər ilə bağlı sual vermək istərdim. Bildirdiniz ki, müxalifət ölkədə sabitliyi pozmağa cəhd göstərir, onlar 6 noyabr deyil, 7 noyabr barəsində düşünürlər. Təminat verə bilərsinizmi ki, bu, Azərbaycanın neft ixracına heç bir təsir göstərməyəcək?**

**P r e z i d e n t:** Hesab edirəm ki, siz bizim müxalifətin imkanlarını olduğundan bir balaca yüksək qiymətləndirirsiniz. Müxalifət öz fəaliyyətini, malik olduğu gücü şişirtməyə çalışır. Lakin hətta dünənki 17 oktyabr hadisəsi də göstərir ki, onların heç bir sosial bazası yoxdur. Yenidən «New York Times» qəzetində dərc edilmiş məqaləyə qayıdıram. Burada yazılır ki, Quliyevin on minlərlə tərəfdaşı onu qarşılamağa çalışırdı. Bu on minlərlə insanı harada görmüsünüz? Əgər bunu kimsə görübsə, xahiş edirəm, desin ki, harada? Orada yüz, ola bilsin ki, yüz əlli insan var idi. Əgər müxalifət sabitliyi pozmağa çalışarsa, buna uyğun hərəkət edəcəyik. Mən dedim ki, buna cəhdlər edilə bilər, lakin hesab etmirəm ki, bu cəhdlər baş tutsun.

**«B l o o m b e r g»: Siz bildirdiniz ki, özəl şirkətlər çox açıqdır və burada korrupsiya halları yoxdur. Mən ARDNŞ-nin özəlləşdirilməsi məsələsinə toxunduqda, onun bütünlükdə satılmasını nəzərdə tutmurdum. Rusiya və Qazaxıstanın dövlət şirkətləri səhmlərinin kiçik bir hissəsini satışa çıxarıblar və ümid edilir ki, bu da onların**

**fəaliyyətinin daha şəffaf olmasını təmin edəcəkdir. Bu barədə Siz də düşünürsünüzmü?**

**P r e z i d e n t:** Hesab edirəm ki, ARDNŞ sürətlə güclü beynəlxalq neft şirkətinə çevrilməlidir. Hazırda ARDNŞ-nin iki funksiyası vardır. İlk növbədə o, şirkət kimi fəaliyyət göstərir, bununla yanaşı, xarici şirkətlər ilə danışıqlarda dövləti təmsil edir və dövlətin adından sazişlər imzalayır. Biz ARDNŞ-də müəyyən islahatların aparılması barədə düşünməliyik. Neft yataqlarını isə özəlləşdirə bilmərik. Bu yataqlar dövlətə məxsusdur. Lakin hətta indi ARDNŞ-nin bəzi strukturları özəlləşdirilmişdir. Buraya xidmət, tikinti infrastrukturu sahəsindəki fəaliyyətə cəlb olunmuş strukturlar aiddir və onlar indi ARDNŞ ilə müqavilə əsasında əməkdaşlıq edirlər.

Lakin, əlbəttə ki, gələcəkdə ARDNŞ-nin beynəlxalq neft şirkətinə çevrilməsi çox önəmli olacaqdır. Azərbaycan enerji ehtiyatlarının istismarı üçün Rusiya və Qazaxıstandan fərqli yol seçmişdir. Biz neft sərvətlərimizi hissələrə bölərək bu sahədə fəaliyyət göstərən ayrı-ayrı şirkətlərin yaradılmasına imkan vermədik. Bizdə bütün səhmlər dövlətə məxsusdur. Hazırda ARDNŞ-nin gözəl imkanları vardır. O bir çox beynəlxalq layihələrdə səhmlərə malikdir. Bakı–Tbilisi–Ceyhan boru kəmərinin səhmlərinin 25 faizi, «Azəri»–«Çıraq»–«Günəşli» layihəsində səhmlərin 10 faizi «Şahdəniz» layihəsində səhmlərin 10 faizi, ARDNŞ-ə məxsusdur. Hazırda kreditlər sahəsində də ARDNŞ-nin göstəriciləri çox yaxşıdır. Belə ki, BTC layihəsinin maliyyələşdirilməsinin 70 faizi kreditlər hesabına həyata keçirilmişdir. Beləliklə, şirkət maliyyə vəsaitlərini toplaya və cəlb edə bilər. Lakin neftin qiymətlərinin hazırkı səviyyəsində öz maliyyə vəsaitlərini toplayır və hesab edirəm ki, bu il və gələn il o, yeni istismar işlərinə daha çox sərmayə qoyacaqdır.

**«N e w Y o r k T i m e s»: Bu sualım Azərbaycanın xarici siyasəti və ABŞ ilə münasibətləri ilə bağlıdır. Müstəqillik əldə etdikdən sonra ölkəniz istər iqtisadi, istərsə də siyasi sahədə Qərbə inteqrasiya yolunu seçmişdir. 11**

**sentyabr hadisəsindən sonra ABŞ bu regionda çox fəal olmuşdur. Bu tərəfdaşlığın gələcəyini necə görürsünüz? ABŞ-ın Azərbaycanın hərbi sahədəki imkanlarından istifadə etmək ehtimalları mövcuddurmu?**

**P r e z i d e n t:** Sizin də bildirdiyiniz kimi, Azərbaycanın müstəqilliyini qazanmasından sonra, xüsusilə 1994–95-ci illərdən başlayaraq, ölkələrimiz arasındakı münasibətlər çox uğurla inkişaf etdirilmişdir və biz hazırda əməkdaşlığımızın səviyyəsindən çox məmnunuq. ABŞ hökumətinin dəstəyi olmadan enerji layihələrimizin heç birinin həyata keçirilməsi mümkün olmazdı. Enerji sahəsində, iqtisadiyyatın inkişafı sahələrində, təhlükəsizlik məsələlərində və antiterror koalisiyasında ABŞ ilə çiyin-çiyinə əməkdaşlıq edirik. Azərbaycanda demokratik prosesin inkişaf etdirilməsi ilə bağlı apardığımız dialoq da əməkdaşlığımızın çox vacib elementidir. Biz daim ABŞ-ın dəstəyini hiss etmişik, indi də bunu hiss edirik və əlaqələrimizin bu səviyyəsindən çox məmnunuq.

Bildirdiyim kimi, müxtəlif sahələrdə əməkdaşlıq edirik. Bütün bu sahələrdə əlaqələrimizin səviyyəsi çox yüksəkdir. Fikrimcə, indi hamı üçün aydındır ki, Azərbaycan yalnız bəyanatlarında deyil, həmçinin praktiki işlərində etibarlı tərəfdaş olduğunu sübut etmişdir. Necə deyərlər, dost dar gündə tanınar. Gələcəkdə də əlaqələrimizi genişləndirmək fikrindəyik. Bu, Azərbaycan, onun milli maraqları, eyni zamanda, hesab edirəm ki, ABŞ üçün faydalıdır.

**«L o s A n g e l e s T i m e s»: Məndə belə bir təəssürat var ki, Rəsul Quliyevi və ya müxalifətdə olan digər şəxsləri dəstəkləyən insanların bir çoxu əsasən ölkənin neft gəlirlərindən şəxsən faydalanmadıqlarını hiss edən yoxsul adamlardı. Məndə eyni zamanda belə bir təəssürat da vardır ki, hökumətin neftdə kifayət qədər gəliri mövcuddur və bu gəlirlərdən genişmiqyaslı sosial məqsədlərlə istifadə etmək mümkündür. Bununla bağlı bilmək istərdim ki, hökumət gəlirləri hər bir şəxsə fərdi şəkildə çatdırılmamaqla, ümumilikdə infrastrukturun inkişafına, uzunmüddətli**

**proqramların həyata keçirilməsinəmi diqqətini yönəldir? Belə olan təqdirdə bunun müqabilində müəyyən siyasi qiymət ödəməli olursunuz, çünki belə ki, neft sərvətlərindən şəxsən faydalanmadıqlarını hiss edən insanlar müxalifəti dəstəkləyirlər.**

**P r e z i d e n t:** Verdiyiniz sualda müxalifətin dəstəklənməsi ilə bağlı mühüm bir məqam vardır və bu məqamı anlamaq lazımdır. Bu insanların böyük əksəriyyəti müxalifəti dəstəkləyən deyil, iqtidarı dəstəkləməyən və ya daha çox gözləntiləri olan, yaxud da müəyyən səbəblərdən gözlədiyini əldə edə bilməyən insanlardır. Bunlar fərqli şeylərdir. Bu və ya digər partiyanın sosial bazasını qiymətləndirən zaman çox mühüm əhəmiyyətə malik olan bir amildir. Azərbaycanda belə insanları biz etiraz elektoratı adlandırırıq. Bu insanların sayı ilbəil azalmaqdadır. Hesab edirəm ki, yuxarıda Neft Fondunun gəlirlərindən həm də infrastrukturun və sosial layihələrin inkişaf etdirilməsi məqsədi ilə istifadə etdiyimizi deyərkən, müəyyən mənada sizin bu sualınıza cavab vermişdim. Bunu əyani şəkildə nümayiş etdirən bəzi rəqəmləri diqqətinizə çatdıra bilərəm.

Son iki ildə minimum əməkhaqqı üç dəfə qaldırılmışdır. İnsanların gündəlik həyatı getdikcə yaxşılaşır. Hər il minimum əməkhaqqını iki dəfə artırırıq. Bu, ən vacib məsələdir. Belə ki, indi Azərbaycanda 500 min insan minimum əməkhaqqı alır. Mən Azərbaycanın prezidenti seçilən zaman yoxsulluq həddində yaşayan insanlar 49 faiz təşkil edirdi. Cari ilin fevral ayında bu rəqəm 40 faiz olmuşdur, indi isə hətta böyük ehtimalla daha da aşağıdır. Mən hökumət qarşısında belə bir vəzifə qoymuşam ki, Azərbaycanda yoxsul insan qalmamalıdır. İkincisi, 8 milyonluq əhalisi olan bir ölkədə son iki il ərzində 300 min yeni iş yeri açılmışdır. Fikrimcə, bu da misli görünməmiş bir rəqəmdir. Başqa sözlə, Azərbaycanda yaxşı yaşayan insanların sayı artmaqdadır.

Bununla yanaşı, əlbəttə ki, ölkəmizdə sosial problemlər, işsizlik, yoxsulluq da mövcuddur. Biz qaçqınlar və məcburi köçkünlər məsələsinə toxunmadıq. Ermənistanın işğalının

qurbanı olmuş bir milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və hökumət bu insanların da qayğısına qalmalıdır. Lakin hökumətin ehtiyatları məhduddur. İndi Azərbaycan inkişafının yalnız birinci mərhələsindədir və bu mərhələdə əmək haqlarını, pensiyaları, təqaüdləri artırmışıq. Misal üçün, tələbələrin təqaüdlərini bu yaxınlarda 2,5 dəfə artırmışıq. Yəni bu istiqamətdə çalışırıq. Büdcəmizə nəzər salsanız, görərsiniz ki, xərclərimizin böyük bir hissəsi sosail sahəyə yönəldilmişdir. Lakin bizə iqtisadiyyatımızı bərpa etmək, yoxsulluğu aradan qaldırmaq üçün vaxt lazımdır.

Siyasi proseslərə gəldikdə, deməliyəm ki, mən çox istərdim ki, ölkədə ciddi, sivilizasiyalı, mədəni müxalifət olsun. Elə bir müxalifət ki, onunla masa arxasında danışıqlar aparmaq mümkün olsun, ciblərində daşlar deyil, qələmlər gəzdirsin və siyasi prosesləri küçələrdə həll etmək mərhələsini aşmış olsun. Azərbaycan heç zaman bir daha siyasətin və rəhbərin küçələrdə müəyyən edildiyi günlərə qayıtmayacaqdır. Azərbaycan güclü bir dövlətdir və öz siyasətini yalnız qanun əsasında həyata keçirir. Ümid edirəm ki, 2005-ci ilin parlament seçkilərindən sonra yeni müxalifət yaranacaqdır. Partiyadakı vəzifələrini on ildən artıq bir müddət ərzində əldə saxlayanlar getməlidirlər. Bu ona görə baş verməməlidir ki, biz belə istəyirik. Bir siyasətçi kimi mənim üçün belə müxalifət bəlkə də ən münasibdir. Çünki onların heç bir şansı yoxdur. Siyasətçi üçün daim zəif müxalifətə malik olmaq sərfəlidir. Mənim bugünkü opponentlərim kimi. Lakin ölkənin, demokratik proseslərin normal inkişaf etməsi, Azərbaycanın sivilizasiyalı dünyanın, Avratlantik regionunun bir hissəsinə çevrilməsi üçün müxalifətdə dəyişiklik baş verməlidir. Hesab edirəm ki, parlament seçkiləri cəmiyyət ilə birlikdə daha güclü dövlət qurmağımıza kömək edəcək yeni insanları, yeni adları üzə çıxaracaqdır.

**M ü x b i r l ə r: Təşəkkür edirik.**

## AZƏRBAYCAN ENERGETİKLƏRİNƏ

Əziz energetiklər!

Sizi – ölkə iqtisadiyyatında çox mühüm rolu olan sahənin işçilərini Energetiklər günü və «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Məhz iyirmi dörd il bundan əvvəl, oktyabrın 20-də Cənubi Qafqazda ən iri energetika müəssisəsi olan və milli enerji sisteminin özəyini təşkil edən Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası istismara verilmişdir. Bununla, xalqımızın ümummilli lideri Heydər Əliyev ölkəmizin enerji təhlükəsizliyinin bünövrəsini qoymuşdur. Bu sahədə həyata keçirilən müdrik siyasət respublikamızı bütün Qafqaz bölgəsində unikal energetika sisteminə malik bir ölkəyə çevirmişdir.

Son illərdə iqtisadiyyatımızın uğurlu inkişafı «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin qarşısında yeni perspektivlər açmışdır. Ümidvaram ki, bu istiqamətdə aparılan köklü islahatlar və uzunmüddətli strategiyanın gerçəkləşdirilməsi ölkəmizdə energetikanın inkişafına güclü təkan verəcəkdir.

Əminəm ki, respublikamızın energetikləri yeni əsrin tələblərinə uyğun olaraq, Azərbaycan xalqına bundan sonra da layiqincə xidmət göstərəcəklər.

Sizi bir daha bu peşə bayramınız və yubileyiniz münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 oktyabr 2005-ci il*

## XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ

Hörmətli Xəyyam Mirzəzadə!

Sizi – görkəmli Azərbaycan bəstəkarını 70 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

Sənətə dahi Azərbaycan bəstəkarı Qara Qarayevin tələbəsi kimi qədəm qoyaraq yarım əsrə yaxın bir dövr ərzində siz Azərbaycan musiqi xəzinəsinə layiqli töhfələr bəxş edirsiniz. Xalqımızın əsrlər boyu formalaşdırdığı musiqi ənənələri müxtəlif janrlarda yazdığınız əsərlərdə öz layiqli təcəssümünü tapmışdır. Musiqinizin ayrı-ayrı ölkələrdə müvəffəqiyyətlə ifa olunması onun müasirliyindən və beynəlxalq miqyasda qazandığı nüfuzundan xəbər verir. Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz fəaliyyət isə yeni musiqiçilər nəslinin yetişdirilməsi işində mühüm rol oynayır.

Əminəm ki, sizə xas olan tükənməz enerji və yaradıcılıq əzmi bundan sonra da Azərbaycan musiqisinin inkişafına layiqincə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 oktyabr 2005-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DENİEL FRİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Deniel Fridin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı diplomatla bundan əvvəlki görüşünü xatırlayaraq dedi ki, hesab edirəm, bu səfər əlaqələrimizin inkişafı baxımından çox önəmlidir. Prezident İlham Əliyev Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibətilə prezident Corc Buşun göndərdiyi təbrik məktubuna görə ABŞ hökumətinə və prezidentinə təşəkkürünü bildirdi. Respublikamızın rəhbəri dedi ki, ABŞ prezidentinin ikitərəfli əlaqələrimiz və bunların gələcək inkişafı barədə fikirlərinə tam şərikəm. Əminəm ki, ölkələrimiz arasında mövcud olan tərəfdaşlıq, dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcəkdir.*

*Özünə və nümayəndə heyətinə göstərilən münasibətə görə təşəkkür edən cənab Deniel Frid dedi:*

*– Təkcə regionda deyil, bütün dünyada gedən bir sıra proseslərlə bağlı bizi dəstəklədiyinə, hərbçilərimizin İraqda birgə fəaliyyətinə görə, ümumən terrorizmə qarşı mübarizəyə verdiyi dəstəyə, Xəzərin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki əməkdaşlığa, hərbi və iqtisadi sahələrdə işbirliyinə görə hökumətimiz adından Azərbaycana minnətdarlıq bildirirəm. Bütün bunların çox böyük əhəmiyyəti vardır.*

*Cənab* Prezident, *mən eyni* zamanda, *Sizə xanım* Kondoliza *Raysın salamlarını çatdırıram. Həm də ölkənizdə gedən inkişafla bağlı* Sizi *təbrik etmək istərdim. Seçkilərə cəmi 17 gün qalmış belə inkişafın şahidi* olmaq *çox mühümdür.*

*ABŞ Dövlət* katibinin *salamlarına görə minnətdarlığını bildirən* prezident *İlham Əliyev* onun da *salamlarını xanım* Raysa *çatdırmağı xahiş edərək* dedi ki, biz *ikitərəfli əlaqələrimizin uğurlu inkişafını yüksək qiymətləndiririk.* Qlobal enerji *layihələrinin həyata keçirilməsində uğurlu əməkdaşlığı* vurğulayan *dövlətimizin başçısı* bu *yaxınlarda Bakı–*Tbilisi–Ceyhan boru *kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsinin* bu *baxımdan əhəmiyyətli olduğunu* bildirdi.

## RUSİYANIN XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici kəşfiyyat xidmətinin direktoru ordu generalı Serqey Lebedevi qəbul etmişdir.*

*Bakıya səfərindən əvvəl Rusiya prezidenti Vladimir Putin ilə görüşdüyünü bildirən Sergey Lebedev dövlətimizin başçısına onun salamlarını çatdırdı. Bildirdi ki, Rusiya rəhbəri Azərbaycan prezidenti haqqında səmimi, xoş sözlər, Azərbaycanda əldə olunmuş iqtisadi inkişaf sürəti barədə yüksək fikirlər söylədi.*

*Qonaq xalqımızın ümummilli lideri Heydər Əliyev ilə vaxtilə Bakıda keçirdiyi görüşü xatırladı və bunun yaddaşında dərin iz buraxdığını bildirdi. O dedi ki, Heydər Əliyevin xatirəsini Rusiyada bu gün də ehtiramla anırlar.*

*Rəhbərlik etdiyi qurumla Azərbaycanın xüsusi xidmət orqanları arasında yaxşı əməkdaşlıq olduğunu xatırladan general Lebedev dedi ki, bu, ölkələrimiz, habelə region üçün mövcud olan təhlükələrə qarşı birgə mübarizəyə xidmət edir. Rusiya prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da səmimi SAlamlarını Rusiya rəhbərinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin xatirəsinin Rusiyada əziz tutulmasını yüksək qiymətləndirərək dedi ki, Heydər Əliyev ilə Vladimir Putin arasında olan şəxsi münasibətlərin ölkələrimizin qarşılıqlı əlaqələrinin inkişafında mühüm rolu olmuşdur. Eyni*

*zamanda bildirdi ki, özü ilə prezident Vladimir Putin arasında da yaxşı şəxsi əlaqələr vardır.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dünyada, o cümlədən regionda müxtəlif təhlükələrin mövcud olduğu indiki dövrdə təhlükəsizlik və sabitliyin təmin edilməsi baxımından ölkələrimiz arasında bu sahədə əməkdaşlığın əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, bu baxımdan onun səfəri ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın inkişafına xidmət edəcəkdir.*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLİSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Nigeriya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2005-ci il*

## QƏRBİ AVROPA İTTİFAQI ASSAMBLEYASININ – AVROPA TƏHLÜKƏSİZLİYİ VƏ MÜDAFİƏ ÜZRƏ PARLAMENTLƏRARASI ASSAMBLEYANIN SƏDRİ STEF QORİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərbi Avropa İttifaqı Assambleyasının – Avropa Təhlükəsizliyi və Müdafiə üzrə Paplamentlərarası Assambleyasının sədri Stef Qorisi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ilə bundan əvvəl keçirdiyi görüşü məmnunluqla xatırladan qonaq prezident İlham Əliyevi Qərbi Avropa İttifaqı Assambleyasının bu il keçiriləcək ümumi sessiyasına dəvət etməkdən şərəf duyduğunu bildirdi.*

*Azərbaycan ilə münasibətlərin dərinləşməsinin Avropa üçün əhəmiyyətli olduğunu söyləyən cənab Stef Qoris Qərbi Avropa İttifaqı Assambleyasının ölkəmizin Avropa İttifaqına inteqrasiyası prosesinə bundan sonra da dəstək verəcəyini nəzərə çatdırdı.*

*Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirən qonaq ölkəmizdə etnik və dini tolerantlığın olmasından məmnunluğunu söylədi.*

*Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təkcə Azərbaycan üçün deyil, həm də Avropa üçün çox əhəmiyyətli bir layihə olduğunu vurğulayan cənab Stef Qoris Azərbaycanda gedən iqtisadi islahatları yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı İlham Əliyev Avratlantik strukturlara, məkana, o cümlədən Avropa İttifaqına inteqrasiyanın Azər-*

*baycanın xarici siyasətinin əsas* prioritet *istiqamətlərindən* biri *olduğunu* bildirdi. *Prezident İlham Əliyev bütün səviyyələrdə əlaqələrin genişlənməsinin böyük əhəmiyyət daşıdığını* qeyd etdi. *Dövlətimizin başçısı* Avropa *İttifaqı, Avropa Şurası, AŞ PA və digər* strukturlarla, o *cümlədən Qərbi Avropa İttifaqı Assambleyası ilə Azərbaycanın* konstruktiv *əməkdaşlığının* daha da *genişləndirilməsi işinə böyük önəm* verdiyini *vurğuladı.* Prezident *İlham Əliyev* dedi ki, *Azərbaycan coğrafi mövqeyinə görə* Avropa *ilə Asiyanı* bir-*birinə bağlayır. Ölkəmizdən böyük əhəmiyyətli* qlobal enerji *və nəqliyyat dəhlizləri keçir.*

*Ölkəmizin* Avropa *İttifaqı sərhədlərinə* daha da *yaxınlaşdığını bildirən dövlətimizin başçısı* Avropa *İttifaqının yeni qonşuluq siyasətində Azərbaycanın fəal iştirak* etdiyini *nəzərə çatdırdı.* Prezident *İlham Əliyev Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə də* vacib rol *oynadığını* qeyd etdi.

*Qarşıdakı* parlament *seçkilərindən söhbət açan dövlətimizin başçısı əmin olduğunu* bildirdi ki, *Azərbaycanın* Avropa *strukturları ilə əməkdaşlığı* bundan sonra da daim *genişlənəcəkdir.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Polşa arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, dostluq və əməkdaşlığımız, çoxşaxəli əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Polşa xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2005-ci il*

# AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİNƏ DAİR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*25 oktyabr 2005-ci il*

Parlament seçkilərinə iki həftədən az vaxt qalır. Demək olar ki, indi seçki kampaniyasının son mərhələsi yaşanır. Elə etməliyik ki, bu kampaniyanın son mərhələsi də uğurlu, qanunauyğun şəkildə keçsin. Bütövlükdə deyə bilərəm ki, seçki kampaniyası uğurlu keçir. İlk növbədə, qeydiyyat məsələlərində heç bir problem olmamışdır. İki mindən artıq namizədin qeydə alınması özlüyündə onu göstərir ki, əhalidə seçkilərə inam çox yüksək səviyyədədir. Azərbaycanda ədalətli və şəffaf seçkilərin keçirilməsi bizim hamımızın marağındadır. Çox sevindirici haldır ki, iki mindən artıq insan öz gücünü sınamaq üçün bu seçkilərə qatılıbdır. Ondan sonrakı mərhələ də hesab edirəm ki, bütövlükdə uğurlu olmuşdur. Təbliğat-təşviqat kampaniyasında da heç bir problem müşahidə edilmirdi. Bütün namizədlərə eyni, bərabər şərait yaradılmışdır. Televiziya vasitəsilə hər bir namizəd öz seçicilərinə müraciət etmişdir. Heç bir ayrı-seçkiliyə yol verilməmişdir. Siyasi əqidəsindən, partiya mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlər həm pulsuz, həm də pullu efir vaxtından istifadə edə bilirlər. Bu günə qədər davam edən kampaniya onu göstərir ki, hər bir namizəd sərbəst, açıq şəkildə öz seçicilərinə müraciət edir. Hesab edirəm ki, bu çox müsbət bir haldır. Biz hamımız görürük ki, Azərbaycan Dövlət televiziyasında, İctimai televiziyada və özəl kanallarda kampaniya çox açıq və şəffaf şəkildə keçirilir. Eyni zamanda, hər bir namizəd üçün yerlərdə görüşlərin keçirilməsi üçün də lazımi şərait yaradılmışdır.

Bildiyimə görə, Azərbaycanın bütün bölgələrində bu görüşlər keçirilir və buna heç bir maneçilik törədilmir.

Mən bu məsələyə dair yerli icra orqanlarına dəfələrlə öz göstərişlərimi vermişəm və demişəm ki, bütün namizədlərə bərabər şərait yaradılmalıdır.Heç bir ayrı-seçkilik qoyulmadan bütün namizədlər açıq havada, qapalı şəraitdə görüşlər keçirmək üçün eyni şəraitlə təmin olunmalıdırlar. Bütövlükdə deyə bilərəm ki, bu sahədə də çox müsbət mənzərə müşahidə olunur. Ayrı-ayrı şikayətlər istisna olmaq şərtilə, tam əksər hallarda bütün görüşlər azad, sərbəst şəkildə keçirilibdir. Bu, kampaniyanın bütövlükdə ədalətli keçməsinə dəlalət edir, bizim niyyətimizi bir daha ifadə edir. Bir də onu göstərir ki, bəyan edilmiş prinsiplər və niyyətlərimiz həyatda öz əksini tapır.

Mənim də məqsədim məhz budur.

Parlament seçkiləri Azərbaycanın demokratik inkişafında çox mühüm rol oynayır. Ümid edirəm ki, yeni formalaşacaq parlament Azərbaycanda qanunvericilik funksiyasını uğurla davam etdirəcək, yeni mütərəqqi qanunlar qəbul olunacaqdır. Azərbaycan artıq bir sıra beynəlxalq konvensiyalara qoşulubdur. Bu proses bundan sonra daha da sürətlə getməlidir.

Bildiyiniz kimi, Azərbaycan bir neçə ildir Avropa Şurasının üzvüdür və üzv qəbul edilərkən öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Beləliklə, Azərbaycanda demokratik proseslər daha da sürətlə gedir. Biz istəyirik ki, ölkəmiz daha da demokratik olsun, cəmiyyətimiz daha da azad olsun və dünyada mövcud olan ən mütərəqqi təcrübə Azərbaycanda öz əksini tapsın. Bu baxımdan parlament seçkilərinin ədalətli, şəffaf və azad şəkildə keçirilməsi bizim maraqlarımıza uyğun gəlir. Bu, bir tərəfdən, bizim cəmiyyətimizin inkişafında mühüm rol oynayacaqdır. Digər tərəfdən, ümid edirəm ki, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası prosesinə də güclü təkan verəcəkdir.

Bildiyiniz kimi, artıq bir neçə aydır seçkilərlə bağlı müxtəlif fərziyyələr irəli sürülür, fikirlər səslənir. Cəmiyyətimizdə seçkilərə böyük maraq var. Bu da çox müsbət haldır. Eyni zamanda,

ölkəmizin xaricində də seçkilərə böyük maraq var. Təsadüfi deyil ki, parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana 1500-ə yaxın xarici müşahidəçi gələcəkdir. Bu, analoqu olmayan bir rəqəmdir və 8 milyon əhalisi olan ölkədə 1500 xarici müşahidəçinin olması çox yüksək göstəricidir. Nəzərə alsaq ki, Azərbaycanda 4500-dən çox seçki məntəqəsi var, deyə bilərik ki, istənilən halda məntəqələrin böyük əksəriyyətində seçkilər müşahidə olunacaqdır. Eyni zamanda, minlərlə yerli müşahidəçi də bu seçkiləri izləyəcək və bildiyiniz kimi, bu müşahidəçilər müxtəlif siyasi partiyaları təmsil edirlər.

Mən bir daha demək istəyirəm ki, bütövlükdə, kampaniyanın gedişatından məmnunam. Hesab edirəm, qalan günlər ərzində də çalışmalıyıq ki, qarşıda duran bütün vəzifələr öz həllini tapsın.

Mayın 11-də mənim tərəfimdən Azərbaycanda seçki praktikasının təkmilləşdirilməsinə dair sərəncam imzalanmışdır. Sərəncam cəmiyyətdə çox müsbət qarşılandı və o, normal, ədalətli seçkilərin keçirilməsinə şərait yaradır. Seçki Məcəlləsi ilə birlikdə sərəncamın mövcudluğu bizim niyyətimizi daha da açıq şəkildə ortaya qoyur. Rayonlara etdiyim müxtəlif səfərlərdə yerli icra hakimiyyəti orqanları ilə görüşlərimdə, eyni zamanda əhali ilə bütün görüşlərimdə bu seçkilərin vacib olduğunu xüsusilə vurğulayır və tələb edirdim ki, yerli icra hakimiyyəti orqanları sərəncamdan irəli gələn vəzifələrini yerinə yetirsinlər. Seçki prosesinə müdaxilə etməsinlər, heç bir namizədin tərəfini tutmasınlar, seçki kampaniyasında iştirak etməsinlər. Sadəcə olaraq, seçkilərin normal şəkildə keçirilməsi üçün öz vəzifə borclarını yerinə yetirsinlər.

Deyə bilərəm ki, bütövlükdə, həm Seçki Məcəlləsinin müddəaları, həm də sərəncamda əks olunan məsələlər həyatda öz əksini tapır və yerinə yetirilir. Bununla yanaşı, əlbəttə, müxtəlif problemlər da var. Biz dərhal həmin problemlərin aradan qaldırılması üçün tədbirlər görürük və görməliyik. Bu da təbiidir. Çünki Azərbaycan keçid dövrünü yaşayır. Azərbaycanda demokratik cəmiyyətin formalaşması prosesi

sürətlə gedir. Bu çox müsbət istiqamətdə inkişaf edən meyldir. Ancaq şübhəsiz ki, bir gündə, yaxud da bir neçə ayda bu sahədə köklü dəyişikliklərə nail olmaq üçün çox ciddi işlər görülməlidir və görülür. Bu seçki kampaniyası keçmiş seçki kampaniyalarından fərqlənir və hesab edirəm ki, indiki seçkilərin nəticələri də Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

Eyni zamanda, müəyyən problemlər də var. Seçki kampaniyası ərzində müəyyən məsələlər ortaya çıxır. Biz gərək hər bir məsələyə operativ reaksiya verək və onun həlli üçün yollar axtaraq. Biz heç bir məsələyə ehkam kimi yanaşmamalıyıq. Fikirləşməliyik ki, seçkilərin ədalətli keçirilməsi üçün əlavə nə edilməlidir. Mən hesab edirəm ki, Seçki Məcəlləsinin mövcudluğu, mənim sərəncamım artıq bu sahədə kifayət qədər normal şərait yaradır. Bildiyiniz kimi, seçkiləri müşahidə edən ATƏT-in missiyası da təxminən eyni mövqedən çıxış edir. Onların bəyanatı olmuşdur ki, əgər mövcud Seçki Məcəlləsi və prezidentin sərəncamı icra olunarsa, Azərbaycanda demokratik seçkilərin keçirilməsi mümkündür. Eyni zamanda, mövcud olan problemləri biz gərək həll edək. Onların aradan qaldırılması üçün müvafiq göstərişlər veriləcək və qərarlar qəbul ediləcəkdir.

İlk növbədə, seçici vəsiqələrinin seçicilərə paylanılması prosesi bizi qane edə bilməz. Çünki məndə olan məlumata görə – yəqin ki, sizdə də bu məlumat var – bir neçə hallarda vətəndaşlara seçici vəsiqəsi paylanılmayıb, yaxud da elə hallar var ki, bir seçiciyə bir neçə vəsiqə göndərilibdir. Elə hallar var ki, ümumiyyətlə, seçici vəsiqəsi göndərilməyibdir. Ümumiyyətlə, seçici vəsiqəsinin tətbiq olunması beynəlxalq təşkilatlar tərəfindən irəli sürülmüş bir təklif idi, tövsiyə idi. Bu, seçki prosesinin şəffaflığını təmin etməli idi və bütövlükdə, çox müsbət, təqdirəlayiq bir addımdır. Ancaq əfsuslar olsun ki, praktikada biz bunu tam şəkildə təmin edə bilmədik. Ona görə seçkilər günü bu, müəyyən problemlər yarada bilər. Biz gərək imkan verməyək ki, bu problemlər yaransın.

Belə olan halda, hesab edirəm ki, müxətlif başqa variantlara da biz fikir verməliyik və bu məsələdə yarana biləcək problemin aradan qaldırılması üçün konkret addımlar atmalıyıq. Hesab edirəm ki, müvəqqəti bir hal kimi və istisna hal kimi, səsvermə günü seçki bülleteni aldıqları zaman barmaqlarının gözəgörünməyən mürəkkəblə işarələnməsinin mümkünlüyü məsələsinə baxmalıyıq.

Bu təklif müxtəlif beynəlxalq təşkilatlar tərəfindən də irəli sürülmüşdür. Düzdür, biz hesab edirdik ki, buna böyük ehtiyac yoxdur. Çünki seçici vəsiqələrinin mövcudluğu artıq bu məsələni aradan qaldırırdı. Amma bir halda ki, seçici vəsiqələrinin paylanmasında biz problemlərlə üzləşdik, mən hesab edirəm, bu məsələyə baxmaq olar ki, seçkilərin şəffaf keçirilməsi heç bir şübhə doğurmasın. Onsuz da biz bilirik ki, Azərbaycanın siyasi spektrinin bir hissəsi seçkilərin nəticələrini tanımaq fikrində deyildir. Biz bunu mətbuatdan da eşidirik, müşahidə edirik və görürük ki, istənilən halda daim seçkiləri uduzan qüvvələr bu dəfə də, yəqin seçkilərin nəticələrini tanımayacaqlar və müxtəlif bəhanələrlə bizi ittiham etməyə çalışacaqlar. Bu hallar keçmişdə də olub və hadisələrin inkişafı onu göstərir ki, indiki seçkilərdə də bu, istisna olunmur. Ümid edirəm ki, bizim üçün yeni olan bu praktika, yəni barmaqların mürəkkəblə işarələnməsi əsassız ittihamları aradan götürəcəkdir. Ona görə hesab edirəm ki, bu məsələ gərək müzakirə olunsun, buna baxılsın.

Eyni zamanda, şəxsiyyət vəsiqələrinin paylanılmasında da müəyyən problemlər var. Biz bu məsələ ilə ciddi məşğul olmuşuq və həmişə bizə söz verilmişdi ki, şəxsiyyət vəsiqələri vaxtında paylanılacaqdır. Ədalət naminə deməliyəm ki, doğrudan da son aylar ərzində bu istiqamətdə çox gərgin iş gedirdi. Demək olar ki, şəxsiyyət vəsiqələrinin tam əksəriyyəti paylanılıbdır. Amma eyni zamanda onu da bilirik ki, elə vətəndaşlar var, onların şəxsiyyət vəsiqələri yoxdur. Belə olan halda biz gərək bu vəziyyətdən çıxış yolu arayaq, baxaq. İndi bəlkə Mərkəzi Seçki Komissiyası bu məsələyə baxmalıdır.

Bəlkə biz seçki günü köhnə pasportlarla səsverməyə icazə verək. Amma, əlbəttə, hələ vaxta var və son bir neçə gün ərzində əgər şəxsiyyət vəsiqələri 100 faiz paylanmazsa, onda bu alternativ varianta da baxmaq olar.

Yerli icra hakimiyyəti orqanları seçki komissiyalarının yerləşdiyi binaların və otaqların səsverməyə hazır olub-olmadığını yerlərdə yoxlamalıdırlar. Eyni zamanda, səsvermə günü seçki bülletenlərinin, dairə və məntəqədə seçki komissiyalarının yerləşdiyi binaların mühafizəsi gücləndirilməlidir. Dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunması üçün zəruri tədbirlər görülməlidir. Bu, «Azərenerji» Səhmdar Cəmiyyətinə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə aid olan məsələlərdir. Elə etməliyik ki, nə rabitə ilə, nə də elektrik enerjisi ilə bağlı heç bir problem olmasın.

Bir daha demək istəyirəm ki, bəzi hallarda yerli icra hakimiyyəti orqanları tərəfindən yersiz və lazımsız müdaxilələr olmuşdur. Deyə bilərəm ki, onlar istisna hal kimi müşahidə edilmişdir və tam əksəriyyət hallarda belə olmayıbdır. Amma yenə də mənim yerlərdəki nümayəndələrimdən tələb edirəm ki, son günlər ərzində heç bir qanunsuz müdaxilə olmasın.

Bəzi məlumatlar gəlir ki, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri hansısa namizədlərə daha da məhrəm münasibət göstərirlər. Məlumatlar var ki, bəzi icra hakimiyyəti başçıları namizədlərlə birlikdə gedib tədbirlərdə iştirak edirlər. Bunlar yolverilməz hallardır. Mən bütün icra hakimiyyəti başçılarına, belə hallara rəvac verənlərə xəbərdarlıq edirəm, bunları yığışdırın. Birincisi, mənim sərəncamım var, ikincisi, bir neçə ay bundan əvvəl seçki kampaniyası başlanan gün mən sizi yığmışdım, öz göstərişlərimi vermişdim və demişdim ki, kənarda durun, qarışmayın.

Azərbaycan xalqı müdrik xalqdır. Özü bilir kimi seçmək lazımdır. Kimi istəyir, onu da seçsin. Bəzi hallarda bilirəm ki, yerli icra hakimiyyəti başçılarının sevimli namizədləri var. İstyirlər ki, özlərinə yaxın adamlara kömək etsinlər. Bu,

keçmişdə də olubdur. Bilirəm, siz də bilirsiniz, keçmişdə də həmişə yerli icra hakimiyyəti başçıları çalışırdılar ki, öz rayonlarından seçilən deputatlar onlara yaxın olsunlar, onların sözü ilə oturub-dursunlar və onların işinə qarışmasınlar. Bəzi hallarda yerlərdə seçilmiş deputatla icra hakimiyyətinin başçısı arasında ixtilaflar da, münaqişələr də yaranırdı. Ola bilər ki, kimsə xoşuna gəlir. Xoşuna gəlirsə, işdən sonra o adamlarla gedib görüşə bilərsiniz. Amma bir daha deyirəm, heç kimə icazə verməyəcəyəm ki, seçkidə öz adamlarını keçirsin, hansısa səbəblərə görə burada bizim işimizi pozsun. Heç kimə bu icazə verilməyəcəkdir. Kim bunu edəcəksə, ciddi şəkildə cəzalandırılacaqdır.

Mən artıq qeyd etdim ki, seçkilərin Azərbaycanın normal inkişafı üçün çox böyük əhəmiyyəti var. Hansısa namizədə görə nə üçün biz özümüzü pis vəziyyətə salmalıyıq? Nə üçün? Ona görə bu məsələyə ciddi yanaşın. İndi hərə öz payını götürsün. Əgər kimsə bu işlərlə məşğuldursa, bu əməlləri yığışdırsın.

Yenə də deyirəm, bu hallar istisna xarakteri daşıyır. Amma tamamilə aradan qaldırılmalıdır. Seçki hüquqlarının pozulması ilə bağlı Mərkəzi Seçki Komissiyasından Baş Prokurorluğa daxil olan, cinayət tərkibli olması ehtimal edilən məlumatlar prokurorluq orqanları tərəfindən hərtərəfli araşdırılmalıdır. Lazım olarsa, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul olunmalıdır.

Eyni zamanda, bu seçkilərdə daha bir yenilik var, o da exit-poldur. Bu da bizim üçün yeni bir üsuldur. Mənim sərəncamımda exit-polun keçirilməsi haqqında açıq-aydın göstərilibdir. Siz də çalışmalısınız ki, əgər lazım olarsa, exit-polu keçirən qurumlara kömək edəsiniz. Əgər lazım olmazsa, ümumiyyətlə, bu məsələyə qarışmamalısınız. Əgər sizdən xahiş olunarsa ki, kömək edin, onu edin. Olmayacaqsa, qarışmayın. Bu bizim üçün yeni bir üsuldur. İnkişaf etmiş ölkələrdə bu üsuldan çox geniş istifadə olunur. Azərbaycanda belə bir üsul ilk dəfə tətbiq ediləcəkdir.

Düzdür, prezident seçkiləri günü bəzi yerli təşkilatlar buna bənzər bir rəy sorğusu keçirmişlər. Ancaq bu dəfə exit-polu xarici, beynəlxalq təşkilatlar keçirəcək, yəqin yerli təşkilatlar da keçirmək istəyəcəkdir. Ona görə heç bir maneçilik törədilməməlidir.

Nəhayət, hesab edirəm Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir ki, qeyri-hökumət təşkilatları, ictimai birliklər və fondlar haqqında Azərbaycan Respublikası Qanunundan nizamnamə kaptalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Bu məsələ də bəzi beynəlxalq təşkilatlar tərəfindən qaldırılıbdır. Hesab edirəm ki, Milli Məclis bu məsələyə də baxa bilər. Yəni, bir sözlə, biz hər şeyi etməliyik ki, heç kim zərrə qədər şübhə etməsin ki, bu seçkilər ədalətli və şəffaf keçiriləcək və Azərbaycan dövlətinin, hökumətinin, prezidentinin niyyəti məhz bundan ibarətdir. Ona görə nə lazımdırsa, onu da etməliyik. Ancaq eyni zamanda, hər şey qanun çərçivəsində olmalıdır. Heç kimə imkan verilməməlidir ki, qanunu pozsun, heç kimə hansısa xüsusi imtiyazlar yaradılmamalıdır. Bütün namizədlər, siyasi partiyalar və bloklar qanun çərçivəsində hərəkət etməlidirlər.

Azərbaycanda sərbəst toplaşmaq azadlığı təmin olunur. Azərbaycanın bütün bölgələrində, rayonlarında bu baxımdan heç bir problem yaradılmır və sərbəst toplaşmaq azadlığı təmin edilibdir. Ancaq Bakıda son müddət ərzində müxalifət tərəfindən süni problemlər yaradılıbdır. Onların da qarşısı alınıbdır. O hərəkətlərin də mənşəyi bəllidir. Çünki seçki kampaniyası başlanan gündən bütün siyasi qüvvələr, partiyalar Qələbə meydanında öz mitinqlərini keçirirdilər. Həm müxalifət partiyaları, həm də Yeni Azərbaycan Partiyası. Yeni Azərbaycan Partiyasının sədri kimi, mən şəxsən Qələbə meydanında partiyamızın mitinqində iştirak etmişdim.

Xatırlayırsınızsa, 2003-cü ilin prezident seçkiləri ərəfəsində bütün seçki təbliğatı Qələbə meydanında keçirilirdi. O vaxt heç kimdə sual doğmurdu ki, bu meydan yararsızdır, yaxud başqa meydan lazımdır. 2005-ci ilin seçki kampaniyası başlanan gündən müxalifət də, iqtidar da və başqa partiyalar Qələbə meydanında çox sərbəst, azad şəkildə, asayiş qorunmaq şərtilə öz mitinqlərini keçirirdilər və heç bir sual da yaranmırdı. Nə üçün birdən-birə onların fikri dəyişdi? Biz bunun səbəbini bilirik. Səbəb ondan ibarətdir ki, bəri başdan bilirdilər, şəhər rəhbərliyi Cəfər Cabbarlı meydanında mitinqin keçirilməsinə imkan verməyəcəkdir. Beləliklə, süni şəkildə qarşıdurma yaranacaqdır. Müxalifət də hesab edirdi ki, bu qarşıdurma nəticəsində onlar hansısa üstünlük əldə edəcəklər, yaxud da zorakılıqla qanunu poza biləcəklər. Süni şəkildə bu qarşıdurmaya gedirdilər.

Ancaq Azərbaycanda qanun hamı üçün eynidir. Bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınıbdır və gələcəkdə də alınacaqdır. Kim sərbəst toplaşmaq istəyirsə, mitinq keçirmək istəyirsə, buyursun, getsin müəyyən yerlərdə, meydanlarda o mitinqləri keçirsin.

Onu da qeyd etməliyəm ki, şəhər rəhbərliyi xoş niyyət addımı kimi, müxalifətə beş meydan təklif edibdir. Onların hamısı ərazi baxımından Cəfər Cabbarlı meydanından qat-qat böyükdür. Ona görə qanunsuz hərəkətlərə heç kim imkan verməyəcəkdir. Hesab edirəm ki, artıq müxalifət də bunu başa düşübdür. Bu gün mənə dedilər ki, onlar növbəti qanunsuz mitinqə getməyəcəklər. Hesab edirəm, müsbət haldır ki, müxalifət də təkamül yolu ilə inkişaf edir. Artıq başa düşüb ki, bizimlə bu dildə danışmaq olmaz. Biz heç bir qanunsuz hərəkətə yol verməyəcəyik.

Bir daha demək istəyirəm ki, seçkilərin normal keçirilməsi üçün hər cür şərait var. Biz əlimizdən gələni etməyə çalışmışıq ki, hər bir namizəd sərbəst fəaliyyət göstərsin, kampaniyasını aparsın və Azərbaycanda seçki praktikası təkmilləşdirilsin. Ümid edirəm, görülən tədbirlər imkan verəcək ki, noyabrın 6-da

Azərbaycanda ədalətli seçkilər keçirilsin. Bu seçkilər keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi bu seçkilərdə əks olunacaqdır. Beləliklə, Azərbaycanın hərtərəfli, demokratik inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Sizə bir daha göstəriş verirəm ki, mənim bütün tövsiyələrimi yerlərdə icra edəsiniz, heç bir qanun pozuntularına yol verməyəsiniz. Harada narahatedici hallar varsa, harada qanun pozulursa, dərhal operativ qaydada ya özünüz tədbirlər görün, ya da ki, bizi məlumatlandırın. Bu qədər. Sağ olun.

## Q E Y D L Ə R

**1. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbay-

canın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,7,9,10,11,17,28,57,90,95–96,125,126,136–137,150,151,152,153,154,155,156,157,168,169,170,171,173,178,183,184,185,186,192,193,196,199,205,206,208,229–230,232,233, 235,240,241,244,248,249,250,259,260,261,263,264,273,290,291,294,303,333.

**2. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. –6–11.

**3. İsmayıl Berdiyev** (d.1954) – ilahiyyatçı. Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri, Karaçayevo-Çerkaziyanın müftisi. İsmayıl Berdiyev Rusiya Federasiyası prezidenti yanında Dinlərin Birgə və Qarşılıqlı Şurasının və MDB və Rusiya Dinlərarası Şurası Rəyasət Heyətinin üzvüdür. – 6–11.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 8,9,18,19,20,24,40,58,70, 78,81,91,92,93,109,110,114,118,119,120,133,200,293,296.

**5. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 8.

**6. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir.– 8,11,70,72,160–161,212,278,302-303,309,322,325,333-334.

**7. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 8,9,10,11,167,322.

**8. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti. Xarici siyasətdə ABŞ ilə münasibətlərin olduğu kimi qalmasını və heç bir güzəştə gedilməməsini müdafiə edir, BMT-ni fəaliyyətsizlikdə ittiham edir və İranın nüvə proqramının həyata keçirilməsinin labüd olduğunu bildirir. – 8,10,167.

**9. Xamenei,** H ü s e y n X a m e n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 10.

**10. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 11,36,58, 100,165–166,268–279,286,287.

**11. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 11,12,67,72,93,100,239,241,249,254,268–279,282, 291,311.

**12. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 12,63,18,146.

**13. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı – politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta

Fondunun prezidenti, 2004-cü ildən Almaniyanın prezidentidir. – 12.

**14. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 12,67, 81,310,311,313.

**15. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. –13,70,71,118,122-123,270,277,279,282–283,305–328,331–332.

**16. Alman Marşall Fondu** – ABŞ-da amerikan siyasəti ilə heç bir əlaqəsi olmayan və ictimai qrantlarla yaradılan fond. Fond Şimali Amerika ilə Avropa arasında sıx əməkdaşlıq və qarşılıqlı anlaşmaya əsasən fəaliyyət göstərir. 1972-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Vaşinqtonda və bir çox Avropa ölkələrinin paytaxtlarında var. Alman Marşall Fondu siyasətçilərin təşəbbüsü ilə Atlantika məkanının hər iki tərəfinin insan və resurslarının ümumi problemlərini və ümumi mAraqlarını bir yerdə həll edirlər. – 13.

**17. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus,

Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 14–15,50,57,125,160, 163–164.

**18. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 16–52.

**19. Sofiya** – Bolqarıstanın paytaxtı. Əsası bizim eranın I əsrində qoyulmuşdur. 1382–1878-ci ilin əvvəllərinə qədər Osmanlı imperiyasının tərkibində olmuşdur. 1879-cu ildən Bolqarıstanın paytaxtıdır. – 16–44.

**20. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə

fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüş, 1996-cı ildə Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 16–52,95–96,128–130,136–137, 168,181,183,184,192,206.

**21. Aleksandr Nevski** (1220/21–1263) – Novqorod (1236–51), Tver (1247–52), Böyük Vladimir (1252) – knyazı. Knyaz Yaroslav Vsevolodoviçin oğlu. Rusiya torpaqlarını işğal etmək istəyən isveçliləri (1240) Neva çayı üzərində, Çud gölü üzərindəki Buz döyüşündə alman cəngavərlərini məğlubiyyətə uğratmışdır. Bundan sonra Aleksandr Nevski dövrünün ən böyük sərkərdələrindən biri kimi tanınmışdır. –16,17.

**22. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 16–45,49.

**23. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 20,63,64,90,110,116,132,134,135,145,146.

**24. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 20,78,277,280.

**25. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və

hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 20,40,69,70,81,83, 91,93,117,133,293,315.

**26. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrdə əməkdaşlığın möhkəmləndirilməsi və Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dairəvi dost ölkələr» yaratmaq, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 23,78,80,90,113,132.

**27. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 24,25,90,92,99,100,101,133, 155,173,190,205,242,244,257,268–279,282,291,294,312,332,336.

**28. Jelyu Jelev** (d.1935) – Bolqarıstan filosofu və siyasətçisi. 1990–1997-ci illərdə Bolqarıstan Respublikasının prezidenti olmuşdur. – 28.

**29. Sergey Stanişev** (d.1966) – bolqar dövlət və siyasi xadimi. 2005–2009-cu illərdə Bolqarıstanda Baş nazir olmuşdur. Bolqarıstan Sosial Partiyasının sədridir. – 29.

**30. Georgi Pirinski** – bolqar siyasətçisi. 2005–2009-cu illərdə Bolqarıstan Xalq Məclisinin sədri olmuşdur. – 29–30.

**31. Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universiteti** – Cənub–Şərqi Avropada ən böyük və qədim iqtisadi ali təhsil müəssisələrindən biri. Universitet 1920-ci ildə Sofiyada yaradılmışdır. 17 min tələbə təhsil alır. Universitet dövlət müəssisəsidir. Burada ixtisaslaşmış «mütəxəssis», «bakalavr», «magistr» və elmi «doktor» dərəcələri ilə təhsil alırlar. – 31–36.

**32. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 40.

**33. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 40,91,120,133.

**34. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyət-

lərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür.– 40,63,69,81,82,83,91,133,280,293,315,316,337,340.

**35. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 42-44,95-96,136–137, 197,203,206,210,257.

**36. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 42–44,95–96,125,136–137,200.

**37. Boyana kilsəsi** – Bolqarıstanda Sofiya yaxınlığında kilsə (XI əsrdə tikilmişdir). XI–XIII əsrlərə aid nadir freskalarla zəngindir. –43.

**38. Varna** – Bolqarıstanda Qara dəniz sahilində şəhər və liman. –45–52.

**39. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse-prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 49–50,179.

**40. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 50,228.

**41. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 50, 53, 147.

**42. Urumçi** – Çinin şimal–qərbində, Urumçi çayı sahilində şəhər. Sintszyan-Uyğur muxtar rayonunun inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir. – 50.

**43. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 53.

**44. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi

103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 54,335.

**45. Olusequn Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi; 1999-cu ildən Nigeriyanın prezidenti. –54,335.

**46. Qvineya,** Q v i n e y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 55.

**47. Lansana Konte** (1934–2008) – Qvineya siyasi, dövlət və hərbi xadimi, general. 1984–2008-ci illərdə Ovineya Respublikasının prezidenti olmuşdur. – 55.

**48. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 56,147,197.

**49. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 56.

**50. Aleksey Leonov** (d.1934) **–** SSRİ təyyarəçi-kosmonavtı, aviasiya general mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. 1965-ci ildə «Vosxod–2» gəmisi ilə 2-ci pilot kimi kosmosa uçmuş, dünyada ilk dəfə açıq kosmosda olmuşdur. 1975-ci ildə «Soyuz–19» gəmisinin komandiri kimi, EPAS proqramı üzrə elmi eksperimentdə iştirak etmişdir . – 57.

**51. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf

etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 59–60,69,293.

**52. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 62,116,142,260,305,308,311.

**53. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 62,99,189,305, 308.

**54. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İs-

paniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 63,80,81,83,90,94,102,110,113,114, 116,117,118,132,134,135,145,146,165,337.

**55. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi. 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 63.

**56. Kosovo problemi** – 1980-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə

etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 64.

**57. Əfqanıstan,** Əfqanıstan İslam Dövləti – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 64,280.

**58. İraq,** İraq Respublikası – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 64.

**59. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 65–73,74–87,89–103.

**60. AzərTAc,** Azərbaycan Dövlət Teleqraf Agentliyi – Azərbaycanda dövlət informasiya orqanı. 1919-cu ildə yaradılmışdır. 1921-ci ildən Azərbaycan Teleqraf Agentliyi (AzərTA), 1972-ci ildən Azərinform adlanırdı. 1992-ci ildən AzərTAc kimi fəaliyyət göstərir. AzərTac

müasir Azərbaycan həqiqətlərini, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, iqtisadiyyatın inkişafını, sosial-mədəni sahədə qazanılmış uğurları, respublikanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsini əks etdirən informasiya və fotoinformasiyaları yayır, dünyada cərəyan edən ən mühüm hadisələr barədə operativ məlumat verir. – 65.

**61. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanun-verici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 70,118.

**62. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 70,78, 81,91,92,114.

**63. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 74–87,89–103.

**64. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 74,107.

**65. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ-l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–04-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 74,107.

**66. Heyke Talvitiye** (d.1939)–2003–06-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 81,93.

**67. Teliasonera** – İsveç və Finlandiyada mobil rabitə sahəsində güclü mövqeyə malik qabaqcıl telekommunikasiya kompaniyalarından biri. Mənzil-qərargahı Stokholmdadır. Kompaniya 2002-ci ildə fin Sonerasının İsçev Telianın birləşməsi nəticəsində əmələ gəlmişdir. Telia Sonera filialları – Norveç, Danimarka, Balkan ölkələri, Türkiyə, Gürcüstan, Azərbaycan, Rusiya, Moldova və MDB-nin başqa ölkələri ilə birlikdə 80,1 milyon abunəçiyə xidmət edir. – 87.

**68. Anders İgel** (d.1951) – 2009-cu ildən Teliasonera kompaniyasının Direktorlar Şurasının üzvü və prezidentidir. –87.

**69. «Azercell» Telekom MMC** – 1996-cı ildə təsis edilmiş və Azərbaycanda ilk GSM operatoru kimi, öz kommersiya fəaliyyətinə başlamışdır. «Azercell» Azərbaycana bir sıra innovativ texnologiya və konsepsiyaları gətirmişdir. Azercell dünya telekommunikasiya sektorunda abonentlərin istifadəsinə öncədən ödəmə sistemini (Sim Sim) təklif edən şirkətlərdən biri oldu. Hal-hazırda «Azercellin» 4 000 000-dan çox abonenti var. Şirkətin rabitə bazarındakı payı 55% təşkil edir. – 87.

**70. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici

orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 88,115,146,280.

**71. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–09-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 88,280.

**72. Bakı– Tbilisi** – **Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 91,99,133,271,277,294.

**73. TRASEKA,** Transxəzər nəqliyyat dəhli-zi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 91,133,179.

**74. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 92,269,273.

**75. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 99,188,190,291,304,305,306,307,308.

**76. Ümumdünya iqtisadi forumu –** Davos iqtisadi forumu İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya iqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. – 102.

77. **Latviya,** Latviya Respublikası – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2530

min nəfərdir. İnzibati ərazisi 26 rayona (qəza) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 107–121,128–147.

**78. Vayra Vike–Freyberq** (Vike–Freyberqa) (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 107–121,128–147.

**79. Birinci dünya müharibəsi** (1914–18) – iki koalisiya dövlətləri arasında müharibə, Mərkəzi dövlətlər (Almaniya, Avstriya–Macarıstan, Türkiyə, Bolqarıstan) və Antanta (Rusiya, Fransa, Böyük Britaniya, Serbiya, Yaponiya, Rumıniya, İtaliya və ABŞ). Müharibənin başlanmasına səbəb Avstriya–Macarıstan şahzadəsi Frans Ferdinandın öldürülməsi oldu. 1918-ci ilə qədər hər iki tərəf bir-birinə ağır zərbələr vuraraq zəiflədi. 1918-ci ildə Sovet Rusiyası Almaniya ilə separat Brest sülh müqaviləsi imzaladı və müharibədən çıxdı. Antanta qoşunları 1918-ci ilin sentyabrında Bolqarıstanı, oktyabrında Türkiyəni, noyabrda Avstriya–Macarıstanı və nəhayət Almaniyanı tam məğlub etdilər. Paris sülh konfransında bir neçə müqavilə imzalandı. AlmAniya və onun müttəfiqləri xeyli ərazi itirdilər, böyük ödənc verməyə və öz silahlı qüvvələrini kəskin şəkildə azaltmağa məcbur oldular. – 111.

**80**. **Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 114,281,314,337.

**81. Avropa Komissiyası,** Avropa Şurası ölkələrinin Komissiyası – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın

üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 116.

**82. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 118.

**83. Böyük Britaniya,** Böyük Britaniya və Şimal-i İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 118,162,270,279,306.

**84.** **«Holokost»** (yəhudilərin İkinci dünya müharibəsində kütləvi surətdə soyqırımı) – xatirə muzeyi. 1963-cü ildə Vaşinqtonda yaradılmışdır. Muzeyin məqsədi İkinci dünya müharibəsi illərində və əvvəllər yəhudi xalqına qarşı soyqırımın tarixini sənədləşdirmək, öyrənmək və informasiya yaymaqdır. Muzeyin divarındakı saxsı lövhədə soyqırıma məruz qalmış milyon yarım yəhudi uşağının xatirəsi anılır. – 125.

**85. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 600 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, 150 nəfər itkin düşmüş, yüzlərlə şəhər sakini yaralanmışdır. Dünyanın bir sıra dövlətləri Xocalı soyqırımını tanımışdır. –125.

**86 . İndoneziya,** İndoneziya Respublikası – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min $km^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 127.

**87. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 127.

**88. Bali** – Kiçik Zond adaları arxipelaqının qərb hissəsində ada. Sahəsi 5,6 min $km^2$-dir, İndoneziyanın tarixi-memarlıq abidələri ilə zəngindir. – 127.

**89. Baltik Dəniz Dövlətləri Şurası** (BDDŞ) – 1992-ci ildə Kopenhagendə Baltik dənizi ölkələrinin Xarici İşlər nazirlərinin

konfransında yaradılmışdır. Buraya Almaniya, Danimarka, Latviya, Litva, Norves, Polşa, Rusiya, Finlandiya, İsveç, Estoniya, həmçinin Avropa Birliyinin Komissiyası daxildir. BDDŞ iki ildən bir Xarici İşlər nazirləri səviyyəsində sessiyada toplaşırlar. Bu Şuranın bütün orqanlarında qərarlar konsensus əsasında qəbul edilir. Hal-hazırda demokratik institutların köməkliyi ilə iqtisadi əməkdaşlıq, radiasiya və nüvə təhlükəsizliyi, gənclər siyasəti üzrə qruplar fəaliyyət göstərir. – 132.

**90. Qara yanvar**, 1990-cı ilin 20 yanvarı – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 134.

**91. Tofiq Zülfüqarov,** Tofiq Nadir oğlu (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. 1998–99-cu illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. 2006-cı ildən Latviya Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 135,144.

**92. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman

dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 140,147,205,278.

**93. İspaniya** – Cənub–Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatalı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 148,149.

**94. I Xuan Karlos** (d.1938) – İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. –148.

**95. Xose Luis Rodriges Spatero** (d.1960) – İspaniya siyasətçisi. 2004-cü ildən İspaniyada Baş nazirdir. –149.

**96. Vaqif Axundov,** V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-leytenant. 1993-cü ildən Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisidir. –150–159.

**97. Vladimir Putin** (d.1952) – 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 160,161,333.

**98. Kazan** – Tatarıstanın paytaxtı. Volqa çayının sol sahilində, Kazanka çayının mənsəbindədir. Şəhəri XIII əsrin 2-ci yarısında bulqarlar salmışlar. 1399-cu ildə Moskva knyazlığının qoşunları dağıtmış, 30–40 il sonra yenidən tikilmişdir. XV əsrdən Kazan xanlığının mərkəzi olmuşdur. 1552-ci ildə Rus dövlətinə birləşdirilmişdir. – 160,163.

**99. Toni Bleyr,** Entoni Çarlz Linton (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentin deputatı, 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 162.

**100. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 163-164.

**101. Hilmi Özkök** (d.1940) – ordu generalı. 2006–2008-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş qərargahının rəisi olmuşdur. – 165-166.

**102. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuş-

dur. 1994-cü ilin martından İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 165–166,287.

**103. Əhməd Necdət Sezər** (d.1941) – 2000–07-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 165,166,268–279,286.

**104. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 167.

**105. Kürdəmir** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 km$^2$ , əhalisi 95,1 min nəfərdir. – 168–180,194,202.

**106. Ömər Eldarov,** Ö m ə r H ə s ə n o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monimental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 168.

**107. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan

şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 175,191,221,222,315,316, 319,346.

**108. Sabirabad** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1598 km$^2$, əhalisi 140,6 min nəfərdir. – 181–222.

**109. Fatma Hüseynova,** F a t m a  R z a  q ı z ı (d.1939) – pambıqçı. Sosialist Əməyi Qəhrəmanı. Azərbaycan SSR Ali Sovetinin (9,11-ci çağırış), SSRİ Ali Sovetinin (10-cu çağırış) deputatı olmuşdur. – 193.

**110. Zəminə Aslanova,** Z ə m i n ə  S ə r d a r  q ı z ı (d.1940) – pambıqçı. SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan SSRİ Ali Sovetinin (7,8,9-cu çağırış) deputatı olmuşdur. – 193.

**111. Böyükkişi Ağayev,** B ö y ü k k i ş i  A ğ a  o ğ l u (d.1928) – cərrah, tibb elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Tədqiqatları qarın həzm sisteminə (qastroentenrologiya), onkologiyaya, ümumi cərrahiyyəyə həsr olunmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 193.

**112. Lütfiyar İmanov,** L ü t f i y a r  M ü s l ü m  o ğ l u (1928–2008) – Azərbaycan müğənnisi. Azərbaycan və SSRİ Xalq

artisti. 1959-cu ildən M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. L.İmanov gözəl, məlahətli və geniş diapazonlu səsə malikdir. Onun repertuarında Azərbaycan xalq mahnıları, romanslar mühüm yer tuturdu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 193.

**113. Hacıqabu**l – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə təşkil olunmuşdur. Ərazisi 1641,40 $km^2$, əhalisi 68000 min nəfərdir. – 194,205–208.

**114. Saatlı** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilib ərazisi Sabirabad rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1135 $km^2$, əhalisi 58,9 min nəfərdir. – 194,208–211,214.

**115. Azərbaycan Beynəlxalq Bankı (ABB)** – 1992-ci ildə Xarici İqtisadi Bankın əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. –198.

**116. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 200.

**117. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 202,329.

**118. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 $km^2$, əhalisi 83,1 min nəfərdir. – 205.

**119. Salyan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1632 $km^2$, əhalisi 95,1 min nəfərdir. – 205.

**120. Pirsaatçay xanəgahı** – orta əsrlərə aid Azərbaycan memarlıq kompleksi. Salyan rayonunun ərazisində, Pirsaat çayının sahilindədir. Əsas binaları XIII–XIV əsrlərdə tikilmişdir. Kompleksdən dövrümüzədək müdafiə divarları ilə əhatə olunan və dördbucaqlı həyət ətrafında qruplaşan Pir Hüseyn türbəsi, məscid, həmçinin minarə və s. tikililər salamat qalmışdır. Kubşəkilli əsas 8 üzlü formaya, oradan da silindrvarı gövdəyə keçməklə yaradılan minarə orijinal quruluşludur. Minarənin səthindəki kitabələrin birində onun tikilmə tarixi (1256) və ustanın adı (Mahmud ibn Maqsud) qalmışdır. Məscid ilə Pir Hüseyn türbəsi arasında kiçik bir keçid var. – 207.

**121. Yusif Hümbətov,** Y u s i f K ə r i m o ğ l u (d.1950) – politoloq, hüquqşünas. 1993-2006-cı illərdə Azərbaycan Respublikası prezidenti yanında İcra Aparatı ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri olmuşdur. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 208,220,258.

**122. Ayaz Mütəllibov,** A y a z N i y a z o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990–92-ci illərdə Azərbaycan KP MK-nın Birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlardur. – 208.

**123. Bərdə** – Azərbaycan Respublikasında rayon.1930-cu ildə təşkil edilmişdir. SAhəsi 957 km$^2$, əhalisi 132,9 min nəfərdir. – 214.

**124. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 214.

**125. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 217.

**126. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 km$^2$, əhalisi 148,4 min nəfərdir. – 217.

**127. Beynəlxalq Olimpiya Komitəsi** (BOK**)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 223–224.

**128. Vitali Smirnov** (d.1935) – 2001-ci ildən Pusiya Olimpiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti. – 223–224.

**129. Jak Roqq** (d.1942) – belçikalı orptoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. Hazırda Beynəlxalq Olimpiya Komitəsinin sədridir. – 224.

**130. Pakistan,** Pakistan İslam Respublika-sı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 225.

**131. Pərviz Müşərrəf** (d.1943) – 2001–07-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş Qərargah rəisi olmuşdur. –225.

**132. Mario Peskante** (d.1938) – İtaliya dövlət, siyasi və Beynəlxalq Olimpiya hərəkatı xadimi. Hazırda Avropa Olimpiya Komitəsinin sədridir. – 226.

**133. Gəncə** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 228–237,254,267.

**134. Siddiqə Məmmədova,** Siddiqə Rza qızı (d.1925 – ) – bioloq. Biologiya elmləri doktoru, professor, akademik. Uzun illər Bitki Mühafizəsi İnstitutunun direktoru olmuşdur. – 229.

**135. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 231,236,238,242,279,322,324,325.

**136. Natiq Əliyev,** N a t i q  A g a ə l i  o ğ l u (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 231,238,279.

**137. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 232.

**138. Orxan Vəli Kanık,** təxəllüsü M e h m e t  Ə l i  S e l (1914–1950) – türk şairi, ədəbi tənqidçi. Orxan Vəli Kanik türk şeirinə demokratik məzmun aşılamış Nazim Hikmətdən sonra türk poeziyasında sərbəst şeirin mövqeyini möhkəmləndirmişdir. – 233.

**139. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 km$^2$, əhalisi 113,3 min nəfərdir. – 238–266,267.

**140. Ziya Məmmədov,** Z i y a  A r z u m a n  o ğ l u (d.1952) – dəmiryolçu, mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 240.

**141. Agstafa** – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil olunmuşdur. 1959-cu ildə ləğv edilərək

ərazisi Qazax rayonu ilə birləşdirilmiş, 1990-cı ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1503,7 km$^2$, əhalisi 60 min nəfərdir. –253,256.

**142. Tovuz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək sahəsi Qazax rayonuna verilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1942 km$^2$, əhalisi 160000 nəfərdir. – 253,256.

**143. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1656,8 km$^2$, əhalisi 183,5 min nəfərdir. – 253,256.

**144. Gədəbəy** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1290 km$^2$, əhalisi 63 min nəfərdir. – 253,257.

**145. Elçin Quliyev,** Elçin İsağa oğlu (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 267.

**146. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–01-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 268–279.

**147. Səngəçal terminalı** – Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biri. Terminal dənizdəki yataqlardan hasil olunan nefti və qazı qəbul edir,

texnoloji emaldan keçirir, saxlayır və ixrac edir. Səngəçal terminalı 542 hektar ərazini əhatə edir və dünyanın ən böyük neft və qaz terminallarından biridir. Terminalın texniki emal sistemlərinin ümumi gücü gündə 1,2 milyon barel neft və «Şahdəniz» qazı üçün gündəlik 25,5 milyon kubmetr qaz təşkil edir. – 269.

**148. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 269, 272,278,279.

**149. Qardabani** (1947-ciilədək Qarayazı) – Gürcüstan Respublikasında inzibati rayon. – 269–279.

**150. Acarıstan** – Gürcüstan Respublikasında muxtar respublika. Ərazisi 2,9 min km$^2$, əhalisi 386,7 min nəfərdir. Paytaxtı Batumi şəhəridir. –271.

**151. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 274,325.

**152. Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 278.

**153. Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il maartın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı–Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 278.

**154. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 279,331.

**155.** ***bp,*** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 273.

**156. «*bp*–Azərbaycan»** – neft şirkəti. 1994-cü ildə yaradılmışdır. Hazırda ABƏŞ-in əsas operatorudur. – 279.

**157. Devid Vuqvord** (d.1946) – neftçi–mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Georgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 279.

**158. Konqres,** A m e r i k a  B i r l ə ş m i ş  Ş t a t l a r ı  K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 282–283.

**159. Nümayəndələr Palatası** – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr Palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. – 282–283.

**160. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i -k a s ı – Orta Asiyanın cənub–qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 284.

**161. Saparmurad Niyazov,** S a p a r m u r a d A t a o ğ -l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1991-cı ilə qədər Türkmənistan KP MK-nın Birinci katibi, 1991–2007-ci illərdə Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 284.

**162. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 285.

**163. Vatslav Klaus** (d.1941) – 2003-cü ildən Çexiya prezidenti. – 285.

**164. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 288.

**165. Laslo Şoyom** (d.1942) – macar hüquqşünası, Macarıstan Elmlər Akademiyasının müxbir üzvü. 2005–2010-cu illərdə Macarıstanın prezidenti olmuşdur. Hazırda hüquq müdafiəsi və ekologiya təşkilatlarının işi ilə məşğul olur. – 288.

**166. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. –289.

**167. Haynts Fişer** (d.1938) – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–cü ildən Avstriya Federal prezidenti. – 289.

**168. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 295.

**169. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 300–301.

**170. Vahid Ələkbərov**, V a h i d  Y u s i f  o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –300–301.

**171. Azərbaycan Dövlət Neft Akademiyası (ADNA)** – neftçıxarma, neft emalı və neft-kimya sənayesi üçün mühəndislər hazırlayan ali təhsil və elmi-tədqiqat müəssisəsi. 1920-ci ildə yaradılmışdır. Hazırda ADNA-da 8 fakültə (geoloji kəşfiyyat, qaz-neft-mədən, kimya texnologiya, neft mexanika, energetika, istehsalat proseslərinin avtomatlaşdırılması, mühəndis iqtisa-

diyyatı, Beynəlxalq iqtisadi əlaqələr və menecment, Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlama İnstitutu) var.

ADNA-da aspirantura və doktorantura fəaliyyət göstərir. Ötən illər ərzində akademiya 70000-dən çox mühəndis, 2000-dən çox elmlər namizədi və 250-dən çox elmlər doktoru hazırlamışdır. ADNA Avropa Universitetləri Assosiasiyasının və YUNESKO statuslu İNKORVUZ təşkilatının üzvüdür. – 300,301.

**172. Fransa Senatı** – Qanunverici hakimiyyət orqanı. – 302.

**173. Kristian Ponsöle** (d.1928) **–** fransız siyasətçisi. 1998–2008-ci illərdə Fransa Senatının prezidenti olmuşdur. – 302.

**174. «Nyu-York Times»** – ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu-Yorkda nəşr edilir. Tirajı 837,2 min (bazar günündə 1,4 milyon) nüsxədir. –305–328.

**175. «Los Angeles Times»** – Amerikada gündəlik səhər qəzeti. 1881-ci ildən Los-Anjelesdə nəşr edilir. – 305–328.

**176. Rəsul Quliyev,** R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 310,313, 324.

**177. İsa Qəmbər,** İ s a Y u n i s o ğ l u (d.1957) –1990–95-ci illərdə Milli Məclisin deputatı, 1992–93-cü illərdə parlamentin sədri olmuşdur. 1992-ci ildən Müsavat Partiyasının başqanıdır. – 312.

**178. Xəyyam Mirzəzadə,** X ə y y a m H a d ı o ğ l u (d.1935) – bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı. Müasir kompozisiya texnikasının milli musiqi ilə üzvi əlaqəsinə əsaslanan Mirzəzadə

yaradıcılığı dinamizmi ilə fərqlənir. X.Mirzəzadə Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 330.

**179. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 330.

**180. Kondoliza Rays** (d.1954) – Amerika dövlət və siyasi xadimi. 2004–2008-ci illərdə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi olmuşdur. – 332.

**181. Sergey Lebedev** (d.1948) – Rusiya dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidməti direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 333–334.

**182. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 338.

**183. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri olmuşdur. – 338.

**184. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 348.

## Şəxsi adlar göstəricisi


**Adamkus Valdas** – 88, 280
**Ağayev Böyükkişi** – 193
**Axundov Vaqif** – 150–159
**Aleksandr Nevski** – 16, 17
**Arayarvi Pentti** – 74,75,89,91,95–96
**Aslanova Zəminə** – 193
**Babayev Firudin** – 205–208
**Bağırov Həmid** – 256
**Bağırov Həzrətəli** – 182
**Bağırov Məmmədəli** – 182
**Bay Mogens** – 122–123
**Berdiyev İsmayıl** – 6–11
**Bədəlov Akim** – 251
**Bleyr Toni** – 162
**Bruk Meyer** – 124–126
**Borisov Borislav** – 31–36
**Bujinskas Gintautas** – 88
**Buş Corc** – 279, 331
**Cabbarlı Cəfər** – 348
**Camalov Mərdan** – 199–202
**Dudolenski Ventislav** – 26–27
**Eraqi Mühəmmədi** – 6–11
**Eldarov Ömər** – 168
**Əhmədinejad Mahmud** – 8, 10, 167
**Ələkbərov Vahid** –300–301
**Əliyev Heydər** – 5,7,9,10,11,17,28,57,90,95,96, 125,126,136-137,150,151,152, 153,154,155,156,157,168,169, 170,171,173,178,183,184,185, 186,192,193,196, 199, 205, 206,208,229–230,232,233, 235,240, 241,244,248,249,250,

259,260,261,263,264,273,290, 291,294, 303,333
**Əliyev Natiq** – 231, 238, 279
**Əliyeva Mehriban** – 16–52,95–96,128–130,136–137,168,181,192,206
**Ərdoğan Rəcəb Tayyib** – 165, 166, 287
**Əsgərov Cahangir** – 50, 228
**Frid Deniel** – 331–332
**Fişer Haynts** – 289
**Freyberqs İmants** – 107,131,133,136
**Hacinikolov Dimitr** – 47, 50
**Halonen Tarya** – 74–87, 89–103
**Həmidov Böyükağa** – 184
**Hümbətov Yusif** – 208, 220, 258
**Hüseynov Əlihüseyn** – 208
**Hüseynov Rauf** – 255
**Hüseynova Fatma** – 193
**Xamenei (*Ayətullah*)** – 10
**Xu Szintao** – 53
**I Xuan Karlos** – 148
**İxiilov Semyon** – 124–126
**İgel Anders** –87
**İmanov Lütfiyar** –193
**İsa Qəmbər** – 312
**İssa Darrell** – 282–283
**Jelev Jelyu** – 28
**Kaçinski Lex** – 338
**Kərinş Krişyanis** – 138
**Kempbell Menzies** – 162
**Kərimov Əl i** – 312
**Klaus Vatslav** – 285
**Kınıklıoğlu Suat** – 13
**Koffler Barbel** – 63
**Köler Horst** – 12
**Koidzumi Dzünitiro** – 56

**Konte Lansana** – 55
**Qarayev Əbülfəs** – 49–50,179
**Qarayev Qara** – 330
**Qırlend Nilhus** – 63
**Qoris Stef** – 336–337
**Qrandi Bruno** – 226–227
**Quliyev Elçin** – 267
**Quliyev Rəsul** – 310,313,324
**Lebedev Sergey** – 333–334
**Leonov Aleksey** – 57
**Mariya (*Rumıniya kraliçası*)** – 45 46
**Məlikov Fəxrəddin** – 202–205, 216
**Məlikov Nazim** – 182
**Məmməd Alim** – 232–233
**Məmmədov Əşrəf** – 192, 196–199
**Məmmədov Ziya** – 240
**Məmmədova Siddiqə** – 229
**Məmmədyarov Elmar** – 74,107
**Mirzəzadə Xəyyam** – 330
**Musayev Cümşüd** – 256
**Müşərrəf Pərviz** – 225
**Mütəllibov Ayaz** – 38
**Niyazov Saparmurad** – 284
**Nizami** – 232
**Obasanco Olisequn** – 54,335
**Orxan Vəli** – 233
**Özkök Hilmi** – 165–166
**Paşazadə Hacı Allahşükür** – 6–11
**Pekkarinen** – 103
**Peskante Mario** – 226
**Pirinski Georgi** – 29–30
**Pirvanov Georgi** – 16–45,49
**Pirvanova Zorka** – 37–43,42–44
**Pşixaçov Şafiq** – 6–11
**Putin Vladimir** – 160,161,333

**Poncöle Kristian** – 302
**Rasizadə Artur** – 74,107
**Rays Kondoliza** – 332
**Roqq Jak** – 224
**Ruşaylo Vladimir** – 163–164
**Rzazadə Kamran** – 257
**Saakaşvili Mixeil** – 268–279
**Sançes Lorenso** – 282–283
**Sezər Əhməd Necdət** – 165,166,268–279,286
**Səfəri Mehdi** – 167
**Smirnov Vitali** – 223–224
**Sapatero Xose** – 149
**Stanişev Sergey** – 29
**Süleymanov Xanqulu** – 240–241
**Şlesers** – 144
**Şeremetyev Pyotr** – 304–305
**Şərifov Şərif** – 229
**Şoyom Laslo** – 288
**Talvitye Heyki** – 81, 93
**Təsxiri (*ayətullah*)** – 8
**Ümudov Firdovsi** – 250
**Van Leşli** – 304
**Veysov Nazim** – 256
**Vike-Freyberq Vayra** – 107–121,128–147
**Vordanov Kirill** – 45–46
**Vudvord Devid** – 279
**Yudhoyono Susilo** – 127
**Yusupov İqor** – 160–161
**Zelmanoviç Gennadi** – 124–126
**Zülfüqarov Tofiq** – 135,144

## Coğrafi adlar göstəricisi

**Abşeron** (*yarımadası*) – 92, 213
**Acarıstan** – 271
**Ağarəhimli** – 210
**Ağcabədi** – 204
**Ağdam** – 214
**Ağstafa** – 253, 256
**Ağstafaçay** – 238
**Axaltsixe** – 271
**Axtaçı Muğan** – 197, 198
**Almaniya** – 12,63,118,146
**Amerika *(qitə)*** – 83
**Amerika Birləşmiş Ştatları** – 13,70,71,118,122–123,270, 277,279,282–283,305–328, 331–332
**Ankara** – 13
**Aralıq dənizi** – 92, 140, 269, 277, 278
**Asiya** – 84,96,100,140,276,277,278, 337
**Avrasiya** – 331
**Avropa** – 8,13,21,31,36,38,62,70,80,84, 90,93, 96, 100, 110, 113, 117, 119, 120, 121,125,126,132, 133, 140,141,145,146,166, 182, 226, 227, 245,250,252, 276, 277,302,315,316,331, 336, 337,340
**Avstriya** – 289
**Bakı** – 5,6,7,8,12,13,14,15,26–27, 49,52,53,54,55,56,60,61,77,92, 96,101,104,110,120,125,129, 135,140,141,144,148,149,161, 163,174,197, 205, 213,217,

219,220,223,227,244,255,264, 272,273,284,285,286,287,288, 289,291,302,308,311,312,313, 318, 329,330,334,335,338

**Balçik** – 45
**Bali *(adaları)*** – 127
**Balkan (*yarımada)*** – 22
**Baltik dənizi** – 132,144
**Batumi** – 271
**Bayramlı** – 200
**Bərdə** – 214
**Biləsuvar** – 214
**Bolqarıstan** – 16–52
**Böyük Britaniya** – 118, 162, 270, 279, 306
**Ceyhan** – 269, 272, 278, 279
**Cənub–Şərqi Avropa** – 32
**Cənubi Qafqaz** – 7,61,69,81,82,84,85,93,113, 116,119,274,276,278
**Çexiya** – 285
**Çığırğan** – 197
**Çin** – 50, 53, 147
**Dağlıq Qarabağ** – 8,9,18,19,20,24,40,58,70,78, 81,91,92,93,109,110,114,118, 119,120,133,200,293,296
**Estoniya** – 115, 146
**Əfqanıstan** – 64, 280
**Əhmədbəyli** – 210
**Əli Bayramlı** – 199, 205
**Finlandiya** – 65–73,74–87,89–103
**Fransa** – 70, 118
**Gədəbəy** – 253, 257
**Gəncə** – 228–237,254,267
**Gəncəçay** – 231,233
**Gürcüstan** – 11,12,67,70,72,93,100,239, 241,249,254,268–279,282,

291,311
**Hacı Qəhrəmanlı** – 200
**Hacıqabul** – 194, 205–208
**Helsinki** – 92, 93
**Hollandiya** – 118
**Xaçmaz** – 217
**Xəzər dənizi** – 25, 40,92,132,144,167,277, 278, 304
**İndoneziya** – 127
**İordaniya** – 7
**İraq** – 64
**İran** – 8, 9, 10, 11, 167, 322
**İsmayıllı** – 303
**İspaniya** – 148, 149
**İsrail** – 125
**İstanbu** – 278
**İsveç** – 146
**İvanovka** – 303
**Kazan** – 160, 163
**Kiyev** – 313
**Koreya** – 147
**Kosovo** – 64
**Kürdəmir** – 168–180, 194, 202
**Qara dəniz** – 13, 40, 45, 46, 132, 278
**Qara Nuru** – 210
**Qarabağ** – 8, 9,18,19,20,24,40,58,70, 78,81,91,92,93,109,110, 114,118,119,120,133,200, 293,296
**Qafqaz** – 6,7,8,9,13,61,114,146
**Qardabani** – 269–279
**Qazax** – 238–266, 267
**Qazaxıstan** – 277, 278, 309, 325
**Qərbi Avropa** – 336
**Qırğızıstan** – 310

**Qubalı** – 206
**Qvineya** – 55
**Latviya** – 107–121,128–147
**Litva** – 88,115,146,280
**Lənkəran** – 217
**Macarıstan** – 182,288
**Mərkəzi Asiya** – 36,100
**Mingəçevir** – 258
**Mollavazlı** – 210
**Moskva** – 8
**Naxçıvan MR** – 167
**Navahı** – 206
**Nigeriya FR** – 54,335
**Novorossiysk** – 278
**Orta Asiya** – 278
**Orta Şərq** – 278
**Pakistan** – 225
**Polşa** – 338
**Paris** – 302
**Riqa** – 139,144
**Rusiya** – 8,11,70,72,160–161,212,278, 302–303,309,322,325,333–334
**Rumıniya** – 45, 46, 81
**Saatlı** – 194,208–211,214
**Sabirabad** – 181–222
**Salyan** – 205
**Sankt–Peterburq** – 92
**Simferopol** – 313
**Skandinaviya (*yarımada*)** – 87,119
**Sofiya** – 16–44,50
**Sumqayıt** – 212
**Supsa** – 278
**Şamaxı** – 205
**Şəmkir** – 253,256
**Şimali Qafqaz** – 7, 9

**Tbilisi** – 271
**Tehran** – 9
**Tovuz** – 253, 256
**Türkiyə** – 11,36,58,100,165–166,268–279,286,287
**Türkmənistan** – 284
**Ukrayna** – 12, 67, 81, 310, 311, 313
**Urumçi** – 50
**Varna** – 45–52
**Varşava** – 92
**Vatikan** – 8
**Yaponiya** – 56, 147, 197

# MÜNDƏRİCAT

«İSLAM ÜMMƏTİNİN HƏMRƏYLİYİ» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*20 sentyabr 2005-ci il* ........................................................................................ *5*

«İSLAM ÜMMƏTİNİN HƏMRƏYLİYİ» MÖVZUSUNDA BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*21 sentyabr 2005-ci il* ........................................................................................ *6*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

*21 sentyabr 2005-ci il* ........................................................................................ *12*

ABŞ-ın ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2005-ci il* ........................................................................................ *13*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNƏ ÜZV OLAN ÖLKƏLƏRİN V BEYNƏLXALQ İDMAN OYUNLARININ İŞTİRAKÇILARINA

*23 sentyabr 2005-ci il* ........................................................................................ *14*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *16*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *19*

AZƏRBAYCAN–BOLQARISTAN SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *21*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN BİRGƏ MƏTBUAT KONFRANSI

*23 sentyabr 2005-ci il* ........................................................................................ *22*

SOFİYADA BAKI KÜÇƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *26*

BOLQARISTANIN KEÇMİŞ PREZİDENTİ JELYU JELEVLƏ GÖRÜŞ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *28*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA RƏSMİ SƏFƏRİ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *29*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BOLQARISTAN MİLLİ VƏ DÜNYA TƏSƏRRÜFATI UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMƏSİ MƏRASİMİ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *31*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMININ ŞƏRƏFİNƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PİRVANOVUN VƏ XANIMININ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*23 sentyabr 2005-ci il* ........................................................................................ *37*

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVA SOFİYANIN TARİXİ ABİDƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*23 sentyabr 2005-ci il* ........................................................................................ *42*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA RƏSMİ SƏFƏRİ

*24 sentyabr 2005-ci il* ........................................................................................ *45*

BOLQARISTAN TURİZMİNİN TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ

*24 sentyabr 2005-ci il* ........................................................................................ *47*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XU SZİNTAOYA

*25 sentyabr 2005-ci il* ........................................................................................ *53*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

*25 sentyabr 2005-ci il* ........................................................................................ *54*

QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LANSANA KONTEYƏ

*25 sentyabr 2005-ci il* ........................................................................................ *55*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

*26 sentyabr 2005-ci il* ........................................................................................ *56*

İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, KOSMONAVT
ALEKSEY LEONOV İLƏ GÖRÜŞ

*26 sentyabr 2005-ci il* ........................................................................................ *57*

TÜRKİYƏNİN TRT TELEKANALINA MÜSAHİBƏ

*26 sentyabr 2005-ci il* ........................................................................................ *58*

«KEÇİD İQTİSADİYYATLI ÖLKƏLƏRDƏ BMT-nin MİNİLLİYİN
İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİL OLUNMASINDA RƏQABƏT SİYASƏTİNİN
ROLU» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN
İŞTİRAKÇILARINA

*27 sentyabr 2005-ci il* ........................................................................................ *59*

BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN
İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*27 sentyabr 2005-ci il* ........................................................................................ *61*

FİNLANDİYANIN «YULESRADİO» DÖVLƏT TELERADİO
ŞİRKƏTİNİN MÜXBİRLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*27 sentyabr 2005-ci il* ........................................................................................ *65*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM TARYA HALONENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*29 sentyabr 2005-ci il* ........................................................................................ *74*

AZƏRBAYCAN VƏ FİNLANDİYA PREZİDENTİNİN GENİŞ
TƏRKİBDƏ GÖRÜŞÜ VƏ SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

*29 sentyabr 2005-ci il* ........................................................................................ *77*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN
BİRGƏ MƏTBUAT KONFRANSI

*29 sentyabr 2005-ci il* ........................................................................................ *79*

FİNLANDİYANIN TELİASONERA ŞİRKƏTİNİN PREZİDENTİ
ANDERS İGEL İLƏ GÖRÜŞ

*29 sentyabr 2005-ci il* ........................................................................................ *87*

LİTVANIN ƏDLİYYƏ NAZİRİ GİNTAUTAS BUJİNSKAS
İLƏ GÖRÜŞ

*29 sentyabr 2005-ci il* ........................................................................................ *88*

FİNLANDİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*29 sentyabr 2005-ci il* ........................................................................................ *89*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM TARYA HALONEN HEYDƏR ƏLİYEV FONDUNDA

*30 sentyabr 2005-ci il* ........................................................................................ *95*

AZƏRBAYCAN –FİNLANDİYA BİZNES FORUMU

*30 sentyabr 2005-ci il* ........................................................................................ *97*

VII ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ–QƏRB»
BAKI KİNOFESTİVALINA

*1 oktyabr 2005-ci il*........................................................................................... *104*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*1 oktyabr 2005-ci il* ........................................................................................ *105*

BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-ci DÜNYA ÇEMPİONATININ
İŞTİRAKÇILARINA

*2 oktyabr 2005-ci il* ........................................................................................ *106*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2005-ci il* ........................................................................................ *107*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ
VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK
GÖRÜŞÜ

*3 oktyabr 2005-ci il............................................................................................ 109*

AZƏRBAYCAN–LATVİYA SƏNƏDLƏRİ İMZALANDIQDAN SONRA PREZİDENTLƏR İLHAM ƏLİYEVİN VƏ XANIM VAYRA VİKE-FREYBERQANIN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLA ÇIXIŞLARI

*3 oktyabr 2005-ci il............................................................................................ 112*

ABŞ-ın VALMONT İNDUSTRİES ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU MOGENS BAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2005-ci il ........................................................................................... 122*

AZƏRBAYCANIN YƏHUDİ İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2005-ci il............................................................................................ 124*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*3 oktyabr 2005-ci il ......................................................................................... 127*

BƏDİİ GİMNASTİKA ÜZRƏ 27-Cİ DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ

*3 oktyabr 2005-ci il............................................................................................ 128*

LATVİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*3 oktyabr 2005-ci il............................................................................................ 131*

LATVİYA PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA HEYDƏR ƏLİYEV FONDUNDA

*4 oktyabr 2005-ci il............................................................................................ 136*

AZƏRBAYCAN–LATVİYA BİZNES FORUMU

*4 oktyabr 2005-ci il............................................................................................ 138*

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*4 oktyabr 2005-ci il ........................................................................................... 148*

İSPANİYA KRALLIĞI NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE LUİS RODRİGES SPATEROYA

*4 oktyabr 2005-ci il.......................................................................................... 149*

XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN ŞƏXSİ HEYƏTİ
İLƏ GÖRÜŞ

*5 oktyabr 2005-ci il.......................................................................................... 150*

RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ ENERGETİKA
MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ
İQOR YUSUPOV İLƏ GÖRÜŞ

*5 oktyabr 2005-ci il.......................................................................................... 160*

BÖYÜK BRİTANİYANIN LİBERAL DEMOKRAT PARTİYASI
SƏDRİNİN MÜAVİNİ, KÖLGƏ KABİNETİNDƏ XARİCİ İŞLƏR
NAZİRİ SER MENZİES KEMPBELLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2005-ci il.......................................................................................... 162*

MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ–İCRAÇI KATİBİ
VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*5 oktyabr 2005-ci il.......................................................................................... 163*

TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN
BAŞ QƏRARGAH RƏİSİ, ORDU GENERALI HİLMİ ÖZKÖK
İLƏ GÖRÜŞ

*6 oktyabr 2005-ci il.......................................................................................... 165*

İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2005-ci il.......................................................................................... 167*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜRDƏMİR RAYONUNDA

*6 oktyabr 2005-ci il.......................................................................................... 168*

KÜRDƏMİR ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA RAYON
SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*6 oktyabr 2005-ci il ......................................................................................... 171*

KÜRDƏMİR OLİMPİYA İDMAN KOMPLEKSİNİN TƏMƏLİNİN QOYULMASI
MƏRASİMİ

*6 oktyabr 2005-ci il* ........................................................................................ *179*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SABİRABAD RAYONUNDA

*6 oktyabr 2005-ci il* ........................................................................................ *181*

SABİRABAD RAYONU SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*6 oktyabr 2005-ci il* ........................................................................................ *185*

SABİRABAD ŞƏHƏRİNDƏ ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*6 oktyabr 2005-ci il* ........................................................................................ *194*

YEKUN NİTQİ ........................................................................................ *211*

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ
VİTALİ SMİRNOV İLƏ GÖRÜŞ

*7 oktyabr 2005-ci il* ........................................................................................ *223*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*9 oktyabr 2005-ci il* ........................................................................................ *225*

BEYNƏLXALQ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ BRUNO
QRANDİ İLƏ GÖRÜŞ

*10 oktyabr 2005-ci il* ........................................................................................ *226*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GƏNCƏ
ŞƏHƏRİNƏ SƏFƏRİ

*11 oktyabr 2005-ci il*........................................................................................ *228*

GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞDƏ NİTQ

*11 oktyabr 2005-ci il* ........................................................................................ *232*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAX
RAYONUNA SƏFƏRİ

*11 oktyabr 2005-ci il* ........................................................................................ *238*

QAZAX RAYONU SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*11 oktyabr 2005-ci il* ........................................................................................ *240*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
QAZAX ŞƏHƏRİNDƏ

*11 oktyabr 2005-ci il* ........................................................................................ *248*

QAZAX RAYONUNDA ZONA MÜŞAVİRƏSİNDƏ NİTQ

*11 oktyabr 2005-ci il*.......................................................................................... *253*

YEKUN NİTQİ ........................................................................................................ *257*

RESPUBLİKAMIZIN ŞİMAL–QƏRB SƏRHƏDLƏRİNİN
MÜHAFİZƏSİ İLƏ TANIŞLIQ

*12 oktyabr 2005-ci il*.......................................................................................... *267*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ
PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

*12 oktyabr 2005-ci il*.......................................................................................... *268*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN
PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

*12 oktyabr 2005-ci il*.......................................................................................... *268*

HEYDƏR ƏLİYEV ADINA BAKI–TBİLİSİ–CEYHAN ƏSAS İXRAC
BORU KƏMƏRİNİN GÜRCÜSTAN HİSSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ
HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*12 oktyabr 2005-ci il*.......................................................................................... *269*

LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

*13 oktyabr 2005-ci il* ........................................................................................ *280*

AŞPA-nın NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2005-ci il*.......................................................................................... *281*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN
NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ DARREL İSSA VƏ LORENSO
SANÇES İLƏ GÖRÜŞ

*13 oktyabr 2005-ci il*.......................................................................................... *282*

TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SAPARMURAD NİYAZOVA

*14 oktyabr 2005-ci il......................................................................................... 284*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV KLAUSA

*14 oktyabr 2005-ci il......................................................................................... 285*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

*14 oktyabr 2005-ci il......................................................................................... 286*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*14 oktyabr 2005-ci il......................................................................................... 287*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB LASLO ŞOYOMA

*14 oktyabr 2005-ci il......................................................................................... 288*

AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB HAYNTS FİŞERƏ

*14 oktyabr 2005-ci il ......................................................................................... 289*

AZƏRBAYCAN GƏNCLƏRİNİN IV FORUMUNUN YEKUN TOPLANTISINDA NİTQ

*14 oktyabr 2005-ci il..........................................................................................290*

«LUKoyl» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 oktyabr 2005-ci il..........................................................................................300*

RUS SOYDAŞLAR BEYNƏLXALQ ŞURASI İDARƏ HEYƏTİNİN SƏDRİ, «YÜZİLLİYİN MESENATI» BEYNƏLXALQ XEYRİYYƏ FONDU RƏYASƏT HEYƏTİNİN ÜZVÜ QRAF PYOTR ŞEREMETYEV İLƏ GÖRÜŞ

*14 oktyabr 2005-ci il..........................................................................................302*

XƏZƏRİN İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ SƏDRİ YAN LEŞLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2005-ci il..........................................................................................304*

ABŞ-ın «NEW YORK TİMES», «LOS ANGELES TİMES» QƏZETLƏRİNİN, «BLOOMBERG» İNFORMASİYA AGENTLİYİNİN VƏ «DOW JONES/CNBC» TELEKANALININ MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

*18 oktyabr 2005-ci il..........................................................................................305*

AZƏRBAYCAN ENERGETİKLƏRİNƏ

*19 oktyabr 2005-ci il..........................................................................................329*

XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ

*19 oktyabr 2005-ci il..........................................................................................330*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DENİEL FRİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2005-ci il..........................................................................................331*

RUSİYANIN XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*20 oktyabr 2005-ci il..........................................................................................333*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLİSEQUN OBASANCOYA

*24 oktyabr 2005-ci il..........................................................................................335*

QƏRBİ AVROPA İTTİFAQI ASSAMBLEYASININ – AVROPA TƏHLÜKƏSİZLİYİ VƏ MÜDAFİƏ ÜZRƏ PARLAMENTLƏRARASI ASSAMBLEYANIN SƏDRİ STEF QORİS İLƏ GÖRÜŞ

*24 oktyabr 2005-ci il..........................................................................................336*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*25 oktyabr 2005-ci il..........................................................................................338*

AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİNƏ DAİR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*25 oktyabr 2005-ci il.. .......................................................................................339*

*Q E Y D L Ə R ..................................................................................................349*

*Şəxsi adlar göstəricisi.......................................................................................389*

*Coğrafi adlar göstəricisi...................................................................................393*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* ***Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,0.
Uçot vərəqi 25,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı–Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.